Şirin Xanım Kərimbəyli Şadiman

Seçmələr

(Şeirlər, poemalar, dramlar)

QANUN NƏŞRİYYATI
BAKI-2015

Kitaba maddi və mənəvi dəstək göstərdiyinə görə həyat Yoldaşıma Abdullov Əli Əli oğluna minnətdaram.

Redaktor: **Abdullov Əli Əli oğlu**

Tərtib edən: **Abdullov Əli Əli oğlu**

Qeyd: Ünvansız şeirlər Neft Daşlarında yazılıb

Şirin xanım Kərimbəyli Şadiman
Seçmələr (Şeirlər, poemalar, dramlar) IV cild
«QANUN» nəşriyyatı, Bakı - 2015, 360 səh.

Kitab müəllifin çapdan çıxmış kitablarının əsasında tərtib olunub. Şeirlərin ruhu dünyəvi, milli, vətənpərvərlik, təbiət, məhəbbət mövzuları ilə cilalanıb. Dünyanın ağrı-acılarını öz ürəyində daşıyan müəllifə yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

www.shirinxanim-shadiman.net

4722110018
121 - 2015 qrifli nəşr

© "QANUN", 2015

MÜƏLLİF HAQQINDA

Şirinxanım Ağabala qızı Kərimbəyli (ədəbi təxəllüsü ŞADİMAN) 2 sentyabr 1955-ci ildə Siyazən (keçmiş Dəvəçi, indiki Şabran) bölgəsinin Tağay kəndində anadan olub. Doğulduğu kənddə səkkizillik məktəbi, sonra Siyəzən şəhər 2 saylı orta məktəbi bitirib. 1973-75-ci illərdə Yenikənd üzümçülük sovxozunda fəhlə,1975-76-ci illərdə Volodarski adına tikiş fabrikında tikişçi işləyib.1977-ci il-də ADU-nun (indiki BDU) hazırlıq şöbəsində dinləyiçi, 1978-83-cu illərdə Kitabxanaçılıq (indiki informatika fakul- təsinin) əyani şöbəsini bitirib. 1992-ci ildə Azərbaycan jurnalist Sənətkarlığı İnstitutun məzunu olub. 1984-cu ildə Dəvəçi rayonun (indiki Şabran), hal-hazırda Siyəzən rayonun inzibatı ərazisi sayılan Gilgilçay qəsəbəsində kitabxana müdiri vəzifəsində çalışıb. 1985-2007-ci illərdə ADNŞ-nın Mədən-geofizik idarəsinin «Neft Daşları» geofizik ekspedisiyasında cizgiçi, texnik, mühəndis peşələrində çalışıb. 2007-ci ildən həmin idarədən əmək təqaüdünə çıxıb. Əmək fəaliyyəti ilə bərabər bədii yaradıcılığını davam etdirib. Dövrü mətbuatın mətbu orqanları olan «Neft Daşları», «Ədalət», «Çənlibel», «Azərbaycan müəllimi», «Bütöv Azərbaycan», «Kredo», «Mütərcim», «Məhsəti» və sair qəzet-jurnallarda çapolunub. «Məcməüs-şüəra» (Şairlər məclisi), «Füzuli» ədəbi məclislərin üzvü olub. AYB-nın və CASCFEN(Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi)nin üzvüdür. Hal-hazırda ədəbi fəaliyyətlə məşğuldur. «Modern.az», «Yalquzaq. com», «Davam.az» «Lit.parad», «Dayaq.az» və sair internet portallarla yaradıcılıq əlaqələri saxlayır. «Azpressin» və «Kredo» qəzetinin əməkdaşıdır. Şəxsi saytı aktiv faliyyətdədir.

NİYƏ ŞAİRLƏRİ YARATDIN, ALLAH?

Dünya ağrısıyla yoğurub məni,
Ruhumu göylərdən qopartdın, Allah.
Ana bətinindən doğurub təni,
Niyə şairləri yaratdın, Allah?

Zamanın acısı sinəyə yağı,
Süzülür ürəkdən dodağa ağı,
Həyat da, dövran da, gün də bayağı,
Niyə şairləri yaratdın, Allah?

Biz Tanrı deyilik boğaq dərdləri,
Yıxaq sərhədləri, qıraq sədləri,
Namərdlər cəngindən alaq mərdləri,
Niyə şairləri yaratdın, Allah?

Ağlayan gözlərdə yaş inilləyir,
Hər şeyi düşünən baş inilləyir,
Torpaq əsir düşür, daş inilləyir,
Niyə şairləri yaratdın, Allah?

Qandallı dillərin sorğusumu var?
Yalan kəlmələrin doğrusumu var?
Fitnənin, fəsadın oğrusumu var?
Niyə şairləri yaratdın, Allah?

Dərdlərdən sinəyə tonqal qalanır,
Haqq şişə çəkilir, manqal qalanır,
Yollara, izlərə qanqal qalanır,
Niyə şairləri yaratdın, Allah?

Milli çəkişmələr, dini bölümlər,
Şahların taxtında sultan zülümlər,
Danışsaq, boğazdan tutar ölümlər,
Niyə şairləri yaratdın, Allah?

Canımıza yağı hər düz sözümüz,
Zindan sinəmizə dustaq özümüz,
Bir yol ölənədək gülmür üzümüz…
Niyə şairləri yaratdın, Allah?

Madam ki, kəlməmiz boğazda qalır,
Hər dilin üsyanı ağızda qalır,
Hər yazılan misra kağızda qalır…
Niyə şairləri yaratdın, Allah?

03.08.1996

QADIN DUASI

İlahi, dünyada bəndələr naşı,
Axır anaların gözünün yaşı,
Tökülür hər yana güllə yağışı,
Bəşərin cahana budur baxışı.
Bir parça torpağı qucan bir bədən,
Qan tökmək, ev yıxmaq yolunda nədən?
Can alan adilin hökmu bir yana,
Yerdə qəsd edirlər bəndələr cana.
Bəşəri böyüdən biçarə qadın,
Batırır içində ahın, fəryadın.
Yeri ram eləyib kişinin başı,
Savaş, müharibə könül sirdaşı.
Onlar ata, qardaş, ərdilər bizə,
Fəqət qan tökürlər bu evimizə.
Axır körpə qanı yerin bağrına,
Çevrilir, İlahi, acı, ağrına.
Al sən beyinlərdən fitnəni, fe'li,
Qan-qırğın görməsin dünyanın eli.
Çıxart idraklardan iblis diləyi,
Qoy bir yol dincəlsin yerin ürəyi.
Ana gözlərindən axmasın yaşlar,
Sülhlə zövqülənsin düşünən başlar.
Hamının ümidi sənsən, Yaradan,
Həyatdan kam alsın insanlıq adan.
Dünyada ananın qöy üzü gülsün,

Bəşərin gecəsi, gündüzü gülsün.
Hamı can söyləsin biri-birinə,
Son qoy bu dünyanın dərdi-sərinə.
Körpə diksinməsin güllə səsindən,
Qurtar bu dünyanı od qəfəsindən.
Nadanın idrakın işığlat bir az,
Sən özün yaratdın qışdan sonra yaz.
Bütün yer üzündə anadır qadın,
Eşit, ey Yaradan, onun fəryadın.
Ərzi ram eyləyən kişi ağılı,
Yerə oxumasın savaş nağılı.
Raketdən, nüvədən yaranan silah,
Ana sinəsində qoparmasın ah!
Əbədi gəlmədik biz ki, dünyaya,
Fəqət günahımız gəlməyir saya.
Çıxart zülmətlərdən işığa bizi,
Bükülsün iblisin qəlblərdə dizi.
Gözdə gurşad olsun sevinc yaşları,
İlahi, ağıla gətir başları.
Körpə ağlamasın güllə səsindən,
Xoş qığıltı qopsun qoy nəfəsindən.
Sevinci çağlasın ulu bəşərin,
Qapısı bağlansın iblisin, şərin.
Aşsın üfüqləri qoy mədəniyyət,
Hər qəlbdən dikəlsin ilahi niyyət.
Heç millət özünü sanmasın uca,
Yalnız Allah layiq şərəfə, taca.
Hamımız dünyada adilin qulu,
Onun mərtəbəsi müqəddəs, ulu.
Bunu dərk eyləyib duysaydı insan,
Cahanda yaşamaq olardı asan.

16.07.2001

XUDAYA, ALIŞIB YANDI ÜRƏYİM

Xudaya, alışıb yandı ürəyim,
Bir kimsə dadıma yetmədi, neylim?
Qaldı aralıqda min bir diləyim,
Cəfakeş həyatım bitmədi, neylim?

Dünya ağırlıqda həsrət sinəmdə,
Quruyur ağrıdan gözümdə nəm də,
Zaman zildə gedir, arzular bəmdə,
Bu hicran qapımdan getmədi, neylim?

Xudaya, sən özün yaratdın məni,
Özün də üstümə tökmüsən qəmi,
Gecəli-gündüzlü çağırdım səni,
Fəryadım bir əsər etmədi, neylim?

Ömür bağçasında çiçəklər əkdim,
Min bir zəhmət ilə cəfasın çəkdim,
Onu suvarmaqçın ağlar fələkdim,
Üstün xəzan aldı bitmədi, neylim?

Xudaya, Şadiman dərddən boğuldu,
İçində neçə min sitəm doğuldu,
Mənim də xəmirim belə yoğruldu,
Acılar gözümdən itmədi, neylim?

21.10.1991

ƏBƏDİ DEYİLSƏN

Əbədi deyilsən dünyada, bəşər,
Bədənin torpağın altda yerləşər,
Bəs sən nə görmüsən qanda, savaşda?
İblis əsir edib əqlini başda,
Hey rəvac verirsən siyasətlərə,
Hey rövnəq verirsən bəd niyyətlərə.
Yerdə artırdıqca bu savaşları,
Çoxaltdın gözlərdə qanlı yaşları.
Öldü davalarda min-min körpələr,
Yarandı cismindən şəhid təpələr.
Bu acı sitəmdən daşlar ağladı,
Göydə qanad açan quşlar ağladı.
Toplar gurladıqca, öldü heyvanat,
Əlinlə ölümə gedir bu həyat.
Yanır meşə, cığır, otlar sitəmdən,
Fələk də göz yaşı tökür matəmdən.
Nə vaxt sülh olacaq bu Yer üzündə?
Allahın şəfəqi yoxmu gözündə?
Elə qan, qan deyib cövlan edirsən,
İçində şeytanla dövran edirsən.
Əbədi deyilsən dünyada, bəşər,
Bəs niyə əqlini alıb ələ şər?
Tutaq ki, yaşadın cahanda yüz il,
Sonda torpaq altda qalacaqsan bil.
Gətir son saatı, son anı gözə,
Fəlakət bəxş etmə gecə-gündüzə.
Qanlar içindədir ana təbiət,
Bu gülə, çiçəyə, eşqə xəyanət!
Məzara gömüldür məhəbbətini,
İblisə bağlayır səadətini.
Siyasət qurbanı olandan bəri,
Şeytanı eylədin könlünün əri.
Hiylələr içində çırpınan bəşər,
Nə vaxt Tanrı nuru qəlbinə düşər?!
Satmısan ruhunu sərvətə, vara,
Odur ki, bədənin, canın avara.

Öldürüb, qırırsan həmcinisini,
Törətdin cahanda sən haqq həbsini
Allah hüzurunda nədir dəyərin?
Onsuz da axırda məzardır yerin.
Nədir yaratdığın bu top, tüfənglər?
Min illər etdiyin savaşlar, cənglər?
Qəbirlər içində yatanlar bizik,
Tanrı barmağında bəşər bir üzük.
İstədiyi zaman çıxarıb atar,
Bədənin darıtək torpağa çatar.
Bizimlə basdırar savaşımızı,
Boğar torpaq altda göz yaşımızı!
Min illər, «kim güclü?», davası gedir,
Millətlər, tayfalar bir-birin didir.
Allahın gözündə biz ki, zərrəyik,
Dəryalar üstündə gəzən bərəyik.
Adi bir tufanla məhv edər bizi,
Batırar sulara bu kürrəmizi.
Ey bəşər, tökdüyün o qanlar, yetər,
Demə ki, etdiyin günahlar ötər.
Allah hüzurunda imtahanın var,
Hansı səvabların günahı yuvar?
Qanlara batırma ibadətini,
İblisə tapşırma səadətini...
Qıyma körpələrin axan qanına,
Yükləmə günahı böylə canına.
Lənətin qadası səndən böyükdür,
Varlığın, Tanrının əlində tükdür.
İstədiyi zaman qırıb atacaq,
Cəsədin torpaqlar altda yatacaq!
Dünən qurduğunu bu gün yıxırsan,
Öz axırına ki, özün çıxırsan.
İçdə mürgüləyən vicdanı səslə,
Allaha həqiqi sevgilər bəslə.
Özünü kəşf edə bilməyincə sən,
Çəkilməz içini bürüyən o çən.
Sən həmcinisinə güllə atdıqca,

Əllərin bu qədər qana batdıqca,
Üzün gülməyəcək dünyada heç vaxt,
Ayaqlar altında inləyəcək baxt.
Allahın qəzəbi tutacaq bizi,
Qırıb qutarırıq bir-birimizi.
Bizim heyvanlardan fərqimiz nədir?
Onlar da bizimtək bir-birin didir.
Fəqət, qarın üstə savaşır heyvan,
Tutar öz yeminə bir acı divan.
Bizim savaşımız bəs nədir görən?
Ey bəşər övladı, ey ər, ey ərən.
İçdə mürgüləyən vicdanı qaldır,
O iç iblisinin üstünə saldır.
De ki, qoy tanıyaq Allahımızı,
Qana batırmayaq sabahımızı.
Dil tapa bilsəydik dünyada əgər,
Nemətlər bizimki deyilmi məgər?!
Bu qədər qanlara mübtəla bəşər,
Alandan əqlini, idrakını şər,
Sən ayrı düşmüsən öz vicdanından,
Şeytan qopmayacaq heç vaxt canından.
Bu sərvət, bu torpaq, bu var savaşı,
Dəli eyləyibdi düşünən başı,
Ey bəşər, düşdüyün bu yoldan qayıt!
Ruhunu, əqlini, beynini ayılt.
Can almaq o uca Allahın işi,
Sənə tapşırmayıb o bu vərdişi.
Həvvanın, Adəmin ruhu qan ağlar...
Doğduğun, əkdiyin bir gün ayaqlar.
Vicdana həsr eylə ibadətini,
Axtar vicdanında səadətini.
Vicdanın gözüylə baxsan cahana,
Onda son qoyular tökülən qana.
Bir kiçik daşın da burnu qanamaz,
Böyük, uca Tanrı bizi qınamaz.
Gülər taleyində həyat bəşərin,
Evi məzarlıqlar olar o şərin!

Tanrıya yetişər ibadətimiz,
Pak olar yolunda itaətimiz!...
Hər dilin duası yerinə düşər,
Dinlərdən ucada Allahdı, bəşər!...

25.12.1999

QORU, ALLAHIM

Sənin tufanın da, küləyin də nur,
Sənin dünya adlı ürəyin də nur,
Göylərdən sütunlu dirəyin də nur,
Bizi izimizdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

Sənin dairəndə bu dünya üzük,
Sənə tövbə edib, suç edən bizik,
Sənin atəşinin oduna közük,
Bizi közümüzdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

Bizi əyri yoldan əyləyən də sən,
Adəmi imtahan eyləyən də sən,
Nizam tərəzidən söyləyən də sən...
Bizi gözümüzdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

İblisi içində bizləyir bəşər,
Haqqı, ədaləti dizləyir bəşər,
Üzünü min rənglə gizləyir bəşər,
Bizi üzümüzdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

Dodaqlar əsirdi Haqq duasına,
Qaytar bu dünyanı öz yuvasına,
Şadiman qul olub söz havasına,
Bizi sözümüzdən qoru, Allahım,
Bizi özümüzdən qoru, Allahım.

08.12.1997

İLAHİ, DÜNYANI QORU

İlahi, dünyanı şeytan, iblisdən,
Vicdanın paraya satandan qoru.
Beyni zəhərləyən min cürə hissdən,
Hər qəlbdə, ürəkdə yatandan qoru.

Gücsüzün göz yaşı dəryadı, çaydı,
Haqsızlıq basılmaz min-min alaydı,
Dörd yanım hıçqırıq, nalədi, vaydı,
Haqqı ayaqlara atandan qoru.

Alıb-aldatmaqdı bəndənin işi,
Haramı halaltək doğrayır dişi,
Savaşı, qırğını, gethagedişi...
Əcəlin belinə çatandan qoru.

Kökündən qırılır gündə min ürək,
Dolur bulud təki, dağılır dilək,
Pislik çox ürəkdə min donlu mələk,
Yamanı yaxşıya qatandan qoru.

İlahi, Şadiman sənə daməndə,
Mat qalıb addımda feilə, fəndə,
Nicat axtaranın ümidi səndə,
Onu çirkablara atandan qoru.

10. 01. 1991

QALİB OLA BİLMƏZ

Tanrı mənim içimdədi,
Şeytan yolun sala bilməz.
Görünməyən biçimdədi,
Heç kim məndən ala bilməz.

Hara getsəm yanımdadı,
Damarımda, qanımdadı,
Sanki özü canımdadı,
Mən solsam, o sola bilməz.

İblislərlə savaşdadı,
Qəlb içində lap başdadı,
Günahları çox daşdadı,
Şeytan orda qala bilməz.

Həm göydə, həm yerdə hakim,
Kainata odur həkim,
Sirrindən baş açdı de kim?
Canı tənə qala bilməz.

Həm açdıran, həm solduran,
Ölüsünə saç yolduran,
Bu dünyaya dərd dolduran...
Özü dərdlə dola bilməz.

Tanrıdan baş açan varmı?
Dərgahına uçan varmı?
Əlindən bir qaçan varmı?
Dünya onsuz dola bilməz.

Bəs nədir ki, böylə savaş?
Gurşad olub gözlərdə yaş,
Əvvəl, axır enəcək baş
Rəbtək qılınc çala bilməz.

O ki, bizdən yuxardadı,
Həm Tanrı, həm Allah adı,

Sual-cavab axırdadı...
Heç kim qalib ola bilməz?

01.12.2000

İKİ QAPI

Türkiyəli-Sivaslı şair Refik Kutlunun
«İki qapısından keçməyən varmı?» şeirinə nəzirə

Bu dünyada iki qapı,
Biri gələr, biri gedər.
Qırılanda qəlbin sapı,
Ölüm təni məzar edər.

Var azara tutulanlar,
Belinə şər çatılanlar,
Cəhənnəmə atılanlar.
Yer-göy şərdən həzar edər.

Çox bilənin başı ağrar,
Bəbəkdə göz yaşı ağrar,
Ürəyi dərd, ələm doğrar,
Öz-özündən ah-zar edər.

İki qapı sahibi var,
Sonsuzluğun göy dibi var,
İki dünya qalibi var.
Can yiyəsin, O, var edər.

Bizə dinlə öyüd edən,
Bədənləri meyid edən,
Bilən bilir gəlmir gedən,
Qulağın kar niyə edər ?

Şadimanla ömür kaşda,
Harayı var dağda, daşda,
Doğulanla can təlaşda,
Gördüyünə çox ar edər.

05.01.2013

ZİRVƏLƏRDƏ OLAN TANRI

Zirvələrdə olan Tanrı,
Dərmanımız səndən gəldi.
Mehrin könlə salan Tanrı,
Ünvanımız səndən gəldi.

Qanad verdin mələklərə,
Könül açdın diləklərə,
Elə düşdün ürəklərə –
Peymanımız səndən gəldi.

Hər can içrə çıraq oldun,
Paklıqlardan soraq oldun,
İnsanlığa yaraq oldun,
Ümmanımız səndən gəldi.

Bəşər əhlin tox etməkçin,
Sevincini çox etməkçin,
Vəhşiliyi yox etməkçin,
Kamanımız səndən gəldi.

Hey titrətdin yer üzünü,
Həm gecə, həm gündüzünü,
Göstərmədin heç üzünü,
Qatladıqca şər dizini,
Amanımız səndən gəldi.

Eşqi cana amal etdin,
Başda necə kamal etdin?
İnsanı xoşcamal etdin,
Loğmanımız səndən gəldi.

Ömrə qurdun vaxtımızı,
Çox laxlatdın taxtımızı,
Sınadıqca baxtımızı,
Zamanımız səndən gəldi.

Sünbülümüz dənə keçdi,
Can ağrısı tənə keçdi,
Kitabımız önə keçdi,
İmanımız səndən gəldi.

Şadimanı nə çalxatdın?
Könlünə od, atəş atdın,
İlhamıyla qəm yaratdın,
Divanımız səndən gəldi.

09. 01. 2003

EY XUDA

Mum etdin hər sirini,
Açmadın heç birini,
Həm ölü, həm dirini,
Qoydun qəflət yuxuda,
Ey Xuda.

Bizi Məcnun eylədin,
Eşqə cunun eylədin,
Təni unun eylədin,
Sındı dünya oxu da,
Ey Xuda.

Hökmündə bəşər ömrü,
Dilində haqq əmiri,
Yuğurursan xəmiri,
Qalıb əldə çoxu da,
Ey Xuda.

Hər bədən açmış gülün,
Aləm gözünə tülün,
Oxur həyat bülbülün,
Burnu min bir qoxuda, Ey Xuda.

İtirib bəşər özün,
Boyayıb şərlə üzün,

Qapına dizin-dizin…
Gələr qara-qorxuda,
Ey Xuda.

Gecəmi şam eylədin,
Təbimlə kam eylədin,
Əhdi ilham eylədin,
Əqlimi tam eylədin,
Ərşə qaçıb yuxu da,
Ey Xuda.

Şadimanı var etdin,
Canın qəmə zar etdin,
İlhamıyla yar etdin,
Bu aləmə car etdin,
Eşqin könlümə qida,
Ey Xuda…

19.02.2003

ƏNCAM ET

Daş-qənbər ürəklərə,
Ey Tanrım, sərancam et!
Puç olan istəklərə,
Ay Allah, bir əncam et!

Minüzlü sifətlərə,
Hiyləgər niyyətlərə,
O vəhşi silqətlərə,
Ay Allah, bir əncam et!

Axıdılan qanlara,
Yandırılmış canlara,
Köməksiz insanlara,
Ay Allah, bir əncam et!

Hissi boğmalayırlar,
Haqqı damğalayırlar,

Eli yağmalayırlar,
Ay Allah, bir əncam et!

Qan ağlayan ellərə,
Ağı deyən dillərə,
Bu bəlalı illərə,
Ay Allah, bir əncam et!

Bu sinəsi daşlara,
Bu üzülmüş başlara,
Bu şəhid olmuşlara,
Ay Allah, bir əncam et!

Dərddən qovrulanlara,
Ömrü sovrulanlara,
Yanıb qovrulanlara,
Ay Allah, bir əncam et!

Bu fitnə-fəsadlara,
O qana həsadlara,
Ağıldan kəsadlara,
Ay Allah, bir əncam et!

Qandallanmış qollara,
Səd çəkilmiş yollara,
Darda mərd oğullara,
Ay Allah, bir əncam et!

Qaralmış gündüzlərə,
Bu ağlayan gözlərə,
Qaysaqlanmış közlərə,
Ay Allah, bir əncam et!

Bu matəmli çağlara,
Bu sinəsi dağlara,
Şirin Xanım ağlara,
Ay Allah, bir əncam et!

08.04.1990

ŞÜKÜR SƏNƏ, ALLAHIM

Zülmətin qoluzorlu,
Sübhün gözləri nurlu,
Aləm necə qürurlu?
Günəşdən zər saçılır,
Qaranlıqlar qaçılır,
Yenə səhər açılır,
Göydə, yerdə tək şahım,
Şükür sənə, Allahım.

***

Sevda dolu ürəyim,
Coşur min bir diləyim.
Hara büküm bələyim?
Yandırıb nəfəsimi,
Qırıram qəfəsimi,
Təbdən qopan səsimi,
Etmədin sinə ahım,
Şükür sənə, Allahım.

***

Ağlımın can yuvası,
Başda sevgi havası,
Ürəyimin duası,
Tikir haqqa qəsiri,
Dərgaha bəlli sirri,
Bədən can üstə diri.
Açılır xoş sabahım,
Şükür sənə, Allahım.

***

Bu dünya, dolu dünya,
Yarıdan çoxu röya,
Kim doymaya, kim doya?
Dərd-bəlanı aşıram,
Təblə coşub-daşıram,
Yollar uzun, çaşıram…
Ey hər şeydə pənahım,
Şükür sənə, Allahım.

***

Bu zaman sürətdədir,
Ömür amanətdədir,
Şadiman heyrətdədir,
O böyük qüdrətinə,
O sevmək adətinə,
Bəşər səadətinə,
Səvabdan az günahım,
Şükür sənə, Allahım,
Şükür sənə, Allahım.

29.05.2008

MƏN İLAHİ TƏŞNƏSİYƏM

Mən ilahi təşnəsiyəm,
Adama səcdə etmirəm.
Doğulandan bu günədək
Onunla yola getmirəm.

Çalışdım ki, dəyişməyəm,
Ağlım ilə döyüşməyəm,
Çaşıb çirkaba düşməyəm,
Atılan yala getmirəm.

Amacım haqqa qovuşmaq,
Şərdən, xətadan sovuşmaq,
Canla bədənə yovuşmaq,
Min cürə hala getmirəm.

Mən İlahi təşnəsiyəm,
Ruhun bədən irşəsiyəm,
Göy içinə düşəsiyəm,
Hissimlə dala getmirəm.

11.10.2013

MƏZHƏB ACISINDAN QOP, AY MÜSƏLMAN

Ya Rəsulum! Şübhəsiz ki, sənin firqə-firqə olub dinini parçalayanlarla heç bir əlaqən yoxdur. Onların işi Allaha qalmışdır. Allah sonra (qiyamətdə) onlara nə etdiklərini xəbər verəcəkdir!
Quran, 6 Surə, 159-cu ayə

Haqqına qurtuluş tap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Müsəlman elləri qanlar içində,
Ağrılar taxt qurub canlar içində,
Dilləri hıçqırır niyə-neçində.
Özün bu sitəmdən sap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Bizə hava təki birlik gərəksə,
Haqqın varlığına inam dirəksə,
Qurana səcdəyə gələn ürəksə…
Birliyə pak qala yap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Allah sevdalılar bir-birin qırır,
Xaça inanclılar bizə tor qurur,
Min bir hiyləsiylə arxadan vurur…
Bizi yerə soxur lap ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Yalnız xilasımız birliyə bağlı,
Hissi yox, qaldıraq ayağa ağlı,
İslam ölkələri lal, qolubağlı,
Aslan ol, şərini qap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Məhəmməd də bizim, Əli də bizim,
Qurbanam imana, paklığa özüm,

Türkə, kürdə, farsa, ərəbə çözüm…
Min iman atına çap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Baxın, ölkə-ölkə oda düşmüşük,
Sanki bir-birinə qada düşmüşük,
Avropada belə yada düşmüşük?!
Onların sevgisi gop, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Bizi təkləyərək, dənləyəcəklər,
Bir olub birləşsək, inləyəcəklər,
Bizi də insantək dinləyəcəklər!
Şəri hissə-hissə çap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Gör başın üstündə gəzən qadanı,
Burax bir-birinə çürük ədanı,
Birlik ilə başla qəlbə sevdanı,
İltifat qırılan sap, ey müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Bu necə Qurana, imana sevgi?
Rəbbin göndərdiyi fərmana sevgi?
Gəlib qırğınlardan dərmana sevgi,
Olub ayaqlara top, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.

Şadiman bu dərdi vərəqə saldı,
Bizim ağlımızı yağılar çaldı,
Qapımız ağzını gəlib şər aldı,
Dərdimiz kağızda çap, ay müsəlman,
Məzhəb acısından qop, ay müsəlman.
Məzhəb acısından qop, ay müsəlman.

03.02.2012

HANI, DÜNYA?

Ədalətin hanı, dünya?
Sədaqətin hanı, dünya?

Gözdən axan yaşlarına,
Qəmlər çatan qaşlarına,
Dərdə girmiş başlarına –
Kəsər sözün hanı, dünya?
Görən gözün hanı, dünya?

Çiçəklərin soldu getdi,
Buludların doldu getdi,
Zaman saçın yoldu getdi,
Ömürlərin sanı, dünya,
Gələnlərin hanı, dünya?

Pulu cana azar etdin,
Düz deyənə həzar etdin,
İnsanlığı məzar etdin,
Bəşərin ünvanı, dünya,
Əsil üzün hanı, dünya?

Əlindən qəlb batıb çənə,
Can deyirəm, can de mənə,
Şadiman ki, yanır sənə,
İsitmirsən canı, dünya,
Ürəyimdə qanı, dünya.

Ədalətin hanı, dünya?
Sədaqətin hanı, dünya?

27.09.1997

DƏRDİNDƏN ÖLƏN KİM?

Bu dünya – sahilini itirmiş gəmi,
Qanla doydurur dəmi.
Gələni, gedəni saysız,

Ötüşməz vaysız.
Dodağında ahı,
Bitib-tükənməz günahı.
İçində Allahı.
Bu dünya – sahilini itirmiş gəmi,
Gözlərinin qurumaz nəmi.
Ağladanı tox,
Ağlayanı çox.
İlləri boğçaya bükər,
Boğçanın ağzını tikər.
Harayı içində boğular,
Doğulanla doğular,
Ölənlə ölər...
Hər şeyin bizimlə bölər,
Bu dünya – sahilini itirmiş gəmi.
Fəryadıyla ağladar aləmi.
Dərya udmaq istər onu,
Bir ovuc içi qədər yaxındır sonu.
Hamı varını qamarlar,
Yığıb-yığıb hamarlar.
O isə nə varını gizlədər,
Nə də kirini təmizlədər,
Nə də bir kimsəni əzizlədər.
Hey bizləri yola salar,
Məzarları üst-üstə qalar.
Bu dünya – sahilini itirmiş gəmi,
Əvvəl-axır öldürəcək qəmi.
Onu duyanları,
Qan ilə doyuranları.
Bu dünya – sahilini itirmiş gəmi,
Bilinməz işinin çəmi.
Dilini bilən kim?
Dərdindən ölən kim?
Fəryadına gələn kim?
Üzünə gülən kim?

18.12.2000

TAMAŞA DÜNYA

Kiminə şirindi, kiminə acı,
Kiminin başında şan-şöhrət tacı,
Mənhus ölümünə tapmaz əlacı,
Bənzər qanadıyla bir quşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Heç kəsdən varını həsləmədi ki,
Əbədi kimsəni bəsləmədi ki,
Gedəni geriyə səsləmədi ki,
Sultantək çəkildi hey başa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Ağlayan gözlərdən yaşı qopartdı,Uca
saraylardan daşı qopartdı,
Əzrayıl əliylə canı apardı...
Bələndi qatbaqat daş-qaşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Şahı gəda etdi, gədanısa şah,
Naləsiz, savaşsız gəlmədi sabah,
Bəşərin köksündən qopan fəqan, ah,
Döndü bəbəklərdə qan-yaşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Məzarlar üstündə məzar yaratdı,
Cavanı, qocanı məzara atdı,
Ölənlə əbədi qəbirdə yatdı...
Döndümü ürəyin de daşa, dünya?
Hamıya bir seyr, tamaşa dünya.

Kimsənin halını sormadı ki, heç,
Atını yollarda yormadı ki, heç,
Bir yerdə əbədi durmadı ki, heç,
Doymadı baxmaqdan göz-qaşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Boyadı min rəngə gözdəki yaşı,
Daşıdı torbayla torpağı, daşı,
Ömürlük olmadı dostu, sirdaşı,
Qalıb taley ilə baş-başa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Kimsəni özündən incidən deyil,
Nədə ki, bizimtək can güdən deyil,
Özünü bəşərtək xar edən deyil,
Vurmaz bir gününü boş-başa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Hamıdan ucadır Tanrı qüruru,
Tutubdu aləmi gözünün nuru,
Çox dolu bostanı eyləyər uru,
Gələnlə, gedənlə, ey qoşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

Yorar yollarında o, Şadimanı,
Tutub əllərində bu şirin canı,
Gəlib-gedənin hesabı hanı?
Donunu bürüyüb qumaşa dünya,
Hamıya bir seyr, tamaşa dünya.

01.06.2001

ŞAD ETDİN KİMİ DÜNYA ?

Haqla dövran eylədin,
Canda cövlan eylədin,
Ömrü viran eylədin,
Hər könlün simi dünya,
Şad etdin kimi dünya?

Ağlatdın can yiyəsin,
Sındırdın an tiyəsin,
Bilmədin şər mayəsin,
Fələyin himi dünya,
Şad etdin kimi dünya?

Diləkdə hiss yaşatdın,
Başda nəfs yaşatdın,
Ürəyi pis yaşatdın,
Uddu kim-kimi dünya?
Şad etdin kimi dünya?

Ağılda üsyan etdin,
Damladan leysan etdin,
Bədənlə ehsan etdin,
Vaxtın həkimi dünya,
Şad etdin kimi dünya?

Şadimanı sorma gəl,
Ürəyini yorma gəl,
Canla ara vurma gəl,
Rəbbin tilsimi dünya,
Şad etdin kimi dünya?

14.07.2005

MİN BİR NÖVDƏ İMİŞ İNSANLAR DEMƏ

Min bir növdə imiş insanlar demə,
Bir növü dünyanı bölməyə gəlir,
İblistək güc edir gözlərdə nəmə,
Tökdüyü qanlara gülməyə gəlir.

Bir növü doğumla ölümə açar,
Anadan olandan ağrıya düçar,
Elə ömrü boyu haqqa əl açar,
Sanki doğulan gün ölməyə gəlir.

Bir növü haqqına eyləyir səcdə,
Allahdan kimsəni görməyir gücdə,
Gözündə kamildir aqil də, bic də,
Tanrı böyüklüyün bilməyə gəlir.

Bir növü ağrıya çuğlanıb qalır,
Özgə dərdlərinə bağlanıb qalır,
Əzabın özünə dağlanıb qalır,
Axan göz yaşların silməyə gəlir.

Beləcə dünyada növbənöv insan,
Heç işin qulpundan yapışmaz asan,
Ağlı baş içində qaynayan qazan,
Hissə qul ürəyin dəlməyə gəlir.

Şadiman, canına ağrı nə fayda,
Kainat sirr dolu riyazi qayda,
Bilmir ki, doğulan fani dünyada,
Bir gün haqq qapısın döyməyə gəlir.

09.05.2011

BU DÜNYA NƏ SƏNƏ, NƏ MƏNƏ QALMAZ

Eşq ilə bəşərin könlünü alar,
Puluyla başlara qələbə çalar,
Köçəndən xatirə bir məzar qalar…
Əbədi heç kəsi qoynuna almaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Sevdası şirindi, ömrə bəs etməz,
Sonadək kimsəylə yola da getməz,
Varından bir zərrə heç kimə yetməz,
Gözü qamaşdıran bir parlaq almaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Dağların, daşların tarixin açmaz,
Zamantək anlara qoşulub qaçmaz,
Can təki bədəni tərk edib uçmaz,
Ömrün son nəğməsin fələksiz çalmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Hər başı ağradır keşməkeşiylə,
İnsanı üzdürər çətin işiylə,
Kəsər ömürləri iti dişiylə,
Özü bəşər kimi saralıb solmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Suyundan içənlər sağlıq tapmadı,
Kimin ürəyini qəmlə qapmadı?
Həyat bağçasını soyub-çapmadı?
Canı aparmasa, can qabı dolmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Əsiri olanı əsir eyləyir,
Varından, pulundan qəsir eyləyir,
Daşından, başından yesir eyləyir,
Haqqını deyənnən arası olmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Uca sarayları uçurtdu-tökdü,
Çox taxtın özülü əbədi çökdü,
Əlinlə tikdirdi, əliylə sökdü,
Fələkdən izinsiz bir təni almaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Bəndənin üzünü iki eylədi,
Ömrünü zamanın tükü eylədi,
Bəşəri torpağın yükü eylədi,
Heç zaman qolunu boynuna salmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Can deyib yapışma anlardan heç vaxt,
Sənə əbədilik verilmib bu baxt,
Qırılar öhdənə buraxılan vaxt,
Bədənin canına qələbə çalmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

Bulma, ey Şadiman, könlü nəş'ədə,
Fələk canımızı bəslər şüşədə,
Keçirmə ömrünü boş bir guşədə,
Çağlat ilhamını hey əndişədə,
Üzülər tənindən duyğusu olmaz,
Bu dünya nə sənə, nə mənə qalmaz.

06.01.2003

DAĞITMAYIN, AMANDIR

Yer də, göy də, kainat da gözəldir,
İnsan varsa, təbiət də, gözəldir,
Tikir-yıxır, sökür-qurur, düzəldir,
Bu bolluğu məhv eləmək, yamandır,
Dağıtmayın bu dünyanı, amandır.

Boyamayın yeri-göyü qaraya,
Kini səpib, nifaq salmın araya,
Məhv olanda kim gələcək haraya?
Yenə fəza karvan-karvan dumandır,
Dağıtmayın bu dünyanı, amandır.

Arzu, istək, pak amallar, diləklər,
Hələ işdən yorulmayıb biləklər,
Saf qürurla vurur coşğun ürəklər,
Sürətiylə uçub-qaçan zamandır,
Dağıtmayın bu dünyanı, amandır.

Suyumuz bol, sevgimiz bol, çörək bol,
İşdən-gücdən yorulmayan möhkəm qol,
Gələcəkdən müjdə verir gözəl yol,
Ədaləti haraylayan ümmandır,
Dağıtmayın bu dünyanı, amandır.

Körpələr var yer üzündə nə qədər...
Uzaq olsun gözlərindən qəm, kədər,
Eyləməyin arzuları dərbədər,
Onlar bizdən xoşbəxt həyat umandır,
Dağıtmayın bu dünyanı, amandır.

06.05.1986

BATABATDA

İstedadsız mükafatda.
İstedadlı batabatda,
Nədir görən bu həyatda?
Ağrı dolu hər saatda,
Qəlb partlayır min bir çatda,
Qaçır hiylə çapan atda.
Kimi üzür varidatda,
Kimi qalıb ey bidadda.
Kimi özün gəzir adda,
Ocaq çatıb yanır odda,
Heç bir sözü qalmır yadda,
Hayı-hoyu min bir qatdda,
Baxıb gülür xain, yad da,
Görür ağlın lap abadda.
Yuxulayır hey fəryad da,
Yer üzü dolu səyyad da.
İştahı bol, ovu dadda,
Heç ola bilmir azad da.
Xor baxıbdı yoldaş, yad da.
Hər nəyi var ata-atda,
Kimliyin danıb övlad da,
İlham qalıb ahı-dadda.
İstedadsız mükafatda.
İstedadlı batabatda.

25.10.2009

ATOMSUZ, NÜVƏSİZ DÜNYA OLAYDI

Atomsuz nüvəsiz dünya olaydı,
Od saçan silahlar röya olaydı,
Adamın üzündə həya olaydı,
Həyat qayıdaydı öz yuvasına,
İnsan qovuşaydı saf havasına,
Yalan qatmayaydı dil duasına.
Sərhədlər içində yaşasaq da biz,
Savaşa qatlanıb qalmayaydı diz,
Güləydi baxışlar, güləydi hər üz.
Savaşdan, vuruşdan doğmayır həyat,
Niyə fitnələri boğmayır həyat?
Haqqı qucağına sığmayır həyat.
Od saçan silahlar röya olaydı,
Atomsuz, nüvəsiz dünya olaydı…

09.07.1986 Tağay

ÖLMƏKDƏN DƏ AĞIR YAŞAMAQ İMİŞ...

Ölməkdən də ağır yaşamaq imiş...
İnsanlıq adını daşımaq imiş.
Bir çoxu boğulur günah içində,
Günahın özü var sabah içində.
Titrəyir buludlar ah-nalə ilə,
Sanki əzabları gətirir dilə.
Harınlar dünyada at oynadırlar,
Hiylə ocağında şər qaynadırlar.
Şərə boyanıbdı dillər ağızda,
Yalanlar dastana dönür kağızda.
Ürəyə şah olub fitnənin özü,
Çoxunun xeyirdən dönübdü üzü.
Yaxşılıq əzilir ayaq altında,
İblis dövran edir hiylə qatında.
İlhamın gözünə üfürülür kül,
Yanır ah-vay ilə haray salan dil.
Xara bürünübdü cahanda nə var,

Göyün gürşadı da bu xarı yuyar.
Odur ki, həqiqət duman içində,
Haqq özü boğulur aman içində.
Bu büllur saraylar şərhi-qəsirlər,
Haqqın fəryadına düşüb əsirlər.
Dağılır min illik altun miraslar,
Bəşərin başına açılır yaslar.
İnsan öz xətasın silə bilməyir,
Yaradan yoluna gələ bilməyir.
Bu dinlər, kitablar nicat yolumu?
Savaşa aparan höcət yolumu?
Didir parçalayır insan bir-birin,
Heç kəs açа bilmir ağılın sirrin.
Əgər açılsaydı yanan olmazdı,
Hönkürüb ağlayan iman olmazdı.
Dinlərdən doğulan məzhəblər artdı,
Allaha şər atdı, bağrı qanatdı.
Gedir din davası cahanda hələ,
Günbəgün, ilbəil o qalxır zilə.
Əgər Yaradandan yarandıqsa biz,
Bəs niyə bulaşır qana əlimiz?
Əgər Rəbb bəxş etdi cövhər ağılı,
Bəs niyə bizlərə çatmır nağılı?
Ağılla oturub dura bilmirik,
Günahsız bir dünya qura bilmirik.
Silahlar artıqca, məzarlar artır,
Hiylədən öc alan azarlar artır.
İlahi, etdiyin bir imtahanmı?
İmtahan önündə bizmi, cahanmı?
İnsanın saldığı şəhər dəyişib,
Bədənin udduğu zəhər dəyişib,
Əyninə geydiyi paltar dəyişib,
Banglara yığdığı yatar dəyişib.
Ağlının donunu dəyişə bilmir,
Haqqın qanununa öyrəşə bilmir.
Hər gün günahının sayın artırır,
Günahlar içinə özün qatdırır.
Ölməkdən də ağır yaşamaq imiş,
İnsanlıq adını daşımaq imiş...

16.07.2010

NƏ OLDU?

El malın talayıb yığma bucağa,
Sərvəti künclərdə qalan nə oldu?
Haram-halal bilmib, qatma ocağa,
Sandığı haramla dolan nə oldu?

Ev yıxıb, qapılar bağlayan da var,
Sinələr, ürəklər dağlayan da var,
Bir vaxt güldüyünə ağlayan da var,
Nahaq deyən dildə yalan nə oldu?

Mənsəbin, şöhrətin əlindən tutan,
Arxa kölgəsində yüksəyi tutan,
Malını gücsüzün malına qatan,
Özgənin haqqını alan nə oldu?

Dünya keçməyibdi bir gün vaxtından,
Əli qabarlının qara baxtından,
Çox «mənəm» deyəni salıb taxtından,
Torpağı çəpərə salan nə oldu?

Xeyir-şər bilməyib, şadam, deyənlər,
Elin artığından tapıb yeyənlər,
Sutək axar işin yolun əyənlər,
Qonşunun yasında çalan nə oldu?

Həyat imtahanı çətindən-çətin,
O duyan qəlbidi bəşəriyyətin,
Özgəyə tuşlanan çirkin niyyətin,
Miskin sinəsində solan nə oldu?

Ocaq keçirənin ocağı sönər,
Addımı enişdən yoxuşa dönər,
Hiyləylə ucalan, fitnəylə enər,
«Mənəm» xəyalına dalan nə oldu?

Zaman addımlardan qəsir ucaldıb,
Dünən qaldırdığın, bu gün alçaldıb,
Şüurla ürəyi birgə qocaldıb,
Özgə bostanın yolan nə oldu?

Çox cahangirləri kor eləyibdi,
Haqqın qulağına düz söyləyibdi,
Böhtan danışanın dilin əyibdi,
Sərvətlər üstündə talan nə oldu?

Dünya düşünəndi, dünya həyalı,
Düzə təbiidir, pisə boyalı,
Çarpışar, döyüşər evin əyalı,
İlantək bir-birin çalan nə oldu?

Ömür edir qananı, qanmayanı da,
Ürəkdən yananı, yanmayanı da,
Addımı ananı, anmayanı da,
Gedənlər getdisə, olan nə oldu?

Dünyanın malını qamarlayanlar,
Sərvətin sandığda tumarlayanlar,
Çirkin niyyətləri hamarlayanlar,
Ac qarın dərdində kalan nə oldu?

Açıq qapıları üzə bağlayan,
Hiyləni, fitnəni gözə bağlayan,
Min bir yalanları sözə bağlayan,
Haqq dili susdurdun, balan nə oldu?

Şadiman, dəryanın sirləri min-min,
Acizdir önündə yüz elm, yüz din,
Sən ki, hər addımda, haqq mənəm, dedin,
Düzlükdən tikdiyin qalan nə oldu?

19.11.1987

ADAMIN SÖZÜNÜ GÖYƏRDƏRLƏR

Adamın sözünü göyərdərlər,
İçindəki dözümü göyərdərlər,
Səbrinin canını dərərlər,
Haqqın ayaqlar altına sərərlər,
Belədir qayda,
Bu dünyada.
***
Fələyin əlində ələyi,
Öldürüb-dirildir diləyi,
Zülmət gözü yaşlı mələyi,
Yatırır qucağında ürəyi,
Haqqı haya-hayda,
Bu dünyada.
***
Sözümüz dilimizə yağı,
Çəkir bəzən sinəmizə dağı,
Pozulur hərdən bəşərin növrağı,
Qızanda gözümüz görmür sol-sağı,
Gah toyda, gah vayda,
Bu dünyada.
***
Kimimiz milyonlar içində üzürük,
Dünənimizi unudub, hamını
yuxardan aşağı süzürük.
Özümüzü dahi sanıb,
başqasına ağız büzürük.
Günümüzün möhnət dəryasında üzürük,
Zaman ömrümüzü saya-sayda,
Bu dünyada.
***
Olmasa adamın adamı,
Başına uçub tökülər damı,
Sönər bəxtinin şamı,
Gözündə qalar kamı,
Yatana nə çatar röyada?
Bu dünyada.

***

Ürək ağrılara möhtac,
Ağrılar ürəkdən alır hər gün bac,
Tapılmır heç dərdlərə əlac,
Fani zaman xülyada,
Bu dünyada.

14.03.2008

BU DÜNYA MƏNİMDİ

Ruhumdan alışan odum, közüm var,
Həyatdan doymayan könlüm, gözüm var,
Hələ deyiləsi çoxlu sözüm var,
Məcnunu olmadım heç boş xülyanın,
Bu dünya mənimdi, mən də dünyanın.

Ovqatım köklənib xoş məramlara,
Ürəyim yatmayır heç haramlara,
Cığırlar açıram canda kamlara,
Qanadlı quşuyam, sanki hər yanın,
Bu dünya mənimdi, mən də dünyanın.

Sevda yolçuları canımdan keçir,
Eşqi şəfa təki qanımdan keçir,
Bütün səadətlər anımdan keçir,
Gözüm qonağıdır şirin röyanın,
Bu dünya mənimdi, mən də dünyanın.

Şadiman qələmi sözə calayır,
İçində gah sevinc, gah qəm ulayır,
Dilin zəhəri də könül bulayır,
İnsan, gün ışığı olsun həyanın,
Bu dünya mənimdi, mən də dünyanın.

16.02.1986

OLİMPİYA

Pekində keçrilən 8-24.08.2008-ci il yay olimpiya oyunlarının şərəfinə!

Olimpiya – millətlərin birliyinin təməl daşı,
İnsanların bir-biriylə güc yarışı.
Qaliblərin sevinc yaşı.
Məğlubların sinəsinə çökər başı.
Udan ilə uduzanın can təlaşı.
Yunanlardan dunyamıza bir ərmağan,
Bu eşq ilə coşub, daşır həm günbatan,
həm gündoğan.

***

Olimpiya – ürəklərdə gücü coşar,
İdman canda eşqi aşar.
Ağıllarda zəfər yaşar,
Bəxtəvərlik aşıb-daşar.
Olimpiya – güclülərin zəfər marşı,
Çıxa bilməz qalib naşı.
Ölkə-ölkə insanları bir araya yığa bildin,
Hər ürəkdə, hər sinədə sevincini doğa bildin.
Bir neçə gün olsa belə
ölkələrin adamların
Bir amala sığa bildin.

***

Olipiya – bu idmandan çıxan savaş,
Tankı, topu, qurğuşunu,
güllələri yıxan savaş.
Bu bir ağıl fəlsəfəsi,
Burda vuruş gücün səsi,
Burda yoxdu ölüm, qada,
Müharibə düşməyəydi
heç vaxt yada,

Futbol ilə,
Güləş ilə,
Qaçış ilə,
Tennis ilə,
Duyğuları xoş hiss ilə
çataydı hər dilək dada.
Bu dunyada
yetişəydi hər an haya,
Olimpiya,
Olimpiya.

24.08.2008

MƏN DƏ VARAM

Tanrım qədər yüksəkdədir,
Qanda, canda, ürəkdədir –
Xalqım mənim, elim mənim,
Bülbül təki xoş ləhcəli dilim mənim.
Əzabları – ürəyimin ağrısıdır,
Bircə anlıq fəlakəti –
gözlərimin uçub gedən yuxusudur.
Bir kimsəyə əyilməyən,
Xəyanətdə döyülməyən,
Ayaqlara döşənməyən,
Röyalardan üşənməyən,
Ürəyimin qorxusudur.
Bu torpaqda doğulmuşam,
Bu xalq mənim, bu el mənim.
Varlığımı məhvərindən yıxıb sökən,
Qəlb evimi qamarlayan,
Yollarımı hamarlayan,
Dəli-dolu təb sel mənim.
Doğulandan yağısının yağısıyam,
Ölər olsam, qız-gəlinin
dodağında ağısıyam.

***

Tanrım qədər yüksəkdədir,
Xalqım mənim, elim mənim,
Dağım mənim, çölüm mənim,
İllər keçər, bu torpaqda ölüm mənim.
Bunun üçün bəxtiyaram,
Xöşbəxtliyə mən də varam!
Bu müqəddəs məmləkətə,
Başı üstə fəlakətə
ahı-zaram.
Ölüb, ya Rəbb, qarışacam torpağıma,
Bir münbitlik gətirəcəm,
Quruyan bir ağacıma, yarpağıma.
Allah, şükür bu çağıma!
Od yurdunun bircə qarış elatında öləcəyəm,
Bu torpağın çəkilməyən dərdlərini
öləndə də ruhun zərif qanadında böləcəyəm.

***

Ulu Tanrım, bunun üçün bəxtiyaram,
Nə yaxşı ki, bu torpaqda doğulmuşam –
Mən də varam!

12.08.1991

TOXUNMA TORPAĞIMA

Qəzəbimlə parçalayıb didərəm o sədləri,
Toxunma torpağıma!
Vətənimin ürəyində kök salan sərhədləri,
Toxunma torpağıma!

Min bir yerə parçalandı əsrlərlə torpağım,
Budağından qopub düşdü boy atmamış yarpağım,
Bir əsrdə milyon kərə pozuldu xoş növrağım,
Toxunma torpağıma!

Olmayıbdı bir kimsənin yuvasında bu gözüm,
Gəl qov atma, tüstülənir min ildi odum, közüm,
Tükənəcək səbrim təki bağrımdakı ər dözüm...
Toxunma torpağıma!

Qoltuğuma sığınaraq, yurdumu yağmaladın,
Hallalıqla ömür sürən bir xalqı damğaladın,
Siyasətin quyruğunda haqqımı boğmaladın,
Toxunma torpağıma!

Sinəm içi atomdan da, nüvədən də qüvvətli,
Ürəyimdən qopan fəryad zamandan da sürətli,
Düzlüyüm var, mərdliyim var qanundan da cürətli,
Toxunma torpağıma!

Mən sinəsi alovlanan millətin fəryadıyam,
Min qanadlı Vətənimin mən də bir qanadıyam,
Sözü kəskin, qolu bağlı yaralı övladıyam,
Toxunma torpağıma!

İlahinin fərmanıyla kəsilər nahaq dilin,
Boranlardan, şimşəklərdən solar bağçada gülün,
Zamanın tərəzisindən düşər məkirli elin,
Toxunma torpağıma!

Qamarlayıb qopartdığın yurdlarım məzarlığın,
Ah, cüzam mərəzi təki qurtarmır azarlığın,
Böylə, keçməz Haqq evindən, cani-zülümkarlığın,
Toxunma torpağıma!

O atdığın güllələrin açılar kürəyində,
Parçalanar min bir yerə qapqara ürəyin də,
Əvvəldən də haram daddı baban da çörəyində!
Toxunma torpağıma!

Tülkü təki tikə gəzən, yurddan yurda pay olmaz,
Tökülən qan bitməzmi heç, belə haqqı-say olmaz?
Bu qədər də ölüm-şivən, bu qədər də vay olmaz,
Toxunma torpağıma!

Sən süfrəsi qoltuğunda köçdən-köçə düşənsən,
Harda qədim tarix gördün oraya ilişənsən,
İkiüzlü çörək təki hər ölçüdə bişənsən,
Toxunma torpağıma!

İkiyüz il kölə olan gözü yaşlı Arazam,
Vulkanam, od içimdədi, demə, belə dayazam!
Sərt üzümü görməmisən ərzi saran ayazam,
Toxunma torpağıma!

Yumruğumu düyünləyib güllə təki sıxaram,
Qeyrətimi balta edib axırına çıxaram,
O hiyləgər ürəyini beşiyində yıxaram,
Toxunma torpağıma!

Poladlanmış birliyimlə açaram kələyini,
Ayaq altda tapdalaram o iyrənc diləyini,
Asi etmə, bəndəsənsə, göylərin fələyini,
Toxunma torpağıma!

Dağlarım da od püskürər divtək cumar üstünə,
Varsa vicdanını səslə, az dur haqqın qəsdinə,
Qayıt Tanrı dərgahına gəl imana, gəl dinə,
Toxunma torpağıma!

Ədaləti, həqiqəti yuvarlayıb sürgünə,
Bəsdir, daha büründüyün özgələrin kürkünə!
Azərbaycan çoxdan şahid iyrənc, qorxu-hürkünə!
Toxunma torpağıma!

25.06.1991

VƏTƏNDİ

İlhamımın tellərini dindirən,
Varlığımı zirvələrə endirən,
Od nəfəsli, şir ürəkli ər, ərən,
Od yurdunun pak qucağı – Vətəndi,
Söndürülmüş hər ocağı – Vətəndi.

İgidləri xainlərə sipərdi,
Hər cığırı sinələrə təpərdi,
Şiş qayalar düzlərinə çəpərdi,
Sis ormanlı, gen çölləri – Vətəndi,
Çılğın, daşqın gur selləri – Vətəndi.

Qeylü-qaldan qurtarmazdır heç başı,
Yad ellərdən haylar qardaş qardaşı,
Qəbr evimiz, hər min illik baş daşı,
Çala-çuxur, çöl, arx-arxac – Vətəndi,
Ərə arxa, qeyrətə tac – Vətəndi.

Şir ağızla yaralandı sinəsi,
Hayqırdıqca batırıldı gur səsi,
Çox döyüldü bu Azəri ölkəsi!
Min bir yerə haçalanan – Vətəndi,
O tay, bu tay parçalanan – Vətəndi.

Ağrı dağı, yasa batıb, ağlama,
Anam Göyçə, başa qara bağlama,
İrəvanım, bax titrəyən daş-dama,
Qəzəbindən əsən sinə – Vətəndi,
Əsir düşmüş o yurd, binə – Vətəndi.

Əqrəb, ilan hardan girdi qoynuna?
Məkri ilə dolanıbdı boynuna,
Tarix dözməz namərdlərin oynuna,
Yad əllərdə ağlar qalan – Vətəndi,
Pak keçmişi yalan olan – Vətəndi.

Xankəndində quduz itlər ulayır,
Şər önündə yaman quyruq bulayır,
Düzlərini qanımızla bulayır,
Ağlar qalan dağım, düzüm – Vətəndi,
Yanar dilim, görən gözüm – Vətəndi.

Yurdlu etdik hər düzlərdə qalanı,
Bəyənmədik canımızdan olanı,
Ayaq tutub gəzməz yağı yalanı,
Düşmənlərlə yarı bölsək – Vətəndi,
Pak yolunda şəhid ölsək – Vətəndi!

10.05.1991

BU YURDUN ELİ HANI?...

Dağılıb yurd, yuvası,
Necə canından ası,
Qana susub havası,
Odun, ocağın tanı,
Bu yurdun eli hanı?

Səadəti boğulub,
Qəmi dərddən doğulub,
Eli hara dağılıb?
Sanki çıxacaq canı,
Bu yurdun eli hanı?

Ocağını su basıb,
Dərdi özünü asıb,
Niyə bu Allah susub?
Fəğandır, ahdır anı,
Bu yurdun eli hanı?

Çeşmələri ağlaşır,
Buludlarla bağlaşır,
Bu dərd niyə dağlaşır?
Keçən günü gəl sanı,
Bu yurdun eli hanı?

Gəlməyə sabahları,
Boğub içdə ahları,
Məzarların ruhları,
Gəzir nalan hər yanı,
Bu yurdun eli hanı?

Gələ vətən ərləri,
Boğa dərdi-sərləri,
Elin şiri-nərləri
Uddura yada qanı,
Bu yurdun eli hanı?

6.08.2001. Pirallahı

ANA DİLİM

Dərdin itsin ilim-ilim,
Sözümün dünyaya bəyanı,
Yanan ürəyimin həyanı.
Tələtümə gətirirsən ruhu-canı,
Sənin haqqını ayaqlar altına
atanlarını sanı.

***

Ana dilim,
Səndən öc alır ilim,
Sənsiz keçmir bircə anım,
Sənsiz necə varlığımı anım?
Sənin odunu qəlblərinə çatmayanlar,
Zülmətlərdə daralmış hayını
hayına qatmayanlar,
Heç qədrini bilməzlər,
Sözünün şirinliyinə gəlməzlər.

***

Ana dilim,
Haqqını tapdalasam yansın dilim.
Anamın sevdalı laylasından doğuldun,
Qətrə-qətrə qanıma, canıma dağıldın,
Beynimin içinə, ağlıma yığıldın.

Sətir-sətir, misra-misra havamsan,
Sən mənim Allahıma duamsan.

***

Ana dilim,
Ölərəm sənə çatmasa əlim.
Sən söz-söz alışıb yanan Füzuli harayı,
Sən yaralı Nəsiminin təb sarayı,
Sən yasımda ağlayan könlümün vayı,
Sən bir anlıq sevincimin nəş'ə payı.
Dilimdən uçsan bil ki, canım çıxıb,
Fələk ömür taxtımı yıxıb...

***

Ana dilim,
De, kədərini bilim.
Bir zamanlar düşmənlər səni təklədilər,
Səni susdurub yox etmək üçün gəldilər.
Səni ruhundan ayırmaq üçün cinslərə böldülər,
Bu müsibətlər göldülər.
Bütün bunlara susmaq olmur axı,
Dərd çoxalanda ürəkdə qalmır axı.

***

Ana dilim,
Söz bağında solmasın gülüm,
İlahi göndərən mələyim,
Ruhu çağladan diləyim.
Sənsiz soyda, kökdə qalmaz heç nəyim,
Sənin səcdəndə titrəyir ürəyim,
Ana dilim...
Ana dilim...

09.04.2009

NEFT DAŞLARINDA GECƏ

Gecədir. Qaranlıqlar çəkilib göy üzünə.
Ay buruqlar adası, nə füsunkar olmusan?
Qatar-qatar işıqlar oxşar nurlu gözünə,
Şirin arzular təki ürəyimə dolmusan.

Söylə, hansı diyarda su üstə şəhər yatır,
Hər buruq bir çıraqban ulduzlar meşəsidir.
Bu dəniz ölkəsində ulduzlara əl çatır,
Neft Daşları qəlbimin ən dilbər guşəsidir.

Suların qucağında gəmilər salamlaşır,
Yatırır sinəsində gecə gəlib-gedəni.
Bu payız axşamında xoşbəxtlik başdan aşır,
Yuyunur qaranlığın dənizdə pak bədəni.

Sərin mehlər gecəylə pıçıldaşır aşiqtək,
Sanki sevgi nəğməsi həzin-həzin səslənir.
Bu gecə gözəl Xəzər bir divanə məşuqtək,
Sevgilərin evində odlu-odlu bəslənir.

Gecə ay işığında dəmir körpü uzanır,
Alır işdən gələni ehtiyatla qoynuna.
Ulduzlar da bu axşam bir tamaşa qazanır,
Heyranlıqla baxırlar maşınların oynuna.

Burda göydə, dənizdə topa-topa ulduzdur,
İşıq seli sularda ox təki düşüb qalıb.
Bu gecə gözəl Xəzər, sanki növrəstə qızdır,
Gur qara tellərini zümrüd sulara salıb.

Növbə qurtaran zaman binalar da gurlaşar,
Həyatsevər adamlar gəlirlər dəstə-dəstə.
Ürəklərin atəşi hünər ilə qovlaşar,
Şirin nağıla dönər sərin mehlər ahəstə.

Gündüzün zəhmətini unutdurar gecələr,
Təmiz dəniz havası gözləri yatızdırar.

Tufanların sehiri adamlarla gecələr.
Yuxulara şirinlik, şəkərlik qatızdırar.

Gecə yuxularına gələr su pəriləri,
Necə də baş vurarlar qorxmadan dərinliyə.
Almaz təki bərq vurar gümüşü dəriləri,
O ilahi mələklər öyrəşər sərinliyə.

Oğlan, qız sədaları sularda sınıb qalar,
Dolaşar Neft Daşların pak gecə gülüşləri.
Hər qəlbə, hər ürəyə şadlıq mehrini salar,
Yığar öz ətrafına hey tanış-bilişləri.

İşıq seli altında qaranlıqlar incələr,
Növbədən qayıdanlar yavaş-yavaş yatışar.
Yorğun düşmüş əl-ayaq rahatlıqla dincələr,
Burda halal zəhmətə şirin yuxu qatışar.

Sübhədək qalıb oyaq, dəniz də layla çalar,
Mehriban ana kimi oxşayar yatanları.
Coşub-daşan dalğalar qolları üstə alar,
Şərəfli əməyiylə arzuya çatanları.

Yorğunluqdan dincələn ürəklər pərvazlanar,
Sabah görülən işi bugün ölçüb-biçərlər.
Buruqlar ölkəsində həyat necə nazlanar,
Çətin görünən yoldan asanlıqla keçərlər.

Gecə qayğılarına bürünərlər ürəklər,
Xəyallar yığın-yığın alar ağzına bizi.
Sığallar sinəmizi o mələkə diləklər,
Sabaha qarşımızda açar neçə yol-izi.

Ərzin dərdi-səriylə gözlərimiz yuxlayar,
Kiminin eşq yanğısı sinədən ərşə qalxar.
Təzə-tər könülləri bir pak sevgi oxlayar,
Bir divanə məhəbbət qəlbi yandırıb-yaxar.

Buruqlar adasında ay xoş, sevdalı gecə,
Dəniz nəsimi ilə nəvaziş göstər bizə.
Həyat da çiçəklənir, sellər gurlaşır necə.
Mübarək qədəminlə çıxmışıq hər gündüzə.

Yolumuzu gözləyir halal zəhmət, şanlı iş,
Taleyimiz, ömrümüz necə bağlıdır ona.
Bu Odlar ölkəsində baş ucaldan yüksəliş,
Həyatın yollarında olub ağ saçlı ana.

Nələr keçir qəlbimdən elə bu an, bu gecə,
Ürək min bir qürurla vurur sinə içində.
Ey Şadiman, bu dövran, bu şad, firavan büsat,
İlhamdan bir qalaça qurur sinə içində.

21.12.1985

POLAD KÖRPÜLƏR

Siz polad qəfəsi Neft Daşlarının,
Keçir sinənizdən neftin dəyəri.
Xəzərin mirvari göz yaşlarının,
Ruhuna köklənmiş vuran ürəyi...

Qulaq eşidəndən, gözlər görəndən,
Nə qədər möcüzə var yer üzündə.
Tarix xəbərdardır igid, ərəndən,
Hamı da yüksəkdir onun gözündə.

Dolaşır hey ərzi sədası, ünü,
Səbirlə hörülmüş dəmir körpülər.
Küləklər adamtək üzünə gülər,
Xəzərin bağrını əmir körpülər.

Elə bil igidin polad qolları,
Ən sərt tufanları susdurur yaman,
Zəhmətə suvanmış möhkəm yolları,
Necə sinə gərir dalğaya, aman?

Boranlar, şaxtalar, qarlar, yağışlar,
Döyüb sinənizi, polad körpülər.
Heyrətdən sancılıb qalır baxışlar,
Dənizin içində abad körpülər.

Əyilən tufanlar dərddən yaslıdır,
Saldız çətinliyi bataqlığına.
Minlərin taleyi sizdən aslıdır,
Dözün fəsillərin şıltaqlığına.

Üstündə şütüyür ağır maşınlar,
İşgüzar əllərin sirli düyünü.
Burada bir birlik, bir qələbə var,
Uğurla salırsan yola hər günü.

Ekskavatorun gur səsi yüksəlir,
Titrəyir necə də polad direklər.
Burada əzablar zirvələr dəlir,
Tufanlar qopanda titrər ürəklər.

Döyür çiyinləri min bir zəhmətə,
Sözlü qərinədir, polad körpülər.
Adamın bənzəri var əmanətə,
Bəxtləri oxşayar abad körpülər.

Nə qədər fırtına görür sinəsi,
Dözür hər bəlaya titrək direklər.
Qalxır əzəmətlə boğuq nəfəsi,
Boğuq nəfəsindən doğur diləklər.

Polad direklərdən aslı maşınlar,
Necə ehtiyatla şütüyür, aman.
Dolaşır dünyanı neçə qış, bahar,
Haqqı irəliyə aparır zaman.

Dəmirdən biləkli polad körpülər,
Dözümün dirilik suyundan içir.

Ürək bu mərdliyi necə sadalar?
Burda halal zəhmət canından keçir.

Ləpələr üstündə narahat diyar,
Dəli küləklərlə titrəyər, əsər.
Adam mətanətin gücündən doyar,
Ürəklər qazancçın işə tələsər.

Düşüb, qonaq olsan burda bircə gün,
Dəmir dirəklərdə titrər ayaqlar.
Salar gah kədərə, gah sevincə gün,
Dalğa gurultusu tufan soraqlar…

Hər addım hekayət, hər addım əsər,
Dastanlı, boyludur işgüzar həyat.
Deməyin nisgili ümidi kəsər,
Şaqraq duyğuların laylasına yat.

Əsir sərin mehlər, acı küləklər,
Əsla təsiri yox burdakı işə.
O qurub-yaradan abad diləklər,
Nizamlı karvandır pak yüksəlişə!

Gecədir, ürəyim dincəlir bir az,
Dəmir diləklər də, sanki yuxlayır.
Könüldən göylərə dikəlir avaz,
Qismətim gələcək sabah qoxlayır.

27.12.1985 Nasosnu

GÖZƏL VƏTƏN

Gözəl Vətən, dur gur səsin yayılsın,
Süd gündüzlər yuxusundan ayılsın,
Zülmət gecə qoy zəhmindən bayılsın,
Hünər göstər, ürəyimiz şad olsun,
Bu hünərin şan-şöhrətli ad olsun.

Gözəl Vətən, əməyinlə ucal sən,
O şiş tağlı zirvələrdən bac al sən,
İgidlərin oylağına tac ol sən,
Son qoy qəmə, diləklərlə gül daha,
Alnı açıq get bugündən sabaha.

Nə tufandan, nə borandan qorxun yox,
Hünərin bol, zəhmətin bol, gücün çox,
Könlümüzdə istəyin var, gözün tox,
Qorxma, adla yenə çətin yolları,
Yenilməzdir cəsarətin qolları.

Gözəl Vətən, od yurduna dayaq ol,
Gecələrdən, zülmətlərdən iraq ol,
Azadlığın gözlərinə çıraq ol,
Qaranlıqlar gündüz olsun əlinlə,
Ürəyimiz qoy öyünsün sənինlə.

22.01.1987

QUBA MƏZARLIĞI

1918-ci ilin mart, aprelində erməni-bolşevik birləşmələri 50 min azərbaycan əhalisini öz yurd-yuvasında qətlə yetirdi.

Quba məzarlığı açdı tarixi,
Dünyaya bir dəhşət saçdı tarixi.
***
Çəkilmir üstündən ağrı-acılar,
Göylərin bağrına fəryad sancılar,
Ruhlar fəğan edir burda didərgin,
Ağrılar içində zamanlar gərgin.
Sünbültək biçilib qəfil insanlar,
Qan gürşada dönüb, yağıb leysanlar!
Erməni-bolşevik quldur dəstəsi,
Əllərində tüfəng, xəncər tiyəsi,
Batırıb qanlara şəhəri, kəndi,
Baş tutub bir zaman hiyləgər fəndi.
Evlərdən insanlar tökülüb çölə,
Qanlar suya dönüb, çevrilib gölə.
Uşaqlar, qocalar, qadınlar nalan,
Neçə yurd-yuvalar, məscidlər talan!
Hönkürən, qışqıran insan harayı,
Çox küncdə-bucaqda güldürdü vayı!
Can götürüb qaçan sağ qaldı o vaxt,
Hər kəsin üzünə gülmədi heç baxt...
Göylər də ağladı Quba yasına,
Fələk yaş axıtdı yerin tasına.
Öz doğma evində qırıldı millət,
Yuvalar içində şah oldu illət.
Burda fərq qoymadı düşmən heç kimə,
Müsəlman tamamən ölməli, demə.
Türk, ləzgi, yəhudi, dağlı qırıldı,
Qanlardan səmanın bağrı yarıldı.
Hamı Allah deyib göyə əl açdı,
Əzrayıl özü də zülümdən qaçdı.
Onun roluna girmiş qansızlar,
İnsan öldürməkdə birmiş qansızlar.

Qanların içində üzdü məmləkət,
Qanlardan donunu geydi fəlakət!
Qadınlar saçından asıldı o gün,
Körpələr küncləra qısıldı o gün.
Qocalar Quranla məscidə qaçdı,
Diz çöküb əllərin göylərə açdı.
Allahın evinə doldu insanlar,
Allahla təmasda oldu insanlar.
Onlar məscidə də kibriti vurdu,
Qapını bağlayıb, ağzında durdu.
Yandı qadın, uşaq orda günahsız,
Yağını bəsləyən, doğan Allahsız!
O günlər Şamaxı, Bakı qırıldı,
Siyəzən, Dəvəçi aha sarıldı.
Xaçmazda el-oba qana boyandı,
Çocuqlar, körpələr beşikdə yandı!
Bunları unutmaq olmaz, ey millət,
Unutsaq yenə də doğacaq zillət!
İrəvan, Zəngəzur, Borçalı, Dərbənd,
Təbriz, Xan Qarabağ zəncirlərlə bənd,
Gəlin bu dərdlərə edəyin peyvənd!
Türk yurdu şəhidlər məzarı olur,
Baxın, ana Vətən saçını yolur.

***

Quba məzarlığı açdı tarixi,
Dünyaya bir dəhşət saçdı tarixi.

***

Sümüklər sızlayır şivən içində…
Millətə bir haray, güvən içində!..
Ruhlar ah-fəğanla dolaşır burda,
Öz qara bəxtiylə ulaşır burda.
Körpə, qoca, uşaq, qadın kəlləsi,
Gahdan qulaqlara dəlir ah səsi.
Quyular açılıb, sirr üzə çıxıb,
Düşmənin etdiyi kir üzə çıxıb.
Lənətin o yana yolu da yoxdu,
Vətəndə bu tipli quyular çoxdu…
Nə qədər hələ də yer altındadır,
Gözəl Azərbaycan şər altındadır.

Şərin quyruğunu kəsməsək, olmaz,
Vətənin üstündə əsməsək, olmaz.
Yuvanı qorusan – yurduna dönər,
Yurdunu bəsləsən – ORDUNA dönər…

***

Yenə zaman ötüb, günlər keçəcək,
Barış şərbətini yağı içəcək…
Ancaq Soyqırımlar ürəyimizdə,
Vicdandan boylanan diləyimizdə.
Susub, bu qanlarla oturmaq olmaz,
Sandıqlar içinə yatırmaq olmaz.
Olmamış soyqırım bəsləyir yağı,
Haqqı vicdanından həsləyir yağı.
Türklərə edilən bu Soyqırımı,
Bilib, tanımalı dünyada hamı.
Haqqı qəfəslərə salanlar bilsin,
Məkiri, hiyləsi kalanlar bilsin,
Düzlüyü yoluna qaytarmaq gərək,
Düzlüklə vurmalı cahanda ürək.
Onda nahaq qanlar tökülməyəcək,
Heç bir insan könlü sökülməyəcək.

***

Quba məzarlığı açdı tarixi,
Dünyaya bir dəhşət saçdı tarixi!..

23.04.2012

QALIB ÇADIRLARDA

Sayman Aruza

Güney Azərbaycanında minlərlə bacı-qardaşımız, bu soyuq zamanda çadırlar içində soyuqdan əsməyə məhkum olunublar…

Yolladığın şəkil könlümü üzdü,
Sayman bəy, onsuz da dərdlərim közdü,
Bəsdir millətimiz sitəmə dözdü!
Əzabdan çatlayır daha dağ-daşım,
Axır ürəyimə qanlı göz yaşım.

Şəkilin üzündən tökülür soyuq,
Əlləri şaxtadan titrəyən çocuq,
Açıbdı kədəri gözündə oyuq,
Dözməyir bu dərdə düşünən başım,
Axır ürəyimə qanlı göz yaşım.

Qalıb çadırlarda didərgin ağlar,
Gəlir günbəgündən nə qanlı çağlar?
Bu acı sitəmlər sinələr dağlar,
Güneydə üzülən bacı, qardaşım.
Axır ürəyimə qanlı göz yaşım.

Qar-çovğun içində çadırlar miskin,
Adamlar kədərli, adamlar küskün,
Niyə bu millətə düşüb qaragün?
Sağ ikən, qabaqda gedir başdaşım,
Axır ürəyimə qanlı göz yaşım.

Quzeydən Güneyə harayım yetmir,
Niyə başımızdan qan-qada ötmür?
Acılar uzanır, acılar bitmir...
Necə Vətən bölən sərhədi aşım?!
Axır ürəyimə qanlı göz yaşım.

Dur, ey Azərbaycan, qap silahını,
Parçala düşməni, dağıt ahını,
Özün yoluna qoy xoş sabahını,
Qalıb əsirlikdə torpağım, daşım,
Axır ürəyimə qanlı göz yaşım.

Ağladır müsibət bu Şadimanı,
Quzeyli-Güneyli yurddu imanı,
Yığılıb boğaza daha bu canı,
Ayıl xəyallara dalan soydaşım,
Çadırlar içində donan qardaşım,
Axır ürəyimə qanlı göz yaşım.

10.11.2012

URMU GÖLÜ AĞISI

Güney Azərbaycanında
Urmu gölü yox olmaq
təhlükəsi ilə üz-üzə,
o, insanları haraya çağırır…

Çəkilib sinəmə dağlar, düyünlər,
Tərsinə çevrilib indi beyinlər,
Quruyur sularım, tükənir günlər,
Yanıb köz oluram oduma gəlin.
Ey Vətən deyənlər, dadıma gəlin.

Adımı Urmugöl qoydu dədələr,
Mənim harayıma yetmir gədələr,
Dərdimi köksümdən gəlib didələr,
Yığılın, ellilər, adıma gəlin.
Ey Vətən deyənlər, dadıma gəlin.

Tökülür bədənim qəfəs oluram,
Anbaan quruca nəfəs oluram,
Bəmdə inildəyən bir səs oluram,
Bəmimə zil tutun, addıma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Məni Urmu deyib, öyürdüz axı,
Mənə sevgili yar deyirdiz axı,
Qalxır asimana köksümün ahı,
Güneyli, Quzeyli yardıma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Daha quş karvanı gölə gəlməyir,
Mənim ağılarım dilə gəlməyir,
Sularım quruyur, ələ gəlməyir,
Durun, qoşun çəkin, yurduma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Babəkin kəsilən qolu haqqı ki,
Nəsimi soyulan yolu haqqı ki,
Sərdari-millilər halı haqqı ki,
Hələ can üstəyəm, vardıma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

İndi ağım ilə yüklənib Güney,
Min bir əzablarla rənglənib Güney,
İranda, ey dunya, təklənib Güney,
Dillər haraylayan, sorduma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Mən sussuz yaşaya bilməyəcəyəm,
Sularım coşmasa, gülməyəcəyəm,
Mənə can desələr, ölməyəcəyəm,
Düşün cığırıma – ardıma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.

Şadiman, bilirəm yanırsan mənə,
Sən də bu gölümü anırsan mənə,
Gəl, ey şair qızım, su lazım tənə!...
Dərdi ləşgər çəkən, orduma gəlin,
Ey Vətən deyənlər, dadıma gəlin.
Ey Vətən deyənlər, dadıma gəlin.

26.07.2012

TÜRKÜN BAYRAĞI

Yanacaqdır yerdə, göydə nurlu, parlaq çırağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

O sevdalı ürəklərdə alışacaq şam kimi,
Zülmətlərə udduracaq yağını axşam kimi,
O Turanın sinəsində coşub-daşan kam kimi,
Altaylarda, Türküstanda gəzəcəkdir sorağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Canımızdan, qanımızdan, ruhumuzdan boylanır,
Onun rəngin görən düşmən fəryad çəkir-oylanır,
Çıxır əngin asimana, başımıza haylanır,
Birləşəcək Turan ellər, görəcəkdir xoş çağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Qurd ürəkli kişilərin məkanıdır uluslar,
Qan yaddaşa qayıtmağın təkanıdır uluslar,
Şərəf, namus, qeyrət, ismət ərkanıdır uluslar,
Kəsiləcək Türk yurdlardan yağıların ayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Gələcəkdir bir araya, Ərəm, deyən oğullar,
Qurd ruhundan qopub çıxan, nərəm, deyən oğullar,
Silah qapıb xainləri, gərəm, deyən oğullar,
Sibiryadan, Tatarlardan uçacaq yel sayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Çanaqqala savaşının qanı gəzir üzündə,
Şəhid ruhu alov saçır torpağının özündə,
Məhşərətək haray çəkir ocağının közündə,
Yağı özü yaddır ona, yağı sözü bayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Türk torpaqlar Ay-Ulduzlar istiqlalın doğacaq,
Onun ruhun sındıranı künc-bucağa sığacaq,
Bayraqların, Türkəm, deyən bir sıraya yığacaq,

Artacaqdır sülhsevənin bu topluma marağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Göy atların kişnərtisi qulaqlardan getməyir,
Tarixlərin havacatı hələ başdan ötməyir.
Əllərimiz ayrılalı bir-birinə yetməyir,
Qıpqırmızı sancağıdır könlümüzün dayağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Türkiyənin səmasından gəl-gəl deyir bizlərə,
Sığal çəkir al rəngiylə şəfəqli gündüzlərə,
İşığından nur ələnir könüllərə, üzlərə,
Süslənibdi məhəbbətlə tarix dolu varağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

Yanacaqdır yerdə, göydə nurlu, parlaq çırağı,
Enməyəcək səmalardan heç vaxt Türkün bayrağı.

09.11.2012

ƏSLİ-SOYU TAMAM DANAN

Əsli-soyu tamam danan,
Hardan gəlib, hara getdi?
Doğmaya yox, yada yanan,
Harda idi, hara yetdi?

Bədən cana xain çıxmaz,
Yaramaza kimsə baxmaz,
Şər əlindən heç buraxmaz,
Bülbül susdu, qarğa ötdü.

Qırantlarla bəslənənlər,
Bu eşq ilə süslənənlər,
Düşmənlə bir səslənənlər,
Könlə gələn sözdə bitdi.

Atı minib, tərsə çapan,
Öz xalqına çirkab atan,
Bilinməyir anan, atan,
Bilinirsə nə xislətdi?

Şər yağıdı, bəlli üzü,
Fitnə-fəsad hər bir sözü,
Baş açmaq da olmur düzü,
Kök birsə nə xəyanətdi?

Şadimanı çək çarmıxa,
Fitvalara verməm yaxa,
Xalqın gözü baxa-baxa,
Düşmənə nə ibadətdi?

14.02.2013

HEÇ OLMADI BİR XOŞ GÜNÜMÜZ

Heç olmadı bir xoş günümüz, ay bahalanma,
Aldı başımız üstünü ah-vay, bahalanma.

Çoxları tökür başına şabaş təki pulu,
Bir bilməyirlər nədir o say, bahalanma.

Qəpik-quruşa meylimizi etmişik pənah,
Gözdə yaşımız olmadadı çay, bahalanma.

Bizlər də axı bu Vətənin övladı olduq,
Harayımıza kimsə demir hay, bahalanma.

Yaşayış pulu, işıq pulu, qaz pulu artar,
Başımızı bir dürtməyə yox tay, bahalanma.

Dediklərimə inamını etmirsən rəva,
Onda dur özün dərdimizi say, bahalanma.

Bu andıra qalmış nöyütdən görmədik səfa,
İçlərdəki ahlarımızı yay, bahalanma.

Üzdə gülüşə olmayacaqdır daha hacət,
Dolaşıq olub bizlərə gün-ay, bahalanma.

Vətən əhli dükan-bazarı eyləyir seyir,
Borclar da edib günümüzü zay, bahalanma

İndi daha səhər bizə lazım deyil əsla,
Deyək bütün yatmışlara lay-lay, bahalanma.

Bu Şadimanın dilinə dinc durmağı dedim,
Töhmətləri etdi mənə çox pay bahalanma.

17.12.2013

AĞRISIN TARİXƏ SALAN ALBANYA

Əsirlər içində yatır taleyin,
Göy yeddi qatına çatır taleyin,
Səni müsibətə atır taleyin,
Qəsiri, qalası talan Albanya,
Ağrısın tarixə salan Albanya.

Sən ki, Qafqaz adlı yerdə doğuldun,
Dinlər savaşında ahdan boğuldun,
Sanki Cavanşirlə qoşa nağıldın,
Varlığın olubdu yalan, Albanya,
Ağrısın tarixə salan Albanya.

Sənin «Əsli-Kərəm» dastanın haray,
Müsəlman Kərəmlə xaç Əslində vay,
Dur, yatmış bəxtinlə sal aləmə hay,
İstəkli ellərin nalan Albanya,
Ağrısın tarixə salan Albanya.

Qalx Dədəm Qorqudun naləsin oyat,
Sənə sitəm dolu dərd verdi həyat,
Şöklü Məliklərin bağrı etdi çat,
Gəlmə Haylar oldu balan Albanya,
Ağrısın tarixə salan Albanya.

Tarixin, əlifban yad ələ keçdi,
Sənin doğmaların şərdən qan içdi,
Təni haray çəkdi, dərdi can içdi,
Əzablar içində solan Albanya,
Ağrısın tarixə salan Albanya.

Kəlisan, inancın Hay tayfasında,
Həqiqət inləyir, şər səfasında,
Dünyanın nə qalıb haqq vəfasında?
Saçını ah-ufla yolan Albanya,
Ağrısın tarixə salan Albanya.

İndi Qarabağın matəm içində,
Ordakı yerlilər sitəm içində,
Haylar soy-kökünü şərlə biçində,
Öz qara bəxiylə dolan Albanya,
Ağrısın tarixə salan Albanya.

Haylar torpağını Hayıstan etdi,
Terrorla, qırğınla yurdu qan etdi,
Uddu tarixini, mərama yetdi,
Qıpçağın, udinin balan, Albanya,
Ağrısın tarixə salan Albanya.

Səndə iyrmi altı el birləşirdi,
Əlli iki hərfli dil yerləşirdi,
Bəxtinə çarların sehri düşürdü,
Çökdü taxtı-tacın, qalan Albanya,
Ağrısın tarixə salan Albanya.

Biz uzaq düşdükcə keçmişimizdən,
Düşmən xəta yapdı hər işimizdən,
Bizim unutqanlıq vərdişimizdən…
Bu dərdlər olubdu bəlan Albanya,
Ağrısın tarixə salan Albanya.

Demirəm biz xaça qayıdaq indi,
Deyirəm, olmuşu oyadaq indi,
Deyirəm, haqq desin dil-dodaq indi,
Deyirəm, dur, yurdu dolan, Albanya,
Ağrısın tarixə salan Albanya.

Şadiman ah ilə bu dərdi yazar,
Çəkdiyin sitəmə eyləyər həzar,
Sənə dağ çəkənə yar olsun məzar,
Öz əsir laylasın çalan Albanya,
Ağrısın tarixə salan Albanya.
Ağrısın tarixə salan Albanya.

07.01.2013

PULUM EY, PULUM

Alimlər qarşında çökər,
Məndən yazmaqçın dil tökər,
Sözdən mənə qala tikər,
Pulum ey, pulum.

Qapımdan necə girmisən?
Məni nə yaxşı görmüsən,
Bəxtimə düşən dürmüsən?
Pulum ey, pulum.

Aldığım diplom sənlədi,
Alimliyim o günlədi,
Dar cığırım enləndi,
Pulum ey, pulum.

Bu yurd nə yaxşı məkandı,
Para əldə bir sükandı,
Hər işimdə bir təkandı,
Pulum ey, pulum.

Hamı məndən danışarlar,
Tərif üçün yarışarlar,
Hər dərdimə qarışarlar,
Pulum ey, pulum.

Oxudub zalım edərsən,
Sən məni alim edərsən,
Ad üçün aya gedərsən,
Pulum ey, pulum.

Əlimdən tutub yazarsan,
Hər kəsə quyu qazarsan,
Hərdən yolu da azarsan,
Pulum ey, pulum.

Səcdəmə durub gələrlər,
Baxıb üzümə gülərlər,
Dərdimdən düşüb ölərlər,
Pulum ey, pulum.

Qapılar özü açılar,
Gözlərdən günəş saçılar,
Sədlər, sərhədlər uçular,
Pulum ey, pulum.

Qəzet, jurnal dildən düşər,
Nəşriyyatlar əldən düşər,
Adım ən başda yerləşər...
Pulum ey, pulum.
Pulum ey, pulum

13.07.2011

BALIQ BAHA, DAHA ƏTİ YEMİRƏM

Kasıbların dilindən

Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Bahalaşır hər gün ərzaq qiyməti,
Nədir belə möhtəkirlər niyyəti?
Dükan-bazar yıxır-sökür milləti,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Varlıların gözü qızır, ay aman,
Haqqı danıb, yoldan azır, ay aman,
Kasıblara quyu qazır, ay aman,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Çoxdan alıb başımızı qan-qada,
Qarabağda yurdlar susub fəryada,
Niyə biz də gün görmədik dünyada?
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

İşsizlərin sayı artır günbəgün,
Atlar dönüb, olur qatır günbəgün,
Millət düşüb, xəstə yatır günbəgün,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Bir vaxt xoşbəxt olacaqmı, bu ölkə?
Süfrəsin bol salacaqmı, bu ölkə?
Yenə dala qalacaqmı, bu ölkə?
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Neft çıxaran Vətəndə hər şey baha,
Harınların qorxusu yox heç daha,

Nərdivanı qoyub çıxır Allaha,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Qiymətlər də gündən-günə artmada,
Kasıb-kusub sinəsini yırtmada,
Çoxu hələ xorxa-xorxa yatmada,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Kim olacaq bu millətin arxası?
Canımızdan nə qalıb ki, qorxası,
Şər əlində haqqımızın yaxası,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Neft çıxaran ölkənin bax halına,
Haram ciblər içdə qalan malına,
Daraşıbdı qurdlar-quşlar yalına,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Kasıbların bir dərmanlıq pulu yox,
Yaşamağa bağlanıbdı yolu yox,
Tərpənməyə, danışmağa halı yox,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

İnfarkt, xərçəng cumur xalqın üstünə,
Şəkər durub camaatın qəsdinə,
Yamanlığı artıranın qəsdi nə?
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Əzizlərim pensiyaya çatmadı,
Pul-parasız xəstəliyə batmadı,
Gecələri ağrılardan yatmadı,
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Millət qaçır həkim üçün İrana,
Dava-dərman burda baha, sorana,
Mühakimə yoxdu yara vurana?
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

Şadimana sən danışma, sus dedim,
Tut dilini, dar ağacdan as dedim,
Gətirməyən kor bəxtini pus, dedi:
Balıq baha, daha əti yemirəm,
Dərdlərim bol, bir çoxunu demirəm.

09.01.2014

ERMƏNİ GÜLLƏSİ BATMADI SƏNƏ

Özünə od vuran Qarabağ Qazisi
Zaur Həsənova

Erməni gülləsi batmadı sənə,
Səni bizimkilər yaman batırdı.
Bizdə unutqanlıq olub ənənə,
Nəsildən-nəsilə yurda yatırdı.

Özünə od vurub, canına qıydın,
Məmur hikkəsinə dözməyən Qazi,
Balalar önündə bunu haqq duydun,
Ağrını, acını çözməyən Qazi.

Çoxu künc-bucaqda gizlənən zaman,
Vətən harayına savaşa qalxdın.
Haqqı tapdalayan bilməyir iman,
Qapılar dalına haqqı buraxdın.

Hələ yurd-yuvalar işğal altında,
Biz öz-özümüzə qənim olmuşuq.
Fəryadın inləyir göyün qatında,
Acı müsibətə, demə, yolmuşuq…

Canına qıymağı günah sayırlar,
Buna sövq edənin yeri cəhənnəm.
Bəndələr özünü allah sayırlar,
Sərvətdən, kürsüdən başlar olur dəm.

Biz Qarabağ boyda dərd daşıyırıq,
Bu dərddən varlanıb, şişənlər nə çox.
Təslimçi adıyla şən yaşayırıq,
Dilimiz neştərtək bir-birinə ox!

Ey Vətən insanı, nə günə düşdük?
Qarabağ Qazisi özün yandırır!
Bəs hansı tilsimə, düyünə düşdük?
Yurdumuz-yuvamız ah oyandırır.

İnsanı canından bezdirən kəslər,
Sizlər vəzifəyə xalqçın gəlmisiz.
Vicdanı çuvalda gəzdirən kəslər,
Haqsızlıq üçün yox, haqçın gəlmisiz.

Ey Vətən övladın tapdalayanlar,
Bizim işğal altda torpağımız var!..
Xalqı güvə kimi sərt dalıyanlar,
Bizim Güney boyda bir dağımız var!..

Bu gecə yuxular qaçıb gözümdən,
Alışan Qazinin səsi qulaqda.
Bu gecə göz yaşım baxır üzümdən,
Sözlər sətir-sətir donur varaqda.

Ailə başına tökülsə də pul,
Onlar ata dağı daşıyacaqlar.
Evin sütununa əkilsə də pul,
Ömürlük ağrıyla yaşayacaqlar.

Özünə od vuran Qazi məzarda,
Ölən ümidləri başdaşı oldu,
Yetim balaları qaldı ah-zarda,
Bu tarix – Vətənin göz yaşı oldu!

30.12.2013

BƏNZƏR

Əsir taleyimdə acı rüzigar,
İsti ilğımları yellərə bənzər.
Ələnir başıma illərdən ağ qar,
Buzları ərimiş sellərə bənzər.

Niskilli günlərim ötüşmür yenə,
Hicran yaraları bitişmir yenə,
O vüsal məqamı yetişmir yenə,
Yurdu darda qalmış ellərə bənzər.

Dünyanın acısı bəxtimi uddu,
Binəva ürəyim dolmuş buluddu,
Bəmdə nalə çəkən könlüm bir uddu,
Simləri qırılımış tellərə bənzər.

Qalmadı cahanın zülümdən hayı,
Gəlib-gedəninin çıxıbdı zayı,
Ərzi alışdıran könlümün vayı...
Ölüsünə ağlar dillərə bənzər.

Ömrümün anları saralan xəzan,
Minbərdən inama hayqıran əzan,
Hər səhər qapımı döyəcləyən an,
Bağımda saralmış güllərə bənzər.

Qələmim vərəqi yordu dedilər,
Hər gələn, hər gedən sordu dedilər,
Şadiman od altda qordu dedilər-
Sönmüş ocaqlarda küllərə bənzər.

18.02.1995

SƏNİ UCALIQDAN DÜŞÜRMƏYƏYDİLƏR...

Ey insanların günahını,
Müqəddəs Allahını
danan ürək,
Gah çirkinlikdə, gah təmizlikdə
yanan ürək.
Kaş səni cocuqluqda olduğun kimi,
Büllur doğulduğun kimi
Saxlaya biləydilər,
Səni gülab təki qoxluya biləydilər.
Beyni, idrakı bişirməyəydilər,
Səni ucalıqdan düşürməyəydilər.

***

Ey insanların günahını,
Müqəddəs Allahını
danan ürək,
Hər sinədə yanan ürək.
İtirdin həyanı,
Qazandın riyanı.
Yerin adəm bədənində bir bucaq,
Sən bəşərin əlində oyuncaq.
Murdar hisslərin cəngində,
Həm yoxsulda, həm zəngində...
Boğulmaqda,
Partlayıb iç dünyamıza dağılmaqda.
İndi nə bilim loğmanlar, həkimlər,
Daha bilmirəm kimlər?
Səni infarktın əlindən almaq istəyir,
Ey bəşərin tacı,
Varmı dərdinin əlacı?...

***

Ey insanların günahını,
Müqəddəs Allahını
danan ürək,
Hər qazanda yanan ürək.
Sənin törətdiyin cinayətlər,
Dünyanı qanlı köynəyinə
Buladığın bəd niyyətlər...

Yerə müharibə gətirdi,
Təmizliyi itirdi.
Sən adəm övladına gərəksənsə,
Beyni əsir edən ürəksənsə,
Niyə idrakı bişirdilər?
Səni ucalıqdan düşürdülər!
Sənə üz verən bəla,
Saldı bizi miskin hala.
Bu insanlığa zülm,
Neçə-neçə yarımçıq arzu, qəfil ölüm.
Sən bu suallar önündə əsir,
Varlığın həyatla ölüm arası sirr...
Kaş idrakı bişirməyəydilər,
Səni ucalıqdan düşürməyəydilər!..

29.12.1997

KİMƏ NƏ?

Dərdlərimin hesabı da çözülməz,
Çarə tapmaz loğmanı yox, kimə nə?
Qəmin əli ətəyimdən üzülməz,
Bir xoş gələn zamanım yox, kimə nə?

Qara-qara yuxuları yozmağa,
Yazılmışı alınımdan pozmağa,
Dərdlərimi vərəqlərə yazmağa,
İqtidarım, amanım yox, kimə nə?

Ələyində ələnirəm dövranın,
Alıb üstün, yıxıb evin qəm canın,
Qamçısıyla döyülürəm hər anın,
Bu halımı umanım yox, kimə nə?

Şadimanı həyat çəkdi çarmıxa,
Zalım fələk, qaçar olsam sar mıxa,
Cəllad yara, yaralara göz baxa...
Təbib bulan dərmanım yox, kimə nə?

25.04.1994

YIXDI KÖNÜL MÜLKÜNÜ
HİCRAN DOLU ƏNDİŞƏ

Yeri, göyu yandıran bu sitəm abad deyil,
Ürəyimin ahına fəqanlarım yad deyil,
Bağırımdan hayqıran imdaddı, fəryad deyil,
Qəlbimi ovutmağa tapmıram sakit güşə,
Yıxdı könül mülkümü hicran dolu əndişə.

Ömür atına minib zaman məni sürüdü,
Dərd yığıb qoşununu ətrafımı bürüdü.
Titrəyən duyğularım vaxt içində əridi.
Saat quduz qurd təki anları çəkdi dişə.
Yıxdı könül mülkümü hicran dolu əndişə.

Acıların içindən bəxtimə yol tapmadım,
Qəmimə oldum aşiq eşqə qala yapmadım,
Ömrün dolaylarında sağa-sola çapmadım,
Yar olmadı könlümə nə şadlıq, nə də nəş'ə,
Yıxdı könül mülkümü hicran dolu əndişə.

Əzablarım tükənmir, bu cahana qaç deyir.
Döyür həyat qapısın, gəl qapını aç deyir.
Yan mənim alovuma, atəşlərdə saç deyir.
Necə dözüm ömürlə edilən bu gərdişə?
Yıxdı könül mülkümü hicran dolu əndişə.

Şadimanın ahına inildəyir qələmim,
Məndən əvvəl doğulub bu dünyada ələmim.
Siz deyin yerlər, göylər necə imdad diləmim?
Ürəyimi taxırlar kabab təki hər şişə,
Yıxdı könül mülkümü hicran dolu əndişə.

16.10. 2003

MƏN BELƏ YAŞAYA BİLMİRƏM, ALLAH

Canım bədənimdən çıxır, neyləyim?
Tənimə yağıtək baxır, neyləyim?
Üstümdən qəm seli axır, neyləyim?
Aləmi yandırıb-yaxır, neyləyim?
Bu yükü daşıya bilmirəm, Allah,
Mən belə yaşaya bilmirəm, Allah.

Gözün gördüyünə göz gah-gah deyir,
Görürkən korluğun bir günah deyir,
Ağrını açılan hər sabah deyir,
Sinəm köz bağlayıb, könül ah deyir.
Yaramı qaşıya bilmirəm, Allah,
Mən belə yaşaya bilmirəm, Allah.

Can dərdə həvəskar, dövran naxələf,
İblis sinələr də haqqına xələf,
Edir ümidləri inamı tələf,
Lalə bitən yeri basır ot-ələf.
Nə deyim naşıya, bilmirəm, Allah?
Mən belə yaşaya bilmirəm, Allah.

Sinəm haray çəkir, ağlım suçlanır,
Haqsız zamanədə ömrüm puçlanır,
Dərdim gillələnir, qəm ovuclanır,
Ağrımın cığırı aha uclanır,
Nə gələr qarşıya bilmirəm, Allah?
Mən belə yaşaya bilmirəm, Allah.

Buludlar toqquşdu, leysanam dedi,
Yerlərə, göylərə lisanam dedi,
Torpağın bağrına ehsanam dedi,
Əfsus ki, hər yetən, insanam dedi…
Bu adı daşıya bilmirəm, Allah,
Mən belə yaşaya bilmirəm, Allah.

Bu dünya can yükü – çəkənlər qəmi,
Bağrını nalədən – sökənlər qəmi,
Zülümün ayağna – çökənlər qəmi,
Bu yolda belini – bükənlər qəmi,
Daşmaya, daşa ya, bilmirəm, Allah?
Mən belə yaşaya bilmirəm, Allah.

Ağlımız əsirdi ürək deyənə,
Hər an tərəzinin gözün əyənə,
Can dedik haqq, nahaqq başa döyənə,
Şərin əli keçib çoxdan yüyənə,
Aşmaya, aşa ya, bilmirəm, Allah?
Mən belə yaşaya bilmirəm, Allah.

Şadiman, qəm qəlbə əzəldən qubar,
Könlün baharını etməyə nübar,
Harayım göy yırtıb, dil çalıb qabar,
Sinəmin məkanən təb edir anbar,
Coşmaya, coşa ya, bilmirəm, Allah?
Mən belə yaşaya bilmirəm, Allah.

12. 11. 2003

ZƏHƏR VAR ALTINDA YAĞLI DİLLƏRİN

Hər kəsin könlünü sanma cana yar,
Bağrının başını avarə qoyar.
Didər nizəsiylə, könlünü oyar,
Zənn etmə, içdikcə qanını, doyar,
Qorxusu çox olur əsən yellərin,
Zəhər var altında yağlı dillərin.

Üzünə güləndən qoru özünü,
Gecə alıb udar al gündüzünü,
Tufan ocağından udar közünü,
Aşikar eyləmə ürək sözünü,
Yağış aynasıdır axan sellərin,
Zəhər var altında yağlı dillərin.

Sənə can deyəndən canını həslə,
Düşmə ayağına elə həvəslə,
Zindan, zindan olur, yalnız qəfəslə!
Hiylə ciyərinə girər nəfəslə,
Hər kəsə dinlətmə könül tellərin,
Zəhər var altında yağlı dillərin.

Hər ağrı-acının qəhəri olur,
Bal verən arının zəhəri olur,
Hər gələn bəlanın bəhəri olur,
Zamanın bəd çapan kəhəri olur,
Tanrı alır bir-bir ömrün illərin,
Zəhər var altında yağlı dillərin.

Bu canın o cana yolu olmayır,
Canın gizlənməyə kolu olmayır,
Hər dolan buluddan dolu olmayır,
Günahın imzası, qolu olmayır,
Məkri və zikiri çoxdu ellərin,
Zəhər var altında yağlı dillərin.

Çoxu öz canını bağlayar haqqa,
İman qul olubdu bə'zən nahaqqa,

Dil fəryad qoparar, bağırar haqqa,
Düzlük qiymə-qiymə, haqq şaqqa-şaqqa,
Fitnəsi mərd udur şər əməllərin,
Zəhər var altında yağlı dillərin.

İnsanın varlığı haqqın siridi,
Canı bədəninə parlaq dürüdü,
Hiyləsi, fitnəsi könül kiridi,
O da canlılardan, vallah, biridi,
Batırıb qanlara çoxdan əllərin,
Zəhər var altında yağlı dillərin.

Başına tumarı çəkəndən qorun,
Könlünün bağında səkəndən qorun,
Ora bir fidanı əkəndən qorun,
Acına göz yaşı tökəndən qorun,
Özülü boş olar bəd təməllərin,
Zəhər var altında yağlı dillərin.

Kül solub gedəndi, köz alışandı,
İnsan taleyiylə çox barışandı,
Ömür zamanıyla hey yarışandı,
Nahaqq, haqq, hər işə o qarışandı,
Fitnəsi dağ yıxar xoş könüllərin,
Zəhər var altında yağlı dillərin.

Bu həyat aləmi hər başa sınaq,
Çalış olmayasan sən ona qınaq,
Gəl can yuvamıza, Şadiman, qonaq,
Allah verən ömrü birlikdə yanaq,
Hər gələn tuşlayır gözə millərin,
Zəhər var altında yağlı dillərin.

06. 01. 2003

MƏNİ BU TALELƏ TƏK BURAXMAYIN

Dərmansız dərdimə çara demədim,
Mənim deməyimə siz heç baxmayın.
Yaram qan axıtdı yara demədim,
Məni bu talelə tək buraxmayın.

Siz ey varlığımdan xəbər tutanlar,
Dəli harayıma gəlib çatanlar,
İstəklə könlümdə birgə yatanlar,
Məni bu talelə tək buraxmayın.

O ürək ağrısı, o can sovqatı,
Heç zaman düzəlməz daha ovqatı,
Əzabdan əzaba bükülür qatı,
Məni bu talelə tək buraxmayın.

İynə ucu boyda işığı yoxdu,
Onun qəlbim kimi aşığı yoxdu,
Zəhəri udmağa qaşığı yoxdu,
Məni bu talelə tək buraxmayın.

Mən can deyəniyəm, o can alanı,
Nə doğrusu varmış, nə də yalanı,
Bircə ümid imiş olub-qalanı…
Məni bu talelə tək buraxmayın.

Şadiman hicrandan boylanıb baxır,
O nə kürədir ki, yandırıb yaxır,
Yenə göylərində ulduzu axır,
Məni bu talelə tək buraxmayın,
Məni bu talelə tək buraxmayın.

05.03.2011

PİSLİK GÜNAHDAN GƏLİR

Pislik günahdan gəlir,
Ağrılar ahdan gəlir,
Əcəl Allahdan gəlir,
Bunu bilən insanın,
Fələk qoruyar canın...

05. 03. 2004 / Pirallahı

QOPDU ÜRƏYİMDƏ PAYIZ KÜLƏYİ

Qopdu ürəyimdə payız küləyi,
Könlümün atəşin yellər apardı.
Fəryadım oxladı qəlbdə diləyi,
Onun harayını ellər apardı.

Hər anın acısın daddıqca, daddım,
Ağrını sinəmin içinə qatdım,
Yatmış duyğuları eşqlə oyatdım,
İztirab acısın tellər apardı.

Can ahdan xoflandı, ürək qüssədən,
Dərd dönüb dağ oldu hissə-hissədən,
Buludlar çaxnaşdı odu busədən,
Şimşəyin alovun çöllər apardı.

Hicranım ah dedi, vüsalım sabah,
Səhərlər içimdən doğdu min günah,
Can bərkə düşəndə dil dedi: « Allah! »
Sinələr fəqanın dillər apardı.

Şadiman, nədir ki, candan ayrılan?
Xəncərtək sıyrılıb qından ayrılan,
Zamandan sıçrayıb andan ayrılan,
Hər insan ömrünü illər apardı.

19. 09. 2004

YAXŞI ADAMLARI GƏLİN QORUYAQ

Yaxşı adamları gəlin qoruyaq,
Onların eşqinə durur bu həyat.
Allaha açılmış əlin qoruyaq,
Gah xeyrə, gah şərə vurur bu həyat.

Zalımlar artıqca, vicdan kiçilir,
Ağlın hesabına ürək biçilir,
Gözlə baxa-baxa haqdan keçilir,
Şərə tacı-taxtı qurur bu həyat.

Yaxşı adamları sipər eyləyək,
Zülmün qabağına çəpər eyləyək...
Hər cana düzlüyü təpər eyləyək,
Ürəyi heç nədən qırır bu həyat.

Ey bəşər, bir düşün, yolun haradı?
Yamanlıq edənlər üzüqaradı,
Hər bir müşkülünə iman çaradı,
Kimə qəm, kiməsə qürur bu həyat.

Yaxşı adamların zəkası bahar,
Dünyanın dərdindən ciyəri ahar,
Könlümün qanıyla qəm edir nahar,
Ağlıyla yuxudan durur bu həyat.

Bədəndə can deyil, mələk gəzdirir,
Haqqı yaşatmaqçın dilək gəzdirir,
Yaradanı sevən ürək gəzdirir,
Qəlbimin səsiylə vurur bu həyat.

Yaxşı adamları gəlin qoruyaq,
Duyğulu sevdasın cana sarıyaq,
Usanıb yaxşıdan pisi arıyaq,
Yoxsa hamımızı qırır bu həyat.

Şadiman tifili sanmayın dəli,
Haqqına uzanıb yetməyir əli,
Şərdən zədələnib insan təməli,
Ona min cür divan qurur bu həyat.

19. 02. 2004

DÜZLÜYÜ AXTARMIŞAM

Düzlüyü axtarmışam dünyada ömrüm boyu,
İxtiyarım olsaydı qurardım şərə toyu,
Çalışardım hər oba düzlüklə nəş'ələnsin,
Göylərdən yağış təki yerə düzlük ələnsin.
Riya, yalan önündə heç kəs boyun əyməsin,
Dünyada bir acı dil bir ürəyə dəyməsin.
Sözündə bütöv olsun hər dilin öz sahibi,
Duru olan bulağın aydın görünər dibi!
Yalan dalınca qaçan özünü aldadacaq,
Hər gözdə bir şölədi, tezcə alışar ocaq.
Ev yıxıb, ara vurmaq bu dünyada şər işi,
Yıxılanı qaldırmaq ta adəmdən ər işi.
Şirin xanım, könlünü sıxmasın ələm, kədər,
Hər addımda köməyə gələcək ölçü, qədər.

25.08.1989

EY SƏADƏT QUŞU, HARDA QALMISAN?

Ey səadət quşu, harda qalmısan?
Bəs mənim başıma niyə qonmadın?
Hansı bəxtəvərin könlün almısan?
Gəlib əhvalıma bir dəm yanmadın.

Çalıb qanadları ötdün yanımdan,
Çırpındım dəlitək həyacanımdan,
Çıxmır məhəbbətin, çıxmır canımdan,
Nədən varlığımı heç cür anmadın?

Mən sənin hüsnünün aşiqi ikən,
Tərk edib getmisən könlümü erkən,
Sən ki, saray yapan, sən ki, ev tikən,
Bəs mənim qapımda heç dayanmadın.

Ey səadət quşu, könlüm havalı,
Dəyir hər gün ona şərin zavalı,
Təbim elə çalır dəfi, qavalı,
Onun sədasına bir oyanmadın.

Mən körpə uşaqkən sən qanad açdın,
Neçə yol başımın üstündən uçdun,
Mən hara getdimsə, sən ora qaçdın.
İndi o günləri niyə sanmadın?

Gözlərim göylərin ənginliyində,
Səni arayıram zənginliyində,
Ömrümün, günümün gərginliyində,
Mənim atəşimə bir boyanmadın.

Səni səsləməkdən dildən olmuşam,
Sənə əl etməkdən əldən olmuşam,
Ömürdən olmuşam, ildən olmuşam,
Bu qədər möhnətdən heç usanmadın.

Ey səadət quşu, Şadiman xəstə,
Yüklənib ağrılar ürəyi üstə,

Mənim taleyimlə gəl durma qəsdə,
Heç kəsin varlığın axı danmadın…?

18.10. 2004

EY MƏNİM RUHUMA CAN OLAN, FƏLƏK

Əsdi səmum yeli könlümü aldın,
Qəlbi tufanların içinə saldın,
Onunla üz-üzə, göz-gözə qaldın,
Sən necə oynatdın min bir cür dilək?
Ey mənim ruhuma can olan, fələk.

Titrətdin eşqimi, məhəbbətimi,
Qurdun ayrılıqla vaxt ülfətimi,
Artırdın hicrinlə sən xiffətimi,
Hönkürdü, ağladı qarşında ürək,
Ey mənim ruhuma can olan, fələk.

Dilindən düşmədi heç zaman adım,
Aləmə hay saldı dəli fəryadım,
Tək sənə yetmədi, bəs niyə dadım?
Bu ahı bir kərə duyaydın gərək,
Ey mənim ruhuma can olan, fələk.

Möhnət ağrısından sinəm hıçqırdı,
Arada sevdanı möhlətin qırdı,
Bağrım nəş‘ələrin ələmin vurdı,
Əsdi tufanlara öc verən külək,
Ey mənim ruhuma can olan, fələk.

Qaçan zamanımın atəşin aldın,
Verdiyi əzaba mehrini saldın,
Yenə Şadimana eşqinlə qaldın,
Aç bu möcüzənin sirrini bilək,
Ey mənim ruhuma can olan, fələk.

26.03.2008

ÜRƏYİM AĞLAYIR GÜNÜMƏ MƏNİM

Soyuq baxışlardan üşüyür canım,
Zamanım sızlayır ünümə mənim.
Halıma can deyir dəqiqəm, anım,
Ürəyim ağlayır günümə mənim.

Əsən payızımın mehri bilinmir,
Titrəyən bağrımın qəhri bilinmir,
Dərdim öz işində sehri bilinmir,
Ürəyim ağlayır günümə mənim.

Dünyaya vəfasız deyən insanlar,
Nə bir hala yanar, nə dili anlar,
Hara gedirəmsə dərd məni yanlar,
Ürəyim ağlayır günümə mənim.

Bu yazıq könlümə səhman bilmədim,
Kimsəni sinəmə mehman bilmədim,
Hər can yiyəsini rəhman bilmədim,
Ürəyim ağlayır günümə mənim.

Çıxıb Şadimanın tənindən canı,
Titrədir aləmi can həyacanı,
Buzladır könlümü ağlın üsyanı,
Ürəyim ağlayır günümə mənim.

13.10.2007

KİM DEYİR HEÇ NƏYİ APARMIR İNSAN?

Deyirlər nə qədər yığsan sərvəti,
Sağ ikən olsa da can səadəti.
Yaradan bizlərə qoyubdu qayda,
Qalır bu dünyanın malı dünyada.
Yığdığın olacaq əllərdə asan,
Lüt gəlib, lüt gedir həyatdan insan.
Amma bunu deyən, yanılır müdam,
Ölərkən, günahın aparır Adam.
Günahlar cürbəcür, günahlar əsir,
Elə günahlar da adamı kəsir.
Dirikən duymayan vicdan əzabı,
Ruha çəkdirəcək can iztirabı.
Günahın ağrısı – ruhun zülümü,
Sağ ikən yaddaşdan silmir ölümü!
Qopur tən evindən hər canın ahı,
Özünə yük edir gedən günahı.
Bu yükü aparmaq deyildir asan,
Kim deyir heç nəyi aparmır insan?!...

06.02.2008

QAPIMA DÜŞMÜRSƏN MÖHLƏT AÇARI

Qapıma düşmürsən möhlət açarı,
Bəs bağlı qapıdan necə çıxım mən?
Əqrəblər qəfəsdən quştək uçarı,
Ömür gedən yola hardan baxım mən?

Baş öz əzabına dolaşıb qalıb,
Onu canı bilib yollaşıb qalıb,
Fikirlər ağrıya bulaşıb qalıb,
Onları könlümə nə buraxım mən?

Xəyalım özünə munis axtarır,
Məftunu olduğu pak hiss axtarır,
Bə'zən ürəyimi çox pis axtarır,
Onun qurduğunu niyə yıxım mən?

Qəlbim titrəmədə, ağlım təlaşda,
Açarsız qıfılda qaldım bu yaşda,
Qapı arxasında çatlardı daş da,
Daş olan baxtımı nəylə sıxım mən?

Zamanın zənciri kürəyə vurur,
Yerin titrəməsi dirəyə vurur,
Başın işləməsi ürəyə vurur,
Onun əleyhinə necə çıxım mən?!

İncitmə könlümü möhlət açarı,
Şadiman güllərdə dolaşan arı,
Tikanlar içində ömürü yarı,
Həyat tapmacadır, şirin yuxum mən.

30.04.2011

***

Dərdimi çəkirəm dərmanə sarı,
O da qaçıb gedir fərmanə sarı,
Elə yönəldirəm səhmanə sarı,
Bu yöndən o yana yol görünməyir,
Bağrına basmağa qol görünməyir.

06.05.2011

TƏKLİYİM MƏNİM

Qoparıb sinəmdə min ağrı-acı,
Mənim qəlb ağrıdan tənha günlərim.
Ürəyi qocaldır, ağardır saçı,
Qəlbdə baş qaldıran min dərdi-sərim.

Məyusluq könlümə qənim kəsilib,
Üzür gündən-günə bu təklik məni.
Gəlib-gedənimin yolu kəsilib,
Edir tarlasına bir ləklik məni.

Dayanıb pəncərə qarşısında mən,
Sükutla baxıram gedib-gələnə.
Gələr səs-sədalar hardasa pəstən,
Maraq kəsilərəm söhbət edənə…

Şüurum, düşüncəm lap düşüb əldən,
Ürəyim qübarlı dağa dönübdü.
Düşmüşəm qüvvədən, qalmışam dildən,
Bəxtmin çırağı, sanki sönübdü.

Təklik əziz-xələf, güllü-çiçəkli,
Otağımın sadiq qonağı olub.
Ömrümün tufanı min bir küləkli,
Ağac yarpağıtək xəzansız solub.

Bu başı bəlalı təkliyim məni,
Cılız təmənnaya boynumu əyir.

Tale dəryasından qopub yelkəni,
Bərəsi dəryanın dibinə dəyir.

Girirəm otağa, divarlar ölgün,
Baxıram, ətrafda əşyalar laldır,
Laqeydliklə məni süzürlər üzgün,
Bu necə ömürdir, bu necə haldır?

Gözlərimin yaşı düşür yanağa,
Saatın səsası sükutu pozur.
Bu dilsiz otaqdan oxunur giley,
Təkliyin günahın min yerə yozur.

Məndən soruşsalar deyərdim, vallah,
Ən ağır bəladır təklik dünyada.
Şadiman, nə ölüm, nə şivən, nə ah,
Onuntək insanı verməyib bada.

29.07.1985. Xəstəxana

SƏADƏTİM

Bir zamanlar hey qapımı döyərdin,
Xoş avazla mənə nəğmə deyərdin,
Sabahımla çox özünü öyərdin,
Səadətim, gələcəyi səslədin,
Ürəyimdə xoş duyğular bəslədin.

İndi hara getdi bəs o vədlərin?
Keçilməzdir, aşılmazdır sədlərin,
Açılmayır, bağlanıbdı bəndlərin,
Axar suyu kəsilibdi bəs hara?!
Səadətim, çəkmə məni gəl dara.

Yollarını haçanadək gözləyim,
Hara çatdım elə səni izləyim,
Boşa çıxsın arzum, duyğum, hər səyim,
Səadətim, nə qədər bəs yanım mən?
Lap usandım öz-özümdən, canım, mən.

İldırımı, şimşəkləri çaxdırdın,
Bu sinəmi od-alova yaxdırdın,
Şadlığımı suya verdim, axdırdın,
Adın qaldı, axdın getdin sellərdə,
Bu qəzamız dastan oldu dillərdə.

Gözləyirəm qayıdasan, gələsən,
İntizarı taleyimdən siləsən,
Hər ağrımı, acımı da biləsən,
Qollarını dolayasan boynuma,
Səadətim, od tökəsən qoynuma.

Yollarına baxmaqdan göz yorulub,
O ünvanın hər obadan sorulub,
Ürək dərddən için-için qovrulub,
Səadətim, itginliyin ağrımdır,
Əzablarda batıb qalan bağrımdır.

Nə müddətdi fərağından naçaram,
Həsrətindən öz yurdumdan qaçaram,
Sənsiz necə şadlığa yol açaram?
Dərd əlindən qolu bağlı qalmışam,
Tənhalığa yaman mehr salmışam.

Səadətim, harayıma ver haray,
Həsrətindən mən tikmişəm daş saray,
Ağır olub sənsiz mənə bu il, ay,
Minnətçinəm, aç qapını, gələrəm,
Üz-gözünə ruhumdan nur ələrəm.

29.07.1985. Xəstəxana

BƏXTİM SƏNİ ÇOX GÖZLƏDİM

Yollarında canı üzdüm,
Heç bilmədim necə dözdüm,
Nə usandım, nə də bezdim,
Kölgə kimi hey izlədim,
Bəxtim, səni çox gözlədim.

Gözlərimlə qan ağladım,
Xəyalına bel bağladım,
Ürəyimdən tel bağladım,
Yollarını əzizlədim,
Bəxtim, səni çox gözlədim.

Məhəbbətim yalan olub,
Hissim, eşqim talan olub,
Arzum yolda qalan olub,
Yağıştək toz təmizlədim,
Bəxtim, səni çox gözlədim.

Çəkə bilməm bu fərağı,
Nə ağırmış hicran dağı,
Gün batarkən qürub çağı,
Alışqantək od közlədim,
Bəxtim, səni çox gözlədim.

Məni kədər tapacaqmış,
Sevgimə qəm hopacaqmış,
Qəlbdən fəryad qopacaqmış,
Misra-misra mən sözlədim,
Bəxtim, səni çox gözlədim.

Hanı yolun bəs gələni?
Yox itəni, yox öləni,
Gəlmədin heç mən biləni,
Gecə-gündüz qəm düzlədim,
Bəxtim, səni çox gözlədim.

Kəsilibdi ah-amanım,
Yollarına var gümanım,
Ay qəlbimdən eşq umanım,
Çuval tutub dərd üzlədim,
Bəxtim, səni çox gözlədim.

02.08.1985. Xəstəxana

QADINLAR

Cahanın ən incə, gözəl varlığı,
Dünyanın xoşbəxtlik üzü, qadınlar.
Bütün insanlığın əzəl varlığı,
Hər açan ömürün özü, qadınlar.

Zərif çiçəklərdi – rüzgardan solar,
Sevincdən çağlayar, kədərdən dolar,
Gözləri ümidin yolunda qalar…
Həyat ocağının közü, qadınlar.

Bəşərin ən ağır yükün çəkərlər,
Hər ağrı-acını qəlbə tökərlər,
Könül bağçasında dilək əkərlər,
Həyatın bəzəyi, gözü, qadınlar.

05. 03. 2004. Pirallahı

KİM YETİŞƏR SORAĞIMA?

Tanrı bəxtin qarasını,
Yazdı alın varağıma.
Tapmaz könül çarasını,
Kim yetişər sorağıma?

Dərdlərimin ölçüsü yox,
Şəlalətək çağlar keçər.
Ölümün heç elçisi yox,
Yanan könlüm ağlar keçər.

Gözlərimin yaşı çeşmə,
Sularında boğularam.
Qulp qoyular hər işimə,
Hər gün ölüb doğularam.

Yazıq ürək, qəm təşnəsi,
Ovutmayır onu zaman.
Min illərdən gələr səsi,
Ölsə də bir gün Şadiman.

24.02.1994

MÖHTACAM

Bu bağrımı min bir əzab paralar,
Şirin sözə, şirin dilə möhtacam.
Qəlb evində ocaq açar yaralar,
Xoşbəxt aya, xoşbəxt ilə möhtacam.

İsmarladı tale kamı ürəkdə,
Bu halımdan zarə gəlib fələk də,
Bir kəs varmı görən məni ürəkdə?
Harayımı sala dilə, möhtacam.

Arzuların qəsir evi uçuldu,
Min bir yerdən qəlbdə yara açıldı,
Şimşəklərdən üstümə od saçıldı,
Bir diləyim gəlməz ələ, möhtacam.
Dörd divarın sükutunda boğuldum,
Zülm üçün, ələm üçün doğuldum,
Bəxt əlində qolu bağlı bir quldum,
Bu sitəmi aləm bilə, möhtacam.

Zalım zaman qanımda dərd qaynatdı,
Tora saldı, qəfəsində oynatdı,
Pünhan-pünhan qəm göndərdi, baş qatdı,
Səadətə sevgim ilə möhtacam.

Dərdi-sərim sinəmdə qövr eyləyir,
Günüm, ayım aləmlə dövr eyləyir,
Şadimandan ürək də tövr eyləyir,
Bağrımdakı açan gülə möhtacam.

15.07.1991 Tağay

HƏSRƏTİM

Ürək qutarmaz zillətdən,
Bu bəladırmı xilqətdən?
Səndən çəkdiyim minnətdən,
De hara gedim, həsrətim?
Harda ömür edim, həsrətim?

Qəmindən köksüm talandı,
Yanında ölüm yalandı,
Məhəbbət oda qalandı,
Çəkdim min dağlar həsrətim,
Gözlərim ağlar həsrətim.

O uzun yolun azalmaz,
Ürək əlindən kam almaz,
Zülm sənə də heç qalmaz,
Bu köksü oyma, həsrətim,
Ağlar göz qoyma, həsrətim.

Yox dərya eşqin sahili,
Danışmaz, laldır pak dili,
Ovsunlayıbdır ay ili,
Sən ona dəymə, həsrətim,
Qəddimi əymə, həsrətim.

Sevginin yolu keçilməz,
Eniş-yoxuşu seçilməz,
Qəmi, kədəri biçilməz,
Giribdir dona həsrətim.
Dərd verir ona həsrətim.

Necə əzabsan könlümə,
Don vuran sevda gülümə,
Soyuq yağışlar ələmə,
Fərəhim gələr, həsrətim,
Üzümə gülər həsrətim.

01.08.1985. Xəstəxana

DÜNYAYA GƏLMƏK YAMAN

Keçib-gedən illərin əzabıyla qovruldum,
Acı küləklər əsdi, ocağımda sovruldum,
Coşdu tale selləri, çay daşıtək ovuldum,
Həyatın zülümü çox, üzüldüm, Tanrım, aman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

İllər ömür yolumda bir qanadlı quş oldu,
Ürək, ağıl çarpışdı, çox qanlı döyüş oldu,
Həyat-ölüm yolunda min bir anlayış oldu,
Kəsdi cığırlarımı gözəgörünməz duman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

İçi dolu qanlı kin, çox-çox gülər üz gördüm,
Ömrün hər dolayında min bir dərə, düz gördüm,
Çox quduzu, qatili pak ciliddə «düz» gördüm,
Görənlər bunu bilir, fələyin çərxi həmən,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

Ölənlərə nə var ki, ölüb borcun ödədi,
Qonubdu çiynimizə sağ ikən ölüm dərdi,
Bu həyat bağçasından gedəndə kim nə dərdi?
Hər gün iradəmizi sınağa çəkir zaman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

Əldən gedən keçmişim gələcəklə davada,
Tükdən asılı bəxtim doğulandan havada,
Dünən sənə can deyən bu gün özgə havada,
Əsəblərim tarımda, sanki köklənmiş kaman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

Şirin xanım, həyatın köhlənində çox çapdın,
Getdi ömrünün çoxu, eyvah, özünü tapdın?
Acı-şirin taleyin yoluna ümid yapdın,
Bağırıma tuşlanan dərd – rəhm bilməz ox, kaman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

10.04.1992

NİYƏ VAXTSIZ AĞARIRSAN SAÇLARIM?

Cavanlığım hələ mənim yol gedir,
Hələ ömrün yetkin çağı əldədir,
Dəli könlün nəğmələri teldədir,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Ömür gözəl, həyat gözəl, el gözəl,
Vətən gözəl, torpaq gözəl, dil gözəl,
Zil üstündə haray salan tel gözəl,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Mən ki, hələ doymamışam həyatdan,
Dünyamızdan, kainatdan, büsatdan,
Gəl tələsib salma məni yel atdan,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Yer üzünün sabahları pak nurdur,
Addımımız, hər günümüz uğurdur,
Vətənimin gözlərində qürurdur,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Ələmlərdən, kədərlərdən qaçıram,
Bəxtimizə altun bir yol açıram,
Bulud kimi üfüqlərdə uçuram,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Gözəlliyin gedir əldən. Əlacı?
Cavanlığın məhəbbətin şah tacı,
Tələsməyək, günü edir şər acı,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Qara telə bəyaz qarlar yaraşmaz,
Sənə görə ürək mənlə barışmaz,
Həyat verən nemət dərdə qarışmaz,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Biz ki, hələ yetginliyin çağında,
Cavanlığın bir növrəstə bağında,
Sabah üçün gün ucalıq dağında,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Ürəyimi bəxşiş bulma qəm, dərdə,
Könlümüzü gülüş etmə namərdə,
Yaraşmayır qara telə ağ pərdə,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Üstbəüstdən sınıq könlü əyərək,
Qocalığın qapısını döyərək,
Şadimanın xətirinə dəyərək,
Niyə vaxtsız ağarırsan, saçlarım?

13.11.1987

SƏNDƏN ÖTRÜ

Səndən ötrü dünyamız gözəlləşir, ey insan,
Mirvari şəlalələr zirvələrdən tökülür,
Bəxtəvər təbiətlə can dilləşir, ey insan,
Viranə ələmlərin bağrı-başı sökülür.

Səndən ötrü həyata sevdalı bahar gəlir,
Dünyanın qucağında səadətlər bəslənir,
Səndən ötrü sevginin altun səsi yüksəlir,
Cahanın başı üstə həqiqətlər bəslənir.

Bundan gözəl, duyğulu, söylə, nədir həyatda?!
Bülbültək cəh-cəh vurub bəmdən zilə qaçırsan,
Sənin öz ocağın var bu ucsuz kainatda,
Odur ki, yerdə, göydə quştək qanad açırsan.

27.11.1985. Gəmidə

ALOV

Alov – sən öz yanğınla
soyuq ocaqlara atəş,
Evlərin içində günəş,
Dünyanın köksündə çıraq,
Həyatın əlində yaraq.
***
Alov – Sənin odunda bəşər yaşar,
Əli qılınclı, şaxtalı-ayazlı
qış nağıllaşar,
Hamı sənin dərgahına əl açar,
Bütün fəsillərdə belə dalınca qaçar.
***
Alov – soyuqda titrəyən
canlara istilik,
Baş əyməli tarixin insanlara istilik,
Od istəyən ocaqlara,
Ömür adlı dayanacaqlara,
Körpəli sinələrə
sığınmış qucaqlara imdad,
Sənin sayəndə sobalar abad.
Bütün bunlar yetərmi,
Dünya ilə birlikdə şirin xatirəmi?
Alov, bu sənin varlığının görünən üzü,
Ətəyindən yapışmış bu yer üzü!
***
Alov, sənin görünməyən üzünsə,
könlümdə çatdığın ocaq.
Elə bu dünya, elə o dünyada da
Ruhumun başı üstə duracaq alov.
Yaman yandırırsan ürəyimi,
Tükənib taqətim, kəsmisən kələyimi.
Yandırıb kül etdikcə məni diri-diri,
Gizlədərək sirri aləmdən,
Yumşalmayaraq naləmdən
alov, alışırsan
kor olmuş istəklərimə qarışırsan.

Önündə səcdədəyəm,
Budur son qayəm.
Beyinlərin havasından,
İnsanların qovğasından
Təkcə odu xilas yolun.
Yanıb təmizlən,
Odla əzizlən,
Burax qəlbimə atdığın tilovu,
Könlümün alovu…

11.02.1994

DARIXIRAM

Yalqızlıq könlü parçaladı
tikə-tikə,
İqtidarım qalmadı
həsrətin yükünü çəkə,
Ürəklə ağıl arasında hər gün mərəkə,
Nə ağıla əyildim,
nə də ürəyə.
İsmarladı taleyimi fələyə,
Dedim, bir gün tilsimi sındırıb gələrsən,
Könlümüzü talan edən
həsrəti yerindəcə güllələrsən.
Nə sən gəldin, nə də
həsrət güllələndi...
Kimsəsiz taleyimə hər gün qəm ələndi.
O gündən yollara baxıram,
Təkcə sənin üçün darıxıram,
Darıxıram.

26.08.1992

MƏNƏM, MƏN

Gecə-gündüz pünhan-pünhan alışan,
Sinəsində fəğan, fəryad mənəm, mən.
Cismi-canı haqq evinə qarışan,
Zamanından uman imdad mənəm, mən.

İçindəki ağrıları sovuşmaz,
Ürəyi də hər ürəyə yovuşmaz,
Qərib düşmüş diləklərə qovuşmaz,
Gecə-gündüz eyləyən dad mənəm, mən.

Nalələri zilə qalxan kamanam,
Arzuları tükənməyən ümmanam,
Endirməyin, dağ başında dumanam,
Can dediyim canıma yad mənəm, mən.

Bitişməyir sinəmdəki yaralar,
Zaman qəlbi üstbəüstdən yaralar,
Sevgim, eşqim cılızlıqdan saralar,
Eşqə sadiq, könlü abad mənəm, mən.

İstəkləri dəryaları tutmayan,
Duyğuları gecə-gündüz yatmayan,
Neçə-neçə amallara çatmayan,
Bəxti dönük, qəlbi bərbad mənəm, mən.

Ey Şadiman anlamaq da bir dərddi,
Ömür gedir, xəstə ürək namərddi,
Hər əzaba dözənlər nə cömərddi,
Dili bağlı, dərdi azad mənəm, mən.

21.08.1989

PAYIZLARIM BELƏ BAŞLAR

Ürək bəxti sora-sora,
Həsrət qəlbi salar tora,
Qarışanda yenə ara,
Gözlər tökər acı yaşlar,
Payızlarım belə başlar.

Bir mərhəmət umar gözlər,
Qəlb ağrıdar acı sözlər,
O keçdiyim cığır, izlər,
Köksə vurar qara daşlar,
Payızlarım belə başlar.

Ürəyimə ağrı dolar,
Göylərini bulud alar,
Qəm üstümə kölgə salar,
Hey çatılar dərdə qaşlar,
Payızlarım belə başlar.

Yanan qəlbin odu sönər,
Yol-irizdən günüm dönər,
Karvan-karvan dərdlər enər,
Ağırlaşar qəmli başlar,
Payızlarım belə başlar.

Tufanlarla açar səhər,
Duyğularım olar zəhər,
Gün keçirər qəlb bir təhər,
Tale mənə bunu aşlar,
Payızlarım belə başlar.

Ürəyimdə eşqin odu,
Pak sevginin təmiz adı,
Gözüm arar yaxın-yadı,
Cana yovuq yox sirdaşlar,
Payızlarım belə başlar.

05.08.1985. Xəstəxana

HƏYAT HAQQINDA NƏĞMƏM

Həyat, ucadan-uca.
Kim deyib sənə qoca?
Bölündün toxa-aca,
Suyun gah şirin-acı,
Aqil başların tacı.

Ölüm kəsəndə yolu,
Yağanda ömrə dolu,
Gücdən salarsan qolu,
Düşərsən dildən-dilə,
Qonarsan güldən-gülə.

Bir ürəyin pak yazı,
Birinin sınıq sazı,
Ömrə rəngarəng yazı,
Həyat taleyə açar,
Hey bağdan-bağa uçar.

Çox başlar çəkdi nələr,
Ömrü ələklə ələr,
Yolunda ürək mələr,
Birinə bəxt gur işıq,
Birinə qaşıq-qaşıq.

Həyat, hardan od-ocaq?
Qəm-şadlıq qucaq-qucaq,
Biri baş, biri bucaq,
Həyat, dərindən-dərin,
Qutarmaz dərdi-sərin.

Yarıyanlara gözəl,
Yarımazlara gözəl,
Bizə yaxınsan əzəl,
Suyundan içən çoxdur,
Razı qalanı yoxdur.

Bol çəmənlərin qaynar,
Başın de, nə vaxt aynar?
Kim ki, yerindən oynar,
Həyat, sən ona dərdsən,
Sən ki, həmişə mərdsən.

Qurubsan əcəb bardaş,
Gəlib gedənə qardaş,
Yolunda ağır bir daş,
Götürənin çağlayır,
Götürməyən ağlayır.

Min sirlə dolu qəlbin,
Vardır ilhamın, təbin,
Dərdlərə dərman həbin,
Kəşf olunmamış sirsən,
Minə, milyona birsən.

Həyat, möhlətin çoxdur,
Sənin ki, gözün toxdur,
Hayına qalan yoxdur,
Sağalmaz dərdə dəva,
Ay, su, pak torpaq, hava.

Həyat – gülüstan, gülşən,
Qəlbi ram edər nəş‘ən,
Ovsunlamaqdır peşən,
Ey min-min insan baxtı,
Qurmusan uca taxtı.

06.06.1986. Tağay

HƏZİN LAYLALARIN

Həzin laylaların nağıla bənzər,
Müqəddəs ürəyin mənimlə gəzər,
Qəmin, iztirabın könlümü üzər,
Sən bağrım, ürəyim, qanımsan, ana,
Açan sabahlarım, anımsan, ana.

Gözlərin işığı gözümə verdi,
Üzün yaraşığı üzümə verdi,
Sinən ocağını közümə verdi,
Xurmayi tellərin telimdə, ana,
Şirin ləhcələrin dilimdə, ana.

Narahat sinəndə həyatım yaşar,
Mənim şadlığımla sevinib coşar,
Ürəyim könlünlə hey pıçıldaşar,
Dastanım, bayatım, nağılım, ana,
Varlığım, idrakım, ağılım, ana.

Bu cismi-canımda sənin canın var,
Damarım içində sənin qanın var,
Hər xoş addımımda sənin anın var,
Ünyetməz zirvəmin çırağı, ana,
Məlalı ömrümün dayağı, ana.

Büllur baxışınla könlüm dincələr,
Ələmim, kədərim, qəmim incələr,
Hər sözün, söhbətin nadir incilər,
Bəxtimə, günümə tökülər, ana,
Zülmətin bağırı sökülər, ana.

O titrək əllərin nağıl, sehirmi?
Müqəddəs sinəndə ürək, nəhirmi?
Dolan zamanımın qəmi, qəhirmi?
Sevincim, şadlığım, ələmim, ana,
Coşğun vücudumda qələmim, ana.

Ağaran tellərin qarlı dağımdı,
Bəxtiyar anların ən xoş çağımdı,
Həsrətin sinəmdə yaman yağımdı,
Dözmürəm hicrana dünyada, ana,
Yetdin hər imdada, fəryada, ana.

Şadiman səninlə coşub-çağlayar,
Ümidsiz anların yolun bağlayar,
Sənsiz olan zaman gözüm ağlayar...
Zəif vücuduma dirəksən, ana,
Dərdli ürəyimə ürəksən, ana.

10.11.1987

ƏLİM ÇATMIR

Niyə əlim çatmır, ünüm yetməyir,
Haqqın sarayına, haqqın özünə.
Ah-naləm, şivənim, vayım bitməyir,
Bunu kim vuracaq haqqın üzünə?!

Mən ki, içəridən alışan şamam,
Qaraya bürünmüş bəxtsiz axşamam,
Dərdi öz içinə sığmayan damam,
Şişir dağlar kimi özü-özünə.

Hər yanda dəhşətli divanəliklər,
Soyuq ürəklərdə viranəliklər,
Meydanın sulayır heyvanəliklər,
Küllər üfürdülür haqqın gözünə.

Ad-san arayırlar ağlı dayazlar,
Hökmü verən olub könlü avazlar,
Satırlar idrakın özünə nazlar,
Qanunlar afərin deyir sözünə.

09.10.1990

YARPAQ TƏKİ İLLƏRİM

Qopdu düşdü yarpaq təki illərim,
Qara saçlar acı yelə tuş oldu.
Zəncirləndi bəxt evində əllərim,
Cavanlığım bir köçəri quş oldu.

Səbri kəsdi ömrün eniş-yoxuşu,
Puç eylədi kimlərin bəd baxışı,
Tutdu məni yaman dillər qarğışı,
Kabab olmuş bəxtim dərdə nuş oldu.

Kim deyər ki, zaman məni güldürdü?
İçimdəki yaram gildir-gildirdi,
Bu bəxt məni diri gözlü öldürdü,
Yaxşı işim yaman dildə faş oldu.

Əzəl gündən murad atım yıxıldı,
Köksüm dərddən min yol yanıb-yaxıldı,
Talesizlik yazıq başa çaxıldı,
Acılarım ürəyimdə daş oldu.

Nə etdim ki, ələm mənlə çarpışdı,
Çocuq təki ətəyimdən yapışdı,
İtgin düşmüş dərdlər qəlbdə tapışdı,
Gözlərimdə gilələnib yaş oldu.

Əcəl atım bəxt evinə yollandı,
Taleyimi qırx quyuya tulladı,
Ağ bəxtimi min qarayla qolladı,
Dünya tutmaz dərddən-qəmdən baş oldu.

Şadimanın içi ələm yuvası,
Öldürübən nə'şini qəm yuvası,
Zərgər könlüm tapmaz sevinc qəvvası,
Ömrüm yaman ağızlarda tuş oldu.

12.07.1991

HƏSRƏT YAĞIŞI

Alışır qüssədən, alışır sinə,
Pozulur ömrümün əlvan naxışı.
Könlümün göyləri tutulub yenə,
Yağır taleyimə həsrət yağışı.

Buludlar cəlladtək baş-başa durub,
Hicran yolum üstə tamaşa qurub,
Ələm nəş‘ə ilə aramı vurub...
Yağır taleyimə həsrət yağışı.

Ömrüm cığırlarda izin itirib,
Yollara baxmaqdan gözün itirib,
Yaşının ağ-qara izin itirib,
Yağır taleyimə həsrət yağışı.

Bütün ümidlərim cəm olubdu, ah,
Gözlər acılara nəm olubdu, ah,
Ömrün çox yarısı qəm olubdu, ah,
Yağır taleyimə həsrət yağışı.

Boş görünür mənə küylü kainat,
Əzəlki bənzərin itirib həyat,
Nə qədər gec deyil, haqq, imdada çat,
Yağır taleyimə həsrət yağışı.

Qoy dəli sevgimi sellər aparsın,
Ömrün hamısını illər aparsın,
Səsimi səsinə dillər aparsın.
Yağır taleyimə həsrət yağışı.

Şadiman hicranın əlində naçar,
İçimdə o başa, bu başa qaçar,
Haqqımın əlindən düşübdü açar...
Yağır taleyimə həsrət yağışı.

09.04.1992

BİR ANANIN HEKAYƏTİ

Qocalar evindən…

Qocalar evinə düşmüşdü yolum,
Gördüm qocalardır çox sağım, solum,
Tutuldu gözlərim, boşaldı qolum,
Qarşımda durmuşdu ağbirçək ana,
Ona yaxınlaşdım mən yana-yana.

Dedim: «Ağ saçların Şahdağım, ana,
Hansı oğul, qızdı düşübdü qana?
Biinsaf övladı gətirib cana,
Qocalar evinə düşüb güzarın,
Torpaq da soyutmaz bu ahu-zarı».

Dedi: «Bu sözlərin dinlədir məni,
Sızlayan kamantək inlədir məni,
O övlad kəlməsi cinlədir məni,
Qızım, beş oğulun anasıyam mən,
Qəbir evinədək yanasıyam mən.

Gözlərim görməsin qəm yaşı, bala,
Onlar naşıdırlar, eh naşı, bala,
İndikilər sevmir bu yaşı, bala,
İndi onlara mən artıq bir yükəm.
Hər an qırılacaq zərif bir tükəm».

Dedin bu sözləri qənd, şəkər, ana,
Göylər başımıza daş tökər, ana,
Buludlar ağlayar, yaş tökər, ana,
Beş oğuldan biri kişi çıxmadı,
Niyə ürəklərin vicdan sıxmadı?!

Dedi: «Bu qocalıq, qızım, namərddi,
Qocayam, qocalıq onlara dərddi,
Eybi yox, sağ olsun, hökümət mərddi,

Mənə çörək verib, isti ev, otaq,
Bir də ağlamaqçın pünhani-yataq.

Beş oğul, yad qızlar əllərindədir,
Vicdan, ədalət də dillərindədir,
Qocalıq çox uzaq illərindədir,
Elə ərləridək övladlar görsün,
O zaman mənimtək onlar öyünsün...

İndisə təkliyim qübardır mənə,
Hər övlad bir meyvə, nübardır mənə,
Görünür taleydən bu bardır mənə.
Tək sağlıqlı olsun onlara həyat,
Nə edim, ay qızım, şirindir övlad!

İkisi Tümendə, biri Yaltada,
Bir ildə bir dəfə çatmazlar dada,
Ağzım onlardan çatmadı dada,
Eh, təki canların sağ etsin allah,
Onlarsız mənimçin açılmaz sabah.

İkisi yanımdadır, Bakıda, qızım,
Onlar başım üstə çıraq, ulduzum,
Onlarsız ləzətsiz çörəyim, duzum,
Deyirlər, yerimiz çatmayır sənə,
Gəlinin ürəyi yatmayır sənə.

Bala baldan şirin, deyib atalar,
Bu sözlə övladı öyüb atalar,
Bəlkə, sonra başa döyüb atalar...
Necə ki, indi mən başa döyürəm,
Başımı ən ağır daşa döyürəm.

Ərim cavan vaxtı həyatdan köçdü,
Ölüm qədəhindən zəhəri içdi,
O öldü, taleyim qəhəri içdi...
Bucaqdan-bucağa atıldım qaldım,
Qocalar evinə çatıldım qaldım...

Gözlərim tor görür, əlimdə əsa,
Övlad ola-ola, batmışam yasa,
Oğlun olan yerdə səni dərd basa»,
(Ölümə gedən yol deyilmiş qısa…)
Günahlar içində ən böyük günah,
Ana yad ocağa aparır pənah!..

Ana sözlərini tükədib susdu,
Sanki taleyi də onla qan qusdu,
Dikəlib içindən ölümü pusdu,
Bu ölüm gözündən axan yaş idi,
Anaya yanmayan övlad daş idi…

Hanı, ey Şadiman, bundan böyük dərd?!
Mərd namərd çağrılır, namərd olub mərd.
Ananın üzünə övlad çəkib səd.
«Oğul» çağıranda, səsi gəlməsin,
Qulaq eşitməsin ana kəlməsin!..

26.09.1987 Müşfiq qəsəbəsi

NİYƏ GƏLDİM MƏN?

Allah, bu dünyaya niyə gəldim mən?
Ruhumu ağladır bu bilməcələr.
Gəlib hər ağrını duyub, bildim mən,
İçimdən boylanır min bir necələr.

Hər sirrin özündən min sirr doğulur,
Can girib sirlərə birgə boğulur,
Dönüb zərrələrə ərşə dağılır,
Gündüzdən qoparıb alır gecələr.

Çökür qaranlıqlar duyğularıma,
Qandallar vurulur sayğılarıma,
Hörmüçək oluram qayğılarıma,
Elə zənn edərəm ahım incələr.

Mən dərddən qaçıram dərd məni tapır,
Götürüb canımı özüylə çapır,
Ruhu dustaq edən qalaça yapır,
Can çıxıb bədəndən orda gecələr.

Allah, bu dünyanın ahı boynumda,
Gəzişir qüssəsi bir-bir qanımda,
Mən yorğun düşmüşəm həyat oynumda,
Həyatın karvanı parlaq incilər.

12.05.2012

MƏN HARDA GİZLƏYİM İZTİRABIMI?

Gözümdə gizlənib niskilli nəmlər,
Mənə acı verir ağrılı dəmlər,
Canımın sirdaşı ah dolu qəmlər,
Dövranın ağrısı kəsib tabımı,
Mən harda gizləyim iztirabımı?

Kimə can dedimsə, qan dedi mənə,
Saldı ürəyimi dumana, çənə,
Bürünüb ağrıya, acıya sinə,
Fələk qara yazıb bəxt kitabımı,
Mən harda gizləyim iztirabımı?

Əlimdə qələmim ağlar halıma,
Misralar hıçqırar hər zavalıma,
Batmışam özüm də qeylü-qalıma,
İtirib zamanım haqq-hesabımı,
Mən harda gizləyim iztirabımı?

Şadiman zənn etdi bu dünya mələk,
Əlində ağladı binəva dilək,
Şəkəri özünə götürən fələk,
Zəhərlə doldurub könül qabımı,
Mən harda gizləyim iztirabımı?

24.05.2007/Neft Daşları

KİŞİLƏR

Kişilər…
Ey ruhumuzun tapındığı qüvvə,
Sizsiz xarabalıq girər evə…
Evimiz boş dəyirmana bənzər,
İçərisində şeytanlar, iblislər gəzər.
Qapımızda soyuqlar əsər,
Canımızı üşütməyə tələsər…

Kişilər – arxamız, köməyimiz, diləyimiz,
Sizsiz fəğan edər ürəyimiz.
Könlümüzün atəşi,
Evimizin günəşi.
Atamız, qardaşımız, can sirdaşımız,
Sizsiz xətalardan çıxmaz başımız.
Sinəmizə axar göz yaşımız,
Canımız ovunmaz,
Könül şamımız yanmaz.

Kişilər –
Siz Vətənimizin vuran nəbzi,
Dünyadan silinməz izi,
Gücümüz, qüvvətimiz,
Harayından boylanan cürətimiz,
Siz yox olan gündən biz də yoxuq,
Sizinlə yağı gözünə oxuq!

Kişilər –
Əsəblərinizlə,
Acı-şirin dillərinizlə,
Həyatımıza məlhəm əllərinizlə,
Tanrım sizləri qorusun,
Bütün həyatınız yarısın…
Amin…
Amin…
Amin…

04.11.2012

DÜNYANIN VƏFASI PARADAN KEÇİR

Diləkdən, sevdadan, həyatdan deyən,
Hər dərdin əlacı çaradən keçir.
Özünü, pulunu, varını öyən,
Dünyanın vəfası paradan keçir.

Adamın bədənlə can döyüşüdü,
Cahana gələnin an yürüşüdü,
Vicdanın idrakla vaxt görüşüdü,
Gələnlər haqq deyən sıradan keçir.

Həyat həm sevincdir, həm də kədərdir,
Gələn gəldiyitək çıxıb gedərdir,
Demə, taleyini yazan qədərdir,
Bax gör addımların haradan keçir?

Ağılın vəfası cibində gəzir,
Qanmayan həyatın dibində gəzir,
Yaradan bəndəni təbində gəzir,
Onun da yolları qaradan keçir.

Acizlik insanı əyər yay təki,
Qopar ürəyində ahu-vay təki,
Şadiman, duyğular coşan çay təki,
İdrak – can deyilən aradan keçir.

02.11.2012

ACILAR

Acılar ömrümü parçaladılar,
Taleyin yolların haçaladılar
Sındırıb ürəyi hey caladılar,
Buna dözmək çətin, dözməmək ölüm,
Allah, haçan yetər, söylə bu zülüm?

10.10.1991

EDİLƏN YAXŞILIQ QAYITMIR GERİ

Edilən yaxşılıq qayıtmır geri,
Sən onun yolunu gözləmə heç vaxt.
Göyün kişnərtisi ayıltmır yeri,
Özü ayılanda silkələnir taxt.

Hər kəsin ağlının öz taxçası var,
Canının içində qəm boxçası var,
Tərpənən yer kimi candan asi var,
Ani yaxşılıqdan cilvələnir baxt.

Odur ki, gözləmə kimsədən onu,
Min bir rəngə çalır hər üzün donu,
Xeyirə calansın addımın sonu,
Qaçır əlimizdən göyərçintək vaxt.

13.01.2012

KEÇMİŞDƏ QALAN GÜNLƏRİM

Ey mənim keçmişdə qalan günlərim,
Mənim xəyalıma baş vurursunuz.
Xatirələrdə yurd salan günlərim,
Bəbəyə qəm dolu yaş vurursunuz.

Atalı-analı çağlar ötdülər,
Qoşulub zamana yaman itdilər,
Dadlı uşaqlıqtək gözdən itdilər,
Ömürün ağzına daş vurursunuz.

Həsrətə bürünüb uçur saat da,
Ətcə quşlar təki bitir qanad da,
Qoparır içimdə min bir imdad da,
Dərdi sevinc bilib baş vurursunuz.

Siz də mənim kimi olaydız nalan,
Xəzan küləkləri qəlb edir talan,
Təkcə xatirədir Şirinə qalan,
Yaşımın üstünə yaş vurursunuz.

24.05.2013

BU GÖRÜŞ, BİR VİDA GÖRÜŞÜ İDİ

Bu görüş, bir vida görüşü idi,
Məni bu görüşə çağırdın, ana.
Üzündə ölümün gülüşü idi,
İçimdə fırtına doğurdu, ana.

Kəsdim yatağının yanını, durdum,
Ürəyim ağladı, cana yas qurdum,
Qəlbi qılıncladı, yıxdı qəm ordum,
Ruhum nalə çəkdi, bağırdı, ana.

Məzarın qazıldı qoyuldun ora,
Açdın ürəyimdə sağalmaz yara,
Kim tapa bildi ki, ölümə çara,
Səni əzrayılın çağırdı, ana.

Mən bu müsibətə dözüb ağlaram,
Yanan ürəyimi ahla dağlaram,
İndi xəyalına könül bağlaram,
Əzizin itirmək ağırdı, ana,
Əzizin itirmək ağırdı, ana.

01.01.2013

BİLDİK BU ƏBƏDİ GEDİŞDİ, ANA

Yumdun gözlərini nahaqq dünyaya,
Sənli günlərimiz döndü röyaya,
Ruhun qanad açdı o haqq dünyaya,
Bədənin məzarla görüşdü, ana,
Bildik bu əbədi gedişdi, ana.

Ata ocağına səslərdin bizi,
Qəlbində eşq ilə bəslərdin bizi,
Qəfil ayrılığın ağırdı düzü,
Fələkdən bu necə gərdişdi, ana?
Bildik bu əbədi gedişdi, ana.

Gözlərin qapıda qalardı hər gün,
Həsrətdən bənizin solardı hər gün,
Ürəyin buludtək dolardı hər gün,
Hicran yaraların bitişdi, ana,
Bildik bu əbədi gedişdi, ana.

Gözlərim önündən şəklin dayanır,
Ruhun fəryadına könlüm boyanır,
Bağrım parə-parə, ürəyim yanır,
Ayrılıq məqamı yetişdi, ana,
Bildik bu əbədi gedişdi, ana.

Qapının döyəndən qocalıq çağı,
Dilin ah söylədi, ürəyin ağı,
Gəldi əzrayılın qəfil sorağı,
Əzablı günlərin ötüşdü, ana.
Bildik bu əbədi gedişdi, ana.

Məzarın başına gəlib ağlarıq,
İndi qəbirinə ülfət bağlarıq,
Yanan sinəmizi ahla dağlarıq,
Ömür bağın soldu, qış düşdü, ana,
Bildik bu əbədi gedişdi, ana.

Şirin xanım sənə can qurban deyir,
Solmuş vücuduna min yol can deyir,
Sənsiz keçən ömrə bir hicran deyir,
Yanan ürəyinə dərd düşdü, ana.
Bildik bu əbədi gedişdi, ana.
Bildik bu əbədi gedişdi, ana.

01.01.2013

EY RUHUMUN CANI ANAM

Ey ruhuma pak, can anam,
Canın getdi, közün qaldı.
Qəlbimdəki ünvan, anam,
Gözlərimdə gözün qaldı.

Getdiyin yol gedər-gəlməz,
Xəyalların dərdi bilməz,
Sən gedəli, üzüm gülməz,
Ürəyimdə izin qaldı.

Sən canımın yarımısan,
Ruhu könlə sarımısan,
Ayrı düşmək deyil asan,
Boynubükük qızın qaldı.

Deyirdin ki, darıxarsız,
Qəlbi oda buraxarsız,
Yollarıma çox baxarsız…
Qəlb yandıran sözün qaldı.

Ha baxıram sağa, sola,
Otlar bitib o ağ yola,
Şadimanın dözmür hala,
Demə, getdin dözüm qaldı…

05.11.2013

ANA, HAQQINI HƏLAL ET

Dikildi gözün yollara,
Çox düşdün qəmli hallara,
Can dedin bu balalara,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Gəldi tez qırxın yetişdi,
Demə, yaralar bitişdi,
Ürəyimizə ah düşdü,

Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Qız balaların həyanı,
Ata ocağda sayanı,
Ey canımızın duyanı,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Getməz ürəkdən ülfətin,
Heç dəyişməyən sifətin,
Bitib-tükənməz hörmətin,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Atamın ömür sirdaşı,
Xanım-xatun yar yoldaşı,
Nə ağladırsan göz yaşı,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Qızların qərib oldular,
Düşüb yollarda soldular,
Çox bulud təki doldular,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Ahla ürəyim doludur,
Başım ayağın quludur,
Getdiyin Allah yoludur,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.

Şirin xanımı sal yada,
Bax bağrındakı fəryada,
Yetiş balana imdada,
Bizə ruhunla cəlal et,
Ana, haqqını həlal et.
Ana, haqqını həlal et.

13.01.2013

ATALI-ANALI GÜNLƏR ƏLVİDA

Sizlə olan ömür yuxuya döndü,
Çiçək ətri saçan qoxuya döndü,
Ürəyim sac üstə yuxaya döndü,
Qopur üstbəüstdən dilimdən nida,
Atalı-analı günlər əlvida.

Mən sizi bir daha tapa bilmərəm,
Bu dərdi sinəmdən çapa bilmərəm,
Əzrayıl əlindən qapa bilmərəm,
Getdi o uşaqlıq, o naz, o əda,
Atalı-analı günlər əlvida.

Daha yuxularda gəzərəm sizi,
Ötən xatirata düzərəm sizi,
Sinəmi göynədir ülfətin izi,
Siz udan havadan alırdım qida,
Atalı-analı günlər əlvida.

İndi havam, suyum, göyüm korlaşır,
Dərdim ləpə verir başımdan aşır,
Gözümün gürşadı qaynayıb daşır,
Ötən xatirələr söyləyir vida,
Atalı-analı günlər əlvida.

Siz olan zirvəni gərə bilmirik.
Sağ ikən qiyməti verə bilmirik.
Əvəzsiz neməti görə bilmirik,
Ölümün tələşı nə ağır sevda?
Atalı-analı günlər əlvida.

Sizi xəyallarda gəzəcəm indi,
Xatirat dəftərə düzəcəm indi,
Ata, ana eşqi imandı, dindi,
Salıb ürəyimə itginiz səda,
Atalı-analı günlər əlvida.

Şirin xanım yanır, fəryad içində,
Dili haray çəkir, imdad içində,
Günlər karvan tutub köçə-köçündə,
Dönübdü ağlayan ürəyi uda,
Atalı-analı günlər əlvida.
Atalı-analı günlər əlvida.

04.01.2013

OLAR

Fələk könlə vəfa qılmaz, könül candan bezar olar.
Ürək ağlar, odu qalmaz, can içində azar olar.

Dilim fəryad çəkər ahdan, səda gəlməz heç Allahdan,
Şişib dünya hər günahdan, içi mənə məzar olar.

Yanar cigər, yanar bağır, bir kimsəyə yetməz çağır,
Fələk edər cəfa ağır, dil ağızdan həzar olar.

Gözlərimdən çeşmə doğar, bəbəkləri tutub boğar,
Qəlb səhrama hicran yağar, bu səhradan gülzar olar.

Üzü gülməz heç taleyin, edər üzə hey gileyin,
Zaman kəsər yolun heyin, yoxuş mənə güzar olar.

Vəfa qılmaz Rəbb adəmə, salar könlü dəmdən-dəmə,
Göz bulanar acı nəmə, sinəmdə hey ah-zar olar.

Zaman yapar saray andan, nalə qalxar hər bir yandan,
Tən ayrılar mələk candan, əl məzarı qazar olar.

Can cisimdən qopar hənuz, öz ulduzun tapar hənuz,
İçimdə dərd çapar hənuz, könül mülküm bazar olar.

Cəfalar hey başdan aşar, yazıq ürək qəmlə yaşar,
Ey Şadiman, təbim daşar, əlim ahdan yazar olar...!

08.11.2001

KİMSƏ ÜRƏYİMƏ TOXUNMAYAYDI

Kaş bir bu dünyadan qaça biləydim,
Ünvanım heç dildə oxunmayaydı.
Başqa səyyarəyə uça biləydim,
Kimsə ürəyimə toxunmayaydı.

Bu sınıq bəxtimə kəsilib asi,
Başımda sınaydı könlün əsası,
Alaydım özümdən özüm qisası,
Kimsə ürəyimə toxunmayaydı.

Mənə dərd verənlər mənsizləşəydi,
Qəlbin asimanı çənsizləşəydi,
Könlümə bir yeni nəğmə düşəydi...
Kimsə ürəyimə toxunmayaydı.

Uçaydım yellərtək göyün üzünə,
Düşəydim buludun axan gözünə,
Dönəydim leysanın mən də özünə,
Kimsə ürəyimə toxunmayaydı.

Sellərdən soraydı fələk ismimi,
Çırpaydı daşlara sular cismimi,
Fəryada gələndə könlümün simi,
Kimsə ürəyimə toxunmayaydı.

Üzəydim qəlbləri boğan dərdləri,
Dünyadan qovaydım mən namərdləri!
Qoparıb ataydım bu sərhədləri...
Kimsə ürəyimə toxunmayaydı.

Canım boğazımdan çıxsaydı, nə qəm?
Ölüb dirilirəm mən taleyi kəm,
Varağa yaş töküb yananda qələm...
Kimsə ürəyimə toxunmayaydı.

13-14.05.1999

TAPMAZ ARAM

Sinəmdən od, atəş qalxar,
Hey, Günəşin köksün yaxar,
Qəlb buludlar şimşək çaxar,
Qövr eləyər elə yaram,
Heç bu könlüm tapmaz aram.

Gözlərimin yaşı daşar,
Ürəyimdə həsrət yaşar,
Hər günə qəm şərqi qoşar,
Həm nəş`ə, həm ahi-zaram,
Heç bu könlüm tapmaz aram.

Dərdim çıxar dağ başına,
Qalar ürək özbaşına,
Sel vurular göz yaşına,
Segah üstə yanan taram,
Heç bu könlüm tapmaz aram.

İlahinin bu bəşəri,
Özündən tez doğub şəri,
Sümüyünə dondu dəri,
Adəmitək mən də varam,
Heç bu könlüm tapmaz aram.

Dərviş olub gəzəniyəm,
Ürəyini üzəniyəm,
Qarışqasın əzəniyəm,
Adəmliklə Rəbbə xaram,
Heç bu könlüm tapmaz aram.

Şişirtdikcə özümüzü,
Gizlədərik üzümüzü,
Haqq bükəndə dizimizi,
Deyərik ki, koram, karam,
Heç bu könlüm tapmaz aram.

Ürək bərbad olan yerdə,
Qəlbim düşüb qalan yerdə,
Bağrı ilan çalan yerdə,
Əhvalımı kimdən soram?
Heç bu könlüm tapmaz aram.

Dil, diş altda boğulursa,
Cindən şeytan doğulursa,
Dünya qopub dağılırsa,
Öz canıma özüm saram,
Heç bu könlüm tapmaz aram.

Sinəm bimar ola-ola,
Ürəyə qəm dola-dola,
Bəni-bəşər gəlmir yola,
Yoxdan varam, nədir çaram?
Heç bu könlüm tapmaz aram.

Allah verdi bu canımı,
Yerdə saldı ünvanımı,
Bir gün qurar divanımı,
Budağında solan baram,
Heç bu könlüm tapmaz aram.

Üşüyürəm meh altında,
Qaldı tellər şeh altında,
Zaman çapır öz atında,
Zirvələrə bəyaz qaram,
Heç bu könlüm tapmaz aram.

Ey Şadiman, misra gələr,
Ürəyinə qəm ələyər,
Bir quzutək, hey, mələyər,
Qəfəsimə elə daram,
Heç bu könlüm tapmaz aram.

01.09.2001

NƏDƏN SIZLAYIRSAN DİVANƏ, BÜLBÜL?

Nədən sızlayırsan divanə, bülbül?
Gəlmirsən bir dinə, imanə, bülbül,
Vermisən ömrünü fərmanə, bülbül,
Uyma, gəl hərcayi peymanə, bülbül,
Sənin də, mənimtək, fəğanın qandı,
Həyatın hər üzü canə divandı.

Sən dərdə giriftar, mən dərdə açar,
Bu könül qapımı yalnız dərd açar,
Qalmışam müsibət əlində naçar,
Qəlbim qopub təndən yanına qaçar...
Ürəyim ələmə, qəmə ünvandı,
Həyatın hər üzü canə divandı.

Bülbül, elə acı zamanlarım var,
Sinəmdə ahlarım, amanlarım var,
Nəş'əyə, şadlığa gumanlarım var...
İlhamım çağlayır, ummanlarım var,
Bəlkə bu harayın haqqa dəvandı,
Həyatın hər üzü canə divandı.

Gəl elə oxuma, can yanır axır,
Sinəmin fəryadın yandırıb-yaxır,
Könlüm buludlayır, şimşəklər çaxır,
Səni bura salan eşqə kəm baxır...
Zindan, nə zamandan, azad yuvandı?!
Həyatın hər üzü canə divandı.

İlhamım əsirdi bu məhəbbətə,
Çəkilək səninlə, gedək xəlbətə,
Salmayaq misranı, təbi xiffətə,
Girək bir-biriylə tuti-söhbətə,
Elə vurğun oldum, səntək, afətə,
Dilinin cəh-cəhi qəmi qovandı,
Həyatın hər üzü canə divandı.

Dəmir sarayının qapısı bağlı,
Çırpınma, təntimə, itirmə ağlı,
Hərəyə bir cürdü həyat nağılı,
Sən dustaq, mən çöldə sinəsi dağlı!
Gözündən axan yaş dərdi yuvandı,
Həyatın hər üzü canə divandı.

Salma Şadimanı həvəsə, bülbül,
Belə eşq göstərmə qəfəsə, bülbül,
Aram et boğaza, nəfəsə, bülbül,
Vermə ürəyimlə səs-səsə, bülbül,
Deyərlər başında dəllik havandı...
Həyatın hər üzü canə divandı.

12.11. 2003

YENƏ KÖNLÜM QUŞU CÖVLAN ELƏYİR

Yenə könlüm quşu cövlan eləyir,
Qəlbimin ahıyla dövran eləyir.
Yenə ötür ürəyim "Şur" ilə,
Təb vurur könlə özün qan eləyir.
Gözümdə cilvələnir yaş dənizi,
Çalxadır qəlbi yarımcan eləyir.
Yenə bağrım savaşır ah ilə,
Qanımı bir dolu fincan eləyir.
Dil açır dadıma tez yetmək üçün,
Yetişir dilimi şan-şan eləyir.
Düşəli bu ürəyim naləyə,
Qəm gəlir könlümü nişan eləyir.
Sığmayır ev-eşiyə ilhamım,
Özünü məni pərişan eləyir.
Salıbdı zülümə bu Şadimani,
Ömrümü ahıya viran eləyir.

03. 03. 2003

BƏS ETMƏZ

Elə dolmuşam ki, yaz buludutək,
Könlü ovutmağa zaman bəs etməz.
Ağlayar ürəyim elin udutək,
Dərdini udmağa kaman bəs etməz.

Bir kimsə halımı duymadı nədən?
Ürəyin əlində ögardı bədən,
Canıma, ruhuma zülümlər edən,
Qorxuram etdiyin yaman bəs etməz.

İnsanı sükut yox, haray, hay qırar,
Sinəmə çəkilən dağlar hayqırar,
Duyğular özünü zirvəyə vurar...
Üstünü almağa duman bəs etməz.

Yalvarıb fələkdən imdad dilərəm,
Ürəkdə ağlaram, üzdə gülərəm,
Hər ağrı-acıya min yol ölərəm!
Bağrımdan çığıran aman bəs etməz.

Dünya zəncirlənib iblis əlində,
Bir yaxşı çaşbaşdı min pis əlində,
Əzəldən beynimiz qul hiss əlində,
Ona haqdan gələn iman bəs etməz.

Nə qədər ürəkdə hiylə, şər yatır,
Nə qədər at varkən törəyir qatır,
İblisin qoynunda şahmarlar yatır...
Tanrıya edilən guman bəs etməz.

Şadiman anlamaz bu müşkülləri,
Yanan ürəyinin qaldı külləri,
Hər misra ağladar tuti dilləri,
Göz yaşın yığmağa umman bəs etməz.

29.08.2001

KÖNÜL AHDAN ÇƏKƏR HARAY

Könül ahdan çəkər haray,
Haray candan sapar gedər.
Sevda tikər qəlbə saray,
Sarayın qəm çapar gedər.

Sultan eşqi həsrət üzər,
Kədər gözdə yaşı gəzər,
Kiprikləri şehlər bəzər,
Dərd ürəyi qapar gedər.

Dildə sözüm yalqızlayar,
Bağırımla bir sızlayar,
Ağrımı qəm tarazlayar,
Mənzilimi tapar gedər.

Nəş'ələrim qəlbi qucar,
Hər duyğuya min yol açar,
Olar eşqi aləmə car,
Könlə qala yapar gedər.

Ey Şadiman, təbim çağlar,
Dərdi bükər, qəm ayaqlar,
Gəzər ərzi bu ayaqlar,
İlahımı göyə bağlar,
Sinədən can qopar gedər.

02. 05. 2003

OD-ATƏŞ SIĞMAYIR

Od-atəş sığmayır sinəmə mənim,
Qabarır, köpürür həyat dənizim.
Dağılır başımdan çiskinim, çənim,
Hər addım yollarda ağarar izim.

Məğrur qartallartək qanad çalaram,
Ən uca zirvələr olar məkanım,
Həyatdan doyunca bir kam alaram,
Şadlıqla, sevinclə keçər hər anım.

Od-atəş sığmayır sinəmə mənim,
Mən ki, bu torpağın odlar qızıyam.
Dəryadan çıxmayır xəyal yelkənim,
Odlu ilhamımla ona arzuyam.

28.02.1986

YENƏ RUHUM QANADLANIR UÇMAĞA

Yenə ruhum qanadlanır uçmağa,
Günəş təki göydə atəş saçmağa,
Diləkləri alır candan qoparır,
Özü ilə asimana aparır.
Gah buluda, gah şimşəyə bac verir,
Gah leysana, gah yağmura tac verir,
Zirvələri eşqə salır pərvazı,
Bülbülləri oda atır avazı.
Çeşmə kimi lap qaynayır gözündən,
Alışıram soyumayan közündən.
Qar ələnir, sanki çılğın başına,
İslanıram gözdən axan yaşına.
Niyə sığmaz yuvasına bir dəm də?
Yer tapmayır heç özünə aləmdə.
Hər baxışda bir sədaqət arayır,
Duyğuların tellərini darayır.
Həm gecədən, həm gündüzdən öc alır,

Yaradana hikmətindən güc alır.
Ruhum güldü həyatın can bağında,
Təblə coşur bu divanə çağında.
Yellər əsmiş, an içində dağılmış,
Zaman ondan, o zamandan doğulmuş.

04. 04. 2004

PAYIZ AXŞAMI

Qəlbimi, ruhumu alıb əlimdən,
Tufan qoparırsan, payız axşamı.
Bu coşğun təbimi o pak elindən,
Hara aparırsan, payız axşamı?

Yandırma ürəyi, atıb qoynuna,
Qoymursan könlümü odda qoruna,
Çılğın diləkləri salıb toruna,
Hara aparırsan, payız axşamı?

Sükut içindədir gecənin bağrı,
Silinib qəlbimdən hər acı-ağrı,
Hicrində alışan ürəyi, bağrı,
Hara aparırsan, payız axşamı?

Köksümdə alışan ulduzlar səf-səf,
Hüsnünü oxşayan hilalın sədəf,
Qara şallı gecə uyğuma kələf,
Hara aparırsan, payız axşamı?

Şadiman bir şərqi oxuyur pəstə,
Sevgiylə alışan ürəyi xəstə,
Durmusan təbimlə yenə də qəsdə,
Hara aparırsan, payız axşamı?

11.11.1991

BU GECƏ YUXUM QAÇIB

Gecənin uzunluğu çəkib məni aparır,
Qərib-qərib duyğular qəlbdə tufan qoparır,
Göz zillənib tavana, fikir fikiri arır,
Kainatın içinə ürəyim bir yol açıb,
Gözlərimin içindən bu gecə yuxum qaçıb.

Ulduzların üstündə qaçışan diləklərim,
Durnalartək səf tutub uçuşan diləklərim,
Sonsuz ağrı-acıma acışan diləklərim,
Bəs necə yerdə, göydə ruhum təki qol açıb?
Gözlərimin içindən bu gecə yuxum qaçıb.

Belə həsrət, iztirab nə vaxtadək çəkəcək?
Nə vaxtadək üstümə dərddən min dərd tökəcək?
Abad olmuş könlümü viran edib sökəcək,
Ünlü xəyal şahpərim yenə haraya uçub?
Gözlərimin içindən bu gecə yuxum qaçıb.

Yumşaq, isti yatağım tikanlı çöldür mənə,
Üzümə tənə edən alışan dildir mənə,
İstəyirsən, ey gecə, zülməti güldür mənə,
Qəlbim könül süfrəsin bilmirəm harda açıb?
Gözlərimin içindən bu gecə yuxum qaçıb.

Fikirlərim gəzişir ətrafda divanətək,
Hey tökülür başıma bir uçuq viranətək,
Ürək tufan qoparır, can titrəyir nanətək,
Yenə də xəyallarım qəlb bağımda gül açıb,
Gözlərimin içindən bu gecə yuxum qaçıb.

Şadimanı tanısan, dərdlərinə tay hanı?
Həsrətli ürəyində qəmsiz keçən ay hanı?
Könlümün dünyasında gəz şadlığı, say hanı?
Çoxdan sevinc sarayım viranələrtək uçub,
Gəl şərik ol, ey fələk, bəs necə yuxum qaçıb?
Gözlərimin içindən bu gecə yuxum qaçıb.

14.11.1985

İLHAMLA ADDIMLAR QOŞA ÜRƏYİM

Oxunsa illərlə qurtarmaz hələ,
Gələr anlar ilə cuşa, ürəyim,
Sanki nalə çəkən bir neydir elə,
İlhamla addımlar qoşa, ürəyim.

Heç kitab görməyib bu cür hekayət,
Edər əzabından hər gün şikayət,
Könül ağrısını sanar cinayət,
Vurar əzabını başa, ürəyim.

Gileyi aləmi yandırıb, yaxar,
Dəli şimşəklərtək qəfildən çaxar,
Coşğun sellər təki kükrəyib, axar,
Sanar göz yaşıyla, daşa ürəyim.

Bir tənha çinardır yol üstə durub,
Qərib qaranquştək boynunu burub,
Elə bil, min illik yuxudan durub,
Təbimi calayar yaşa, ürəyim.

Həsrəti içində közə dönübdü,
Ələmdən ağrılı sözə dönübdü,
Qəfil sellər yuyan düzə dönübdü,
Çıxıb istəkləri boşa, ürəyim.

Hərdənbir soyunar ələm donunu,
Keçirər ilhamla xoşbəxt anını,
Döyər qapısını, kəsər yanını,
Yazından adlayar qışa, ürəyim.

Dolanda, buludtək, qəfildən dolar,
Üstünü bir aləm çiskinlər alar,
Dumanlar içində lap naçar qalar,
Dönər çaş-baş qalmış quşa, ürəyim.

Əlçatmaz, ünyetməz yollu olubdu,
Yük altında qalan qollu olubdu,
Çaxnaşan buludtək lapdan dolubdu,
Dolub bəbəklərə, daşa ürəyim.

30.10.1985

MƏN SƏNDƏN ÖTRÜ

Könül duyğularım sığmır dünyaya,
Dönüb bircə ayım ən uzun aya,
Gözümün yaşları bir coşğun çaya,
Saf havamdan gəlir mürəkkəb ətri,
Darıxdım, qələmim, mən səndən ötrü.

Sənsizlik dağ-düyün çəkir sinəmə,
Gözlərim dözməyir bu yaşa, nəmə,
Gəl, incə mələyim, dönək o dəmə,
Əzizdir köksümdə kağızın xətri,
Darıxdım, qələmim, mən səndən ötrü.

Möhlətə, məlala tuş olub ürək,
Puç olub min amal, min arzu, dilək,
Qopartma sinəmdə sən xəzri külək,
Gəl, gəl yollarına düzüm gül çətri,
Darıxdım, qələmim, mən səndən ötrü.

Könül nalə çəkir sızlayır yaman,
Yenə də bürüyüb məni çən, duman,
Gəl ey Şadimandan səadət uman,
Açılmır təbimin sənsiz bir sətri,
Darıxdım, qələmim, mən səndən ötrü.

27.11.1985. səhər saat 11, gəmi

ANAMIN RUHUNDAN GƏLİBDİ HECA

Anamın ruhundan gəlibdi heca,
Bu ruha göz dağı olma, sən allah.
Ondan dikəlibdi Rəbbimə rica,
İlhamsız qəlb telin yolma, sən allah.

O təbi olana çağlayan bulaq,
Ondan saz ruhunu duyur hər qulaq,

Heca sevdasında gəlin bir olaq,
Çətinsə, sənətdə qalma, sən allah.

Onla cilvələnib sazın telləri,
Gəzib addım-adım eşqi elləri,
O vəcdə gətirib yanan dilləri,
Kam ala bilmirsən, alma, sən allah.

Heca könlümzün nazlı afəti,
Onun sərvə bənzər qəddi-qaməti,
Oxşar qəlbimizi eşqlə xəlvəti,
Bu eşqi ilantək çalma, sən allah.

Oxşama yağıtək yaddan gələni,
Yad eşqlə çox gördük millət dələni,
Hiylə torlarına düşüb öləni…
Acıqlı buludtək dolma, sən allah.

Vətəntək, anatək heca canımız,
Ruha köklənməli bu vicdanımız,
Doldu düşmənlə dörd-bir yanımız…
Sən də onlarla bir olma, sən allah.

Yazın ağır olub bu Şadimana,
Dağın mehləri var gələn dumana,
Şeirə dəb gətirib azğın zamana,
Çalış ondan dala qalma, sən allah…

08.08.2010

MƏN NECƏ YAŞAYIM

Ürəyin göylərin duman alanda,
Sinəmin içini qüssə çalanda,
Xəyalın könlümə qonaq olanda,
Mən necə yaşayım, bəxtim, mən necə?
Yoxluğun gündüzü eyləyir gecə.

Sənsizlik heçlikdir, boşluqdur hərgah,
Bilməm sinəmdəmi, ya gözdə günah?
Şirin röyaların köksümə pənah,
Olmuşam yenə də təkliyə möhtac,
Ayrılıq necə də alır məndən bac.

Səni axtarıram otaqlarımda,
Göz yaşım leysandır yanaqlarımda,
Donub təbəssümüm dodaqlarımda,
Uçuq xanimanlar yuvası – bəxtim,
Ruhumun can adlı havası – bəxtim.

Könüldən nəfəsin hələ getməyib,
Heç qulaqlarımdan səsin ötməyib,
Can yiyəsi, səntək, zülüm etməyib,
Mən yazı masamda donub qalmışam,
Mehrimi ilhama, təbə salmışam.

Gedişin dumana bürüyüb məni,
Göndərib üstümə bir yığın çəni,
Göydəmi, yerdəmi arayım səni?!..
Ömrün küləkləri uçurdur ağlı,
Kainat içinə qaçırdır ağlı.

Vaxtıma tökdüyün dərdə çarə yox,
Dünyada mənimtək günü qarə yox,
Səni çox axtardım, bu aləmdə, çox...
Odur ki, ey bəxtim, uçuq kahayam,
Sən gəldiyin səmtə açıq kahayam.

18.11.1985. İş otağında

GECƏLƏRİN SÜKUTUNU ÇOX SEVİRƏM…

Gecələrin sükutunu çox sevirəm…
Orda qəlbin ağrıması,
Orda ruhun bağırması,
Orda gözün yola düşüb yol getməsi,
Orda xəyal çeşməsi var,
Orda canın tələtümə düşməsi var…
Orda ağlın dincəlməsi,
Orda qəmin incəlməsi,
Orda həyat nişanəsi,
Orda təbin pərvanəsi,
Hey dolanır qərib-qərib can başına,
Hərdən batır bəbəklərdə göz yaşına.
Gecələrin sükutunun hücrəsi var,
Mənə düşən otağı dar.
Duyğularım bu otağın tavanında qaçışırlar,
Kəpənəktək səssiz-səssiz uçuşurlar.
Şirin-şirin hekayətlər danışırlar,
Mələklərtək bir-biriylə yarışırlar.
Əlim gəlmir səssizliyi tez devirəm,
Bu kiçikcik varlığları üzü üstə mən çevirəm.
Budur bəxtə düşən çevrəm…
Gecələrin sükutunu çox sevirəm…
Gecələrin sükutunu çox sevirəm.

18.08.2012

HECA

Şirin laylaların ana dilində,
Könlümün içinə dağılan heca.
Düşüb yuyunuram şaqraq selində,
Zərif çiçəklərtək yığılan heca.

O tuti ləhcənə vurulub qaldım,
Kövrək zəngulənə mehrimi saldım,
Evinə təb adlı sehrimi saldım,
Ruhumdan, canımdan doğulan heca.

Səndən qopub gəlir hər ağı, layla,
Dolmuşam küləyi, buludu hayla,
Ahımın təşnəsi sovrulsun vayla,
Doğma kəlmələrlə yoğrulan heca.

Sazımın, tarımın közü səndədir,
Min illik qopuzun izi səndədir,
Səndə bu məhrəmlik, doğmalıq nədir?!
Ögey baxışlardan boğulan heca.

Zərif çiyinində dastanlar gəzir,
Sən türk doğulana Tanrıdan nəzir,
Sənə xor baxanlar ruhumu əzir,
Ey heçdən var olan, doğrulan heca.

Anamın nəfəsin səndə duyuram,
Dəli istəyinə yartək uyuram,
Səni varlığımdan necə ayıram?!
Çocuqtək bağrıma sığılan heca.

Qolların boynuna dolar Şadiman,
Hissimin allahı, eşqimə iman,
Ağlayan könlümə bir təkcə dərman,
Təbsiz şe'r əhlindən sıxılan heca…

Əzəldən layiqsən ən yüksək taca,
Yerin zirvələrdən ucadır, uca!

04.10.2013

MƏNƏ BİR İMKAN VERİN

Yenə də qanadlanan ruhum durna köçüdür,
Ağlayan ürəyimin görünməyən içidir,
İlan təki sürünən yamanlıqlar neyçindir?
Zəka səltənətinin eşqi dərindən dərin,
Duyğumu qaynatmağa mənə bir imkan verin.

Titrəyən diləklərim ürəklə qol-boyundur,
Ömür hər bir insana Tanrı yazan oyundur,
Ruhumu çağıran el, sənin kökün-soyundur,
Bülbültək çağlamağa çiçəkli məkan verin,
Duyğumu qaynatmağa mənə bir imkan verin.

Bax baharın nəfəsi duyulur yerdə, göydə,
Yaşıllaşır çinarlar, buta bağlayır iydə,
Şəbnəmlər nur ələyir bir saçaqlı söyüdə,
Şimşəktək alışmağa ruhuma təkan verin,
Duyğumu qaynatmağa mənə bir imkan verin.

Bir az dəli kimiyəm, bir az coşğun irmağam,
Az qalıram buluddək dolub şıdırığı yağam,
Canım bədəndə durur, şükür ki, hələ sağam,
Şadimana bir dəniz, qayıqlı yelkən verin,
Duyğumu qaynatmağa mənə bir imkan verin.

12.05.2013

GECƏNİN YARISI

Könlümdə acı bir əndişə,
Yuxum çəkilib ərşə.
Ürək asi, can asi.
Gecənin yarısı…
***
Bir an belə sənin xəyalın
məni tənha buraxmır,
İstər uyğularımda,
İstər duyğularımda.
Durub qarşımda məsum-məsum
baxır üzümə,
Mat-məəttəl qalmışam içimdəki
dözümə.
***
Gecənin yarısı…
Ürəklə sevgi arası
acı bir didişmə.
Fələk qandalmı vurub hər işimə?
Zamanım röyalarda,
Könlüm xülyalarda
ötüb keçir bir an təki,
Ürək də üşüyür dövran təki.
Göylə yer arası,
Bu gecənin yarısı…
***
Sən məndən uzaq,
İçimdə ərzi donduran sazaq.
Ömrümün payızı,
Mənim taleyimə düşdü
böylə bir alın yazı.
Gözlərim acışır ötüb
keçən zamanıma,
Kimsə yetməz amanıma.
Sönüb bəxtimiz üşüyən ocaqlarda…
Sən məndən uzaqlarda.
Qucmusan xəyalın boynunu,
Mənimsə içimdə acı bir sevda oyunu…

***

Ey Şadiman, az çək-çevir et,
bu dünyanın işlərini,
Müəmalı vərdişlərini,
Ürək can evinə uyuşmaz,
Bağrımdan sevgi sovuşmaz,
Yerlə göy arası…
Bu gecənin yarısı…

17.12.1994

DİLƏ GƏLİR

Bu çılğın könlümün həyəcanından,
Ürək dilə gəlir, dil dilə gəlir.
Şeriyyət ayrılır coşğun canından,
Zaman dilə gəlir, il dilə gəlir.

Qələmsiz, vərəqsiz dünyada heçəm,
Hazıram yolunda canımdan keçəm,
Ondan başlar izim, cığırım, küçəm,
Qara saçlarımda tel dilə gəlir.

Ocaqsız alışıb yanıram hələ,
Heç sinə görməyib yanmağı belə,
Bu cismi-bədənim gəlibdi dilə,
Doğulduğun torpaq, el dilə gəlir.

Hisslərim könlümə hey divan tutur,
Sinəm şeriyyətin köksündə yatır,
Dünyanın yükünü çiyninə çatır,
Ürəkdə ahəstə tel dilə gəlir.

Yaşaya bilmirəm duyğularımsız,
Qəlbi ovsunlayan qayğılarımsız,
Mən heçəm o qadir uyğularımsız,
Gözümdə bulanıq sel dilə gəlir.

Şadiman, misralar sənə çıraqdır,
Sevgilin bir qələm, bir də varaqdır,
Hissin gərdişindən ürək soraqdır,
Məcnun taleyimə çöl dilə gəlir.

18.01.1987

NALƏSİLƏ GÖZ AÇIB

Mən Füzuli nalәsiylә göz açıb,
Nәsiminin fәryadıyla yanıram.
Natәvanın gülzarında gül açıb,
Tikanları, qanqalları danıram.

Məhsətinin rübabından alışdım,
Alov olub ocağına qarışdım,
Hikmətlərin dünyasında yarışdım,
Yaxşıları, yamanları anıram.

Uzaqlarda, yaxınlarda yox gözüm,
Addımımdan narazıyam mən özüm,
Soyuq, isti çox görübdü bu üzüm,
Bəndələrin hər üzünü qanıram.

Hər sinədə alov olmaz, od olmaz,
Hər xörəyə hər dil üstə dad olmaz,
Hər yetənə el ucaldan ad olmaz,
Ürək var ki, sazağından donuram.

Əyrilərin əyri gedən sözünü,
Namərdlərin evlər yıxan özünü,
Çox başların düz görməyən gözünü,
Sinəmdəki sözlərimlə yonuram.

Şadimanam, əlimdədir qələmim,
El xoşbəxtsə nə kədərim, ələmim,
Firavandır bu bəxtiyar aləmim,
Ün yetməyən zirvələri sanıram.

19.11.1987

OCAĞIYLA YANDIRAN

Bu dünyanı ocağıyla yandıran,
Sinəmdəki oda-közə neyləyim?
Bir günəş yox, min günəşi andıran,
Bu atəşli yanar közə neyləyim?

Dəli könlü məhvərindən qoparan,
İlhamımı pak evinə aparan,
Ürəyimi xəncər ilə tən yaran,
Bulaq təki qaynar sözə neyləyim?

Sona kimi çeşmələrdə dolaşan,
Qartalları zirvələrdə yarışan,
Hər ah üçün sinəm üstə vuruşan,
Hər addıma, hər bir izə neyləyim?

Eniş-yoxuş bilmib yollar gedibdi,
İztirabı sinəm için didibdi,
Duyğuları çöldə Məcnun edibdi,
Bükülməyən məğrur dizə neyləyim?

Həsrətiylə biyabanda ağladan,
Bağlanmayan qapısını bağladan,
Sinəsini ocağında dağladan,
Məhəbbəti gəldi gözə, neyləyim?

Şadimanı hisslər ilə oynadan,
Çeşmə təki bağrın, köksün qaynadan,
Min-min könül baxdı keçdi aynadan...
Mənim könlüm baxmaz sözə, neyləyim?

22.11.1987

SEVGİ DUYĞULARI

Könlümün içində həzin bir atəş,
Keçən ocağımın külü də közdü.
Parladı eşqinlə sinəmdə günəş,
Bağrım məhəbbətin gölündə üzdü.

O isti əllərin hərarətindən,
Soyuq ürəyimin alovu artdı.
Səadət vüsalı doğdu bətindən,
Eşqisiz dünyamda həyat yaratdı.

Gözündən gözümə bir işıq axdı,
Ömrün qaranlıqda çırağı oldu.
İlahi bircə yol mənə də baxdı…
Bu eşq taleyimin varağı oldu.

Qəlbdən haray çəkən çılğın duyğular,
Könlümə gah kədər, gah da ki, nəş'ə,
Alıb ağuşuna məni uyğular,
Öldürür, dirildir bu xoş əndişə.

Mübarək baxışın gecəmə işıq,
Gəzər Şadimanın pak aylarında,
Bir könül bəxş etdin sevgi qarışıq,
Çapacaq ömrümün dolaylarında.

08.01.1993

GÖZBƏBƏYİM

Sənsiz bil ki, mənə aləm
Talan oldu, gözbəbəyim.
Ayrılığın sinəyə qəm
Salan oldu, gözbəbəyim.

Hicranının ocağında
Yandı ömür bu çağında.
Ürək həsrət qucağında
Qalan oldu, gözbəbəyim.

Könül verdim, əhdi dandın,
Özgəsiylə oda yandın.
Söylə, görüm niyə andın
Yalan oldu, gözbəbəyim?

Niyə yetməz haqqa dua
Qapımızdan qəmi qova?
Bulud gözdə qurdu yuva
Dolan oldu, gözbəbəyim.

Ey Şadiman, qəm başımda,
Yalvarış yox göz yaşımda.
Demə mənə bu yaşımda,
Olan oldu, gözbəbəyim.

29.04.1997

KAŞ OLMAYAYDI...

Vüsalı saralan bir bahar kimi,
Bəxtimiz hicrana tuş olmayaydı.
Sənin ürəyində sevgi həsrəti,
Mənim gözlərimdə yaş olmayaydı.

Nə xoşbəxt olardıq ikilikdə biz?
Zülmət gecəmiz də süd kimi gündüz,
Əhdi-ilqarımız, peymanımız düz,
Ayrılıq vüsaldan baş olmayaydı.

Həsrət sinəsini cırıb töksə də,
Kədər badəmizə zəhər töksə də,
Aydın fəzamıza zülmət çöksə də,
Günəşi qaralan qış olmayaydı.

Uçub əlimizdən getdisə günlər,
Qədər bəxtimizə saldı düyünlər,
Dəli ayrılığa uyan beyinlər,
Min bir hava çalan baş olmayaydı.

İllərin qəmindən boşalıb dolan,
Hər günü yarpaqtək saralıb solan,
Hicranın əlində oyuncaq olan,
Məcnun sevgimizdə yaş olmayaydı.

Bizi bir-birindən aralı qoyan,
Qaniçən cəlladtək dərilər soyan,
Şeytanın, iblisin dilinə uyan,
Həsrətin sinəsi daş olmayaydı.

İndi bu ürəkdir cəfalar çəkən,
İlk məhəbbət adlı ağır yük çəkən,
Sinəmi oduyla yandırıb tökən,
Çəkdiyim ağrılar boş olmayaydı.

Şadiman hardadır, sən isə harda?
Odlu duyğularsa boranda, qarda,
Sevgimiz beləcə qalıbdı darda.
Dünyada ayrılıq kaş olmayaydı,
Dünyada ayrılıq kaş olmayaydı.

14-17.01.1987

BU BƏLALI BAŞIMA

İçimi bürüyüb ah,
Batmışam göz yaşıma.
Nələr gəldi, ay Allah,
Bu bəlalı başıma?

Ümidlərim puç oldu,
İstəklərim heç oldu,
Səni sevmək suç oldu
Bu bəlalı başıma.

Eşq önündə qəlb çökdü,
Altun nəş'əmi sökdü,
Üsbəüstdən dərd tökdü
Bu bəlalı başıma.

Ağladım için-için,
Sevirkən yana için,
Qəm dolu tökdü neçin
Bu bəlalı başıma?

Günüm qəmə tuş oldu,
Dərdə tutulmuş oldu,
Eşq əlçatmaz quş oldu
Bu bəlalı başıma.

Ürək ağlar bir neyim,
Qəlblə coşan gileyim,
Mən necə əlac deyim
Bu bəlalı başıma?

Bu könül qəm çeşməsi,
Bürüyüb ərzi səsi,
Düşüb dünyanın nəhsi
Bu bəlalı başıma.

Acılar zirvə aşdı,
Ələm ilə qarışdı,
Bu sevgi qara daşdı
Bu bəlalı başıma.

Düşdü ömür sərt qışa,
Neylər dərd qarğımışa?
Sevgin qurdu tamaşa
Bu bəlalı başıma.

Acılar kəsdi yolu,
Bağladı əli-qolu,
Yağdı çox leysan-dolu
Bu bəlalı başıma.

Şadiman dərddən qaçar,
Dərdsə qapısın açar,
Ələm sarayı uçar
Bu bəlalı başıma.

19.10.1991

SƏN OLDUN

Könlümü köpürən dəli sellərə,
Bir göz qırpımında, atan sən oldun.
Min bir qəm gətirən qəmsiz illərə,
Məni dərdlilərə qatan sən oldun

O lal gecələri uyğusuz edən,
Pak məhəbbətimi sayğısız edən,
Özgə yuvasına eşq üçün gedən,
Beşgünlük sevgilər tutan sən oldun.

Sevdamı Məcnuntək düzlərə salıb,
Ağlımı, hüşumu əlimdən alıb,
Bağrımın başından ilantək çalıb,
Çiynimə həsrəti çatan sən oldun.

Qırğıtək bir dünya nəş‘əmi didib,
Özgə qapısına əhd üçün gedib,
Elə Şadimanı qərarsız edib,
Ömürlük könlümdə yatan sən oldun.

12.08.1991

HİCRAN AĞRISI

Həsrətin gözümdə qanlı yaş oldu,
Seli çeşmələrə, çaylara döndü.
Ağlaya-ağlaya ürək daş oldu,
Ahı qəlbdən qopan vaylara döndü.

Nə sən bu sevdadan dönə bilmədin,
Nə mən bu sevgini unuda bildim.
Nə sən qürurundan enə bilmədin,
Nə mən saf eşqimi tanıda bildim.

İkili yansaq da ocağımız buz,
Bir anlıq vüsala könlümüz təşnə,
Söndü bəxtimizin göyündə ulduz,
Canlarsa tutuşdu eşq atəşinə.

Sinəmdə bir sevgi ocağı çatdın,
Qurtula bilmirəm oddan, doğrusu.
Elə Şadimanı qəmlərə atdın
Ki, getməz sinədən hicran ağrısı.

17.03.1987

OLMASIN

Ey sevgilim, hicran vaxtı,
Kipriklərin nəm olmasın.
Tanrı xoşbaxt etsin baxtı,
Aralıqda qəm olmasın.

Səadətin buta-buta,
İraq olsun min yol xata,
Bir yol gəldik bu həyata,
Bir gün də pis dəm olmasın.

Ömrü vuraq başa həlal,
Uzaq olsun qüssə, məlal,
Gəlməsin heç eşqə zəval,
Sevinc bizdən kəm olmasın.
Haqdan gələn alın yazım,
Sənlə gəlir bahar, yazım,
Sənlə dinir könül sazım,
Zili olsun, bəm olmasın.

Həyatımız çiçəkləsin,
Gülü min-min ləçəkləsin,
Hər arzumuz gerçəkləsin,
Səadətdən dəm olmasın.

Şadimanın ağ telində,
Cəfa ömrün hər ilində,
Ay sevgilim, o dilində
Bir yol acı təm olmasın.

28.04.1997

QIRMA ÜMİDİMİ...

Keçmişi geriyə qaytarmaq çətin,
Dikəlir içimdən asimana ah.
Məni peşman etdi bu səadətin...
Qırma ümidimi, qırma, sən allah.

Ürəyim, bağırım, qəlbim didərgin,
Keçir saatlarım, anlarım gərgin,
Bitib-tükənməyir acılar sərgin...
Qırma ümidimi, qırma, sən allah.

Rüzigar sərt əsdi tale bağımda,
Dərdin dastan oldu qəlb varağımda,
Ayrılığın gəzir nə sorağımda?
Qırma ümidimi, qırma, sən allah.

Nə qəmli könlümü güldürə billəm,
Nə qəlbdə sevgini öldürə billəm,
Nə bəxtdən yazımı sildirə billəm,
Qırma ümidimi, qırma, sən allah.

Yoluna dikilən gözümü qoru,
Qapımda sərgərdan izimi qoru,
Səni əzizləyən dözümü qoru,
Qırma ümidimi, qırma, sən allah.

Şadiman onsuz da canından bezar,
Tale acıların vərəqə yazar,
Sənsiz ürəyimə ürəyim məzar..!
Qırma ümidimi, qırma, sən allah.

22.12.1994

O BAXIŞLAR

İsindirir günəşiylə,
Can alandı, o baxışlar.
Qəlbə odu, atəşiylə,
Hey qalandı, o baxışlar.

Hicran adlı qorxu oldu,
Köksə həsrət oxu oldu,
Acı-şirin yuxu oldu…
Ah, yalandı, o baxışlar.

Qoydu gözdə diləyimi,
Yıxdı ümid dirəyimi,
Gürzə təki ürəyimi,
Tez çalandı, o baxışlar.

Hicranın acı təmi,
Kimə deyim bu sitəmi?
Nə bitmədi heç matəmi,
Nə talandı o baxışlar.

Şadiman da yaz çiçəyi,
Şeh toxuyur tər ləçəyi,
Dilim desə lap gerçəyi,
Qan salandı, o baxışlar.

13.03.1997

SƏNİNLƏ

Sinəmdəki duyğularım baş-başa,
Ay sevgilim, sükuta dal, gəl dinlə.
Səadətə birgə edək tamaşa,
Qəlb yoldaşım, can sirdaşım, səninlə.

Yaman olur dünyada el qınağı,
Göz yaşımız üşütməsin yanağı,
Dəf eləyək hər müşkülü, sınağı,
Qəlb yoldaşım, can sirdaşım, səninlə.

Əsdirməsin fələk vaxtsız yelləri,
Soldurmasın bağçamızda gülləri,
Məhəbbətlə başa vuraq illəri…
Qəlb yoldaşım, can sirdaşım, səninlə.

Sarmaşıqtək əhdimizə sarışaq,
Bu sevdaya qan bir olub qarışaq,
Məzaradək atəş ilə alışaq…
Qəlb yoldaşım, can sirdaşım, səninlə.

30.04.1997

SƏNİ

Sən mənim bəxtimə düşən işıqsan,
Yolumdan qovmaqçın çiskini, çəni.
Ömrümə, günümə bir yaraşıqsan,
Mənə Yaradanım göndərmiş səni!

Yoxdu bu sevginin dünyada tayı,
Ürəkdə od yoxsa, yanmaz havayı,
Yox canıma munis səndən savayı,
Mənə Yaradanım göndərmiş səni.

Odlu nəfəsindən torpaq yazlanır,
Cahanın könlündə eşq avazlanır,

Vüsal libasında sevgi nazlanır,
Mənə Yaradanım göndərmiş səni.

Oxşa Şadimanı ovutmaq üçün,
Alışan köksümü sovutmaq üçün,
İçimin dərdlərin dağıtmaq üçün,
Mənə Yaradanım göndərmiş səni.

01.05.1997

MƏNİ BAĞIŞLA

Nurlu sabahımın parlaq günəşi,
Üzmə ürəyimi min bir baxışla.
Yanan ocağımın odu, atəşi,
Əgər bacarırsan məni bağışla.

Sözün sözüm ilə düz gəlməyəndə,
Bir acı tənbehə üz gəlməyəndə,
Könül savaşına söz gəlməyəndə,
Əgər bacarırsan məni bağışla.

Taleyin şərqisi gah zildi, gah bəm,
Gözdə gah ələmdi, gah nəş'ədən nəm,
Əbədi deyil ki, acı-şirin dəm,
Əgər bacarırsan məni bağışla.

Yaşın çoxluğunu il deyəndə də,
Ürək deməyəni dil deyəndə də,
O göz yaşlarını sil deyəndə də,
Əgər bacarırsan məni bağışla.

Dinlə Şadimanı könül sirdaşım,
Bir acı tənədən çatılsa qaşım,
Qəlb buludlayanda, axsa göz yaşım…
Əgər bacarırsan məni bağışla.

24.04.1997

DEMƏ

Töküb kipriklərdən acı yaşları,
Demə, həsrətindən bezə bilmirəm.
Günahkar-günahkar çatıb qaşları,
Demə bu müşkülü sezə bilmirəm.

Sən ki, özün verdin hicrana fərman,
Qırıldı həmən gün o əhdi-peyman,
Demə ki, tapılmır dərdinə dərman,
Daha yataqdayam gəzə bilmirəm.

Demə, başımdadı sevda dəmləri,
Gəzdirmək çətindir bu ələmləri,
Dərdli gözlərimdə bəyaz nəmləri
O solğun çöhrənə düzə bilmirəm.

Demə, eşq bağımda güllər açılmış,
Ətri, rayihəsi ərzə saçılmış,
Sevirəm kəlməsi dildən qaçılmış,
Budaqdan gülümü üzə bilmirəm.

Demə ki, Şadiman gələr fəryada,
Verər şərəfini bu yolda bada,
Demə ki, hələ də yanıram oda…
Demə ki, mən sənsiz dözə bilmirəm.

28.04.1997

GƏL

Suallar üz-üzə durub ürəkdə
Məni xatirəyə aparır bu yol,
Ahım buludlara dönüb fələkdə,
Gəl, yanan könlümə bir içim su ol.

Dodaqda gülüşlər donubdu, sənsiz,
Üzümə qəm, kədər qonubdu, sənsiz,
Vallah, bilsən necə sonumdu, sənsiz,
Gəl, yanan könülümə bir içim su ol.

Sanki qürbətdəyəm indi elə bil,
Eyvah, bu ürək də mənimki deyil,
Gözlərim yollarda didərgin, veyil,
Gəl, yanan könlümə bir içim su ol.

Şadiman gecələr alışan şamdı,
Dünya başdan-başa sənsiz axşamdı,
Dərdin dirək dözməz, nə ağır damdı?
Gəl, yanan könlümə bir içim su ol.

02.03.1997

KEÇİLMƏZ

Hicran soyuq yatağımda mürgülər,
Gün biçilər, heç vaxt dardan seçilməz.
Qapımızı kəssə qorxu, hürkülər,
Can keçilər, heç vaxt yardan keçilməz.

Səadətim yollarında naçarsa,
Bağlı qalan qapımı qəm açarsa,
Gecələrim al səhərdən qaçarsa,
Dan keçilər, heç vaxt yardan keçilməz.

Var başımda yuva quran quş olsa,
Dünya malı şirin cana nuş olsa,
Uca-uca şöhrətlərə tuş olsa,
Şan keçilər, heç vaxt yardan keçilməz.

Gördüyünə kor olan da gözümdü,
Hər fəsilin qovğasında üzümdü,
Pak adı da cilovlayan dözümdü,
An keçilər, heç vaxt yardan keçilməz.

Şadimanı qiymə edin dilindən,
Dara çəkin saatda hər telindən,
Yarın bağrın, dərya tutun selindən…
Qan keçilər, heç vaxt yardan keçilməz.

07.01.1995

BƏS EYLƏR

Sənin şəfəqindən ulduzlar bitər,
Bu şəfəq gözümdə nura bəs eylər.
Atəşi günəşin odundan betər,
Könül ocağında qora bəs eylər.

Sənin işığından zülmətlər qaçar,
Gecənin başının üstündə uçar,
Vüsalın evimin qapısın açar,
Hicranı salmaqçın tora bəs eylər.

Sən elə atəşsən bütün dünyaya,
Əriyər odunda həm daş, həm qaya,
Düşər qəmin özü bu dərddən vaya,
Kədəri çəkməkçin dara bəs eylər.

Eşqin buludlardan doğan meh təki,
Çapır ürəyimdə bir fateh təki,
Səhərin gözündən yağan şeh təki,
Vüsal bağçasında bara bəs eylər.

25.10.1998. Pirallahı

NƏ DEYƏRSƏN

Kaman təki qaşlarını
Nə əyərsən, nə əyərsən?
Qurutsam göz yaşlarını…
Nə deyərsən, nə deyərsən?

Kipriyinə qonsam şehtək,
Pəncərəni öpsəm mehtək,
Qəlbə girsəm bir fatehtək…
Nə deyərsən,nə deyərsən?

Dönsəm vüsal yuxusuna,
Qələm çəksəm qorxusuna,
Gəlsəm sevda qoxusuna,
Nə deyərsən, nə deyərsən?

Çeşmələrtək ləpələnsəm,
Üz-gözünə səpələnsəm,
Ovucunda təpələnsəm,
Nə deyərsən, nə deyərsən.

Şadimana hicran məhrəm,
Can üstədir eşqlə bahəm,
Desəm ki, sən dərdə məlhəm,
Nə deyərsən, nə deyərsən?

04.03.1995

SÖNƏR

Gözünün atəşi içimi diddi,
Alışır qorundan könül ocağı.
Eşqin yollarında qalan ümiddi,
Hicranla, həsrətlə dolu qucağı.

Kəsilib qəlbimin taqəti daha,
Üzür varlığımı acı əndişə.
Mənim səadətim qalıb Allaha,
Çəkir həyatımı ayrılıq dişə.

Baxışlar, ürəklər, dillər qərarsız,
Nəfəsi kəsilən eşqilər ağlar.
Hönkürür buludtək sinəmiz yarsız,
Ölsək bir-birini ruhlar soraqlar.

Gəl acı həsrəti çırpaq daşlara,
Unudaq niskilli hər şeyi nə var.
Dönək bu sevdada biz sirdaşlara,
Yoxsa qəm vüsalın burnunu ovar.

Şadimanın qəlbi sənsiz buzlaşır,
Cahanın yazları qışlara dönər.
Əgər birləşməsək eşq ucuzlaşar,
Taleyin göyündə bəxtimiz sönər.

04.06.1994

TƏK SƏNƏ QOVUŞMAĞA

Bəbəklərim qan ola,
Hicran saçımı yola,
Dözüb gedərəm yola,
Ələmdən sovuşmağa,
Tək sənə qovuşmağa.

Oyat məni bir səhər,
Qədəhimə süz zəhər,
Sanaram bu qəm, qəhər,
Vüsalla barışmağa,
Tək sənə qovuşmağa.

Könül bağda gül ola,
Eşqin bir bülbül ola,
Qəlb odunda kül ola…
Göz-gözdən alışmağa,
Tək sənə qovuşmağa.

Gəl, gülüm, eşq bağına,
Gül töküm qucağına,
Düşmüşəm ocağına…
Oduna qarışmağa,
Tək sənə qovuşmağa.

12.05.1997

NƏ VAR

Mənə ürəyində olan eşqini
Sənin gözlərindən bilməyə nə var?
Könlümdə yurd, yuva salan eşqini
Hicranın qəlbimdən silməyə nə var?

Büllurtək safdırsa sənin niyyətin,
Qalmaz qapılarda heç səadətin.
Niskillər, acılar verən həsrətin,
Yalandan üzünə gülməyə nə var?

Bitirmə sinədə hicran kolunu,
Zəncirlə qəminin o əl-qolunu,
Salsan ürəyimdən sevgi yolunu,
Sevgilim, dərdindən ölməyə nə var?

10.12.1999

GƏLMİSƏN MƏNƏ

Sənin baxışının bənzəri yoxdur,
Od tökür sinəmə gözlərin yenə.
Üstündə iblisin nəzəri yoxdur,
Sən ayrı dünyadan gəlmisən mənə.

Könlümdə anbaan duyğular coşur,
Bahar selləritək qaynayıb daşır,
Ürkək xəyalınla hey pıçıldaşır...
Sən ayrı dünyadan gəlmisən mənə.

Eşqin şahin təki könlümü çalar,
Girib ürəyimin içində qalar,
Bütün vücudumu əlinə alar,
Sən ayrı dünyadan gəlmisən mənə.

Səndə rüzgarların coşqunluğu var,
Qərib durnalartək çaşqınlığı var,
Qəlbin dağ selitək daşqınlığı var,
Sən ayrı dünyadan gəlmisən mənə.

Dönür duyğuların gur leysanlara,
Bir həyat verirsən bu lal anlara.
Heç bənzərin yoxdur bu insanlara,
Sən ayrı dünyadan gəlmisən mənə.

06.12.1999. Pirallahı

SƏNSİZLƏDİM

Yarım, sənin yolunu
Sübhə təki gözlədim.
Gizləyib qəmdən bunu,
Ürəkdə əzizlədim.

Kədər dolu qucağın,
Sinədə həsrət dağım,
Sönməsin od, ocağım,
Səhərədək izlədim.

Aşdı qəmim başımdan,
Boğuldum göz yaşımdan,
Heç çıxmadın başımdan,
Yamanca sənsizlədim.

27.01.2000

DƏNİZ YARIM

Ürəyim doldu qəmdən,
Göz nalə çəkdi nəmdən,
Gəl insafa, sevgilim,
Qurtar məni bu dəmdən.

Ağızda dilim ağlar,
Zamanım, ilim ağlar,
Hicran yarası ağır,
Qəlb dilim-dilim ağlar.

Dərdindən ölən canım,
Hər qəmi bölən canım,
Əhd bağladım, sevgilim,
Əhdimi necə danım?

Üzüyün qaşı ollam,
Qaşının daşı ollam,
Bir yol mənə can desən,
Ürəyin başı ollam.

Canımdan əziz yarım,
Eşqində təmiz yarım,
Şadimanın sevgisi,
Tək sənə dəniz, yarım.

30.07.1999

UZAQ DÜŞƏNDƏ

Dərdim başımdan aşar
Qəlbə sazaq düşəndə.
Gözümdə yaşım daşar
Səndən uzaq düşəndə.

Həsrət könlümü alar,
Alıb bağrına salar,
Bu göz yolunda qalar,
Səndən uzaq düşəndə.

At çapar içimdə qəm,
Verməz rahatlıq bir dəm,
Mənə dərd olar aləm,
Səndən uzaq düşəndə.

Hicran qəlbdə birinci,
Olar kədərə inci,
Qapar əldən sevinci,
Səndən uzaq düşəndə.

27.01.2000

QURBAN ÖZÜM

Tale sənə yarısın,
Könlünə eşq sarısın,
Allah səni qorusun,
Bədnəzərdən, sevgilim,
Hər nəzərdən, sevgilim.

Ürəyimin odusan,
Həyatımın dadısan,
Salma qəlbə yadı sən,
Qısqanaram, sevgilim,
Odlanaram, sevgilim.

Gözümüz yaş olmasın,
Ayrılıq daş olmasın,
Qəmlə sirdaş olmasın,
Diləyimsən, sevgilim,
Ürəyimsən, sevgilim.

Eşqimiz dəniz olsun,
Aytək nurbəniz olsun,
Tanrıtək təmiz olsun,
Qəlbi gözəl, sevgilim,
Candan əzəl, sevgilim.

Sən Allahdan payımsan,
Dünyada harayımsan,
Məhəbbət sarayımsan.
Canım, gözüm, sevgilim,
Qurban özüm, sevgilim.

27.12.1999

VƏFASI YOXDUR

Deyirlər məhəbbət qəlblərə məlhəm,
Vüsalı zərrədir, cəfası çoxdur.
Dedin, can verərəm bu eşqlə bahəm,
Neylim, ürəyinin vəfası yoxdur.

Çağlaram çeşmətək bu eşqinlə mən,
Duyğular könlümü oxşar meh təki.
Xəyalın kirpiyə qonan çiskin, çən,
İsladır yanağı məhzun şeh təki.

Xatirən qapımdan girər soraqsız,
Ayrılmaz könlümün xəyal bağından.
Gəzər qəlb telində hicran daraqsız,
Mən qopa bilmərəm həsrət çağından.

Düşərəm minnətçi hey ayrılığa,
Gəlib ürəyimi daha tapmasın.
Girməsin könlümlə bir də qılığa,
Sinəmin içində atın çapmasın.

Sən mənim etdiyim minnətə baxma,
Eşitməz ayrılıq yalvarışımı.
Onunçun vücudum bir kiçik daxma,
Yerdə qoymayacaq bircə daşımı.

Gəl qopar könlümdən məhəbbətini,
Mən əsir olmayım bu niskillərə.
Sənin o xəyali səadətini,
Zaman qurban verib ötən illərə.

Deyirlər məhəbbət qəlblərə məlhəm,
Vüsalı zərrədir, cəfası çoxdur,
Dedim can verərəm bu eşqlə bahəm,
Neyləyim könlünün vəfası yoxdur.

13.12.1999

ŞAH OLUB SAZAQ

Mən sənin oduna yandığım kimi,
Sən mənim oduma yanmadın heç vaxt.
Oldu məhəbbətim başıma sərki,
Eyləyə bilmədim könlümü xoşbaxt.

Tapmadım bir yuva hicrandan qeyri,
Yandırdı bağrımı onun havası.
Gözümdən itmədi sevginin seyri,
Kəsildi ürəyim eşqimə asi.

Mən sənin oduna yanıram hələ,
Sənin ki, ürəyin bu oddan uzaq.
Gəlməz bu könlümün atəşi ələ,
Sönən ocağıma şah olub sazaq.

3.04.2000. Pirallahı

GİZLİCƏ

Yenə baxışında parlayır atəş,
Bu atəş könlümü yaxır gizlicə.
Ürəyin, üşüyən bağrıma Günəş,
Gözlərin gözümdə çaxır, gizlicə.

Ömrünün günləri düşməsin çənə,
Əlinlə dünyanı vermisən mənə,
Sevgilim, bir müjdə qoy deyim sənə,
Könlümdən sevdamız axır, gizlicə.

Rəbb gözdə qoymasın muradımızı,
İçdə batırmasın fəryadımızı,
Eşitsin İlahi imdadımızı,
Olmasın sevdamız axır, gizlicə.

Səni baxışıma büküm saxlayım,
Vüsalla hicranın bağrın oxlayım,
Söylə, ürəyini necə yoxlayım?
Gözlərim yoluna baxır, gizlicə.

06.08.2001.Pirallahı

GÖZÜ BULAMASIN KƏDƏR YAŞLARI

Gözü bulamasın kədər yaşları,
Sənsiz dolaşmayım ömrü didərgin.
Qoy sevdalı olsun can sirdaşları,
Həyatı keçirmək olmayır gərgin.

Can deyib-eşitmək nə şirin şeydi?
Onun şirinliyi tükənən deyil.
Ürəkdə məhəbbət nəğməli neydi,
O bülbül eşqindən heç enən deyil.

Kədəri odlayaq bu yaz günündə,
Küskünlük ağrısın ataq tonqala,
Həyatın sevdalı toy-düyünündə,
Yalnız məhəbbətlər zirvədə qala.

08.03.2011. Pirallahi

HİCRAN NƏĞMƏSİ

Uçdu qəlbimizin vüsal yuvası,
Didərgin düşübdü sevgimiz daha.
Getmir başımızdan eşqin havası,
Bizim taleyimiz qalıb Allaha.

Hicran yaramızın közün qopartdı,
Ağladı gecəmiz gündüz eşqinə.
Biz dərddən qaçdıqca, dərdimiz artdı,
Ayrılıq gəlmədi imana, dinə.

Gözümüz axtardı biri-birini,
Dünənki məhəbbət nağıla döndü,
Kim aça bildi ki, eşqin sirrini?
Ürəyin yerində sevgi döyündü.

İndi xatirəyə döndü o günlər,
Əfsanə olubdu dünyalarımız.
Şirin yuxularda baxışlar inlər,
Xəyallar yaşayar röyalarımız.

31.08.1999

MƏNƏ ƏMANƏT VER

Sən mənim könlümün titrək bir şamı,
Boya şəfəqinlə nura axşamı,
İsitsin könlümü isti əllərin,
Qəlbə dayaq olsun təsəllilərin.
Ərit atəşinlə soyuq buzları,
Parlasın qəlbimin qoy ulduzları.
Bir təravət gətir bu diləklərə,
Dönsün saf eşqimiz pak mələklərə.
Dolaşsın taleyin asimanında,
Sevdası şirindir hər bir anın da.
Sabahı bilinməz bu ömrümüzün,
Nəş'əsi qısadır, kədəri uzun.
Budaqdan budağa qonan meh təki,
Otları qəhərlə qucan şeh təki,
Gözlərin alışıb yanmasın qəmdən,
Sən bir sevda ara bu xoş aləmdən.
Onsuz da qısadır hər ömrün sonu,
Bizi əsir edib bu bəxt oyunu.
Udub-uduzmaqdı taleyin işi,
Belədir fələklə Rəbbin gərdişi.
Ərit ürəyimdən qüssəni, ahı,
Qoy işvəli gəlsin ömrün sabahı.
Səndən mən nə sərvət, nə var istərəm,
Dəyanət, sədaqət ilqar istərəm.
Tale titrətməsin heç dirəyini,
Mənə əmanət ver o ürəyini...

05.02.2001

KÖNLÜMÜN DİLİN BİLİB

Könlümün dilin bilib, çaldırmadın saz kimi,
Elə məndən aralı qanad açan ley oldun.
Sən ki, meydan oxudun dəli-dolu yaz kimi,
Dərdimi dastan edən sızlar-ağlar ney oldun.

Mən sənə bağlı oldum, sən məndən qaçar oldun,
Qara bəxtli ürəklə xısın-xısın oynadın.
Bəxtimin bağçasından yad bağa uçar oldun,
Elə kor bulaq təki içəridən qaynadın.

Acı yellər əsdikcə ömrümün illərində,
Sən məndən üz çevirib yadlara dildar oldun.
Məhəbbətin bəxtimin ağardı tellərində,
Gözlərim baxa-baxa özgələrə yar oldun.

Fəqət, sızlar kamantək ağlaram zarı-zarı,
Nə sızıltı, nə ahlar könlünə əsər etməz.
Taleyimin bir qələm, bir də könüldü yarı,
Ünümə aləm gələr, əlim əlinə yetməz.

14.07.1991. Tağay

SƏNƏ NƏ DEYİM?

Həsrətlə çıxıram yollara yenə,
Döyünür əzabla narahat sinə,
Ümidlə baxıram mən dönə-dönə,
Səndən xəbər yoxdur, bilmirəm niyə?
Ürək fəğan edir ah deyə-deyə.

Səhra yanğısını selə söylədi,
Məcnun ağrısını çölə söylədi,
Ürək həsrətini dilə söylədi,
Bəs mən kimə deyim nalə-ahımı,
Sənsiz açılmayan al sabahımı?!

Göylər tutulanda buludu qınar,
Tufan öz gücüylə küləyi sınar,
Uman yerdən deyir, ürək də sınar,
Bəs sınan ürəyi necə calayım?
Sənə məğlub olub ordum, alayım.

Şimşək yağış üçün bahanə olur,
Şəlalə zirvədən dərəyə dolur,
Xəzanı yetəndə hər varlıq solur,
Sevginin özünə çox da güvənmə,
Nə yüksəyə qalxma, nə yerə enmə.

Çəmənlikdə açar min bir çiçəklər,
Hər çiçək adına yaşıl ləçəklər,
Hər kəsin xitabı adla çəkilər,
Mən səni bəs necə çağırım, söylə?
Qəm necə daşısın bağırım, söylə?

Könül inciyəndə – göz yaşla dolar,
Dillərin qiybəti sözlərə qalar,
Hər qəlb öz evinə bir həmdəm salar,
Bəs sənə nə desin narahat ürək?
Başımda əsdirdin min acı külək.

Eşqimin çağlayan bir dəryası var,
Hələ hey coşacaq neçə qış, bahar,
Bir səyyad quşuyam, gəl sinəmi yar,
Gör ora neçənci dağlar çəkmisən?
Tarlasın şumlayıb həsrət əkmisən.

24.07.1985. Xəstəxana.

NALAN QALAN ÜRƏYİ

Həsrətinlə nalan qalan ürəyi,
Alıb qanadına xəyal yelkəni.
Fəryadım ağladır göyü, fələyi,
Necə gözləyirəm, necə mən səni.

Azalıb zərifcə həyatın ətri,
Sanki heçə dönüb dünyanın xətri,
Qələmim sitəmlə yazır hər sətri,
Necə gözləyirəm, necə mən səni.

Sənsiz havasızam, sussuzam, müdam,
Sənsiz öz oduna alışan odam,
Sənsiz ürəyimə, özümə yadam,
Necə gözləyirəm, necə mən səni.

Unudub dünyada bütün hər şeyi,
Məzara qoymuşam dərdi, gileyi,
Sızlar gecə-gündüz qəlbin gileyi,
Necə gözləyirəm, necə mən səni.

Ürəyim hicrinlə yanar gizlicə,
Sənə şərqi yazar, hey incə-incə,
Çıxmışam yollara elə indicə,
Necə gözləyirəm, necə mən səni.

10.04.1991

HƏSRƏT MƏNİMDİ

İndi başqalaşıb əvvəlki gediş,
Ürəyin özgənin, həsrət mənimdi.
Könlümlə etdiyin əvvəlki gərdiş,
Dünyanı tutmayan xiffət mənimdi.

Duyğusuz çocuqtək oynadın baxtla,
Köksümdə qurduğun şahanə taxtla,
Dönük xatiratı əmanət saxla,
Bəxşiş elədiyin nifrət mənimdi.

Özgənin eşqini oxşa zövq ilə,
Alış duyğu ilə, parla şövq ilə,
Nə qədər ömrün var, qon güldən-gülə,
Qovhaqov gedişdə heyrət mənimdi.

Zamanın ağrısı, acısı yükdü,
Dünya da hər dərdə dözən müdrikdi,
Həyatım əlində bir zərif tükdü,
Arzusu qəfəsdə, qeyrət mənimdi.

Ey qəmdən danışan, eyləmə nalə,
Al dodağa həsrət qəm bir piyalə,
Dözmüsən, dözgünən miskincə hala,
Dərdinlə öcəşən afət mənimdi.

25.03.1991

HƏYATIM VAR

Gözümdən salmısan baharı, qışı,
Ağlayıb-sızlaram gecəbəgündüz.
Eşqidə mən oldum hamıdan naşı,
Qarşıma çıxmadı nə eniş, nə düz.

Şimşəklər kişnədi hay-harayıma,
Buludlar ağladı can fəryadıma,

Qəmlər daldalandı dərd sarayıma,
Bir kimsə yetmədi nədən dadıma?

Mən külü sovrulmuş bir boş ocağam,
Közümdən alışıb yanacam hələ.
Ən yüksək zirvədə dayanacağam,
Ordan bircə zərrə düşməmiş ələ...

Dumanı dağılmış bir Şahdağıyam,
Mənə əsər etməz nə boran, nə qar.
Sənlə Şadimanam, sənsiz ağıyam,
Çox-çox yazılmamış ağ vərəqim var.

15.07.1991. Tağay

SƏN OLDUN

Könlümü köpürən dəli sellərə,
Bir göz qırpımında atan, sən oldun.
Min bir qəm gətirən qəmsiz illərə,
Məni dərdlilərə qatan, sən oldun.

O lal gecələri uyğusuz edən,
Pak məhəbbətimi sayğısız edən,
Özgə yuvasına eşq üçün gedən,
Beşgünlük sevgilər tutan sən oldun.

Sevdanı Məcnuntək düzlərə salıb,
Ağlımı, huşumu əlimdən alıb,
Bağrımın başından ilantək çalıb,
Çiynimə həsrəti çatan, sən oldun.

Qırğıtək bir dünya nəş'əmi didib,
Özgə qapısına əhd üçün gedib,
Bu yazıq bəxtimi qərarsız edib,
Ömürlük könlündə yatan, sən oldun.

12.08.1991

GƏLMƏ BU YERƏ

Tənəli baxışlar gəzir üzümdə,
Yamanlar söyləyir ağzından hərə.
Sədaqət görmədim bircə sözündə,
Sən allah, sən tanrı, gəlmə bu yerə.

Bu çılğın ürəyim qüssədən naçar,
Mən qürbət quşuyam, bağım kim açar?!
Uçar bir gün eşqim, başımdan uçar,
Sən allah, sən tanrı, gəlmə bu yerə.

Gözüm gözlərindən ayrı olsa da,
Əqrəbtək köksümü həsrət çalsa da,
Sınıq ürəyimdə nisgil qalsa da,
Sən allah, sən tanrı, gəlmə bu yerə.

Mən öz mənliyimi ucuz tutmaram,
Eşqimi zirvədən düzə atmaram,
Dünyada ağılı qəlbə satmaram,
Sən allah, sən tanrı, gəlmə bu yerə.

Ayrılıq qəlbimdə saçsa da ocaq,
Dözüb ağrılara, çox dayanacaq,
Olsa da qəlbimə son dayanacaq,
Sən allah, sən tanrı, gəlmə bu yerə.

Heç kəs, səni kimi, qəlbə yatmadı,
Mən səni atsam da, ürək atmadı,
Onsuz ömür-günüm kama çatmadı,
Sən allah, sən tanrı, gəlmə bu yerə.

04.08.1991

GƏL ƏZİZİM

İçimizin istəkləri ayrı düşüb nə vaxtdı,
Məcnun kimi biyabana salıbdı yazıq baxtı,
Eyləmisən həsrətləri xoşbaxtların xoşbaxtı,
Gəl, əzizim, ayrılığın sinəsin parçalayaq,
Üstümüzə gələn qəmin yolların haçalayaq.

Dağın, düzün küləkləri qəm ələyər üstümə,
Cırır köksü dəli hicran, durur hər an qəsdimə,
Yanır ürək dərd qovunda, kimsə gəlməz üstünə,
Gəl, əzizim, alışdıraq sonu yetmiş şamları,
Alovuyla ram eləyək çadralı axşamları.

Bağrın içi atəşinin alovuna tamarzı,
Bir gecəlik gözüm yaşı doydurar min Arazı,
Bas köksünə dinsin susmuş eşqin tilsimli sazı,
Gəl, əzizim, dəli könül tək könlünün ögarı,
Nəğməsiylə qoy ayıltsın mürgüləyən rüzgarı.

Bu ürəyim öz bağrına yabançı bir çiçəkdi,
Onun qəmin sənnən qeyri söylə kim çəkəcəkdi?
Eşqimiz də, ruhumuz da, Tanrı bilir, gerçəkdi,
Gəl, əzizim, həsrət ilə savaş etsin ürəklər,
Mağar qurub, qol götürüb yallı getsin ürəklər.

23.08.1991

GİZLƏTMİSƏN GÖZÜMDƏ

Dəli istək ürəyimdən yol salıb,
Bu sevgiyə mat qalmışam özüm də.
Baxışımdan gizli-gizli çağ alıb,
Gözlərini gizlətmisən gözümdə.

Yarı hicran, yarı vüsal bölgəsi,
Bir zülümdür, bir sitəmdir ölkəsi,
Düşür yola, düşür izə kölgəsi,
Gözlərini gizlətmisən gözümdə.

Yanmamaqçın zaman-zaman oduma,
Yetmək üçün hər dəqiqə dadıma,
Getməməkçin hicran, həsrət badına,
Gözlərini gizlətmisən gözümdə.

Bir fələktək fəth etmisən gözümü,
Qaldırmaqçın zirvələrə dözümü,
Yandırmaqçın atəş ilə közümü,
Gözlərini gizlətmisən gözümdə.

Aparmısan qəlbi uyğu elinə,
Dən salmısan o qapqara telinə,
Gül adımı salıb yadlar dilinə.
Gözlərimi gizlətmisən gözümdə.

23-25.07.1991

GÖZLƏR

Yaşıl gözlər, ürəyimə zaman-zaman od qalandı,
Məhəbbətim od sinəndə min bir yerə parpçalandı.
Gizli eşqi, ay insafsız, mən bəxtsizdən daldaladın...
Nədir belə içindəki, nalə, sitəm, o hayqırtı,
Üzdü məni illər belə könül didən vay, sızıltı.

Yaşıl gözlər, yet dadıma, soldu bağır, ürək qəmdən,
Xilas eylə həyatımı göz ağladan qəm, ələmdən,

Ayrılmağım çətin böylə qəlb qovuşan eşqli dəmdən,
Titrək əllər uzanıbdı nə müddətdi yollarına,
Son qoy daha acılara, vaxt gözləmir, dön yarına!

Yaşıl gözlər, gəl eyləmə ürəyimi para-para,
Gözlər səni min il belə ili, ayı yora-yora,
Eşqin məni lal eylədi, ofsunuyla saldı tora...
Dözüm qalmıb möhlətlərə ürək, könül əl-amanda,
Nə gözüm yox, nə sevgim yox,
nə arzum yox bu ümmanda.

05.10.1992

SƏNİ UNUTMAQ ÇƏTİN

Yandırardım eşqinlə çağlayan diləkləri,
Çıxardım axırına yabançı həqiqətin.
Unuda bilməyirəm saf, köklü dirəkləri,
Səni unutmaq çətin, unutmamaq lap çətin.

Ağrılı ürəyimdən eşqi verərdim yelə,
Salmazdım mən sevgini yad ağıza, yad dilə,
Tuş olmazdı düşüncəm boş aylara, boş ilə,
Səni unutmaq çətin, unutmamaq lap çətin.

Acılar taleyimdə bahartək çiçəklədi,
Sevgi daşqın sel olub elə hey diləklədi,
Neyləyim ki, əbədi ürək o ürəklədi...
Səni unutmaq çətin, unutmamaq lap çətin.

Tanrı yazan yazını, gücüm çatsa, pozardım,
Amansızca gedişlə güman etmə azardım,
Ağrılı sevgilərə özüm qəbir qazardım,
Səni unutmaq çətin, unutmamaq lap çətin.

Ürəyimə min kərə hər gün tənə edərdim,
Dəlisov duyğuları parçalayıb didərdim,
Məhəbbətin əlindən baş götürüb gedərdim...
Səni unutmaq çətin, unutmamaq lap çətin.

10.11.1991

TƏLƏSİRƏM

Baharı xəzana düşmüş lalətək,
Fələyin əlində necə əsirəm.
Dodaqçın darıxmış al piyalətək,
Yenə görüşünə mən tələsirəm.

Yolumun üstünü duman kəssə də,
Qapımın ağzında rüzgar əssə də,
Ürəyim inciyib, səndən küssə də,
Yenə görüşünə mən tələsirəm.

Qovsa da üstümə bulud yelləri,
Bəxtim tuş eləsə qürbət elləri,
Dərib qəlb bağçamdan qönçə gülləri,
Yenə görüşünə mən tələsirəm.

Unudub dünyanın qəmü-möhnətin,
Ağılı bu yoldan döndərmək çətin,
Tutub ətəyindən pak səadətin,
Yenə görüşünə mən tələsirəm.

07.06.1993

GÖZLƏRİM DƏ İTİRDİ

Nə qədər sağam, inan, alışar odum-közüm,
Düşüb ayaqlarına yalvarar yazıq dözüm,
Günahkardır qarşımda, min il keçsə də, gözüm...
Baxışların sevgini ürəyimə yetirdi,
Gözlərim tapdı səni, gözlərim də itirdi.

Ağlamağın faydası varmı olmuşlar üçün?
Sinəsində sevgisi ölüb qalmışlar üçün,
Müqqəsir saymıram mən özümü söylə neçin:
«Baxışların sevgini ürəyimə yetirdi,
Gözlərim tapdı səni, gözlərim də itirdi.»

Qapılıb xəyallara, salma yadına məni,
Demə, dəli eşqinlə atdın oduna məni,
Çağırma, gəlməyəcəm, vallah, dadına məni,
Baxışların sevgini ürəyimə yetirdi,
Gözlərim tapdı səni, gözlərim də itirdi.

Nə qədər acı olsa, haqqı danmamalıyam,
Bir alın yazısıtək bunu anmamalıyam,
Sevgini məzarlayıb, bir də yanmamalıyam,
Baxışların sevgini ürəyimə yetirdi,
Gözlərim tapdı səni, gözlərim də itirdi.

Ömür-günüm bir qəfil təsadüfün dustağı,
Könlümün bostanından üzüldü eşqin tağı,
Çıxart, at içindəki mənlə dolu o çağı...
Baxışların sevgini ürəyimə yetirdi,
Gözlərim tapdı səni, gözlərim də itirdi.

05.09.1992

KÖNÜL VERDİM

Taleyimin hökmüylə könül verdim mən sənə,
Sənsə, onun bağına tufan, boran gətirdin.
Bu bəlalı ömrümü saldın dumana, çənə,
Dilbilməz ayrılığı sən qapıma ötürdün.

Çox bəlalar çəkibdi ürək sənin ucundan,
Gəl apar hicranını, könlümü ver özümə.
Nə həsrət yollarının yapışmısan ucundan,
Leysan, dolu nə lazım hər an nəmli gözümə?

Buludlar toqquşanda əzəldən qara gəldi,
Qara üstdən qaranı çəkməyə gəl tələsmə.
Hicranın göylərində haraylarım yüksəldi,
Seltək çağlar köksümün eşq payını sən kəsmə.

08.02.1989

SƏN OLMAYANDA

Dünya öz donunu dəyişər tamam,
Gözlərim önündə sən olmayanda.
Dönür həyatımdan yaşamaq meylim,
Mənim bir günümdə sən olmayanda.

Acılı-şirinli anlarım nalan,
Zaman da, həyat da qarşımda yalan,
Qalıram yollarda ağlar, nigaran,
Mənim bir günümdə sən olmayanda.

Hönkürür halıma göylər, fələklər,
Yolur saçlarını azman diləklər,
Ayımı, ilimi hicran ələklər,
Mənim bir günümdə sən olmayanda.

Dağları, daşları sızladır naləm,
Söndürür evimin çırağın ələm,
Ocağı boranda sovrulan küləm,
Mənim bir günümdə sən olmayanda.

Könül sarayımın daşları uçur,
Ürək də sinəmdən çöllərə qaçır,
Könlümün qapısın ayrılıq açır,
Mənim bir günümdə sən olmayanda.

Anların qovğası başımda sınır,
Zamanın nəbizi əsla dayanır,
Həyatın nərdində zərlərim yanır,
Mənim bir günümdə sən olmayanda.

Amandır, gözümdən getmə uzağa,
Sinəmdən düzülür qəmlər varağa,
Bu çılğın ürəyim dözməyir dağa,
Mənim bir günümdə sən olmayanda.

Zaman öz acısın başıma tökür,
Aydın səhərimə qaranlıq çökür,
Ruhum, eşqim çağlar, daşqın dəli Kür,
Mənim bir günümdə sən olmayanda.

08.11.1992

NƏ SIZLARSAN KAMAN KİMİ

Nə sızlarsan kaman kimi ahəstə,
Qaldırarsan şahə segah, şikəstə,
Canım olub yolundaca bir xəstə,
Məndən uzaq gözlərinə qurbanam,
Könül, şəkər sözlərinə qurbanam.

Ürəyimdə əsir həzin küləklər,
Sinəm yazdı, açılıbdı çiçəklər,
Sevgim, eşqim butalanan ləçəklər,
Mənsiz keçən ay, ilinə qurbanam.
Şirin-şəkər, xoş dilinə qurbanam.

Səndən qopan məhəbbətim bir dünya,
Sən gələndə əriyər min daş, qaya,
Dönüb eşqim dəli-dolu bir çaya,
Coşub-daşan kəmalına qurbanam,
Canla olan xoş halına qurbanam.

Mavi göylər gen sinəmə sığmayır,
Günəş mənsiz üfüqlərdə doğmayır,
Mən dolmasam, buludlar da yağmayır,
Canda coşan pak sevginə qurbanam,
Sənlə keçən aya, günə qurbanam.

09.07.1986 Nasosnu

SƏN ÇIXAYDIN QARŞIMA

Dəli könül dağ selitək daşanda,
Qarışaydı diləklər göz yaşıma.
Bağrım, köksüm ilham ilə coşanda,
Məni sevən, sən çıxaydın qarşıma.

Eşq qonanda zirvələrə qar təki,
Könlüm nəğmə oxar kaman, tar təki,
Ürək parça-parça olur nar təki,
Məni sevən, sən çıxaydın qarşıma.

Açılıbdı çöl-çəməndə çiçəklər,
Bağlayıbdı başlarına ləçəklər,
Nə desə də mənə ağzıgöyçəklər,
Məni sevən, sən çıxaydın qarşıma.

Sənsən könlün əzəl-başdan rənası,
Məhəbbəti sanma ömrün fənası,
Olmaz yarsız ömür-günün mənası,
Məni sevən, sən çıxaydın qarşıma.

Darıxıram səsin-sədan gəlməsə,
Gözüm baxmaz, könlüm baxmaz bir kəsə,
Ürəyimin sirin deyim mən kəsə,
Məni sevən, sən çıxaydın qarşıma.

Ömür ötür, zaman qaçır, gün qara,
Çəkir mənim ürəyimi qəm dara,
Ürəklərin ülfətində var çara,
Məni sevən, sən çıxaydın qarşıma.

29.06.1986

GƏL, QƏLBİMDƏKİ BUZLARI ƏRİTMƏK ÜÇÜN...

Gəl, qəlbimdəki buzları əritmək üçün...
Gəl, qəlbimdə zanbaqtək bitmək üçün,
Qoşulub sənə bu dünyadan itmək üçün,
Sevdalar aləminə getmək üçün.

***

Gəl, həsrət əlçim-əlçim qarlar
ələyir sinəmə,
Şaxtanı, sazağı bələyir sinəmə.
Gəl, sönən ürəyimin közü ol,
Ağlımın, şüurumun özü ol,
Məhəbbətin ən növrəstə gözü ol,
Dilimin dilbər sözü ol.

***

Karvan-karvan buludlar alır könlümü,
Ayrılıq ilan təki çalır könlümü,
Əzabdan-əzaba salır könlümü.
Bütün bunları sənə açdım ki,
Hər cür yalanlardan qaçdım ki,
Qəlbimdə olanları biləsən.
Bütün imkansızlıqları qırasan,
Həsrətlə aranı vurasan,
Hicranı döndərməyəsən ilə sən,
Hər bir işini atıb gələsən,
Gələsən...

17.08.2008, Pirallahi

***

Sənin çırağının piltəsiyəm mən,
Onu yandıranda ağrını düşün.
Dilinin hayqıran gur səsiyəm mən,
Səs avaz edəndə bağrını düşün.

Sevda yolçuları yorğun olurlar,
Süzgün baxışlara oğrun olurlar,
Dəlitək ürəyə vurğun olurlar,
Onu oğurlayan oğrunu düşün.

13.05.2011. Pirallahi

BU DÜNYAYA EŞQİN DƏYƏR

Nə olardı aqibətim,
Tapmasaydım səni əgər?
Ey saf olan məhəbbətim,
Bu dünyaya eşqin dəyər.

Dərd içindən keçib getdim,
Zəhərini içib getdim,
Mən bu yolu seçib getdim,
Bəs deyilmi eşqə məgər?!

11.04.2009. Pirallahi

GƏLMƏDİN, GƏLMƏ DAHA

Ağladı gözdə yaşım,
Ürək yol verdi aha.
Dərddən dincəlmir başım,
Gəlmədin, gəlmə daha.

Qəlb qırmaq yaxşı deyil,
Kimə salmısan meyil?
Eşqim didərgin veyil,
Gəlmədin, gəlmə daha.

Sevgidən süfrə açdım,
Günəş olub nur saçdım,
Dərdindən çölə qaçdım,
Gəlmədin, gəlmə daha.

Gözləmək ağır dərddir,
Aramızda nə səddir,
Gün bir-birindən bəddir,
Gəlmədin, gəlmə daha.

Həsrətə dərd açmadın,
İntizardan qaçmadın,
Bağlı qapım açmadın,
Gəlmədin, gəlmə daha.

22.07.1985

GÖZLƏRİMİN YUXULARI ÇƏKİLƏR

Gözlərimin yuxuları çəkilər.
Sənsiz yaman üstümə od tökülər.
Xiffətindən bağrım-başı sökülər,
Həsrətindən qəmə batdı Ay, oğlan,
Ayrılığı qıyma mənə, ay oğlan.

Hicranından sübhə qədər yatmıram,
Yuxularım ərşə qaçıb, çatmıram,
Mən heç cürə dərdlərimə batmıram,
Gözlərimdə yaşlar olub çay, oğlan,
Ayrılığı qıyma mənə, ay oğlan.

Yollar təki intizarın uzanar,
Aydan, ildən özünə gün qazanar,
Ürək ki var, hey alışar, hey yanar,
Yoxdur sənə heç dünyada tay, oğlan,
Ayrılığı qıyma mənə, ay oğlan.

Qismət olsa qədər yazar yazını,
«Kərəmi»tək bəxt kökləyər sazını,
Toy-büsata döndərərsə yazını,
Səsləyəndə səsimə ver hay, oğlan,
Ayrılığı qıyma mənə, ay oğlan.

25.07.1985

BAĞDA ÇİÇƏK ƏKMİŞƏM

nəğmə

Bağda çiçək əkmişəm,
Dibinə su tökmüşəm,
İstəkli yar xətrinə
Ora cığır çəkmişəm.

Düşüb sənə meylim, yar,
Ürək sevir, neylim yar?
Aç sirrini, bilim yar.

Çiçəklər al geyinib,
Başına şal geyinib,
Sənə nəğmə deməkçin,
Dil-dodaq bal geyinib.

Düşüb sənə meylim, yar,
Ürək sevir, neylim yar?
Aç sirrini bilim yar.

Bir dön bizim bağa gəl,
Bir sevdalı çağa gəl,
Bağça könlü oxşamır,
Keç düzəndən, dağa gəl.

Düşüb sənə meylim, yar,
Ürək sevir neylim yar?
Aç sirrini bilim yar.

27.07.1985

QAYA DİBİNDƏ YER VAR

nəğmə

Qaya dibində yer var,
Keçməyə cığırı dar,
Ürəkdə hicran gəzir,
Hardasan, ey vəfadar?

Gecəm səhər oldu, gəl,
Eşqə düşən yoldu, gəl,
Ömür-günüm soldu, gəl.

Dağlar yaşıl geyinib,
İşıl-işıl geyinib,
Könül qürbət quşutək
Qanadını gör neynib?

Gecəm səhər oldu, gəl,
Eşqə düşən yoldu, gəl,
Ömür-günüm soldu, gəl.

Hicran yolu haçalı,
Var əlində xancalı,
Hamı gülüb-danışır,
Kimə deyim bu halı?

Gecəm səhər oldu, gəl,
Eşqə düşən yoldu, gəl,
Ömür-günüm soldu, gəl.

27.07.1985

QONŞUDA BİR OĞLAN VAR

nəğmə

Qonşuda bir oğlan var,
Çəpərinin yolu dar,
Bizə sarı boylanır,
Üzündə gəzir vüqar.

Gülüşü üzə qonub,
Sevgisi gözə qonub,
Hiyləsi sözə qonub.

Deyirəm baxma belə,
Könlümü yaxma belə,
Eşqə düşmək xətadır,
Qəlbə buraxma belə.

Bildiyindən dönməyir,
Alışıbdı, sönməyir,
Göydə uçur, enməyir.

Bu cür qonşuluq olmaz,
Arada şuluq olmaz.
Heç sözündən dönməyir,
Böylə xoşqılıq olmaz.

Bir bizə gələn günü,
Salaydı ərzə ünü,
Edəydi toy-düyünü.

26.07.1985

DAHA SÖZÜM YOXDUR

Bu dəli könlümü salaraq tora,
Vurursan sinəmə gündə min yara,
Mənim gündüzümü etmisən qara,
Bu ürək yolunda gedəcək bada,
Daha sözüm yoxdur sənə dünyada.

Çılğın duyğularım sinəsin cırır,
Yenə aramızı ayrılıq vurur,
Dəliqanlı gənclik arada durur,
Sən ki, bacarmırsan çatasan dada,
Daha sözüm yoxdur sənə dünyada.

Sönür ay-ulduzum gözümdə axşam,
Bir ürək yolunda oldu daha şam,
Mənimtək bacarmaz alışmağı şam,
Bilirsən, öyrətdim yanmağı oda,
Daha sözüm yoxdur sənə dünyada.

Yolur saçlarını sevgim yenə də,
Hicranın toy-büsat qurub sinədə,
Qəminin dərdindən doyub sinə də,
Məni bilə-bilə atmısan oda,
Daha sözüm yoxdur sənə dünyada.

Hicranın köksümdə tikib saraylar,
Sinəmi bürüyüb yenə ah-vaylar,
Gözlərim gözləyər, dilim haraylar,
Niyə sənə çatmır bu səs, bu səda?
Daha sözüm yoxdur sənə dünyada.

01.06.1987

YAŞAYIRAM MƏN

Uçur başım üstə sevgi buludu,
Yenə dilə gəlib könlümün udu,
Vüsal da, hicran da, qəm də uludur,
Məhəbbət yükünü daşıyıram mən,
Sənin xəyalınla yaşayıram mən.

Alışır içimdə odlu duyğular,
Alır başım üstün min bir qayğılar,
Gündə neçə kərəm ürək duyğular,
Məhəbbət yükünü daşıyıram mən,
Sənin xəyalınla yaşayıram mən.

Gözlərin mirvari Xəzərə bənzər,
Qəlbimin içində atlanıb gəzər,
Bəxtim havalanıb, tək səni gəzər,
Məhəbbət yükünü daşıyıram mən,
Sənin xəyalınla yaşayıram mən.

Ürək manqal qurub, közündə yanaq,
Eşqin zirvəsində birgə dayanaq,
Gəl biz lalə rəngli eşqə boyanaq,
Məhəbbət yükünü daşıyıram mən,
Sənin xəyalınla yaşayıram mən.

07.06.1987

MƏNİM RAHATLIĞIM

Mənim rahatlığım, mənim dincliyim,
Sənin baxışının odunda bitdi.
Bahar tərəvətli gözəl gəncliyim,
Soyuq həsrətinin badına getdi.

Alışdı bağırım, artdı iztirab,
Qalmadı könlümdə nə taqət, nə tab,
Ürəyim tək sənə eylədi xitab,
O divanə eşqin məni xar etdi.

Eşqinin səmasın buludlar boğdu,
Başına leysanlar, dolular yağdı,
Həsrətin günəştək göylərdən doğdu,
Ayrılıq yenə də kamına yetdi.

Qopdu taleyimdə çılğın küləklər,
Ağladı ahımdan göylər, fələklər,
Qol açdı, oynadı azğın kələklər,
Düşdü yollarıma, atın səyritdi.

Onda hər ikimiz baş-beyini qan,
Bizə asan gəldi məhəbbət, hicran,
Batdı sevdamızın göylərində dan,
Elə bəxtimiztək eşqimiz bitdi.

10.04.1987

QAPI ÜZƏ AÇIQDI

Yaxşı gündə qapı üzə açıqdı,
Yaman günə düşdüm indi, hardasan?
Hiylə, fitnə qəlbdə çamur, palçıqdı,
Başına qəm, ələm yendi, hardasan?

Bəxtiyar gün adamları səsləyir,
Yan-yörədə min tanış, dost bəsləyir,
Yaş odun da ocaq için hisləyir,
Bu günümə aləm dindi, hardasan?

Ömrümüzün taleləri qarışıq,
Xoş saatlar bəxtimizə gur işıq,
Könlüm dolu dil-dil ötək, ay aşıq,
Yandırdığım çırağ söndü, hardasan?

Sən ki, məni həmdəm deyib gəzirdin,
Ürəyimin dəryasında üzürdün,
Guya onu məhəbbətlə süzürdün,
Bəxtim qəfil yoldan döndü, hardasan?

19.01.1987

BİR VÜSALIN EŞQİYLƏ

Bir vüsalın eşqiylə çırpınırdı ürəklər,
Necə də ayrı saldı bizi bu hava xətti.
Ağladı çocuq təki o şahanə diləklər,
Sevincim mirvaritək əlimdən düşdü itdi.

Qaldı bir əziz görüş yerlə göy arasında,
Sən mənə həsrətlitək, mən sənə həsrətlitək.
Bir vüsal yandı-söndü gözlərin qarasında,
Qaldı böynubükülü şadlığımız yenə tək.

Bu an qəmli göründü, gömgöy dəniz də mənə,
O da qəfil həsrətə kədərləndi elə bil.
Düşdü bəlalı ürək yenə dumana, çənə,
Bu qəfil ayrılığa yandı sinə, susdu dil.

Təyyarə qalxdı göyə, könlü saldı qəfəsə,
Bu insafsız pilotçu yenə ayırdı bizi.
Duyğular qolboyunkən, sevgi nəfəs-nəfəsə,
Göylə yer arasında qaldı bir görüş izi.

Əgər canlar, könüllər bir-birinə yaxınsa,
Neyləyər müvəqqəti bu ayrılıqlar bizə?!
Kiçikcik ara sözü ürəyinə toxunsa,
Baxanda unudular, bircə anlıq göz-gözə.

15.08.1989 Nasosnu

HƏYATIMIZ QAYNAYIRDI

Həyatımız qaynayırdı qərarsız,
Əsən həzin küləkləri neylədin?
Könlümüzün ələmləri tumarsız,
Qəlb oxşayan diləkləri neylədin?

O yetkinlik, o durğunluq çağında,
Sevgimizin şux, laləzar bağında,

Eşq yetirən ulu məcnun dağında,
Məhəbbətli ürəkləri neylədin?

Sərt əsdikcə başda tale yelləri,
Büründükcə qəmə sevgi elləri,
Tez sorulur ömrümüzün illəri,
Sevgi adlı mələkləri neylədin?

Könlümüzün eşq yolunda günəşi,
Sinəmiz də od-ocaqsız atəşi,
Aralıqda qalan eşqin o nə'şi,
Ay-ulduzlu fələkləri neylədin?

19.11.1987

GÖZLƏMƏ MƏNİ

Yolumun üstünə çıxsan da hər gün,
Əsən rüzgar təki izləmə məni.
Qursan da həsrətin evində düyün,
Çıxıb yollarıma gözləmə məni.

Hicran acıları qəlbə od vurur,
Ürəyim nə vaxtdı səndən dad vurur,
Məni ayağına gətirmir qürur,
Çıxıb yollarıma gözləmə məni.

İndi gözlərimə yuxu kimisən,
Ayrılıq avazlı qorxu kimisən,
Həsrətin sərt vuran oxu kimisən,
Çıxıb yollarıma gözləmə məni.

Xəyalım çağlayan dağ şəlaləsi,
Üşüyən çöllərin zərif laləsi,
Düşüb əllərimdən eşq piyaləsi,
Çıxıb yollarıma gözləmə məni.

21.07.1989

TOXUNDUN KÖNLÜMƏ

Toxundun könlümə, toxundun yenə.
Qırdın qəlb sazımın saf tellərini.
Necə alışmasın qəzəbdən sinə,
Aldatdın ömrümün pak illərini.

İndi taleyə də nifrət edirəm,
Madam o yazıbdı səni bəxtimə.
Nifrət arxasınca düşüb gedirəm,
Özüm də gülürəm öz niyyətimə.

Toxundun könlümə, sənə alqışlar,
İgiddən igidmiş səndəki hünər.
Saldın ürəyimin evinə qışlar,
Necə ki, dumanlar dağlara enər.

Ey başım, bu qədər saflıq nə lazım?
Axı təmizliyi sevməyir çoxu.
Boranlı ömürlə qoşadı yazım,
O da, xəyallardan boylanan yuxu.

28.08.1989

GÜMANIM YOX, NEYLƏYİM?

Nigar Rəfibəylinin «Neyləyim» şeirinə nəzirə

Könlüm, gözüm bu dünyaya yovuşmaz,
Sənsiz bir xoş zamanım yox, neyləyim?
Başım üstən hicran, həsrət sovuşmaz,
Gəlməyinə gümanım yox, neyləyim?

Göz yaşımdan dərya-dərya selə bax,
Bəyaz-bəyaz o qapqara telə bax,
Gəl bəxtimə ağı deyən dilə bax,
Dərdi oxşar kamanım yox, neyləyim?

Ayrılıqlar karvan-karvan qəm yollar,
Ürəyimə necə salıb qəm xallar,
Gözlərimdə əlçatmazdı, o yollar,
Səndən xəbər ananım yox, neyləyim?

Qismətimi aldı, qaçdı kələklər,
Saçın yolur içimdəki diləklər,
Bir-birinin həsrətində ürəklər,
Heç halıma yananım yox, neyləyim?

Sorağında çox qalmışam şadlığın,
Nəsib olmaz bir mənə də şadlığın,
Hardan belə bu könlümə yadlığın?
Dözməyə bir sağ canım yox, neyləyim?

Ürəyimi dərdin aldı, oxşadı,
Məsum bəxtin yolları da yoxşadı,
Taleyimiz bir-birinə oxşadı,
Canım qurban, qurbanım yox, neyləyim?

Şadimanın tellərin qəm daraqlar,
Doldu ahla, doldu vayla varaqlar,
Sağkən özüm, ölsəm ruhum soraqlar,
Candan gedib əziz canım, neyləyim?

23.05.1994

SEVGİ ATƏŞİ

Qız sevib, bəyənmək yaxşıdır, ancaq
Onu etməyəsən əldə oyuncaq,
Qoy hər iki qəlbdə alışsın ocaq,
İsitsin hərarət göydə günəşi,
Sönməsin qəlblərin sevgi atəşi.

Əgər sevməyirsən, qarşıda durma,
Kələksə, hiyləsə, yetənə qurma,
Sevgini sevənin üzünə vurma,
Ayaqda sürünsün həsrətin nə'şi,
Sönməsin qəlblərin sevgi atəşi!

27.11.1987

SƏN ELƏ BİLİRDİN ÖLƏCƏM SƏNSİZ...

Sən elə bilirdin öləcəm sənsiz,
Sönüb gedəcəkdir şamı sevgimin.
Eşqimə dəlitək güləcəm sənsiz,
Səninlə bitəcək kamı sevgimin.

Həsrətdən boylanıb baxacam hər gün,
Getdiyin yollarda düşüb qalacam.
Ürəyi dərdinlə sıxacam hər gün,
Sənin xəyalına mehr salacam.

Ağrını yumaqtək könlə dolayıb,
Sevda ocağıma hicran tökəcəm.
Ürəyi çamurtək dərdə bulayıb,
Yük təki arxanca sonra çəkəcəm.

Sən elə bilirdin bir payız kimi,
Saralıb düşəcək ömrün günləri.
Əyər can tərəzim aha çəkimi,
Silərəm bəxtimdən toy-düyünləri.

Sənin düşündüyün bir güman imiş,
Güman da yollarla yeriyib gedib.
Elə zənn etmişdin bu fərman imiş,
Solğun mürəkkəbtək əriyib gedib.

Sən elə bilirdin öləcəm sənsiz...
Görürsən, ölümdən yuxardayam mən.
Eşqin ayağına gələcəm sənsiz,
Harda düşünürdün, gör hardayam mən?!

İndi Şadimandan sorma əhvalı,
Onun əhvalını sözündən soruş.
Əgər qarışırsa könlünün halı,
Onu sən məndən yox, özündən soruş.

01.01.2012

BAĞÇAMIZDA İKİ LALƏ BİTİBDİ

Bağçamızda iki lalə bitibdi,
Qara xallar al üstünə yetibdi,
Ətrafında sarı bülbül ötübdü,
Üzlərində gəzişirlər duman, çən.
Ay sevgilim, biri sənsən, biri mən.

Bir-birinə baxışırlar nə vaxtı,
Oynadırlar zaman üstə pak vaxtı,
Ruhum coşdu, ürəyimə sel axdı,
Bu məhəbbət heç nə ilə gəlməz tən,
Ay sevgilim, biri sənsən, biri mən.

Mehlər əsir, yarpaqları titrəşir,
Nazik, incə saplaqları titrəşir,
Buta üstə papaqları titrəşir,
Mirvaritək şəbnəmləri lap dən-dən,
Ay sevgilim, biri sənsən, biri mən.

Deyirəm ki, möhnətlərə düşməsin,
Qüssə gəzib ürəkləri eşməsin,
Gəl seyr elə, şehlə dolu çeşməsin,
Xiffətlərə dözə bilmir könül, tən,
Ay sevgilim, biri sənsən, biri mən.

Şadimanın ruhu coşub yenə də,
Qəlb yerinə, bilməm nədir sinədə,
İki lalə açıb bizim binədə,
Etmək olmur nə günəşi, ayı tən,
Ay sevgilim, biri sənsən, biri mən.

02.05.2012

SƏNƏ DİLƏKÇƏ YAZIRAM

Sənə diləkçə yazıram,
Fikirimdə lap azıram.
Əhvalını sormaq üçün,
Görüm səsin gəlmir neçin?
Unutdunmu görən məni?
Hansı iş-güc yorub səni?
Xəyalına gəlirəmi?
Dərdi sənlə bölürəmi?
Yuxuların azırmı heç?
Mənə məktub yazırmı heç?
Qəlbin yenə göylərdəmi?
Dodaqların meylərdəmi?
Hicranına verə qəmi,
Unutdunmu ötən dəmi?
Güllü-çiçəkli bağımız,
O sevdalı xoş çağımız,
Gözlərinə görünürmü?
Xatirələr sürünürmü?
Ötənlərin sorağına,
Yazırmı eşq varağına?
Bu ağlayan çağlarımı,
Çəkdiyin qəm dağlarımı...
Ürəyindən keçirəmmi?
Gözlərinə köçürəmmi?
Aramızda qalın divar,
Qovuşmağa məsafə var.
Məsafəni addıma qoş,
Xəyalımın eşqiylə coş.
Qanad açan quşlar təki,
Gözdən qopan yaşlar təki,
Könlü götür yanıma gəl,
Qop ruhundan canıma gəl.
Diləkçəm eşq sorağında,
Göyərçinin ayağında.
Sərhədlərdən qaçıb gəlir,
Sənə sarı uçub gəlir.

Çıx eyvana boylan hərdən,
Qurtar məni dərdi-sərdən.
Diləkçəm xoş barat məndən,
Cavab gözlər könlüm səndən...

11.02.2012

SƏNİ SEVMƏMƏK OLARMI?

De sənsiz qalan gecəmə,
Səni gözləyən küçəmə,
Hər sual dolu necəmə,
Heç bunu demək olarmı?
Səni sevməmək olarmı?

Ağrıdan keçib gələnə,
Əzabı seçib gələnə,
Həsrəti içib gələnə,
Hicranı öymək olarmı?
Səni sevməmək olarmı?

Ağlayıb gülən gözləri,
Dərdindən ölən gözləri,
Sirrini bilən gözləri,
Hicrana əymək olarmı?
Səni sevməmək olarmı?

Çıxart canından ağrını,
Yandırma aha bağrını,
Tutma gözlərim oğrunu,
Heç belə əmək olarmı?
Səni sevməmək olarmı?

Gəz Şadimanda günahı,
Ağlat gözündə sabahı,
Götür sevinci, ver ahı,
Heç bunu çəkmək olarmı?
Səni sevməmək olarmı?

06.01.2012

BİR NAĞIL DANIŞ

Mənə gizli-gizli bir nağıl danış…
Nağılın heç zaman bitməsin, ey dost.
Özün də nağılın içinə qarış,
Ruhumun evindən itməsin, ey dost.

Qursun ürəyimdə bir quş yuvası,
Açsın bəbəyimdə min yaş yuvası.
Olsun öz siriylə lap daş yuvası,
Dərdin əli ona yetməsin, ey dost.

Hərdən gözlərində kədər görürəm,
Hər kirpik içindən min qəm dərirəm,
Süfrətək könlümə onu sərirəm,
Ağrın ürəyimdən getməsin, ey dost.

Sən ki, nağıllardan keçib gəlirsən,
Eşqin şərbətini içib gəlirsən,
Ruhumu bir yuva seçib gəlirsən,
Oradan şər-xəta ötməsin, ey dost.

Sevda yolçuları ruhsevər olur,
Ah könlə girəndə, ahsevər olur,
Ömür də bir şamdır, yandıqca solur,
Günündə qəm-qüssə bitməsin, ey dost.

Mənə gizli-gizli bir nağıl danış…
Yazıq Şadimanla gah küs, gah barış,
Gəlsə də xəzandan sonra qarlı qış…
Xəzanla sevdalıq etməsin, ey dost.
Xəzanla sevdalıq etməsin, ey dost.

04.06.2012

***

Mən canımdan keçərəm əhd ilə ilqarım üçün,
Əhdimi, ilqarımı hifz edərəm yarım üçün.

Yarımın şövqü ilə qəlb həmişə vəcdə gəlir,
Sevgimi bəsləmişəm sevgili dildarım üçün.

Məni dəfn eylə, bəşər, sən «segah»ın naləsinə,
Sevirəm çünki, onu əfv elə israrım üçün.

Öyməsin qoy özünü bir daha, eşq əhli olan,
Mən ki, başdan ayağa Şirinəm öz yarım üçün.

06.07.1995

***

Səni çox sevdiyimi dildə bəyan eyləmişəm,
Bilə qoy cümlə-cahan mən ki, əyan eyləmişəm.

Gül üzün, al günəşim, od qalayır can evinə,
Necə gör qəlb evimi şöləfəşan eyləmişəm?

Bil ki, hər əmrinə, yar, müntəzirəm aləmdə mən
Könlümü eşqinə əlbəttə, nişan eyləmişəm.

Eşqə böhtan demək olmuş peşə əğyarılara,
Eşqə böhtan deməyi mən qadağan eyləmişəm.

Əzrayıl gəlsə əgər ərz et ona, ey Şadiman,
Canı cananıma verdim, nə ziyan eyləmişəm?

12.05.1996

***

Bülbülü satdı gül, eyvah, təzədən xarə yenə,
Yenidən vurdu hicir könlümə min yarə yenə.

Olacaqdırmı mənə bilməm haçan ağ gün qismət?
Günlərim bəxtimə bənzər, niyə bəs qarə yenə?

Yenə də məş'əl kimi yanmaqdadı qəlbim qəmdən,
Üz tutub bilməyirəm mən ki, gedim harə yenə?

Düşünürdüm dözəcəkdir ürəyim həsrətinə,
Tuş olub dərdə onun hər tərəfi parə yenə.

Şadimana, kimə nə qüssəvü-dərd eləyirəm?
Dərdimə kimsə mənim eyləmədi çarə yenə.

03.12.1997

***

Yanıram hər gecə o zülfü-pərişanım üçün,
Düşürəm heyrətə gündüz-gecə əfğanım üçün.

Bir canım var onu cananıma qurban elədim,
Olsa min canım əgər, verrəm o cananım üçün.

Çəkilir ərşə yuxu, yatmayıram mən gecələr,
Mənə kim rəhm edəcək bu acı hicranım üçün?

Tanrı bəxş etmiş idi yarı mənə, incitmişəm,
Yarı candan ayıran yağıyam öz canım üçün.

Şadimana, niyə həsrət səni öldürmədi bəs?
Mən ki, ömür edirəm, əhd ilə peymanım üçün.

12.05.1997

***

Yarı candan sevən aşiq üzülüb candan olar,
Nə bəla gəlsə əgər başına hicrandan olar.

Elə bir aşiqi göstər ki, onun yoxdu qəmi,
Aşiqin könlünə həsrət yolu hər yandan olar.

Elə bir hissdir eşq ki, onu eşqi əhli bilər,
Eşqə biganə olan sevdiyi canandan olar.

Kimsə bilməz nə zaman eşqə giriftar olacaq,
Eşq üçün tək qəlbdə cananı görən andan olar,

Eşq dərdi əbədi dərddir yanan aşiqlər üçün,
Ona çarə nə təbibdən, nə də dərmandan olar.

Şadiman, söyləmə heç kimsəyə çəkdiklərini,
Bil nə üz versə sənə haqq olan ünvandan olar.

27.02.2001

***

Bağlayıb eşqə könül əhdə vəfa eyləmişəm,
Çəkmişəm möhnətüvü cana cəfa eyləmişəm.

Sübhətək yummamışam gözlərimi hicrindən heç,
Duymasın kimsə deyə gizli nəva eyləmişəm.

Yenə könlüm evinə yağdı bu hicran yağışı,
Bilmirəm eşq yolunda nə xətalar eyləmişəm.

Hərə bir yolla alır zövqü səfa aləmində
Mən də hicran qəmini qəlbə səfa eyləmişəm.

Şadiman, sinəmə çox dağ çəkib hicranın əli,
Dağı dağ üstə vurub dağa dəva eyləmişəm.

30.03.2001

***

Ya İlahi, ürəyim qüssədən al qan oldu,
Eşq odunda əriyib dərdə düşən can oldu.

Ya İlahi, bu fələk qoymadı kamə yetəm,
Ciyərim yandı tamam atəşə büryan oldu.

Ya İlahi, yetişən olmadı imdadıma,
O səbəbdən də peşəm naləvü əfqan oldu.

Ya İlahi, seltək göz yaşım axdı çəmənə,
Güllərin rəngi o üzdən belə əlvan oldu.

Ya İlahi, üzü gülmür daha Şadimanın,
Etməyib tab fəraqə gözləri giryan oldu.

06.11.2000

***

Yenə könlüm quşu qan ağladı bülbül sayağı,
Yenə həsrət sinəmi dağladı bülbül sayağı.

Yenə sənsiz oduna dözməliyəm hər gecənin,
Yenə hicran bulağı çağladı bülbül sayağı.

Yenə yandırmadadır can evimi ahım odu,
Yenə firqət qapımı bağladı bülbül sayağı.

Yenə hicran gecəsi gəldi məni yandırıbdı,
Yenə qəmlər sinəmi dağladı bülbül sayağı.

Yenə xoş günlərə həsrətdi gözü aşiqinin,
Yenə fikri o keçən çağladı bülbül sayağı.

Yenə üz tutdu hara getdi canım qurbanı yar,
Yenə qəm Şadimanı haxladı bülbül sayağı.

21.12.1997

***

Yenə qan ağlayacaq möhnəti-hicranda könül,
Yenə hicran qəmi hökm eyləyəcək canda könül.

Yenə Məcnunu salıb eşq oduna yandıracaq,
Yenə nalan olacaq, Leylitək, hər yanda könül.

Yenə cismim yanacaq atəşə pərvanə kimi,
Yenə can qalmayacaq şəm`i-şəbistanda könül.

Yenə bu millətə hökm etmədidir zalimlər,
Yenə meydan sulayır hər biri bir donda könül.

Yenə can mülkümü bu eşqin odu yandıracaq,
Yenə gəl Şadimanın halını gör onda könül.

21.12.1997

***

Yenə könlüm quşu cövlan eləyir yarə tərəf,
Görməyən tək yarini tez tutur üz zarə tərəf.

Məni cəzb eyləməyib özgə gülün rayihəsi,
Getmişəm öz gülümü tapmağa gülzarə tərəf.

Tanıyırlar məni, sadiqliyimə heç yoxdu şəkk,
Nəzərim yarə baxıb, baxmayıb əğyarə tərəf.

Eşqi təsdiq elədim mən də o Leyla sayağı,
Bir adam sövq edə bilməz məni inkarə tərəf.

Şadimanəm, nəzərim daima me`marı görür,
Şirinəm, baxmadayam daima me`mara tərəf.

28.08.2001

***

Can edir cana bəla, canuva nə can yaraşır?
Getməyir canla yola, ona nə ünvan yaraşır?

Gözdən axan yaşıma olmadı bir çarə, təbib,
Eylədin zənn ürəyə qəm dolu divan yaraşır.

Ahımın naləsinə göydə uçan quş dayanır,
Niyə mən bəxti kəmə zülmü çəkən an yaraşır?

Çəksin öz pərdəsini fələklərdən qarə bulud,
Olmasın təkliyə yar, ki ona karvan yaraşır.

Köç edib, harə gedir eşqə düşən dəli könül?
Salmasın qanə canı bu eşqə sarvan yaraşır.

Bulma Şadimana ah, ah canı dustaq eləyir,
Tök ciyərimi çölə daha sənə qan yaraşır!...

20. X11. 2004

***

Hər kəsin sevdiyinə eşqidə hicran olsun,
Çəkə həsrət odunu hər cəfaya can olsun.

Sübhətək qanə düşən könlə çarə arasın,
Alışan hər ürəyin ruhu da büryan olsun.

Dadmayan hicr odun, heç bilməz eşqi nədir,
O cümlədən də, sevən, bu dərdə nalan olsun.

Gecə-gündüz alışa ayrılıq əzabına,
Ahı göyləri tuta, aləmə e'lan olsun.

Nə vəfa eyləyər sevdiyinə yarı üçün?
Yoxsa hicrə hünəri, o sinə talan olsun.

Gəl Şadimana sən man etmə biganəliyi,
Düşməyib elə qəmə, bu qəmi yalan olsun.

17. 02. 2005

***

Ey könül, şövqə gəlib canıma peyman istədün,
Özüvü dərdə salıb, bu dərdə dərman istədün.

Salmadın sayə heç ömürdə bir saniyə məni,
Düşərək qövr odüna, sonra da səhman istədün.

Mən canın əsiriyəm, sən də cana yağı nədən?
Niyə öz düşmənüvü tənüvə mehman istədün?

Qarə yeltək əsirsən yox daha axşam, səhərim,
Düşürüb qəmə canı bu cana loğman isdədün.

Şadiman biçarənin Rəbbinə bol məhəbbəti,
Atıb onu alova, sən ona iman istədün.

20.12. 2004

***

Fələyin mehrinə bax, hər anda min qan eləyir,
Ürəyi eşqə salır, bu eşqə hicran eləyir.

Qan olan ürəyimin mə'nası yalnız eşqidir,
Düşürüb çənə onu öylə yarımcan eləyir.

Düşməyən eşq oduna bilməz nədir cəfası,
Kim ki, yandı atəşə ona sitəm can eləyir.

Hər zaman sevdamızın ağrısına yandı könül,
Bəs nədəndir ürəyi hicr odu büryan eləyir?

Bizdən əvvəl də sevənlər yandılar atəşlərə,
Tutuşan qəm oduna ömrünü nalan eləyir.

Sanma sevdanı hünər, çox bəlaya düçar edir,
Qəmi illərlə verir, nəş'əni bir an eləyir.

Şadimanın bulma gəl dərdinə çarə, ey təbib,
Yoxdu hicrinə əlac, o, qəlbi büryan eləyir.

17. 02. 2005

***

Hər kəsin qismətinə aləmdə bir can yaraşır,
Canla peyman eləyən hicr oduna an yaraşır.

Elə sərkəştəliyi qoymamışam cana yovuq,
Ki edə könlə zülüm, hər zülümə qan yaraşır.

Kimsənin eşqi məni yaxmadı səndən savayı,
Parə-parə qəlbimə indi də dərman yaraşır.

Məni divanəliyim saldı məhəbbət oduna,
Belə divanəliyə şəfai-loğman yaraşır.

Gəlir həsrət yuxusu gözümə etmir bir əlac,
Gecəni sübhə qədər əhd ilə peyman yaraşır.

Dağ ola çəkməz əgər bir belə hicran yükünü,
Elə ki, mən çəkirəm bu yükə sərban yaraşır.

Şadiman, sanma belə kimsəni suçlu bu işə,
Özün etdin bunu bəs, etdiyinə man yaraşır.

18. 02. 2005

***

Bas qədəmin könlümə ey ruxsari canım mənim,
Dili'rəvan, özü pak aləmdə ünvanım mənim.

Nə qədər cövr eləsən eyləmərəm şəkkə nida,
Hicrinlə gəlsə əgər bir öylə divanım mənim.

Səndən qeyri qəlbimi ram etməyi cəhd qılmasın,
Çün səninlə başlayır hər sübhüdə anım mənim.

Dərdə düşən könlümü eşqinlə eylərsən şəfa,
Ağrıyan ürəyimə səndəndir dərmanım mənim.

Canımın ayinəsi, boylan bir sevdana sarı,
Səndən gəlir eşqimə pozulmaz fərmanım mənim.

Hər yetəni qəlbimə dünyada heç tay tutmadım,
Olmasan yar könlümə, qəm olar mehmanım mənim.

Şadimanı sanma ki, bir kimsəyə üzün tuta,
Öylə səcdəyə düşüb mehrində imanım mənim.

17. 03. 2005

***

Gedərəm hər gecəni yuxuda Allaha tərəf,
Qovub şər əhli məni, yollamasın aha tərəf.

Dilim həqqı arayır, zülmətə yoxdu ümidim,
Yenə könlü aparır Yaradan sabaha tərəf.

Yanıram sübhə qədər röyaların təşnəsinə,
Ayrılır tez məndən ruh, gedir qibləgaha tərəf.

Yığıram dərdlərimi ürəyimin guşəsinə,
Yalvarım can evimə, atmasın gunaha tərəf.

Şadiman, bu fələyin atəşinə yandı könül,
Qopub təndən beləcə gedir səcdəgaha tərəf.

10. 05. 2006

***

Gülür üzdə vüqarım sevgili dildar eşqinə,
Gəlirəm bağça-bağa hər sabahı yar eşqinə.

Oxşayır üz-gözümü yel təki sevda mələyi,
Götürüb aparıram ruhumu ah-zar eşqinə.

Qopa bilməz diləyim, heç cürə qəlbdən, bilirəm,
Onu cantək salıram bağrıma ilqar eşqinə.

Vəfa qılmaz ürəyim yad nəzərin sevdasına,
Açıram ürəyimi cümlə vəfadar eşqinə.

Əhdi dildə arayan, sevməlidir əhdin özün,
Ona peyman edəməm pul-para, bazar eşqinə.

Yarı candan sevənin heç olmayır qeylü-qalı,
Onu canda arayın, aramayın var eşqinə.

Şadimanın ürəyi bağlıdır öz sevgisinə,
Ona vurğundu könül gül təki gülzar eşqinə.

28.11.2013. Pirallahi

***

Nə sən çıxdın qəlb evindən, nə mən ruhu abad oldum,
Nə sən qopdun hiss cövründən, nə mən eşqdən bərbad oldum.

Ötüb keçən zaman gəlməz, bir dəm hali olan bilər,
Nə sən endin öz fövqündən, nə mən dərddən bidad oldum.

Hikmət dolu sabahlar var, sevdasına can əridir,
Nə sən döndün keçən gündən, nə mən ona bir yad oldum.

Fərman verdi acılara ayrılıqlar sultan kimi,
Nə sən çıxdın bu düyündən, nə mən ondan azad oldum.

Vüsal bağın payız çaldı, xəzanları aləm tutar,
Nə sən gəldin qəlbə ündən, nə mən ondan səyyad
oldum.

Sevdalılar bilər bunu, eşqə fəda olmaq müşkül,
Nə sən keçdin eşqlə dindən, nə mən bundan çox şad
oldum.

Şadimana, nəzər qılsan gecə-gündüz cəfa nədir?
Nə sən qaçdın qəm divindən, nə mən qəmə ustad
oldum

28.11.2013. Pirallahi

***

Ağladıb güldürərəm mən səni yar canım üçün,
Səni bil, can evimə bəsləyirəm anım üçün.

Mən ki, eşqinlə gecə sübhə qədər zikr edirəm,
Basıram bağrıma hicranını peymanım üçün.

Səhər çiçəklərinin ətri basıbdı çəməni,
Deyirəm bir gələsən xoş keçən zamanım üçün.

Ayrılıq çoxlarını dərdlərə ortaq elədi,
Sən də ondan qaçasan dövrana səhmanım üçün.

Çıxır candan ürəyim, dolanır arxanca sənin,
Çalışır qan sulaya dərdimə fərmanım üçün.

Mən də öz qəlbimə ovsun elədim hücrə girim,
Açır həsrətə qapı cəhd eləyir şanım üçün.

Bilirsən, Şadimanın gözləri axtarır səni,
Onun əhvalını bul, müjdəyə dön sanım üçün.

18.11.2013.Pirallahi

***

Dərdim şığıyıb ah ilə aləmləri gəzdi,
Düşdü ağıza nəğmə təki dilləri gəzdi.

Çıxdı ürəyim seyri-səfaya diləyimlə,
Açdı qanadın durna təki yelləri gəzdi.

Divanəliyi vurdu başıma dəlisayaq,
Qoşdu günümü həm ayı, həm illəri gəzdi.

Qondu gülüşü dodağıma şəkkəri-qəndtək,
Qaçdı təbimin bağına bülbülləri gəzdi.

Hicranlara ömür ələdim hər sətirimlə,
Misram yığışım gözdən axan selləri gəzdi.

Bir kimsə tə'nə eyləməsin Şadimanlığı,
Sevdalı təki misralarım elləri gəzdi.

25.11.2013. Pirallahi

***

Gözümü yolda qoyan, yari-vəfadar gələsən,
Verəsən səsimə səs, könlümə dildar gələsən.

Ürəyim sözlə dolu oxşayır hər sətirimi,
Dilimin ahı gəzir aləmi, bir yar gələsən.

Baxıram pəncərəmə, bağça-bağı qəm bürüyüb,
Sənə ürəkdən əziz min diləyim var gələsən.

Bu payız xəzanına çatmayır heç bir ağırı,
Əsir hicran küləyi, var başında qar gələsən.

Üzümə dərdi əsir sübh-səhərin yellərinin,
Ayrı bir gülüzlüyə olmayıb dildar, gələsən.

Ayırıb tellərimi sinəmə bir tar elədim,
Çalıram Segahı mən, qalmışam ögar, gələsən.

Vurma gəl Şadimanın qəlbinə hicran yarası,
Eləyir dərdin özü çəkdiyimə ar, gələsən.

28.11.2013. Pirallahi

***

Məni Leyli eləyən yarıma deyin gəlsin,
Qəlbimin atəşini söz ilə öyün gəlsin.

Çıxarıb eşqimi candan elərəm hicrana,
Dözməyir nə ki ürək, min belə beyin gəlsin.

Etmirəm həsrətə tab, bir yetirin siz ona,
Kəsərək intizarın taqəti-heyin gəlsin.

Hanı hicran acısı çəkdirənin insafı?
Yolu asta eləyib, sonra da yeyin gəlsin.

Sübhü həsrətə atıb yatmayıram axşamlar,
Tutub vüsala üzü, bəzəyib əyin gəlsin.

Baxın əhvalıma bir hali-pərişanam mən,
Çəkdiyim acıları siz ona sayın gəlsin.

Söyləyin Şadimanın dərdinə yoxdu əlac,
Təkləyib ayrılığı başına döyün, gəlsin.

28.11.2013. Pirallahi

***

Alıb candan ürəyi aparır ərşə bu dilək,
Salır qüssə içinə, zənn edir nəş'ə bu dilək.

Yandırır qəlbin için atəşinin cövrünə çox,
Çəkir zövqlə canımı yaxşıca şişə bu dilək.

Girir zəka evinə, çalxadır fikirlərimi,
Deyirəm mənim təki min sehrə düşə bu dilək.

Çəkir sığal başına sakit ötən anlarımın,
Tapa bilmir heç cürə bir sakit guşə bu dilək.

Bu Şadiman qapanıbdı tək sükuta bayaqdan,
Salıbdı özü ilə məni də işə bu dilək.

30.11.2013. Pirallahi

***

Xiffətin yandıracaqdır ürəyi, sən bilirsən,
Olmusan ömür-günün tək gərəyi, sən bilirsən.

Mən qaçıram bağça-bağa, gözlərimdə əksin var,
Onu gəl hifz eliyək, can dirəyi, sən bilirsən.

Hər sözün qəlbimi oxşar, anamın laylasıtək,
Ruhumun cana yovuq eşq mələyi, sən bilirsən.

Kimsəni könlümə yar etməmişəm aləmdə heç,
Bağrımın uçmaz sütunu, dirəyi, sən bilirsən.

Anlarım sənlə edir saatlara səcdəni yar,
Ya ona elə şəfa, ya kələyi, sən bilirsən.

Gəl hicran atəşinə yandırmayaq bir-birini,
Əhdə sadiq olanın eşq fələyi, sən bilirsən.

Şadimanı eləmə hicrana, həsrətə çıraq,
Zamanım əldə tutub vaxt ələyi, sən bilirsən.

30.11.2013. Pirallahi

***

Könlüm dildən incik düşüb, ürək bilir, can bilməyir,
Zaman qanad açıb quştək, fələk bilir, an bilməyir.

Çox dolaşdım göy üzünü, bulmadım heç ruhu orda,
Ruhun odu canımdaymış, mələk bilir, qan bilməyir.

Sirr içində göylər, yerlər, baş açanın başı çatlar,
Hamı mizrab tərəzidə kələk bilir, san bilməyir.

Doğulandan tən içində çapalayır bəndə əhli,
Sabah təki zühur edir, dilək bilir, dan bilməyir.

Şadimanı çox dinlətdi bu dünyanın sehirləri,
Xeyri şərə çatan başlar kələk bilir, qan bilməyir.

30.11.2013. Pirallahi

***

Əcəb düşdün qəlb içinə ordan getmək nə müşkülmüş.
Haqqım bidar olub yaman, haqqa yetmək nə müşgülmüş.

Hamı ömrə sığal çəkir, bilmir tanrı pərvənəsi,
Qanad açıb şahin təki onu ötmək nə müşkülmüş.

Fikirlərim zəncirvari göylə-yerlə bəndə düşüb,
Haçalanıb xəyallartək gözdən itmək nə müşkülmüş.

Səyyarələr sirr içində aləm ona heyrət edir,
Uçub-qonub kainata orda bitmək nə müşkülmüş.

Şadiman söz təlaşında onun dildən kənar edir,
Çəkib bağra misraları kabab etmək nə müşkülmüş.

30.11.2013. Pirallahi

***

Bir dəm zamanım getməyir hicranına qarşı,
Can niyə bəs hicrana düşüb canına qarşı?

Mən ki, yatıram hər gecəni sübhi-xəyalla,
Diləklərim olmadı heç dövranına qarşı.

Arzu mələyi başımın üstündə dolaşır,
Gəl etmə vəfasızlığı zamanına qarşı.

Dilin acısı qəlbə girib sitəmlər edir,
Bir kimsə çıxmayıb hələ fərmanına qarşı.

Etməginən Şadimanın ağlına seyri heç,
Bir dəm ağıl çıxmayıb can dərmanına qarşı.

02.12.2013. Pirallahı

***

Duyğularım öcəşir həvəslə dildən ağıza,
Axır qəlbdən avazım seyrini verir kağıza.

Çapıram ilhamımı göy ilə yerlər arası,
O da qəlbini açır mənə yox, işvəyi-naza.

Bükürəm boynumu bir məsum olan çocuq təki,
Ruhum salır ürəyi min cürə cəh-cəh avaza.

Bilir aləm özü də, söz mənim munisim olub,
Onu misraya salıb, çevirirəm gözəl qıza.

Şadimanı arayan könlümə etsin səfəri,
Görəcək süfrə açıb can bahar ilə ayaza.

02.12.2013. Pirallahi

***

Vəfa qılma bir kimsədən, vəfa candan doğmayırsa,
Sənə doğru gələn şəri, dost bildiyin boğmayırsa.

Ömür nazik ipə bənzər, qırılmağın bir kəs bilməz,
Qəlbi boşdan hikmət uyma, ağla hikmət yağmayırsa.

Can çırpınır bədənlərdə istədiyin bulmayanda,
Çox vaxt şimşək sarır yeri, bulud göyü sağmayırsa.

Qəlbi boşlar bilməyirlər, pislik ömrə bir zillətdi,
Öz canına xəta edər şərin ipin yığmayırsa.

Zaman elə cəlladdır ki, verdiklərin alır səndən,
Çox qalxanlar enir yerə, nəfisini sığmayırsa.

Hamı bidad edir candan, can tənhadır, dilək sonsuz,
Ömrə düşən vaxt darısqal, gələn özün sağ sayırsa…

Şadimandan uman könlü, onun könlü şüşədədi,
Qırmaq qurmaqdan asanddı, nifrət cana sığmayırsa.

02.12.2013. Pirallahi

***

Əgər yoxdur qəlbində sənin Allaha məhəbbət,
Artacaqdır günbəgün bil ki, günaha məhəbbət.

Gecələr dincliyini qurban edənlər fənaya,
Eyləməz heç bir zaman gələn sabaha məhəbbət.

Özünü ağıl evinə bənna sayanlar bilə,
Ağıl yox, ürək edir çox vaxtı aha məhəbbət.

Nə çoxdu sevdaları hicranlarda arayanlar,
Qoy bilsinlər, getməyibdi heç gah-gaha məhəbbət.

Şadimana deyin bilsin, eşqə düşmək xətadır,
Qəlbə gəlir hər bir zaman, çünki baha məhəbbət.

02.12.2013. Pirallahi

***

Nə gərək ki, bu qədər çəkəsən əzabı, bəşər?
Kəsilibdi ahına yerlə-göyün tabı, bəşər.

Səni Xilqət yaradıb Adəmi qəhr etmək üçün,
Kinin aləm götürüb, dildə zəhər qabı, bəşər.

Ağrına, acına yaşlar axıdır göydə fələk,
Yoxdu bir ürəyinin dünyada heç babı, bəşər.

Min cürə rənglərə tutdun sinənin içini sən,
Qarə görür ya gözün, ya yaşıl, ya abı, bəşər.

Dərd çəkib məzarına aparır hey gündüzünü,
Günün gah atı qovur, gah da axsaq yabı, bəşər.

Tərəzinin gözünü əymisən öz əlin ilə,
İtib ağlından elə Allahın hesabı, bəşər.

Bir çoxu dinlərə baxır qanlı savaşlar üçün,
Çəkir ərşə fəqanı haqqın hər kitabı, bəşər.

Niyə Xilqətə tərəf baxmayır adəm uşağı,
İmanı kində boğur, başlar olub babı, bəşər.

Kim edib qul zamanın haqqına divanəliyi?
Gələr bir gün yetişər haqqın inqilabı, bəşər…

Şadimanı niyə bəs qoymadı gülməyə həyat?
Göstərə üzünü iblis, ata niqabı, bəşər.

21. 08. 2003

***

Gələ bir başa ağıl, biz də bir hörmətə çataq,
Günü ağ, işi rəvan bəxtəvər millətə çataq.

Hamı azadəliyi dünyaya elan eləyib,
Biz də azadəliyi nuş ilə şöhrətə çataq.

Haramı dərdə salıb hələla verəyin rəvac,
Dəxi xalqlar içrə biz, hər cürə izzətə çataq.

Şeytan olmaq həvəsi hər kəsə ürcah olmaz heç,
Şeytanı dəf eləyib o nurlu Xilqətə çataq.

İmanı dala atıb eyləməyək cana sitəm,
Biz də vicdan deyilən o gözəl nemətə çataq.

Üzü qibləyə sarı, xeyrə tutaq əlimizi,
Canı təndən eləyək, öylə ülviyyətə çataq.

Bir hovur tut başını, günlərinin seyrinə dal,
Ya ki, heyvan sayağı ömrüdə zillətə çataq.

Şadiman, Rəbbi sevən hər iki dünyaya təmiz,
Eşqə ver ürəyini, qoyma ki, illətə çataq.

08. 05. 2006

***

Gərək insan özünü yaxşılığa sövq eləsin,
Etdiyi yaxşılığı, yaxşılığa zövq eləsin.

Verən o canı bizə, eşqə giriftar elədi,
Olub eşqə şüada, hər işini fövq eləsin.

Tənə can verdi Xuda sirrini izhara görə,
Ki, canı verdiyitək, almağı hər tövq eləsin.

Cəhi-cəlal əsiri olmağa tələsməyin heç,
Üzünü Həqqa tutub, haqqını çox rövq eləsin.

Şadimana, ver təbə öz eşqini bundan sonra,
Gətirib ruhu cana, aləmə min şövq eləsin.

09. 05. 2006

***

Sözü düzgün, özü mərd ol bu cəsarətdə, oğul,
Ağlını qoyma qala şərə əsarətdə, oğul.

Yüz belə hökmü ola, şeytan elə şeytandır bil,
Onun hiyləsinə bax, qalma ətalətdə, oğul.

Ataya, anaya olsun can var ikən eşqin çox,
Onların haqqını bil, bunca itaətdə, oğul.

Vətən eşqini danıb, qürbətə etmə sevdanı,
Babovun saldığı yurd Rəbbə əmanətdə, oğul.

Elimə, biliyə sal meylini, ol gözüaçıq,
Canı et ağla əta, haqqa zəmanətdə, oğul.

Elə sev, sevdiyinin sevdası olsun lap dürüst,
El içində olasan bunca ədalətdə, oğul.

Şadiman hər yetəni mədh eləməz yaxşı tanı,
Baxma ki, ömrü keçir öylə zəlalətdə, oğul.

14.12. 2006

***

Gəlmişəm öz canı verəm eşqlə qurban Vətənə,
Ola min canım əgər, edərəm qurban Vətənə.

Edirəm səcdə onun torpağının danəsinə,
Şükür, Tanrım eləyib ağlımı səhman Vətənə.

Canı bədəndə olan bilməlidir yurdu piri,
Odur ki, sevgimi də, qılmışam peyman Vətənə.

Ürəyim vurmadadı bu dildarın eşqi ilə,
Çünki canı yaradıb İlahi iman Vətənə.

Çıxıram seyrə düzə, çölə, çəmənə, nə qəmim?
Alıram zövqü-səfa qəlbə mehriban Vətənə.

Bayrağım boyanı seçib qırmızı, yaşıl, göyü,
Türkü-göy, dini-yaşıl, qırmızı pak qan Vətənə.

Şadimana, hünəri meydana səslə, nə süküt,
İndi zəfər çağıdır məlhəmi fərman Vətənə.

18.11.2013. Pirallahi

***

Şair olanın ruhuna qanad gərək olsun,
Misrasına, hər sözünə bir dad gərək olsun.

Heç etməyə ilhamını təhqirlərə məruz,
İblisliyə, yaltağlığa qəlb yad gərək olsun.

Allahı verən fitrətə yar etsin ürəyi,
Ya pərvanə, başa ağlı abad gərək olsun.

İslatmaya kağızını mürəkkəbə əbəs,
İnsanlığa hər könüldə imdad gərək olsun.

Milləti düşəndə dərdü-bəlalara nalan,
Səmalara bülbül təki fəryad gərək olsun.

Tutsun Vətənin şərəfini özündən uca,
Həm xeyrinə, həm seyrinə can şad gərək olsun.

Ey Şadiman, misralarının paklığın qoru,
Öləndən sonra yazdığına ad gərək olsun.

02. 02. 2003

XƏZƏRDƏ FIRTINADI

Xəzərdə fırtınadı, tökür dəniz göz yaşı,
Göyü, yeri titrədir dalğaların savaşı.
Qağayılar qışqırır vurur özün sulara,
Küləyə üsyan deyir sürtür üzün sulara.
Qaralmış ləpələrin harayı qulaq tutur,
Göydə qara buludlar bu aha çıraq tutur.
Diləklərin üstündə meydançalar yellənir,
Qasırğa özün öyür, Xəzər üstə tellənir.
Taleyimiz asılıb Allahın ətəyindən,
Ölüm qorxusu keçir ağlı olan beyindən.
Bu taxta evciklər də titrəyir dirək üstə,
Dolur havalı təbim yer tapır ürək üstə.
Duyğularım çırpınır, sözlər axır dilimə,
Alıram qələmimi, kağızımı əlimə.
İlhamımla həmnəfəs yerə, göyə qaçıram,
Bu dəhşətli dəmlərin ahından söz açıram...
Mənim də duyğularım sular təki çağlayır,
Qoşulub ürəyimə bu Xəzər də ağlayır...

23. 02. 2004

GÖYÇƏKDİ BAHAR

Bitdi çöl-çəməndə qışın savaşı,
Sevincdən buludun axdı göz yaşı,
Yaşıla bürüdü bahar dağ, daşı,
Güldü asimanda günəşin üzü,
Yaz heyrətə saldı gecə-gündüzü.

Çinarlar birboy da ucaldı göyə,
Zürafə hüsnüylə özünü öyə,
Şimşəklər çaxnaşdı buludu döyə,
Söyüdlər əyildi köksünə sarı,
Yer, Göy salamladı, sanki baharı.

Necə yaşılı don geyindi bağlar,
Çeşmələr torpağın döşündə çağlar,
Ruha qida verər ətirli çağlar,
Çünki bahar gəlib, İlahi, bizə,
Təzədən həyatdı o qəlbimizə.

Açar ağaclarda yarpaqlar bir-bir,
Gilavar bağların qoynunda xəlbir,
Xəlbəti küləklə kəpənək əlbir,
Çiçəkdən çiçəyə uçar bir anda.
Həyatdan köç edər güldən doyanda.

Dolaşar bağları quşların səsi,
Havadan duyular yazın nəfəsi,
Qışın əsiri yer qırar qəfəsi,
Sanki, «Yallı» gedər baharla çöllər,
Baharın özütək al geyər ellər.

Odur təbiətin nazlı mələyi,
Coşdurar sinədə arzu, diləyi,
Yaşamaq eşqiylə dolan ürəyi
Diləklər üstünə qovar yel kimi,
Bahardır ürəyin yalnız həkimi.

Quşların cəh-cəhi bağda sazəndə,
Günəş od pərisi, bahar nazəndə,
Dağların boynuna dolanar çən də,
Qovar sis, dumanı o yaz yelləri,
Qıvrılar ilantək yağmur selləri.

Yaz səadətidir dağın, daşın da,
Gəlindir çatılan ocaq başında,
Həyatdı buludun o göz yaşında,
Gözümüz önündə çiçəkdi bahar.
Bütün fəsillərdən göyçəkdi bahar.

30.04.1999

GƏL MÜBARƏK BAHAR

Gəl mübarək bahar, gəl qədəmi xoş,
Könlümə yepyeni bir tərənə qoş,
Ötməsin anlarım sərsəritək boş,
Sinəmə hərarət gətir odunla,
Dünyaya yenidən gəlim adınla.

Gəl mübarək bahar, gəlişin təzə,
Bitir novruzgülün çəmənə, düzə,
Xoşqədəmli gətir Novruzu bizə,
Könlə həyat olsun bu səadətin,
Necə təravətli, ulu adətin.

Yetir məmləkətə yeni ilini,
Diz çöküm önündə öpüm əlini,
Qoy bir sığallayım yaşıl telini,
O gül cəmalına uysun ürəyim,
Coşsun gəlişinlə hər bir diləyim.

Gəl mübarək bahar, könül gözləyir,
Sənin gəlişinin anın izləyir,
Ruhum cisimindən qəm təmizləyir,
Gər bağrım başının odla ahını,
Göstər bu dünyaya xoş sabahını.

Gəl mübarək bahar, fəsillər qızı,
Sirli kainatın parlaq ulduzu,
Ey billurtək çeşməm, pak, təmiz quzu,
Sığım ürəyimin içinə səni,
Necə tələtümə gətirdin məni.

Gəl mübarək bahar, mələktək gözəl,
Sənin məhəbbətin hər eşqdən əzəl,
Həm bayatı, qoşma, həm dürüst qəzəl,
Şerlər sultanı, şairlər şahı,
Sən ey təbiətin sevgi allahı!

Gəl mübarək bahar, könül açılsın,
Sinəmin atəşi ərzə saçılsın,
Bütün pisliklərdən, qəmdən qaçılsın,
Gəl çat tonqalları, əbədi yansın.
Novruzun gəlişin bu yer, göy ansın.

Gəl mübarək bahar, əziz bayramım,
Ulu qan yaddaşım, müqəddəs kamım,
Bəzənsin şamlarla bu könül damım,
Qopsun zülmətlərdən, ruhum ucalsın,
Yeri də, göyü də əlinə alsın.

Gəl mübarək bahar, qəlbə həyat ver,
Bu sınmış könlümə qol ver, qanad ver,
Bu köhnə dünyaya təptəzə ad ver,
Tökülən qanlardan doysun yer üzü,
Bir də ağlamasın bəşərin gözü!...

Gəl mübarək bahar, al Şadimanı,
Dəli irmaqlartək hey coşsun qanı,
Bütün kainatdır onun ünvanı,
Gəzdir qarış-qarış qəlbi özünlə,
Qoy baxsın cahana sənin gözünlə.

14.03.2001

BU PAYIZ

Bu payız yarpaqlar – sarı kəhraba,
Axır günlərini yaşayır, eyvah.
Buludlar qapqara geyinib əba,
Dumanlı, çiskinli açılır sabah.

Hərdən də göylərdən parlayan şimşək,
Səmanın ürəyin yarır ikiyə.
Dolaşır bağlarda xəzri tənha, tək,
Sərçələr özünü vurur səkiyə.

Bu payız torpağın bağrı qaralıb,
Quşlar pəncərəmə sığınıbdır hey.
Günəş də, heyvatək, sanki saralıb,
Üzündən, gözündən oxunur giley.

Küləklər ruhumda nəğmətək gəzər,
Bu nəğmə könlümə duman ələyər,
Anasından ayrı quzuya bənzər,
Payızın əlindən yer-göy mələyər.

Sanki, ac canavar, torpağın özü,
Saplağından qopan yarpağı udur.
Balasını atan insafsız düzü,
Təbiət bağçanı, bağı unudur.

Payızın bilmədən yaşayır insan,
Ölərkən həyatı ona bir andır...
Budağdan ayrılan hər yarpaq bir can,
Həyatın o üzü ona divandır..!

08.11.1998

AL GÜNƏŞ ALƏMİ BƏZƏDİ YENƏ

Al günəş aləmi bəzədi yenə,
Sübhün gözü şehlə təzədi yenə.
Səmalar əl-əlvan rəngə boyanıb,
Buludlar necə göz-gözədi yenə?
Bir yanda şimşəklər özünü öyür,
Asiman bağrında nizədi yenə.
Ağappaq buludun rəngi boğulub,
O dolmuş gözləri kuzədi yenə.
Quşların səsası bürüyüb bağı,
Baharın pak üzü bizədi yenə.
Üzlərdə, gözlərdə səadət gəzir,
Ocağın külü köz-közədi yenə.
Şadiman dünyanın bağrından qopub,
Atəşi küllə üz-üzədi yenə.

12. 02. 2003

AĞACLAR SARI-SARI YARPAQLARIN ƏLƏYİR

Ağaclar sarı-sarı yarpaqların ələyir,
Yerdən, göydən aman diləyir,
Külək bağçalar arasında
anasından ayrı düşmüş
quzu təki mələyir.
Günəş işıltısı içində,
Zaman anları biçində.
Fəsillər öz işində,
Fələk gərdişində,
Ömrümüzü əridir dişində...

13.10.2007

QUŞBAŞI QAR YAĞIR

Təbiət bürünüb ağappaq tülə,
Quşbaşı qar yağır dənizə, düzə.
Boyanıb yer və göy, sanki ağ tülə,
İlahi bərəkət göndərib bizə.

Bəmbəyaz gəlinlik paltara bənzər,
Qışın əynindəki dümağ libası.
Çölləri, düzləri bir saflıq bəzər,
O qar naxışıyla parlar əbası.

Günəş sarıltısın göstərər hərdən,
Buludlar qol-qola tutub oynaşar.
Geyər ağ dənələr bir almaz zərdən,
Havadan asılı durar qaynaşar.

Qurumuş yarpaqlar tökülər bir-bir,
Çılpaq ağacları tutar üşütmə.
Küləklər göylərin əlində xəlbir,
Aləmə soyuqluq qatar üşütmə.

Mirvari dənələr bəmbəyaz inci,
Ələnir üstümə, başıma elə.
Qışmı təbiətin paklıq sevinci?
Dənələr qar olur dolaşır telə.

Qara qarğalar da qatar bağlayır,
Vurur ağaclara, bağlara özün.
Qış hələ girməmiş şaxta çağlayır,
Ocağın, sobanın çatladır gözün.

Yollar buz bağlayıb, qar təpə-təpə,
Sanki, ağ karvanlı səhradır hər yer.
Dəniz şahə qalxır üşüyür ləpə,
Sahildə, limanda bəmbəyaz zər yer.

Quşbaşı qar yağır, torpaq üşüyür,
Təbiət üzünü bozardıb yaman.
Budaq üstə qalan, yarpaq üşüyür,
Qış qapını kəsib verməyir aman.

Bakının çöhrəsi bozarır-solur,
Yalın ayaqları donur quşların.
Külək dər-divarda saçını yolur,
Sanki iniltisi qopur daşların.

Göylərin üzündə bir çaxnaşma var,
Bulud qoşun çəkir buludun üstə.
Bütün kainatda, sanki coşma var,
Döyünür dünyanın qəlbi ahəstə.

Quşbaşı qar yağır yer göyə əsir,
Səmanın bağrından inci ələnir,
Qapıdan girməyə külək tələsir,
Dolmuş novulçada buzlar yellənir.

Pəncərəm önündə qar naxışları,
Atəşə bürünür könlüm odundan...
Əridir rəngkartək o baxışları,
Ürəyim riqqətə gəlir dadından.

Mən Xəzər üstündə donub qalmışam,
Otağım içində dolaşır bu qış.
Ayağım altına qarı salmışam,
Bir xışıltı salır, dalaşır bu qış.

Təbiət nə gözəl, həyat nə şirin?
Ömrə hər fəsili qonaq eyləyir.
İlahi qoruyur adəmdən sirin,
Bizi bu dünyaya sınaq eyləyir.

17. 12. 2002

BU YERDƏ

Payız gələr, xırmanlıqlar saralar,
Yığın-yığın göyü alar buludlar.
Avqust ayı, günün ömrü daralar,
Səmalarda köçün salar buludlar.

Bu yerlərdən uçar köçəri quşlar,
Hönkürtüylə ağlar qara buludlar.
Gur leysanlar göyün gücün alqışlar,
Gələr ərzi yara-yara buludlar.

Ağacların uca qəddi bükülər,
Fəğan edər yerdə, göydə küləklər.
Sarı yarpaq ayaq altda tökülər,
Qaçıb özün künc-bucağa bələklər.

31.08.1988 Tağay

AY PAYIZ GECƏSİ

Əsər pak sinəndə sərin küləklər,
Qoşa pərvazlanar yenə ürəklər,
Uçar zirvələrə min bir diləklər,
Ucalar sevginin divanə səsi,
Ay payız gecəsi, payız gecəsi.

Gör nələr düşünər ürək bir anda,
Qurular toy-büsat dağda, aranda,
Ay işıq seliylə köksü yaranda,
Pak nura boyanar sevgi küçəsi,
Ay payız gecəsi, payız gecəsi.

Yenə qatarlanıb saysız ulduzlar,
Göyün də, yerin də öz calalı var.
Bu səssiz səmaya gəl car çəkək, car,
Coşsun duyğuların safı, incəsi,
Ay payız gecəsi, payız gecəsi.

05.09.1986

YAMAN GÜNƏ SALIBDI

Bu nə kədər, bu nə qüssə, bu nə qəm,
Bəbəyimdə kölgələnib yenə nəm,
Sənə baxdım lap göynədi bu sinəm,
Qara qızıl səndən səni alıbdı,
Xəzər, səni yaman günə salıbdı.

Buludlar da göylər içrə yaş tökür,
Haray salan dalğaların qəlb sökür,
Sularına yeddi rəngli neft çökür,
Yosunların mazutlanıb qalıbdı,
Xəzər, səni yaman günə salıbdı.

Ötənlərdən yadigarsan sən bizə,
Balıqları qaçır durur lap üzə,
Sularında çirkabların göz-gözə,
Laqeydilik ürəyindən çalıbdı,
Xəzər, səni yaman günə salıbdı.

Çimərliklər üfunətdən boğulur,
Sahillərə zibilliklər yığılır,
Qızıl, nərə, kütüm hara dağılır?
Mavi sular indi qara olubdu,
Xəzər, səni yaman günə salıbdı.

Vətən deyib, haray salan, ey soydaş,
Bizimkidir dərə, dəniz, qaya, daş,
Gələn nəsil qoy deməsin bizə daş,
Dönük olmaq sinəmizdən çalıbdı,
Xəzər, səni yaman günə salıbdı.

Şirin xanım sənə bağlı ürəkdi,
Bol nemətin Vətənimə dirəkdi,
Göy suların hələ arzu, diləkdi,
Laqeydilik bizi bizdən alıbdı,
Xəzər, səni yaman günə salıbdı.

24.02.1989

SARI-QIRMIZI GÜLLƏR

Bahar yaşıl ətəyin sərib torpağın üstə,
Kolun dibindən baxır bənövşə – boyu bəstə,
Bürüyür ürəyimi xoş duyğular ahəstə,
Ruhuma qanad verir çiçək donlu gözəllər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.

Çiçəklərin öz ətri, ləçəklərin öz iyi,
Ləklər üstə oynaşan küləklərin öz iyi,
Sinəmdə cövlan edən diləklərin öz iyi,
Gəzir kolların üstə ofsuna düşmüş əllər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.

Mən təmənna edirəm, əqlimi almın əldən,
Uçuşur kəpənəklər asılıb qalır yelldən,
Həzin əsən çiçəklər yorulub düşür dildən,
Mənimtək çalxalanır sehrə düşən könüllər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.

Torpaq ətir qoxuyur otların təmasından,
Günəş hərdən boylanır mirvari səmasından,
Qarışqalar boylanır balaca yer tasından,
Bənövşəni, laləni titrədir incə yellər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.

İlahinin səpdiyi gözəlliyə varam mən,
Çiçəklərin eşqinə alışıram, qoram mən,
Baharın sevda dolu günlərinə yaram mən,
Yerə, göyə səs salır ürəyimdəki tellər,
Bağçamızda açılıb sarı-qırmızı güllər.
Bağçamızda açılıb sarı-qırmızı güllər.

18.04.2012

ƏCƏB BƏNÖVŞƏLƏR AÇIB TELLƏRİ

Əcəb bənövşələr açıb telləri,
Çiçəklər baxışır ləçək içində.
Sanki ilahidən oxur dilləri,
Duyğular dirçəlir ürək içində.

Torpağın üstündə qurub çətirlər,
Aləmə yayılır zərif ətirlər,
Hər biri bülbültək sanki ötürlər,
Şəbnəmdən don geyib dilək içində.

Nazik vücudların yellər əsdirir,
Hicranın yolunu eşqlə kəsdirir,
Ürəyi qüssədən, qəmdən küsdürür,
Ağlı-huşu alır kələk içində.

Kolların dibinə düzülüb qalıb,
Hər biri yarpaqdan üzülüb qalıb,
Bənövşə ətəklər süzülüb qalıb,
İlahi, bağçamız mələk içində.

18.04.2012

POEMALAR

RUHLARIN FƏĞANI

Yağı tapdağı altında qalmış torpaqlarımızda olan məzarlar da şəhiddi!

I
ŞUŞA MƏZARSTANI

Şəhid düşmüş oğullara ağlayan,
Qara geyib köksü, qəlbi dağlayan,
Mənsəb itdi, namus itdi, ar itdi,
Tək yurdlar yox, məzarlar da şəhiddi.
Əsir düşüb qəbirlər də zamandı,
Hər məzarın ruhu bir ah-amandı.
Qubarlanıb sinəmizdə ürək də,
İnlər iman, inlər zaman kələkdə.

***

Rüzgarların naləsi,
Ərzi dolandı səsi.
Əsir Şuşa qalası,
Qolu bağlı qul oldu.
Zülüm yoxdan doğuldu,

Çarmıxa çəkdi zaman.
Ərzi boğdu ah-aman,
Ruhlar göylərdə yaman,
Fəğan edib coşurdu.
Burada qəm daşırdı...

Şuşaya yağdı qırad,
Batdı tarix, batdı ad.
Ruhlar açaraq qanad,
Ərzdə nalə çəkdilər,
Qalaya ah tökdülər.

Pənah xan, İbrahim xan,
Yenidən verirdi can
Vaqifin gözündə qan,
Vidadinin yurd ahı
Ağladırdı sabahı.

Mələk donlu Natəvan,
Naləsi, qəmi rəvan.
Dilində zaman, dövran,
Ruhu Şuşa düzündə
Bir inciklik üzündə.

«Hanı mərd qalam» dedi,
«Hanı ər balam» dedi,
«Satqınlıq eli yedi»,
Bir nalə vardı anda,
Uçurdu qara donda.

Şuşa məzarıstanı,
Əsir pak adı-sanı,
Deyir: «İgidlər hanı?
Açsın bağlı qolumu,
Kəsib gavur yolumu.»

II
LAÇIN MƏZARSTANI

Laçın tərlanların qoruq meydanı,
Axdı xainlərin əlində qanı.
Gəzdi yoxuşlarda şeytan barmağı,
Dəydi ormanlara yağı ayağı.
Laçın ucalıqdan dərəyə düşdü,
Allah bu nə fəğan, bu nə yürüşdü?
Ərləri yağıyla hər gün döyüşdü,
Laçın ucalıqdan dərəyə düşdü.

***

Laçın məzarları boynubükükdü,
Bu əsir qəbirlər tarixə yükdü.
Dolaşır minlərlə ruhlar başında,
Laçın belə sitəm görmüb yaşında.

I-ci RUH

Məni qoyub qaçan elim, elatım,
Əbədi dünyada məzar həyatım.
Gavur ayağının altında yatım?
Bəs hanı bir kişi, ər əsir elə?
Min illik tarixi verdilər yelə.

2-ci RUH

Cismim murdarlanıb yağı izindən,
Yurdun qan tökülür qəmli gözündən.
Bu gün soruşuram Laçın özündən-
Hanı kabab çəkib, qədəh süzənlər?
Dağında daşında ərtək gəzənlər?

3-cü RUH

Bir zaman anaydım, neçə övladım,
Gözəl oymağımın dilində adım.
Fəqət, qəbir evim yağının, yadın,
Beş kişi böyütdüm bəslədim, eyvah,
Yağı tapdağına tuş oldum, Allah.

4-cü RUH

Bakirə qız idim, əcəl yetişdi,
Taleyim əzrayıl əlinə düşdü.
Qorxudan çatlamış qəbrim nalədə,
Gecəm zəhər dadan qəm piyalədə.
Hər axşam gəlirəm o ruh donunda,
Tank, qırad görürəm qəbrin yanında.

***

Beləcə hər gecə ruhlar gələrək,
O əsir Laçının bağrın dələrək,
Məzarlar önünə nalə ələrək,
Uçuşur göylərin əngin qatında,
Əsir qəbirlərin qəm həyatında...

III
KƏLBƏCƏR MƏZARSTANI

Sükuta bürünüb burda yurd, yuva,
Qarı düşmən çıxır dağında ova,
Haçan bitər sona bu qanlı dava?
O dədə Şəmşirin əsir məzarı,
İnləyir, sızlayır hey zarı-zarı.

Sinəsi yaralı Kəlbəcər miskin,
Cavanı, qocası, oğlu didərgin,
Zaman necə ötür burada gərgin.
Daşınır altunu, parası elin,
Yağı əsir edib qızın, gəlinin...

Yanır dədə Şəmşir yanır gorunda,
Kəlbəcər elatı yağı torunda.
Alışdı min illik tarix qorunda.
Ruhların dilində hər addım ayə,
Geyib qara donlu bir qiyafiyə.

Göydə pərvaz edib uçuşur onlar,
Əcələ bac vermiş min illik canlar.
Cismi qəbirlərdə o ruh insanlar
Ağlayır, zamanı səsləyir aha,
Əbədi dünyadan baxır sabaha.

O dədə Şəmşirin məzarı ağlar,
Çəkilib ruhuna min yerdən dağlar.
Batıb, yasa batıb, o əsir dağlar,
Aşığın evinin soydu yağılar,
Bu dərddən el nədir, gör da dağılar.

ŞƏMŞİRİN RUHU

Kəlbəcərə doldular,
El, obanı aldılar.
Dər-divarı qırdılar,
Ev-odama vardılar.
Sandığda əlyazmamı,
Evdə nə vardı hamı,
Əllərində talandı,
Ruhuma od qalandı.
Qıfılı sındırdılar...
Hər şeyi yandırdılar...
Muzey evim alışdı,
Od-ocağa qarışdı.
Yağıya el qəsirdi,
Məzarım da əsirdi.
Ruh qəzəblə süzürdü,
Qəm içində üzürdü.

IV
QUBADLI MƏZARSTANI

Alışır yurdlarda dumanlar, sislər,
Vətəni paraya satdı naqislər.
Qubadlı qartalı dərədə nalan,
Burda min satan var, min bir də alan.
Yenə üsyan edir sinəmdə hisslər,
Vətəni paraya satdı naqislər.

Məzarlar necə də mükəddər, qəmli,
Yurd-yuva, od-ocaq, dağlar ələmli.
Uçur gecələri ruhlar səmada,
Bitib tükənməyir nə qan, nə qada.
Əsir məzarlar da bizimtək ağlar,
Evindəki kimi gəzir yağılar.
Düşmən çəkmələri qəbirə əzab,
Tanka, qıradlara gətirməyir tab.
Uçur min illiklər, köhnə qəbirlər,

Çıxıb orbitindən, çıxıb səbirlər.
Zaman öz atında çapmaqda gərgin,
Millət oymaq-oymaq yurdsuz, didərgin.
Ruhlar da gəlməyir güllə səsinə,
Yağının o quduz yad nəfəsinə.
Fəqət gecə oldu, susur güllələr,
Tülkütək kollarda o yağı mələr.
Bu vaxt Qubadlıda əsir məzarlar,
Tarixə yeni bir vərəq yazarlar.
Uçuşur göylərdə ruhlar da xoflu,
Tarixi bilinməz məzarlar ulu.
Solmuş kəfənləri süzərək şaşqın,
Qəbir evlərində gəzərək şaşqın,
Hey üzər ruhları, üzər fəlakət,
Deyər: «Xilas edin bizi, məmləkət.»

V
ZƏNGİLAN MƏZARSTANI

Qubarlı sinələrdə dağa dönmüş, Zəngilan,
Nə zamandı ocağı, odu sönmüş, Zəngilan,
Yağıların əliylə dağıldı binələrin,
Hanı qaçqına dönmüş min-min igidin, ərin?
Köksündə ki, acını silməyə gücüm çatmır,
Niyə şivən-müsibət ilahini oyatmır?
Bu şəhidlik, göz yaşı nə zamandı bitməyir,
Nahaq qanlar, ölümlər Allahıma yetməyir.
Zavallı vətən yenə inildəyir davada,
Taleyimiz asılı fəqət, yenə havada.
Qalibiyyət gələcək buna mən inanıram,
Sübh, erkən yuxumdan da bu eşqlə oyanıram.
Qana susuyanları Allah silsin bəşərdən,
Məmləkətim, millətim qurtulsun qara şərdən.
Yer üzünün savaşı nə vaxt, İlahi, bitər,
Yetər bu çarpışmalar, bu qanlar yetər, yetər!

***

Zəngilan məzarları bürünüb dumanlara,
Zəhər yağır, qan yağır elsiz keçən anlara.
Quranı, yasini də unudulub ruhların,
Tanrı özü eşidir qəbirlərin ahların.
Güllələrin səsindən bağrı yarılan ruhlar,
Sizin də bəxtinizdə acı bir şəhidlik var.
Əsir düşüb əbədi dünyamız quduzlara,
Dərdinizi söyləyin Allaha, ulduzlara.
Deyin ki, məzarlara erməni divan tutur,
İnsan adı daşıyan insanlığı unudur.

***

Mələk donlu ruhlar da dolaraq bir yaz kimi,
Fəğanı ərşə büləndrəbbə etiraz kimi,
Şimşək təki səmanın sinəsində çaxaraq,
Fəryadlarla dünyanın sinəsini sıxaraq,
Ağlayıb hönkür-hönkür məzarların önündə,
Yandırılmış yurdlara qoşulub qara gündə.

***

Vətəndə qaçqın olmuş əzizlərin haylayır,
Asitək obaların sinəsində vaylayır.
Zəngilana səsləyir qaçqın düşmüş elləri,
Çağırır ruha dönmüş min illik nəsilləri...

VI
CƏBRAYIL MƏZARSTANI

Sinəm sitəmdən qəmdi,
Allah bu nə ələmdi,
Dağılan o məzarlar
Haqqa çatan naləmdi.

Cəbrayıl əsirlikdə,
Zülüm qanda, ilikdə,
Batdı dilsiz qəbirlər,
Yandı o min illik də.

«Aşıq Pəri» qızları,
Ey saz-söz ulduzları,
Maralyanlı Pərinin,
Ruhu gecənin tarı.

Qara don, vücud incə,
Uçar gələr, hər gecə,
Cəbrayılı dolaşar
Bu fəğan, bu bilməcə.

Deyir hanı oğullar,
Məzarlar əsir qullar,
Haray, haray burada
Ruhları da boğullar.

Tarixlər yaraşığı,
Pəridir haqq aşığı,
Yağı məzardan etdi
Maralyanlı aşığı.

Cəbrayılda qan, qada,
Ərlər şəhid davada,
Ruhların da taleyi
Asılıbdı havada.

Ruhu dağlı, ey pəri
Səslə igidi, əri,
Qisas deyər məzarın
Şuşadan üzübəri.

VII
FÜZULİ MƏZARSTANI

Sükutla dolaşır, o əsir ruhlar,
Göyün sinəsindən dikəlir ahlar.
Qisasa çağırır zamanın özü,
Kor edilib haqqın müddətdi gözü.
Yurdun qurğuşundan bağrı yarılır,
O lal qəbirlərlə güllə sarılır.
Şəhid məzarların yarası isti,
Zülmün ədalətin yolunu kəsdi.
Dünən el uğrunda şəhid olmuşlar,
Bir anda həyatı, haqqı solmuşlar,
Yağı tapdağında bu gün əzilir.
Zülüm çoxaldıqca haqq da nazilir...

I-ci RUH
Anam məni arama,
Hey-vay demə yarama,
Əsir düşdü məzarım,
Köz basıldı yarama.

II-ci RUH
Ayam, səhərlər sönnəm,
Əngin səmaya ennəm,
Yağı duyuq düşməsə
Gecə yurduma dönnəm.

III-cü RUH
Öldüm yurd savaşında,
İyirmicə yaşımda,
Yaralarım sızlayır,
Əsir bu dam-daşımda.

IV-cü RUH
El olmasın arxasız,
Heç solmasın arxasız
Məzarla dolmuş qanım
Bir yol ara, arxa sız.

***

Canların şikayəti
O qanlı hekayəti
Füzulinin ruhunu
O didərgin ahını
Uçurtdu Kərbəladan,
Qurtarmaqçın bəladan.
Bu əsir Füzulini,
Ocaq tutmaz külünü,
Yenidən közərtməkçin,
Həyatı göyərtməkçin,
Füzuli nalə çəkdi.
Ruhu dünyaya çökdü,
Qisas dedi, rüzgara,
Saza, kamana, tara,
Dedi: «Ölməkmi çara?
Cəng, cida edək xara.
Geyindik bəsdi qara.»
Sözə tutaraq divan,
Dağıl dedi, ey dövran!
Didərgin, qəm şairim,
Könlü ələm şairim,
Yüz illər çarpışmada.
Zamanla yarışmada.
Ruhu da yana-yana
Ağlar Azərbaycana!

VIII
AĞDAM MƏZARSTANI

Ağdam, ağca damın qara boyandı,
Yandı imarətlər, saraylar yandı.
Səni də qurbanlıq etdi satqınlar,
Bunun da bir zaman məhşər günü var...
Məscidin soyuldu, minbərin uçdu,
Min illər tarixdən silinməz suçdu.
Burda Xocalının şəhid ruhları,
Burda ölmüşlərin qanlı ahları.
Cocuğun, çağanın qəbri əsir,
Uçmuş məzarlara güllə tələsir.
Burda Saybalının şivəni, vayı,
Əsir məzarların bilinmir sayı...

I-ci RUH
Üzür ruhu əndişə,
Çəkilir zaman dişə,
Necə dözsün, İlahi,
Şəhid ruhun gərdişə?

2-ci RUH
Qəbrim yüz illər boyu,
Yaşadır kökü, soyu,
Yağıya əsir məzar,
Uyu, yad əldə uyu!

3-cü RUH
Xocalıda yanmışam,
Zülümdən usanmışam,
Məzarım, şükür eylə,
Bu tağda dayanmışam.

4-cü RUH
Məzarda yaram göynər,
Tapdar yağı öyünər,

Ruhum uçar gecələr
Məzarımda döyünər.

5-ci RUH

Ahım vaydı Ağdama,
Əsir divara, dama,
Şəhid oldum, yurd, vətən,
Məzarımdan qan dama.

6-cı RUH

Saybalının yurdu qan,
Əsir məzar, əsir can,
Özünü öyən kəslər –
Yurdunu apardı qan.

Beləcə ağlayır ruhlar əsir, qul,
Hər məzar içində bir şəhid oğul,
Ağlayır Horadiz, Ağdərə eli,
Əsirdi dağların o gurşad seli!
Ruhlar intiqama çağırır bizi,
Deyir ki, eşidin fəğanımızı!
O küncdə-bucaqda gizlənənləri,
Yad eldə əl açıb dizlənənləri,
Ruhlar intiqama çağırır, vallah,
Qırılsın zəncirlər deyir bir sabah...
Əsir məzar üstdə hər ruh yarımcan,
Qurtar bizi deyir, ey Azərbaycan!

26-31.12. 1993. Pirallahı

BALACA ŞƏHİD FARİZİN HEKAYƏTİ

8 martda öz evlərinin həyətində oynayarkən erməni snayperi tərəfindən vurulmuş Ağdam bölgəsinin Orta Qərvənd kənd sakini doqquz yaşlı Fariz Bədəlovun ruhuna!

Biri vardı, biri yox,
Mənzil uzun, hünər çox.
Orta Qərvənd elində,
Söz-söhbəti dilində,
Balaca Fariz vardı,
Ona da həyat yardı.
O uşaq diləkləri,
Nazlardı ürəkləri.
Anası Şirinnazın,
Oxşardı könül sazın.
O Mələhət nənənin,
Yuyardı qəlbdən çənin.
Dayısı Elgiz onu,
Tutardı əziz onu.
Candan bala deyərdi,
Evə qala deyərdi...

***

Körpə vaxtdan taleyi,
Olmuşdu sızlar neyi.
Ata atmış anasın,
Dərdə qatmış anasın.
Dayı, nənə yanında
Həyat eşqi canında,
Böyüyürdü bu körpə,
Nənəsi öpə-öpə,
Bəsləyərdi nəvəsin,
Qoxlayırdı nəfəsin.
Məktəbə də gedirdi,
Anasın şad edirdi.
Kənd düşmənlə üzbəüz,
Atırlar gecə-gündüz.

Məktəbə qorxa-qorxa,
Yol-izə baxa-baxa,
Uşaqlar gedir-gəlir,
Qəmləri sinə dəlir.
Başqa çocuqlar təki,
Anaya edir ərki,
Bu körpəcə balalar,
Gələcəyə qalalar.
Bağ-bağatda qaçışmaq,
Kəpənəktək uçuşmaq,
İstəyirlər beləcə,
Çıxmasınlar bəs necə,
Evdən çölə ay, illə.
Bir gün gələrək dilə,
Fariz dedi: «Ay ana,
Gətir çörək, çay ana.
Mən yemək istəyirəm,
Söz demək istəyirəm.
Bu gün səkkiz mart axı,
Martda çıxır dərd axı,
Burax məni həyətə,
Hə de, bu xoş niyyətə.
İstəyirəm oynayım,
Bağ-bağatla qaynayım.
Versən topu gedərəm,
Yoxsa şuluq edərəm.
Ev-eşiyi qatacam,
Kitabları atacam.
Gündüz erməni atmaz,
Görüb heç məni atmaz,
Axı mən balacayam,
Qoyun oynayıb doyam.
Dava böyüklər işi,
Uşağa batmaz dişi.
Burax gedim, ay ana,
Şadlıq edim, ay ana.
Bu gün analar günü,
Könlümdə qur düyünü.

İstəyirsən sənə bir,
Şe'r oxuyum et səbir:
«Mənim munisim anam,
Ən gözəl hissim anam,
Mübarəkdir bayramın,
Qalmasın qəlbdə kamın.
Səni candan sevirəm,
Sənsən həyatım, çevrəm.»
Ana güldü, sevindi,
Farizə eşqlə dindi.
Dedi: «Oyna həyətdə,
Erməni bəd niyyətdə,
Ayaq üstə gəzmə çox,
Yağılara ümid yox.
Qəfil güllə atarlar,
Qəlbimə dərd çatarlar...»

***

Fariz düşdü həyətə,
Sevinclə ötə-ötə.
Ayaqladı torpağı,
Dərdi otu-yarpağı.
Topunu atdı bağa,
Baxdı çox sola-sağa.
Qaçdı topun dalınca,
Düşmən xəbər alınca,
Snayperi tuşladı,
Sanki quşu daşladı.
Güllə başına dəydi,
Göz qaraldı, qədd əydi.
Fariz çökdü torpağa,
Ahın əkdi torpağa.
Qan bürüdü üz-gözün,
İtirdi uşaq özün,
Çığırtıyla yıxıldı.
Birdən canı sıxıldı.
Gözdə qaraldı dünya,
Sanki daraldı dünya.
Səsə anası gəldi,

Dərdə yanası gəldi.
Çökdü balası üstə,
Bala düşüb can üstə.
Ana balam vay deyir,
Ağlar nənə hay deyir.
Batdı yasa ev-ocaq,
Çəkildi sinəyə dağ.
Kənd haraya töküldü,
Aləm vaya töküldü...
Təcili Yardım gəldi,
Haray-həşir yüksəldi.
Nalədən qopardılar,
Farizi apardılar
Xəstəxanaya onlar,
Ötdü dəhşətli anlar...
Uşaq yolda keçindi,
Dünya qanlı köçündü?...
Bu balaca oğlanın,
Necə götürdün dağın?
Qanı tutdu sabahı...
Nə idi de günahı?
Bu balaca Farizin
Qatladı yağı dizin.

***

Baş həkim Gülnarın da gözündən yaşlar axır,
Maşına tökülən qan qəlbin yandırıb yaxır.
Həkimlər, tibb bacılar qaçdı oyan-buyana,
Çaxnaşdı xəstəxana, aha batdı bir ana.
Doqquz yaşlı bir oğlan boyandı al qanlara,
Bu balaca şəhid də dağ oldu insanlara.
O körpəcə gözündə dondu həyat əbədi...
Soldu bir uşaq ömrü, çökdü həyat məbədi.

***

Baxırsan düşmənə sarı gileyli,
Elin yas içində, ey Orta Qərvənd.
Yağının sönərmi qan tökmək meyli?
Hiylələr biçində, ey Orta Qərvənd.

Bu dünya fitnələr fövqündə ağlar,
İblis sarayında şadlıqlar çağlar,
Ah edir əlimdə dilsiz varaqlar,
Dil niyə-neçində, ey Orta Qərvənd.

Bu yurdlar bizimdi, bu ocaq bizim,
Bəs niyə titrəyir əsəbdən dizim?
Qəzəbə cəng edir yaş tökür dözüm
Dərd qaynar içində, ey Orta Qərvənd.

Ayağım torpağın üstündə əsir,
Düşmən snayperi naləni kəsir,
Şəhid körpə balan məzarda əsir,
Ruhu can köçündə, ey Orta Qərvənd.

Damında-daşında lal sükut gəzir,
Bu sükut elinin ürəyin əzir,
Ağrılı könlümü mələlın üzür,
Yağı öz suçunda, ey Orta Qərvənd.

***

Qurulub həyətdə bir yas çadırı,
Doqquz yaşlı oğlan baxır şəkildən.
İlahi, göylərdən gəl as çadırı!
Bu bala ürəyi yaxır şəkildən...

Gözü ah söyləyir, baxışı qəzəb,
Bir cavab istəyir böyüklərindən.
Doğrayır görəni bu dəhşət, əzab,
Harayı asılıb baş tüklərindən...

Molla yasin deyir, titrəyir səsi,
Balaca oğlana ağlayır səma.
Kəsir bu titrəyiş duyan nəfəsi,
Hər nəfəs içində üsyan var amma.

Ümidsiz baxışlar dikilib səsə,
Quran ayələri haray eyləyir.
Yasa yığılanlar nəfəs-nəfəsə,
Bəbəklər yaş tökür, dil vay eyləyir.

***

Əlləri qoynunda bir ana gördüm
Ağlayır ürəyi kor taleyinə.
Bəxti qara gəlmiş bir sona gördüm,
Toxuyur nifrinlər tor taleyinə.

Dərdi başdan aşır, görkəmi qəmli,
Üzündə kədərin izləri gəzir.
Kirpik ah içində, gözlər ələmli,
Şəhid balasını gözləri gəzir...

Ağlamır, içinə axır yaşları,
Sel-suya dönübdü ana qəlbində.
Donmuş gözlərindən baxır yaşları,
Yenidən alışıb yana qəlbində.

***

Qoca dünya, qanların, qırğınların de nədi?...
Unudubdu adamın insanlıq olan həddi.
Əzabına sarılıb bağrıqan Qarabağın,
İblislərin əliylə olubdu yara bağrın.
Hesabını çəkməyir kimsə kimin başından,
Yuyunur damın-daşın məzlumun göz yaşından.
Min bir uşaq arzusu güllə-boran dünyada,
Diləklər çaxnaşırlar ala-toran dünyada.
Bala dağlı bir ana göz yaşını axıdır,
Sanki bu olanlar da indi ona yuxudur.
Qoltuğunda ovudur qolların bədbəxt ana,
Qışqırsınmı, harayı yayılsın qoy hər yana?
Bəlkə o qoynundakı zənn edir balasıdır,
Köksü üstə sığınıb əbədi qalasıdır.
Qoltuğuna sığdığı qollara layla çalır,
Bu laylanı o indi bir ahı-vayla çalır.
Nənənin hönkürtüsü aləmi oyandırır,
Ananın lal sükutu yeri-göyü yandırır.
Yas çadırı balaca Farizə matəm tutub,
Matəm eli yandırır, dünya qulağın tutub.
Öz evində gülləyə tuş gələn bu nakamı,
Basdırdılar torpağa qaldı ürəkdə kamı.

***

Matı-qutu çəkilib bu yurdda adamların,
Dumanı göz yaşıtək əlçimlənir damların.
Bu kənd də əsir kimi yaşayır öz evində,
Bacada gizli tüstü salmayır köz evində.
Gözlərdə həyat eşqi batır-çıxır quyuda,
Bütün ümidlərini sanki sıxır quyu da.
Kənddə heç kim heç nəyi aşkara edə bilmir,
Heç kim yolda-irızda piyada gedə bilmir.
Atəşkəs olsa belə snayperə tuş gələr,
Biqəfil gələn güllə onu qanına bələr...

***

Bu nə zülüm, ay Allah, bu nə azğın müsibət?
Niyə bizi gözlədi böylə qanlı aqibət?
Biz öz torpağımızda işğala düçar olduq,
Təslimçi bir ovqatla bu dünyaya car olduq.
İndi körpə Farizin o donmuş baxışları,
Salır ürək içinə dərd dolu naxışları.
Dünya susur, dinməyir bu körpənin yasına,
Boyanıbdı bu dünya məkirlərin pasına.
Pas da dəmir çürüdür, nəinki ürək ola,
Ya insanlıq dağıla, ya da gələ haqq yola...

14-15 mart 2011

PYESLƏR

DAĞILAN YUVALAR

/6 pərdəli, 12 şəkilli pyes/

İştirak edirdər:
Nicat - 35 yaşında, iş yerini itirmiş mühəndis.
Səba - 35 yaşında, Nicatın həyat yoldaşı, gözəl qadın, qonşusu Nabatın qulluqçusu.
Aygün - onların qızı 6 yaşında.
Samir - 16 yaşında
Elçin - 12 yaşında
Fuad - 7 yaşında, onların oğlanları.
Camal - 50 yaşında, dükanda işləmiş, indi sələmlə məşğuldu.
Nabat - Camalın həyat yoldaşı, 45 yaşında.
Aytən - qızları, 25 yaşında.
Günay - onun rəfiqəsi, hər ikisi yüngül həyatla məşğul olur.

I pərdə
1-ci şəkil

Pərdə açılır, hadisə vaqe olur Bakı şəhərində. 1993-cü il, soyuq qış günü, şimal küləyi küçələrdə at oynadır. Nicat zavodda iş yerini itirəndən sonra bütün ümidini itirmiş, səhərdən axşamadək Bakının küçələrində dolaşıb indi evə qayıdır. Qapının düyməsini basır və qapını həyat yoldaşı Səba açır.

SƏBA /əsəbi/

Hardasan? Unutdun evi də daha,
Bir tikə çörək yox, vallah sabaha.
Uşaqlar acından saralıb, solub,

Tanrı qarqışımı, bizə nə olub?
Yazıq körpələrin gözləri qəmli,
Bu necə talemiş dərdli, ələmli.

NİCAT /ayaqqabılarını çıxara-çıxara/

Ay qız, qoy qapıdan girim içəri,
Bu acı zamanlar ötüb keçəri.
Həyatda yaxşı gün, pis gün də olar,
Bizim də cibimiz pul ilə dolar.
Nə olub, bir qədər səbirini bas,
Hər gün gəl bu evdə qurma belə yas.

/otağa keçib böyük kürsüdə əyləşir./

SƏBA /ümidsiz/

İş tapa bilmədin yenə, bilirəm,
Qalmışıq necə pis günə, bilirəm.
Evin əşyaların satıram bir-bir,
Sən də söyləyirsən eyləyim səbir.
Uşaqlar saralıb - solur acından.

NİCAT

Dedim ki, pul götür yenə bacından.

SƏBA /acıqlı/

Nə qədər bacımdan pul alım, söylə?
Eh, davam eyləməz bu həyat böylə.

/əlini yelləyir gedir, mətbəxtdən bir stəkan su gətirib masanın üstünə qoyur./

NİCAT /fikirli/

Quru çay da yoxdu evdə bir atım?

SƏBA /ağlar/

Niyə qara oldu mənim həyatım?
Yavan çörək yeyir yazıq uşaqlar,
Qonşunun evində nə istəsən var.
Nələr geyindirmir o tək qızına?
Çullu dovşan girməz, vallah, ağzına.
Sələmlə doldurub evinə daş-qaş,
Yaşasın deyirəm, min il belə baş.

NİCAT /əsəbi/

Yenə də Camalı tə'rif edirsən,
Yenə də onlara yə'qin gedirsən.
Haramdı sələmlə dolanmaq, arvad,
Dost-tanış içində çıxarar pis ad.

SƏBA /kəskin/

Artıq kürsünü də satmışam bu gün,
Düşsün qonşulara qoy səs, səda, ün.
Oturma üstündə bizimki deyil,
Sanma mən tərəfdən bir fitnə, fe`l.
Bir həftə çörəyin pulu ki, olar,
Sonrasın Rəbb bilər nə olar, olar.
Mən ki, qulluqçuyam, Nabata çoxdan,
Dolana bilmərik, ay Nicat, yoxdan.

NİCAT /başını əlləri arasına alır./

Bütün ümidlərim qırılıb daha,
Gümanım qalmayıb gələn sabaha.

Pərdə örtülür

I PƏRDƏ 2-ci ŞƏKİL.

Axşam tərəfidir. Göz önünə Camalın cah-cəlallı varidatla dolu evi gəlir. Böyük qonaq otağı başdan-başa göz oxşayır.

CAMAL /özündən razı halda pul sayır./

Sələm qaldırıbdı məni ayağa,
Könlümü, qəlbimi döndərib dağa.
Deyirlər haramdı bu tutduğun yol,
Tanrı belə işə heç qoymayır qol.
Fəqət, mənim qarnım, gözüm tox olsun,
Qoy aclıq, səfalət bizdən yox olsun!
Əzməsin dünyada ehtiyac canı,
Ehtiyac alçaldır yalnız insanı.

NABAT /kök, dolu əndamını yellədə-yellədə sinidə billur stəkanda çay gətirir./

Ay kişi, bilmirəm, bu qız hardadı?
Səhərdən gedibdi qəlbim dardadı.
Heç evə-eşiyə sığmayır daha,

CAMAL /əsəbi/

Bax arvad, bu sənə gələcək baha.
Ana sən, qızını məndən sorursan?
Başımı, beynimi böylə yorursan?

NABAT /ədayla/

Ömrün pul saymaqla keçir dünyada,
Bəlkə var başında qızın qan-qada.
Ata övladına bir öyüd eylər.

CAMAL /çılğın/

İyirmi beş yaşlı öyüdü neylər?
Qulluqçu istədin, qulluqçu tutdum,
Dünyada hər şeyi tamam unutdum,
Tək səni, qızımı düşündüm hər gün,
Vurdum çətinliyin bəxtinə düyün.
Var dövlət içində üzərkən belə,
Bir sağ ol, kəlməsin almırsan dilə?!

NABAT /təkəbbürlü/

Kişi lap daşdan da pul çıxarmalı,
Ailəni saxlar, kişinin malı.

CAMAL /hiddətlə/

Bax qonşun Nicata, gör nə gündədi,
Bilmirsən, dünyada pulsuzluq nədi?
Guya həkimliyi qurtarıb qızın.
Düzəldə bilmirəm heç vaxt ağızın,
Bir gündə neçə yol paltar dəyişir.
Xalq acından ölür nə hay, nə həşir?!

NABAT /istehzayla/

Eh, xalqdan bizə nə? Xalqa nə olur?
Küçədə qırılır, saralıb solur.
Keçsin hər anımız, dövranımız xoş,
Ayıq başdan, min yol, yaxşıdır sərxoş.

/Qapı döyülür. Nabat qapıya tərəf gedir, Aytən və rəfiqəsi, bahalı dəri kürklərdə, içəri daxil olur./

CAMAL /acıqlı/

Ay qız, de sabahdan harda itmisən?
Yenə Günaygildə yəTqin bitmisən.

AYTƏN /işvəylə/

Köhnə fikirliyi buraxın, ata,
Açıq gözlə baxın, siz bu həyata.
Namus da, şərəf də kasıblar üçün,
De, bu həqiqəti duymursuz neçin?
Namusun güdənlər acından ölür,
O gözəl Səbaya qonşular gülür.
Bizə qulluqçudur, o gözəl mələk,
Dörd uşağa yoxdu bir qarın çörək.

CAMAL /Səbanın adını eşidəcək yumşalır./

Yaradan yaradıb Səbanı gözəl,
Ağlı olsun ömrün etməsin xəzəl.

AYTƏN /rəfiqəsi Günaya göz vurur./

Hər şey səadətlə qurular, ata,
Yalnız açıq gözlə baxsan həyata.

Pərdə örtülür

II PƏRDƏ. 3-cü ŞƏKİL

Pərdə açılır. Nicatgilin evi. Nicat bir neçə gündür ki, evdən gedib, daha evə gəlmir. Uşaqlar artıq məktəbə getmirlər. Böyük oğlu Samir ac uşaqlara qoşulub yollarda maşın silir və bir-iki minmanat qazanır.

SƏBA /həyəcanlı, düşüncələr içində/

Əcəb yaxşı idi sovetlər vaxtı,
Hamının üzünə gülürdü baxtı.
Evimiz, pulumuz, paramız vardı,
Bu azadlığımız, könlüm qubardı.
Bir parça çörəyin acısıyıq biz,
Çökürük harınlar qarşısında diz.

/Güzgünün önünə gəlir./

Hələ gözəlliyim, ətim, canım var,
Hələ sağlamlığım, qaynar qanım var.

/Bu an qapı döyülür, Səba qapıya tərəf gedir. Qapını açır və Nicat daxil olur./

SƏBA /təəccüblə/

Nicat, haralarda qalmısan bir de?
Evə gəlməyirsən, söylə nə sirr de?

NİCAT

Lazımdı yollanmaq çörək dalınca,
Ölüm də baxmayır didərgin, aca!
Rusyətə gedirəm, bir dostum ilə,
Mənə tə'nə edib salma heç dilə.

SƏBA /həyəcanlı/

Bəs mən, bəs uşaqlar, bizim halımız?
Səni cana yığdı qeylü-qalımız.

NİCAT /əsəbi/

Mən cana doymuşam, incimə, Səba,
Burda yaşamaq da, ölmək də vəba.
Burda pulun yoxsa adam deyilsən,
Savadın olsa da səfil, veyilsən.
Ordan pul qazanıb yollaram sizə,
Fələk belə ömür yazıbmış bizə.

SƏBA /təəccüblə/

Bəs sən yol pulunu hardan taparsan?
Tutalım, kimdənsə alıb aparsan?
Onda borc içində batıb qalarıq.

NİCAT /inamla/

Sələmçi Camalı başa salarıq,
Bir üç yüz dollar o verər mənə,
Sonra mən qazanıb yollaram sənə.

SƏBA /həyəcanlı/

Yox, yox aman, Nicat, faiz bir ölüm!
Salar bəlalara eyləyər zülüm.
Daşın bu fikirdən, ayrı yol ara,
Vurma ürəyimin başına yara.

NİCAT /ümidsiz/

Ayrı yolumuz yox, sən bunu düşün,
Allah qoysa, sonu xoşdur bu işin.
Zəng edim Camala görüm evdədir?

/Camala zəng edir. Camal telefonu götürür, razılaşırlar. Uşaqlar Aygün, Elçin, Fuad yan otaqdan gəlirlər. Ata və anasını qucaqlayırlar. Nicat uşaqlara heyrətlə baxır, bəs Samir hanı?/

SƏBA

Samir maşın yuyur, bu heyrət nədir?
Qonşu uşaqlara qoşulub o da,

NİCAT

Atır yazıq balam özünü oda.
Gedim pul qazanm biz də varlanaq,
Biz də adam olub yaxşı dolanaq.

/Bu an qapı döyülür. Səba dəhlizə gedib qapını açır. Samir əlləri donmuş halda içəri daxil olur və ağlayır. /

SƏBA /həyəcanlı/

Nə olub, ay bala, göz yaşı nədən?
Görüm gün görməsin bizə zülm edən!

SAMİR /ağlar/

Ana, qazanmışdım altı min manat,
Elə sevinirdim, açıb qol-qanad.
Polislər pulumu tutub aldılar,
İlantək könlümdən elə çaldılar,
Min manat verdilər bax yalnız mənə,
Onu da, ay ana, gətirdim sənə.

NİCAT /kədərli/

Sonu yaxşılıqla qurtarar qəmin,
Allahım qurutsun gözünün nəmin.
Sabahdan gedirəm Rusyətə mən,
Oğlum, qüssələnmə, kədərlənmə sən.
Qazanıb çoxlu pul yollaram sizə,
Bu aclıq, səfalət qalıbmı bizə?
Dönməsin bizlərdən fələyin üzü,
Yoluma nur etsin gecə, gündüzü.

Pərdə çökür.

II PƏRDƏ. 4-cü ŞƏKİL

Camalın evi. Nicat Camalın qonaq otağında üç yüz dollar Camaldan pul götürür. Camal Nicatın getməyinə sevinirdi. Ona görə ki, Nicatın arvadına vurulmuşdu.

CAMAL /yalançı təbəssümlə/

Qonşu, fikir etmə hər şey düzələr,
Sizin həyata da yaxşı gün gələr.
Borcu ki, qazanıb qaytarmaq asan,
Gərək heç naümid olmasın insan.
Verərəm bu pulu on beş faizə,
Nə edim? Sələm də qazancdır bizə.

NİCAT /razılıqla/

Əlinə bərəkət, ay qonşu, vallah,
İndi çoxu belə, səndə nə günah?
Yenə də əl tutdun, verdin bu pulu,
Olmasın ağlımız pisliyin qulu!
Üç aya yollaram pulunu sənə,
Sən də bu üç ayı möhlət ver mənə.

CAMAL /yağlı dillə/

Get, qonşu, nigaran olma sən evdən,
Dolmasın könlünə çiskin, duman, çən.
Səba da Nabata kömək eyləyər,
Aclığın, suzluğun qəddini əyər.
Gündəlik pulunu çıxarar burda,
Sən də pullanarsan, dönərsən yurda.
Uğurlar dilərəm haqdan yoluna,
Fələk qüvvət versin hər an qoluna.

**/bu zaman Nabat qonşu otaqdan gəlir,
üzünü Nicata tutur./**

NABAT /ədayla/

Eşitdim gedirsən, ay Nicat qardaş,
Demə, qəlb yerinə sinəmizdə daş.
Dörd uşaq yedirib doydurmaq çətin,
Yolun tapmaq olmur heç səadətin.
Uğurlar dilərəm getdiyin yola,
Sənə kömək olsun qoy Alla-Taala.

/Bu an Aytən öz otağından gəlir./

AYTƏN

Nicat, uğurların qoy bol-bol olsun,
Gələn sabahına açıq yol olsun.
Dünya beşgünlükdü, çox fikir etmə,
Könlünün içini dərdlə böyütmə.
Nə çoxdur orada, eh, rus qızları,
Şimal ölkəsinin ay ulduzları.
Vaxtını boş yerə keçirmə orda,
Harda məhəbbət var, kədər, qəm darda.
/Ha, ha, gülür. Nicat sağollaşıb çıxır. /

Pərdə örtülür

III PƏRDƏ. 5-ci şəkil

Nicatgilin evi, Səba Nicatın Rusiyaya getməsi üçün yır-yığış edir. Uşaqların dördü də evdədir və gözləri yaşlıdır.

NİCAT /kədərli/

Nə edim bəxtimiz beləymiş demə,
Tuş olduq kədərə, tuş olduq qəmə.
Fələk axıtmasın gözdən yaşları,
Əyməsin sinəyə uca başları...
Samirim, Elçinim, Fuadım, gəlin,
Kəsəcəm ömürlük kədərin əlin.

Aygünüm, ay qızım, ay dadım, duzum,
Bəxtimin aynası, tale ulduzum.
Mən ola bilmədim heç yaxşı ata,
Sizi əzablarçın atdım həyata.
Qayıdıb gələrəm, oxşaram sizi,
Fələk ayırmasın bir-birimizi.

AYGÜN /ağlayır/

Ata, getmə, ata, mən qorxuram çox,
Sənsiz neyləyərik? Yox getmə, yox, yox!
Razıyam çörəksiz, susuz qalmağa,
Yox, dözməz ürəyim sənsiz olmağa.

NİCAT /kədərli/

Aygünüm, sevincim, tökmə göz yaşı,
Onsuz da ağrayır könlümün başı,
Kişinin hörməti pulla ölçülər,
Qazancsız kişinin adı kiçilər.
Puldur ailəni şərəfləndirən,
Puldur ucalığa, haqqa endirən.
Samirim, bu evin böyüyü sənsən,
Yolunu kəsməsin çiskin, duman, çən.

SAMİR /qətiyyətlə/

Fələk yollarına ələsin nurlar...
Get, ey əziz atam, sənə uğurlar.

SƏBA /üzgün/

Üzmə uşaqların könlünü belə,
Tale ömrümüzü sovurdu yelə.
Bütün arzularım sinəmdə talan,
Yalanmış bu dünya, büsbütün yalan!
Get, gözlərik hər an qayıtmağını,
Tanrı göstərməsin sinə dağını.

NİCAT /son dərəcə kədərli,
yol çantası əlində, hamıyla öpüşür./

Sağ olun, qəriblik güzarım oldu,
Fələyin qoyduğu imzadı, qoldu.
Qoruyun ürəkdən bir-birinizi,
Heç vaxt ayırmasın Yaradan sizi!..

/vidalaşıb qapıdan çıxır/

SƏBA /köks ötürür./

İlahi, kasıblıq döydü qapımı,
Qırdı min bir yerdən tale sapımı.
Hamı bir-birindən üz çevirib ah,
Qohumlar yad olub niyə, ay Allah?
Hərə qarınının dərdi hayında,
Ölçüsü azalıb haqqı-sayında.
Evimiz boşalıb-dolardı bir vaxt,
Niyə qara gəldi bu tale, bu baxt?!
Tabağı dolubdu hiyləgərlərin,
Düşübdü papağı yerə ərlərin.
Kişilər evindən qaçır yad elə,
Görüm bu həyatı yox olsun belə.

/ağlayır./

Pərdə örtülür

III PƏRDƏ. 6-cı ŞƏKİL

Nicatın getməyindən 5 ay keçib. Səhərdir, Camalgilin evi. Nabat xanım yaxınlıqda olan qadın bərbərxanasına gedir. Səba Nabat xanımın döşəməsini silir. Bu an qapı döyülür. Səba qapını açır. Camal içəri daxil olur. Səbanı tək görür.

CAMAL /sevincək/

Salam, Səba xanım, de kefin necə?
Baxışın, duruşun, yerişin incə.
Bir dəfə hə denən, yanır könlüm – qor,
Mənim olacaqsan ya güc, ya da zor.

SƏBA /qorxmuş/

Puluna güvənib belə deyirsən,
Özünü bu qədər niyə öyürsən?
Göndərər pulunu Nicat, səbr elə,
Vermə qonşuluğu, ülfəti yelə.

CAMAL /ötkəm/

Ay qız, üç ay çoxdan keçibdi daha,
İndi güman yoxdu, vallah sabaha.
Pul yoxdur sən varsan, gözəlliyin var,
İnsan yoxsulluğun burnunu ovar.
İstəsən ev alım sənə kənarda,
İnsaf et, atma gəl könlümü oda.

SƏBA /əsəbi/

Pullamı ölçürsən, Camal, şərəfi?
Namusdur bəşərin yalnız əşrəfi.
Nicat gedən gündən həyatım qara,
Barı, bir rəhm eylə, sən uşaqlara.
Axı eyni xalqın övladıyıq biz,
Niyə bir-birinə yanmır qəlbimiz?!

CAMAL /gülə-gülə/

Xalq, millət, ay Səba, boş cəfəngiyyat,
Kef ilə keçməli beş günlük həyat.
Sən elə bilirsən Nicat gələcək?
Axan göz yaşını bir gün siləcək?
Nə çoxdur şimalda rus gözəlləri,
Ruhunu oxşayar o ağ əlləri...
Sən də cavanlığı puç eylə burda,
Gözlə, Nicat dönər bir zaman yurda?!

Ha,ha,ha... /gülür/

SƏBA /hiddətlə/

Daha gülmək nədi, hırıltı nədi?!
Onsuz da Səbanın əyilib qəddi.
Hər gün körpələrin kədərli gözü,
Alışan qəlbimin atəşi, közü.
Onların üzünün itib gülüşü,
Kədərin köksündə bitib gülüşü.
Artıq usanmışam bu həyatımdan,
Mənə ələm verir hər saat, hər an.

CAMAL /ehtiyatkarlıqla/

İzin ver son qoyum ələmlərinə,
Aparım könlünü eşq dəmlərinə.
Üç yüz dollar da qurbandı sənə,
İnan, Səba xanım, sən Allah mənə.
Deyərəm Nabata qaytarıb Nicat,
Könül xanəsinə bir az şadlıq qat.
Qadınların çoxu gedirlər hər ay,
Ya Türkiyə, İran, ya da ki, Dubay.
Mən sənə quraram burda cəh-cəlal,
Sıxmasın könlünü qoy qüssə, məlal.

SƏBA /çaşqın/

Bəs Nicat, bəs evim, bəs uşaqlarım?
Üç oğlum bəxtimin tacı, vüqarım.

CAMAL

Səba, ac qarına nə oğul, nə qız?
Çürütmə ömrünü həyatda yalqız.
Sənə söz verirəm hər şeyin olar,
Könlünün evinə şadlıqlar dolar.

SƏBA /bir az fikirləşəndən sonra/

Razıyam, qoruyaq könüldə sirtək,
Qalsın sinəmizdə bu sirr əsirtək...

CAMAL /sevincək/

Səba, bilirdim ki, ağılın çoxdu,
Sənintək gözəldən dünyada yoxdur.

/Səbanı qucaqlayır./ Pərdə çökür.

IV PƏRDƏ. 7-ci şəkil

Bir neçə aydır ki, Camal Səba üçün bir otaqlı mənzil alıb şəhərin mərkəzində. Artıq Səbanın üzü, geyimi, davranışı dəyişmiş. Səba Camalla yeni mənzildə.

CAMAL /özündən razı/

Ah, Səba, görürsən hər şey düzəldi,
Pulun var, ömür də, gün də gözəldi.
İndi uşaqların məktəbə gedir,

SƏBA /həyəcanlı/

Qulluqçu Səba da xanımlıq edir.
Üzür varlığımı qorxu-hürkülər...
Ağlım ürəyimə vurur sərkilər.
Gözümün önündən getməyir Nicat...!

CAMAL /onun saçlarını oxşayır/

Ərini biryolluq ürəyindən at,
O səni sevsəydi pul yollayardı,
Qısqanclıq könlünün için oyardı.

SƏBA /narahat/

Yəqin iş tapmayıb binəva orda,
Üzü yox dönməyə vətənə, yurda.
O ki, çox sevirdi balalarını,

CAMAL

Səba, xatırlama mənə yarını,
Ömrün anlarını kef ilə yaşa.
Fələk rəhm etməyir gözlərdə yaşa.
Bu köhnə fikirlər həyata baha,
Son qoy ürəyində kədərə, aha.
Hər şey yaratmışam sənincin burda,
Bu cür səadəti tapardın harda?
Sənin gözəlliyin könlümə qüvvət,
Hərdən ürəyimi bürüyür heyrət.
Belə mələyə də tənhalıq olar?
Çiçək də tək olsa, saralıb solar.

SƏBA

Hələ də Nabata qulluq edirəm,
Silib süpürməkçin ora gedirəm.

CAMAL

Nabatı şübhəyə salmamaq gərək,
Onsuz da hiylədə o arvad zirək.
Çətin deyil orda sil-süpür etmək.
Lazım deyil işi, gülüm, böyütmək.

SƏBA /göz yaşları içində gülür/

Camal bəy, arvaddan qorxursan yaman,
Salmaram yuvana qorxma, ah, aman!

Mənim ki, yuvamı fələk kor qoyub,
Könlümün, qəlbimin içini oyub.

CAMAL

Səba, sevdiciyim, bir düşün məni,
Qızıla tutmuşam onsuz da səni.
Çox da namus deyib, uyma, mələyim,
Səni taleyimə yazıb fələyim.
Götür Aytənimi, bircə balamı,
Onu yüngül sayır ətrafda hamı,
Yaxşı yeyib-içmək, gəzmək həyatdır.
Namus kasıblarçın – mənəviyyatdır.

SƏBA /pərişan/

Camal, fikir vermə mənim halıma,
Sən ki, son qoymusan qeylu-qalıma.
Aclıqdan qurtardın o dörd balamı,
İndi su buraxmır taleyin damı!
Doğubdu bəxtimə Tanrı Günəşi,
Sənsən ürəyimin odu, atəşi.
Fəqət neylim, gəzir könlümdə qorxu,
Mənə elə gəlir bu həyat yuxu.
Qan ilə bitəcək bu işin sonu!..

CAMAL /arxayın/

Nicatı deyirsən, gözləmə onu?
Yəqin ayrı həyat qurubdu o da,
Kişilər ömrünü boş verməz bada.
pərdə örtülür.

IV PƏRDƏ. 8-ci şəkil

Səba öz mənzilində. Axşamdır, uşaqlar hamısı evdədir.

SAMİR /fikirli/

Ana, axır vaxtlar hara gedirsən?
Bizi çox nigaran, Vallah, edirsən.

SƏBA /çaşqın/

Samir iş tapmışam, ev çox varlıdı,
Evin də xanımı çox vüqarlıdı.
Deyir etmə mənə sən nankorluğu,
Çəkdirmərəm sənə puldan korluğu.

Bu zaman qapı döyülür. Səba qapıya gedir.
Qapını açır və Nabat içəri daxil olur.

NABAT /təəccüblə/

Səba, səhər niyə gəlmədin bizə?
Bir əl gəzdirmədin heç evimizə.
Ay qız, salamı da tamam unutdum,
Demə ki, özümü yüksəkdən tutdum.

SƏBA /çaşqın/

Vallah, Nabat bacı, heç vaxtım yoxdur,

NABAT /iki mə`nalı/

Axır vaxtlar sənin işlərin çoxdu,
Evdə tapılmırsan Nicat gedəndən,
Üzülüb keçirsən iynədən dən, dən.
Mələyə dönmüsən axır zamanlar...

SƏBA /özünü itirmiş halda/

Elə tez ötüşür, saatlar, anlar.
vallah, sabah gəlib sizə dəyərəm,
Evi-eşiyi də təmizləyərəm.

NABAT

Ay qız, bu Nicat da heç məktub yazmır,
De, ora gedənlər-kim yolun azmır?
Başı qarışıbdı rus gözəlinə,
Keçirib cananın birin əlinə.
Lap bizim kişini götür, hiyləgər,
O ki, mən yazığı, aldatmır məgər?
Bir də görürsən ki, yox olub gedir,
Mən hardan bilirəm, harda nə edir?!

SƏBA /həyəcanlı/

Nə olub bu axşam, ay Nabat bacı,
Tökürsən dilidən bu qədər acı.
Uşaqların könlün qan eyləyirsən,
Gəlib oturandan nəhs söyləyirsən.

NABAT /ayağa durur/
Yaxşı, yaxşı getdim, sabah gələrsən,
Mənzili yaxşıca töküb silərsən.
/Gedir./

SƏBA /kədər içidə, pıçıltılarla/

Aman, ey Allahım, bu qədər kədər,
Əydi vücudumu büsbütün qədər.
Bağrımın içində bardaş qurub ah,
Mənə əzab verir hər gələn sabah...
Bilmirəm nə olar bu işin sonu?
Evimi yıxacaq sevgi oyunu.

Pərdə örtülür

V PƏRDƏ. 9-cu şəkil

Səhərdir, Səba Nabatgilin evində yır-yığış edir. Bu an Aytən yataq otağından geyimli qonaq otağına gəlir. Səbanı döşəməni silən görür.

AYTƏN /nazla/

Aha, Səba xanım, xoş gördük səni,
Yaman valeh etdin, ay mələk məni.
Heç sənə yaraşmır yır-yığış etmək,
Əzablara batıb bala böyütmək,
Bilirəm çox sevir atam da səni,
Sizin bu sevdanız şad etdi məni.
Dünya beşgünlükdü, beşi də heçdi,

SƏBA /çaşqın/

Sus, sus, o gözlərin nə tezcə seçdi?
Sən Allah, ayıltma Nabat bacını,
Tökmə başımıza ağrı-acını.
Vallah, kasıblıqdan düşdüm bu yola,
Neyləyim, şirindi canımdan bala.

AYTƏN

Ay qız, arxayın ol məndən min dəfə,
Qoymaram bəxtinin evin hədəfə.

Sevin bir-birini, dünya beşgündü,
Həyatın yolları düyün-düyündü.

/Bu an Nabat otağa daxil olur./

NABAT /eyhamla/

A, Aytən, deyirəm Səba dəyişib,
Nicatın getməyi çox ona düşüb...

AYTƏN

Dünya beşgünlükdü, beşi də puçdu,
Son anda deməyin ömrümüz uçdu.
Ailənin nə qədər çoxdur cəfası,
Dünyada heç kimin yoxdur vəfası.

NABAT /əsəbi/

Axmaq qız, ömrünü keçirmə hədər,
Cavanlıq beşgünlük tez gəlib-gedər,
Sənincin yığırıq pulu, sərvəti,
Bilmirəm könlünün nədir niyyəti?
Qur sən də biriylə öz həyatını,
Mən də görüm, bala, toy büsatını.

AYTƏN

Mamıçka, toy-moya uyma dünyada,
Gedər cavanlığım, həyatım bada.
Mə`nalı keçirmək üçün hər anı,
Gərək qoruyasan bu şirin canı!
Bu gün dostlarımla gedirəm bara,
Mama, papa canı, məni az ara.

/Əl çantasını götürüb evdən çıxır. /

NABAT /gur səslə/

Ay Səba, bilmirəm neyləyim, vallah?
Kimə öz dərdimi söyləyim, vallah.
İşi-gücü yeyib, içməkdi hələ,
Qəlbimə min yerdən dağ çəkir belə!
Nə qızdan, nə ərdən baş açmıram heç,
Puç oldu həyatım, ömrüm-günüm, puç.
Yoxdur, eh, səadət nə pulda, varda,
Çıxardım qəlbimi, gizləyim harda?!
Fələk aha bükür hər saatımı,
Batırır kədərə bu həyatımı.
Son vaxtlar kişi də evə az gəlir,
Şübhələr bağrımın içini dəlir.
/Ağlayır./

SƏBA /çaşqın/

Səbr et, Nabat bacı, səbr et bir qədər,
Bağrını yaxmasın ah, qüssə, kədər!
Pərdə çökür.

V PƏRDƏ. 10-cu şəkil

Axşamdan xeyli keçib. səba Camalın aldığı bir mənzilli otaqda, Camalla bir yerdə. Hər ikisi bir az sərxoş.

SƏBA /sərxoş vəziyyətdə/

Ah, ah, aman, Camal, bu günlərim xoş!
Gəl sərxoş yaşayaq, anları sərxoş.
Sevinci sən verdin dünyada mənə,
Ən dadlı sevdalar qurbandı sənə.

CAMAL /Səbanı özünə tərəf çəkir və köksünə sıxır./

Tapdım səadətin dadını səndə,
Bütün sevgilərin odunu səndə.

Gözəlim, könlünü eylə çil-çıraq,
Bu gecə zülmətin bağrını yaraq.

SƏBA /sanki ayılır./

Ah, bəs uşaqlarım, onlar evdə tək?

CAMAL /kefli/

Daha böyükdürlər, xiffətin az çək,
Sən də adam təki yaşa dünyada,
Atma ürəyini uşaqçın oda.
Onlar bir quş təki böyüyüb uçar,
Sən də öz ömrünü sürməyi bacar.

SƏBA

Yox, yox, Camal, gecdir, gəl gedək daha,
Sənə and verirəm böyük Allaha!
Nabat da şübhəli gəzir son zaman,
Üzür ürəyini kədər, ah, aman.
Yəqin bizim evə baş vurub indi,

CAMAL /istehzayla/

Başına, gözünə daş vurub indi,
Gözəlim, vecinə alma sən onu,
Nabatın dünyada var olduğunu.
İstəsən, lap sabah boşaram, gedər,
Səni taleyimə yazıbdı qədər.

SƏBA /çaşqın/

Yox, yox, ağlını yığ başına daha,
Gümanım qalmayıb, Vallah, sabaha.
Nicat gəlib çıxsa, qan düşəcək, qan!
Yox olsun büsbütün qoy belə dövran,
Aytən artıq bilir bu sevdamızı...

CAMAL /arxayın/

Aytən unutma ki, Camalın qızı,
O ki, kef əhlidi dünyada barı,
Heç ayrı salarmı yarından yarı?

SƏBA /çılğın/

Ah, Camal, cahanda nə üçün bu qəm?!
Dərdimiz böyüyür içdə dəmbədəm.
Gəl, sən gözlərindən sil bu yaşları,
Qəlbin çatılmasın dərddən qaşları,
Sevdaya bürüyək bu gecəmizi,
Tapmasın bu axşam bir kimsə bizi.

CAMAL/sərxoş halda Səbanın sözlərini təkrar edir./

Sevdaya burüyək bu gecəmizi,
Tapmasın bu axşam bir kimsə bizi...

Pərdə çökür.

VI PƏRDƏ 11-ci şəkil

Nicatın getməyindən artıq bir il ötüb. Səba öz evində yır-yığış edir. Birdən qapı döyülür. Səba qapını açır, poçtalyon ona məktub və pul qəbzi verir. Məktub Nicatdandı. Səba açır oxuyur:

NİCATIN MƏKTUBU

Ah, Səba, gözləmə bir daha məni,
Niyə mən alladım, yalandan səni?
Burda iş aramaq çətindən çətin,
Fəqət, yolun tapdım mən səadətin.
Qurdum həyatımı bir rus qızıyla,
Amma oynamıram onun nazıyla.
Heç nə tələb etmir o məndən düzü,
Yalnız məhəbbətdə, sevgidə gözü...

Bazarda alverdi məşğuliyyətim,
Yoxdu heç vətənə gəlmək niyyətim.
Bu üç yüz dolları yolladım sənə,
Qarqış tökməyəsən hər sabah mənə.
Kimi istəyirsən fırlan, gəz-dolan,
Uşaqlar sənin də övladın, balan.
İndi bildim mən də həyatın dadın,
Unut birdəfəlik Nicatın adın...
Sənincin varlığım yoxdu əbədi.
Bu fani dünyada unutmaq nədi?!

/Samir anasının yanına gəlir./

SAMİR /heyrətlə/

Məktub atamdanmı, bir söylə barı?
Etmə ürəyimi boz qışın qarı.

SƏBA /həm sevincək, həm həyəcanlı/

Atandandı məktub o atdı bizi,
Üzək o namərddən qoy əlimizi.
Ayrı bir sevdanın quludur atan,
Kişilər deyilmi, aləmi qatan?!

SAMİR /ümidsiz/

Demək atdı bizi o alçaq daha,
Demək ümidimiz yoxdu sabaha?
Atasız ötəcək aylarımız da,
Qəlbi ovlayacaq vaylarımız da.

/Qapı döyülür. Samir qapıya tərəf gedir, qapını açır. Nabat otağa daxil olur./

NABAT /maraqla/

De, o nə məktubdu əlində, ay qız?

SƏBA /soyuqqanlı/

Nicat yazır, deyir deyilmiş yalqız,
Bir rus arvadıyla ailə qurub,
Yolumun üstündə, o, zalım durub...
Gəlmək fikiri də heç yoxdu bura,
Orda rus gözəli, eh, dura, dura...
Burda nə işi var Nicatın axı?
İndi belə edir kişilər çoxu.

NABAT /şübhəli/

Sən də çox sevinib şad oldun buna?
Nicatın biqeyrət ər olduğuna?
Bəlkə sən də tapdın özünçün daha?
Onunçun son qoydun qüssəyə, aha?

SƏBA /acıqlı/

Samirin yanında nə söylənirsən?!
Yoxsa səbirimlə de, əylənirsən?
Ayağın dəyməsin bir də bu evə!
Doğrayır içini əzəldən güvə...

**/səsə Aygün, Elçin, Fuad gəlirlər.
Nabat uşaqları görür./**

NABAT /hiylə ilə/

Uşaqlar, atıbdı atanız sizi,
Gedib Rusyətə itirib izi..
Ah, yazıq balalar, yazıq balalar!
Sizin üzünüzdə bir yetimlik var!
Ananız da yəqin ayrı həvəsdə,
Qaldı taleyiniz yaman qəfəsdə.

**/uşaqlar ağlaşır, Səba qışqırır.
Nabat gülə-gülə çıxıb gedir./**

AYGÜN /ağlar/

Ana, atma bizi yad bucaqlara,
Vurma könlümüzə bir də sən yara!

SƏBA /başını əlləri arasına alır, başqa otağa keçir, pıçıltılarla/

Aman ah, İlahi, dadıma yet bir,
Vücudum önündə necə müqəssir?!
Məni tək ehtiyac eylədi əsir.
Dağıldı yuvamız, dağıldı hər şey,
Ürəyim sızlayan, ağlayan bir ney.
İndi hara atım mən uşaqları?
Ağlayır ürəyim hey zarı-zarı,
Camal da soyuyub məndən son zaman,
Didir parçalayır qəlbi ah-aman!
Atım uşaqları yetimxanaya?
Fələk də dərd verər zalım anaya.
Dağıldı, puç oldu bütün diləklər...
Tale həyatımı yaman ələklər!..

/başını əlləri arasına alır/

Pərdə çökür.

VI PƏRDƏ. 12-ci şəkil

Səba artıq bir neçə gündür ki, uşaqları uşaq evinə vermiş, Samir də məktəbə getmir. Küçə uşaqlarına qoşulmuş. Camalın Səba üçün aldığı ev. Camalla Səba yarım sərxoş vəziyyətdədir.

CAMAL /eşqlə/

Ah, Səba, görürsən şərabın dadın?
Çıxır axırına qəmin, fəryadın.
Nabat yaman güdür bizi son zaman,

Gəzir ürəyində şübhələr yaman.
Bir ton çəkisi var, nə baxım ona?
Özü günahkardır kök olduğuna,
Doldurur qarnını hər səhər, axşam.

SƏBA /pərişan və yarım sərxoş/

Çoxunun evində yox nahar, yox şam...
Belədir dünyanın işləri Camal,
Yalnız hiylə lazım nə ağıl, kamal?

CAMAL

Sələmlə qazandım mən bu pulları,
Yığdım, çin-çin yığdım hər gün dolları.
İndi maşınlarım, evim, pul-param,
Haram söyləyirlər sələmi, haram...
Kef edim, nə qədər sağam dünyada,
O biri dünyada qoy yanım oda.
Sənin Nicatın da, yəqin kef edir.

/Ha, ha, ha uzun gülüşlər./

SƏBA /kinayə ilə/

Bütün çətinliyi var-pul dəf edir.
Ailəsi təzə, bəxti də təzə,
Amandır, Allahım, gəlməsin gözə.

/Ha, ha, ha... gülür./

Bu an qapı döyülür. Camalla Səba çaşqın bir-birlərinə baxırlar. Camal qapıya sarı gedir, qapını açır, Nabat Samirlə içəri daxil olur. Samir anasını yarıçılpaq vəziyyətdə görür.

SAMİR /dəhşətlə/

İlahi, gözlərim kor olaydı, kor!
Sən ana deyilsən, nankorsan, nankor!

NABAT /hiddətlə/

Gördün ki, ay oğul, yalan demədim,
İndi özün söylə bəs mən nə edim?
Ərim xaindirsə, anan faşiə!
Saldı namusunu o dilə-dişə,
Nə qonşuya baxdı, nədə ki, ara,
Vurdu ürəyimə sağalmaz yara!
Al bu tapançanı öldür onları,
Qurtarsın dünyadan murdar canları!..

/tapançanı Samirə verir./

SƏBA /qorxu içində/

Yox, yox, Samir, balam rəhm eylə mənə,
Axı mən pis ana olmadım sənə?
Ehtiyac pozubdu bu həyatımı...
Büdrədib yollarda tale atımı.

CAMAL /özünü itirmiş/

Samir, oğul, baxma sən bu Nabata,
Sən Allah, əlindən çıxartma xata,
Cavansan, qabaqda gələcəyin var,
Bizi, özünü də gəl eyləmə xar...

SAMİR /Samir hiddətlə tapançadan atəş açır.../

Öl, öl, alçaq qadın, öl qutar daha?!
Bu şərəfsiz həyat mənə çox baha.

/Səba qan içində yıxılır./

Al, bu da səninki, al Camal dayı,
Sənin də sinənə bir güllə payı!..

NABAT /qışqırır/

Yox onu öldürmə, o ki, kişidir,
Bu anan pozğunun, vallah, işidir...

/Nabat qaçır./

CAMAL /yaralı, Samirin üstünə atılır və tapançanı ondan alır. Səba ilə Camal qan içində/

Namus çəkənə bax, axmağın biri,
Səni doğrayaram mən diri-diri...

SAMİR /hiddətlə/

Ləkəli namuslar yuyulur qanla,
Mənim savaşım var hələ dövranla!
Bir azdan polislər tökülüb gələr,
Əlim qandallanar, azadlıq ölər!
Fəqət, vicdanım və şərəfim təmiz,
İyrənc zamanəyə çökməyəcəm diz...

Nabat iki polislə otağa daxil olur. Polislər tapançanı Camaldan alır. Təcili yardım da gəlir və Camalla Səbanı aparırlar xəstəxanaya. Polislər Samirin qollarına qandal vururlar.

Pərdə çökür.
27 – 28. 05. 2000

KAHADA ÖLÜM HÖKMÜ

Bütün yer kürəsində öz torpaqlarında günahsız şəhid olmuşların müqəddəs ruhuna!

İki pərdəli, dörd şəkilli mənzum dram

İştirak edirlər:

Sultan kişi-60 yaşında
Fatimə ana-52 yaşında
Azərtac-onların qızı16 yaşında
Günay-onların qızı 14 yaşında
Qorqud-oğlu 18 yaşında
Suzanna-erməni qadını 45 yaşında
Boris - onun əri 50 yaşında
Digər əskər və zabitlər, gözətçilər
İlahi səs

I-Cİ PƏRD. I-ci şəkil

1 mart 1992-ci il. Bir neçə gündür ki, Xocalı şəhəri erməni işğalçıları tərəfindən darmadağın edilib. Vəhşi işğalçılar hələ də dağ-daşda, meşədə, düzənlikdə qalan yüzlərlə meyidin öz torpaqlarında dəfn olunmasına belə aman vermir. Təsadüf nəticəsində işğalçılardan canı qurtulmış Sultan kişi üç uşağı və həyat yoldaşı ilə birlikdə rast gəldikləri balaca kahada gizlənirlər. Sübh, səhər dan yeri yenicə sökülmüş, bu zaman yaxınlıqdakı cığırdan Əskərana gedən erməni qadını Suzanna seyrək ağaclıqda bir kişinin əyilə-əyilə quru şaxları yığdığını görür. Suzanna tələsik Əskarana üz qoyur. Bütün bunlardan xəbərsiz binəva Sultan kişi kahaya gəlir. Növbəti faciəni hələlik alın yazısı olsa, belə ağlına gətirməyərək içəri daxil olur…

Sultan kişi /qayğılı və iztirablı/

Bir az odun yığıb gətirdim sizə,
Şaxta da dayanıb yağıtək üzə.
Bura gözdən iraq, könüldən uzaq,
Dondurmamaq üçün bizləri sazaq,
Dedim çır-çırpını yığım gətirim.
Azca sıcaqlıqçın sizə yetirim.
Balaca bir ocaq qalayım gərək,
Bəlkə imdad etdi, yol açdı fələk…

Fatimə ana /gözü yaşlı və həyacanlı/

A kişi, tüstünü görər erməni,
Nə olub, a balam, qan tutub səni?
Yorğana bürünüb oturmuşuq da,
Bir az suyumuzda vardır tuluqda.
Bakıdan ümidi üzməyirəm mən,
Qarabağ göyündən çəkilər bu çən…

Azərtac /son dərəcə gözəl/

Ana, Xocalının ahı-vayları,
Qanlı çeşmələri, qanlı çayları,
Hər gecə yuxumda tufana düşür,
Bir çaylaq daşıtək həyat sürüşür…
Görürəm, Günayla məni yağılar
Tutub, ləkələnib namus, ismət, ar.
Onsuz əsirlikdən qurtulmaq çətin,
Biz qurbanı olduq ah, xəyanətin!
Doğma ocağında əsir olasan?

Günay /həyacanla /

Tanrım, aralıqda yurdsuz qalasan?
Ata, yalvarıram öldür sən bizi!
Qurtar fələkətdən bu qəlbimizi.
Hər tərəfdə yağı qurtulmaq çətin,

Əsir düşməkdirmi sənin niyyətin?
Öldür anamı da, qoy qul olmasın,
Enib yağılara saçın yolmasın…

Qorqud /yumruqlarını hikkə ilə sıxır/

Günay nə danışır, ah, aman, Allah,
Biz qaçaq siz ölün, bu ki, lap günah.
Onsuz çörəyimiz daha qurtarıb,
Axır günlərimiz kahaya varıb,
Acından hamımız ölərik bir gün,
Bəxtimizin quşu düşüb didərgin.
Ömrümüz sərgərdan, yurd, zaman gərgin.

Sultan kişi (son dərəcə qəzəbli)

Aman, ya Rəbbim, bir az səbr ver,
Qopmasın ayağım basdığım bu yer…
Öz doğmalarımı özüm öldürüm?
Zəlil olduğumu bir də bildirim!
De, Tanrı nə deyər nahaq qanlara?
Əlimlə etdiyim bu divanlara?!
Bəs yağı əlinə düşsələr necə?
Ləkəli namusla yaşamaq becə.
Ah, nələr söyləyir dilim, İlahi?
Özün yerdə qoyma qırğını ahi!
Səbr edin, gecəni bir başa vuraq,
O qadir Allahdan bir çarə bulaq…

Fatimə ana

Nə deyim Tanrının səbri böyükdür,
Bəxtimiz havadan asılı tükdür…

Pərdə bağlanır

2-ci şəkil

Əskaran, Borisgilin evi. Suzanna şam yeməyini mizin üstünə düzə-düzə səhər gördüyü mənzərəni ərinə nəql edir.

Suzanna

A kişi, şad xəbər verəcəm sənə,
De, nə alacaqsan əvvəlcə mənə?
Bəxtimiz gətirib qazanc yeri var…

Boris (acgözlüklə)

Axçi, ay arvadım, a sevimli yar,
Bir tuluq çaxırım sənə muştuluq,
Süfrə aç, mən özüm eyləyim qulluq.
Axırları çatıb, türklər öləcək,
Vazgen özü, bir gün, bura gələcək.

Suzanna (tədbirli)

Oğuldan, uşaqdan heç nəyimiz yox,
Bir məni saxlaya bilməyirsən tox.

Boris (əsəbli)

Arvad, bildiyini bir danışsana,
Özün öz işinə sən qarışsana.
Məzhəb haqqı məni gətirdin cana,
Nə qədər var-dövlət gərək insana?
Hələ Xocalıda yığdıqlarını,
Özgə inəklərin sağdıqlarını…
Ay qız, itirmisən sən lap arını,
Qızılı, sərvəti min bir varını,
Qoymağa yerin yox, hey ağlayırsan.

Suzanna (arxayınca)

Boris, yenə nə çox yorğalayırsan?
Yaxşı, sən öl, çıxma özündən daha,
Məzhəb haqqı, işin qalıb Allaha!
Türkün var-dövləti mənə şirindi,
Bizim ulduzumuz göydə göründü!..
Mükafat gözləyir ocağımızı,
Şad müjdə verəcək erməni qızı!

Boris (son dərəcə maraqla)

Söylə, qəlbindəki muradı anım,
Uzatma, bir danış, sən mənim canım.

Suzanna (pıçıltıyla)

Meşənin yanından keçirdim, Allah,
Gördüm kol-kosluqda türk kişisi, ah,
Əyilə-əyilə odun yığırd,
Göydən lopa-lopa lam qar yağırdı.
O məni görmədi, canımda qorxu,
Sakitcə sivişdim, sanki bir yuxu!
Dedim, görsə məni boğar bir anda,
Sus, bunu danışma sən də hər yanda.
Özüm deyəcəyəm sabah zabitə,
Ki, ovun üstünə sakitcə yetə.
Mən var atəşindən bir an sönmərəm,
Bəxşiş verməsələr evə dönmərəm.
Gərək bəhərini əlimlə dərəm,
Bu işin bəhrəsin özüm də görəm.

Boris (hiyləgərcəsinə)

Ay arvad, gözlərin yaman itidir,
Hə, sabah gedirsən, fikrin qətidir?
Bəlkə biz işlədək onu həyətdə,
Saxlayaq heyvantək onu xəlvətdə.

Suzanna (tədbirli)

Bəlkə, heç tək deyil o türk kişisi,
Çoxdur ağaclıqda erkək, dişisi…
Ətrafdan gəlirdi ocaq iyisi.

Boris (kefi kök)

Yəqin ölüm çəkib onun da meysi,
Erkən rast gəlib sən əzrayıla,
Vallah, canı-dildən könlüm maila,
İş sənə havalə, özün bilərsən,
Əhsən, belə arvad fəhminə əhsən.

2-Cİ PƏRDƏ. 3-cü şəkil

Sübh açılır, səhər öz üzünü göstərmək üzrədir. Əskəranda erməni zabitlərinin olduqları bir mərtəbəli bina, uzaqdan sərxoş əskərlərin qəhqəhələri gəlir. Sanki onlar rus qoşunlarının köməkliyi ilə qanlar içində boğduqları Xocalının ahı-fəryadlarını bayram edirlər. Bu zaman Suzanna tələsə-tələsə özünü dəhlizə yetirir. Dəhlizin qapısında əli avtomatlı erməni əskəri dayanıb, erməni qadını onun qulağına nə isə pıçıldayır və içəri daxil olur. Gözətçi onu başqa bir əskərlə baş erməni zabitinin olduğu otağa yollayır. Suzanna qapını döyməmiş özünü içəri salır.

Suzanna (hiyləgərcəsinə)

Başımızın tacı gəlmək olarmı?

Baş zabit (təkəbbürlü)

Millət bir-birindən izin alarmı?
Erməni hardasa, orda dayağım,

Meşinli qapılar açar ayağım!
Canımla, qanımla millətə qulam,
Mən ölsəm yolumla gedəcək balam.

Suzanna (nazla)

Erməni zabiti, xoş gördük sizi,
Mən dünən tapmışam növbəti izi…
Göylərə qaldırar igidlik eli,
Axsın türkün qanı gurlatsın seli!
Bizim şöhrətimiz dünyanı aşıb,
Ayrı planeti gəzib dolaşıb.
Amerka, Fransa bizə can deyir,
Ruslar bir süfrədə bizimlə yeyir.
Sizdəki qüdrətə baş əyirəm mən,
Çəkilsin Arsaqdan çiskin, duman, çən.
Ondoqquzuncu əsr yüz əlli nəfər,
Eylədi İrandan Arsaqa səfər.
İndi yüz əlli min olmuşuq bu gün,
Sadəlövh türklərsə yurdsuz, didərgin.
Bir də xristian albanlar bizi,
Can bilir, buraxmır heç əlimizi…
Çox da onları biz saymırıq qandan,
Onlar birləşiblər bizimlə candan…
Mərhəba, erməni xalqı, bir gün də,
Şahı olacaqsan yerin, göyün də!..

Baş zabit (qəhqəhə ilə)

Axçi, ay madonna, dilin bıçaqdır,
Erməni qızları, vallah, qoçaqdır!
Millət tarixini bilməli yaxşı,
Varlığın belədir həyata baxşı…!
Gəl yüz tut, arağı vurum səninlə,
Mən bir tost deyəcəm, sən məni dinlə.

Suzanna (Özündən razı)

Mən ki, cənab zabit, əmrə müntəzir,
Könlümdə dəhşətli bir qisas gəzir.

Baş zabit(mizin üstündəki tut
arağından iki qədəhə süzür.)

Erməni gözəli, qədəhi götür,
Könlümə bir dürlü səadət yetir.
Gəl vuraq qədəhi qədəhə bir an,
Qoy cövlan eləsin bu hiss, həyacan …
İç, böyük xalqımın gözəl maralı,
Mələklər tərəfdən sinəm yaralı!..

(zabit Suzannanın dodaqlarından öpür…)

Suzanna

Yaralı köksünə mən özüm qurban,
Sənə müjdə verim izin ver bir an.
Söylə, mükafatım sonda nə olar?
Bu işdə bəndənə nə bəxşiş qalar?

(Baş zabit bir az kefli mizin siyirməsini çəkir, orda bir xeyli zinət əşyaları bərq vururdu, o göz oxşayan altunların içindən qızıl bir saatı əlinə alır və özü Suzannanın qoluna salır. O, təkəbbürlü)

Dünən türk qızını gəbərtdim burda,
Cəsədin tullatdım meşədə qurda!
Öncə iynə vurub, gecə kef etdim,
Kefim istəyəntək kamıma yetdim,
Qızları pak çıxır bu batmışların…
Qoynuna qoymuşdu altunun, varın.
Əvvəl danışmırdı o heç bir ağız,
İynə vuran təki bülbül oldu qız.
Demə, nişan olmuş ona keçən ay…

Suzanna (əsəbi)

Yaxşı ki, siz ona tez qurdunuz vay!

Baş zabit

Bu qızıl saatı, xeyli altunu,
İnsanın sabahı, yaşam atını,
Tökdü ayağıma, buraxım onu,
Bilmədi çatıbdı bədbəxtin sonu..!
Yalvardı toxunmum mən paklığına,
Nə qədər girdimsə çox qılığına,
Yaxın buraxmadı məni o zalım.
Basım qucağıma kamımı alım.
Yaman möhkəm olur bu türk qızları,
Namus-ar onların bəxt ulduzları.
İynə öz işini gördü bircə an,
Bir gecə qoynumda oldu gözəl can.
Zülmlə öldürdüm türkün gözəlin,
Günah özündəydi, kəsmədi dilin…
Sonra da döşlərin üzdüm yerindən,
Köksünə güllələr düzdürdüm dən-dən…

Suzanna (razılıqla qoluna baxır)

Türklər qırılmalı Arsaqdan daha,
Az qalıb o xoşbəxt, gözəl sabaha.
Dünən bir türk gördüm meşədə qəfil,
Yamanca qorxurdu yəqin ki, tifil.
Əzrayıl da yoldan məni çağırdı…
Arsaqda türk görmək necə ağırdı?
O kişi tək deyil gərək ki, orda,
Qaçıb gizləniblər o vurhavurda.

Baş zabit (qəhqəhələrlə)

Erməni qızına eşq olsun bu gün,
Qoy Stepanakerdə çatsın müjdə, ün

Xankəndini etdik stepankəndi biz,
Bu yurdla əbədi vurur qəlbimiz!..
Gedib axtararıq elə indicə,
Bilirəm, Suzanna söyləməz becə.
Özün apararsan gördüyün izə,
Göstər o yuvanı bu saat bizə.

Suzanna (qürurla)

Baş üstə, göz üstə, ey Vətən oğlu,
İlahi tək bizə veribdi ağlı...

Onlar tələsik çıxırlar, on nəfər erməni əskəri ilə yola düşürlər. Gedənlərin arasında iki nəfər muzdlu zənci, iki nəfər də rus var.

4-cü şəkil

Dolu nahar vaxtı. Sultan kişinin ailəsinin gizləndiyi kaha, Azərtac gecə gördüyü yuxunu həyacanla danışır. Kahanın bir küncündə ocaq tüstülənir, ocağın üstündə hisli qazanda su qaynayır...

Azərtac (ağlar)

Yuxuda gördüm ki, qurulub mağar,
Burada nə qədər qohum, tanış var.
Qorquda toy edir bütün el, elat,
Dava yox şadlıqla çağlayır həyat.
Mən də qol götürüb toyda süzürəm,
Sanki, yad baxanın bağrın üzürəm.

Fatimə ana (həyacanla)

De ki, axırımız çatıb bu sabah,
Özün arxa dayan bizə, ey Allah!

Ya bir ölüm yolla hamımız bataq,
Köçlə, külfət ilə kahada yataq.
Yada ki…

/Ümidsiz hönkürür. /

Sultan kişi /qəzəbli və qorxulu düşüncələr İçində/

Sus, sus, şivən salma, ay arvad, dayan,
Allaha borcluyuq bir quruca can.
Gəlsələr əlimlə qıraram sizi,
Görən olmayıbsa kim tapar bizi?

(qəlbi ilə danışır…)

Bir quş tüfəngi də yoxdu, ay Allah,
Düşmən sinəsindən qoparım min ah!
Yağının əlində topu, tankı var,
Bəli, silahsızı silahlı qovar…
Biz hələ yatmışıq fil qulağında,
Vətənin, torpağın ağır çağında.
Kürsü düşkünləri kürsüyə əsir,
Anamız, bacımız yağıya əsir…

/Bu zaman Fatimə ananın fəryadı gəlir…/

Fatimə ana (nalə ilə)

A kişi, nə getdin xəyala yenə,
Alışır nifrətdən, hiddətdən sinə.

Sultan kişi (diksinir)

Ay arvad, ağzını bağla bir hovur,
Axmaq fikirləri başından sovur.
Erməni evləri talayır indi,
Xocalı odlanıb, Allah, nə gündü?!

Bu zaman yaxınlıqda erməni, fransız, rus dillərində danışıq, kobud əskər çəkməsinin səsi gəlir…

Fatimə ana (qorxa-qorxa)

Qız, yuxun qaraya qalaydı, bala,
Bu qədər zülm olar, ey Alla-Taala!

Sultan kişi tələsik baltanı axtarır, fəqət dünən meşəlikdə salıb itirmiş…

Hardadı, baltanın yerini deyin?
Necə hiss etmədim düşüb itdiyin?

Fatimə ana (vahimə içində)

Balta avtomata nə edər kişi?
Sən də itirmisən canla gərdişi!

(bir qədər fasilə)

Bu zaman Susanna, erməni zabiti və əskərlər kahaya dolu-şurlar. Onların əlində ölüm saçan avtomatlar…

Baş zabit (quduzcasına)

Suzanna, gör necə ov bəxşiş mənə,
Qəhrəman adını verəcəm sənə!

Suzanna (kinli-kinli)

Əgər türklərdə də olsaydı nifrət,
Bizi məhv etməkçin tapardı cür‘ət!
Yaxşı ki, onların ürəyi yumşaq,
Sanki ağılları bir körpə uşaq.
Biz pislik edirik, onlar yaxşılıq,
Bu millət əbədi niyə xoşqılıq?…
Bu türk köpəkləri qırılmalıdır,

Hər köksə min güllə vurulmalıdır.
Hansını göstərsəm birinci onu,
Doldurun gülləylə murdar qoynunu!

Baş zabit (həqarətlə)

Kişi, Xocalıdan siz qaçmısınız,
Burada nə gizli yurd açmısınız?
Ara, o dəhşətdən siz qalırsınız?
Qırıla-qırıla çoxalırsınız…
Necə itirmisiz o gecə izi?
Ölmü kor etdiniz tapmasın sizi…
Tanrıdan güclüdür bizdəki qüvvət,
Əzrayıldan aldıq sübh-səhər dəvvət.
Sizin ki, ünvanı o verib bizə,
Qanınız dönəcək, indi dənizə.
Ha, ha, ha, kim gəlsin öncə irəli?
Çıxarılsın gözü, kəsilsin əli…
Nə olsun, söylərsiz bizlərə dığa?
Erməni hakimdir, fəqət Arsağa!

Sultan kişi (qəzəbli)

Sizdəki vicdandan xəbərim vardır,
Əfsus, beyninizdə hələ bahardır.
Biz gəlmə tayfanı millət eylədik,
Yurduna çevrildi hər düz, hər gədik.
Siz ki, qoltuqlarda daldalananansız,
Vazgen havasından ilham alansız.
İrəvən bölgəsin dövlət etdiniz,
Torpaq oğurlamaq ana xəttiniz.
Savaş istəyənlər bir gün qan qusar,
O taylı, bu taylı Azərbaycan var.
Ruslara güvənib, qan tökənsiniz,
Ocaqlar söndürüb, yurd sökənsiniz…
Savaş istəyənlər birgün qan qusar,
Dövran zalımları boğazdan asar!
O taylı, bu taylı Azərbaycan var…

Qana hərisləri tutar ahı-zar!
Ölsək də yerimiz sabah min olar,
Vətən oğulları qələbə çalar!..

Baş zabit (tapançanı ona tuşlayır…)

Al, bu tapançadan açılan güllə,
Sənə, millətinə dəyərli sillə.

Sultan kişi yıxılır, Fatimə ana nalələr içində qışqırır və ərinin üstünə atılır. Üst-başı qana bulanır…

Fatimə ana (fəryadla)

Aman, Tanrı, göstər öz qüdrətini,
Silahsız bəndənə sədəqətini…

Baş zabit (qəhqəhələrlə)

Qalibin əsəbin bir anda gərmək,
Hə, nədi döşünə yatdı gəbərmək?!
Ölüm ayağında əyilmir bunlar,
Türkləri qorxutmur tökülən qanlar…

(Bu zaman Azərtac gözlənilmədən ocaqdakı qaynar suyu zabitin üzünə atır, dəhşətli türkürpədici bağırtı qopur…Rus əskəri avtomatdan bir qatar gülləni kahadakıların üstünə səpir. Təkcə Qorqud anasını qucaqlamış halda sağ qalır. Kahanı insan iniltisi bürüyür! Qorqud bir əliylə Fatimə ananın qoynundan çıxardığı düyünçəni ocağa atır, bir əliyləsə neçə gündən bəri gizlətdiyi qumbaranı gödəkçəsinin cibindən çıxarıb əskərlərə tərəf atır. Özünü itirmiş düşmən əskərləri nə zaman qumbaranın onların ayağı altında partladığını duymadılar. Yaralanmış Suzanna ocaqda yanan pullara doğru can atır… Kaha alışır… Qanlar bir-birinə qarışır, can verən insanların iniltisi kahanı titrədir…)

Suzanna (ağır yaralı)

Ah, canım, üz-gözün yəqin ki, yandı,
Sən ki, can üstəsən, qana boyandın!
Türklərin qorxusu yoxdu dünyada,
Doğra diri-diri, at yanan oda…

Baş zabit (iniltiylə)

Suzanna, kor oldum, yandı gözlərim,
Yanıb tuluq olub büs-bütün dərim.
Bu türklər puç etdi hər diləyimi,
Qızıl qan aparır bu ürəyimi…
Qırılsın, qalmasın qoy müsəlmanlar,
Dənizlərə dönsün bu axan qanlar…
(ölür..)

(erməni əskərləri və Suzanna artıq ölmüşdür. Qorqudun anası, atası və bacıları da şəhid düşmüşlər, qumbaradan ağır yaralanmış Qorqud can üstə pıçıltılarla…)

Qorqud

İlahi, son nəfəs, son an, son zaman,
Qəlpə ürəyimdə, ölürəm, aman.
Əzizlər şəhidsə gözüm önündə,
Köksüm qan içində bu qara gündə!
Rəbbim, qisas aldım, qazidir adım,
Hənuz Allahıma çatdı fəryadım!
Aldın ürəyincə kamını, Qorqud,
Qayıt öz soyuna, ey qurd oğlu, qurd!..
Yatın atam, anam, mərd bacılarım,
Fəqət ləkəsizdir namusum, arım…
Qızqardaşım Günay, Azərtac uyu,
Bizi yad edəcək bu yurdun soyu!
Sabah Milli Ordu zəfər çalacaq,
Qarabağ bizimdir, bizim olacaq…

Qarabağ bizimdir…

Qana bulaşmış sinəsiylə torpağı qucaqlayır, şəhid olur. Kaha yanır və yana-yana bir-birinin ölümünə fərman verən adəm övladlarına ilahi səs gülür…ha, ha, ha…

İlahi səs (kahanın içində gurlayır)

Qırın, bir-birini vəhşi insanlar,
Yandırın, dağıdın qoy axsın qanlar…
Torpağı, ey bəşər, mən verdim sizə,
Mən həyat verirəm gecə-gündüzə.
Sonunuz ölümdür, dilsiz məzarlar,
Qalanlar ölənə məzar qazarlar.
Sizi yaradanı unudub nədən?
Məmləkət cızırsız dağdan, dərədən.
Qoymaram çoxalsın acgöz əsliniz,
Min il, milyon ildi qandı nəsliniz.
İnsan sümüyündən daşlar yarandı,
O adəm kökünüz hey pozdu andı.
Cəbrayıl, əzrayıl mənə müntəzir,
Ölüm ucuzlaşıb əllərdə gəzir.
Sizi qırdırıram bir-birinə mən,
Məzarlar içində çürüyəcək tən…
İblis içinizdən verəcəm ehsan,
Ruhunuz deyəcək bu işə əhsən…
Uçan boşqabları, səma daşları,
Dəmir canlıları, dəmir başları,
Göndərdim neçə yol yerin tərkinə,
İnsanlıq bürünsün həya kürkünə.
Xeyri yox, qorxusu yoxdur bəşərin,
Kesib caynağına adəmlər şərin…
Dünya başdan-başa batıb günaha,
Dönün iblislikdən, yetin Allaha!..

3-7.01.1994. Pirallahı-Neft Daşları

SEVGİ VARA SATILMAZ

4 pərdəli, 8 şəkilli mənzum dram)

İştirak edirlər:

Ərqaya-25 yaşında mühəndis
Altunşah-30 yaşında xüsusi dükan sahibi
Narınc xala-Altunşahın anası 60 yaşında
Süsən-18 yaşında gənc bir qız
Süsənin xəyalı-göy libasda
Nazan-22 yaşında pozğun qadın
İnci-17 yaşında pozulmuş qız
Sultan-40 yaşında heç yerdə işləməyən
balıq alveri ilə varlanmış şəxs
Aypara-Sultanın həyat yoldaşı 35 yaşında
Lamiyə-qızı12 yaşında
Qadınlar, Həkimlər, Şəfqət bacıları

I PƏRDƏ. 1-ci şəkil

Hadisələr Bakıdan bir xeyli kənarda şəhər tipli böyükada qəsəbəsində cəryan edir. Səhərdir. Ərqaya bir gözdən ibarət mənzilində çay tədarükü görür. Elə bu zaman yayından çıxmış ox təki telefon cingiltisi otağa yayılır.

Ərqaya (həyacanlı)

Alo, alo, Süsən, danış yandı ürək,
Nə taledir yazdın mənə aman-fələk?
Ah, Allahım, böylə sükut, böylə tələş,
Sinəm üstdən asılıbdı qara bir daş.
Bilirəm ki, sonu yoxdur bu sevdanın,
Kasıb evin oğulusan çıxsın canın.
Hardan mənim pulum-param cehiz alım?
Ürəyimcə başa varsın qoy vüsalım.
Doğub məni cocuqluqdan atdın, ana,

O gündən də, hənuz suça batdın, ana.
Uşaq evi qucağına aldı məni,
Yad əllərlə, yad dillərlə çaldı məni.
Məşəqqətlə ali məktəb bitirmişəm,
Neft çıxaran mühəndisdi indi peşəm.
Bir tərəfdən bahalığın üzü dönük,
Səadətim, sevgim, eşqim, bəxtim tünük.
Sevdiyimi kimdi mənə verən ucuz?
Köksüm yara, yara üstdən tökülür duz.
Yazılıbsa taleyimə bu qızcağaz,
Bir gün mənim ömrümə də gələcək yaz.

O telfonun dəstəyini yerinə qoyur. Dilindən tökülən ah, fəqanlarla Süsənin xəyalı gözünə görünür. Onun canı atəşlərə bürünür.

Süsənin xəyalı

Uyğularda gördüm gecə bir qatarda,
Sənin ilə oturmuşam ağ paltarda.
Sevgimizin zirvəsinə biz yüksəlib,
Əzabların, zülümlərin bağrın dəlib,
Yol gedirik paralardan qurtulmaqçın,
Pak ayrı bir səyyarəyə atılmaqçın.
Sultan qardaş da yox idi yanımızda,
Altun duyğu, bəxtəvərlik qanımızda.
Ac-yalavac adətləri qoyub burda,
Həsrət ilə qərib-qərib baxır yurda,
Hey qaçırdıq bu dünyadan, vurhavurdan,
Bir-birilə didişmədən qırhaqırdan…

Ərqaya (çaşqın)

Ah, sevgilim, yenə gəldin səhər-səhər,
Ah, sevgilim, yenə gəldin sən bir təhər.
Xəyalların qəlbə sitəm, ələm, qəhər,
Zəhər oldu bu məhəbbət mənə, zəhər!
Telefonda pak səsin də xəyalmıdır?

Kölgələrin taleyimə vusalmıdır?
Hünərim yox qapınızı açmağa da,
Alıb səni qərib yerə qaçmağa da.
Xülyalarla sevgimizi böləsiyik,
İkimiz də bu eşq ilə öləsiyik.
Ah, Allahım, al kölgəni apar məndən,
Parçalandı köksüm nartək oldu dən-dən.

Süsənin xəyalı yox olur. Ərqaya əsəbi. Mühəndis işlədiyi neftçıxarma idarəsinə gedir.

2-ci şəkil

Dolu öynə, Sultanın qırmızı kərpicdən yapılmış qəsrəbənzər dəbdəbəli evi. Süsən və Ərqayanın eşqindən xəbər tutan Sultan bacısını evdə əsir edib, heç yerə buraxmır. O Süsəni, özü kimi pullu-paralı adama, ərə vermək istəyir. Vaxtsız ata-anasını itirmiş, Sultan balıq alveri ilə varlanmışdır. Dörd divar arasında dustaq edilmiş Süsən, qardaşı arvadı Aypara və qızı Lamiyə ilə evdədir.

Süsən (qəmli-qəmli)

Bəzəkli ev-eşik, bu var, bu dövlət,
Hamı suç, hamısı heyvani qələt.
Ürək sevgi, dostluq, saflıq oyuncaq,
Haram pul-parayla doludur qucaq.
Kiminin yeməyə çörəyi yoxdur,
Kiminin varı çox, ürəyi yoxdur.

Aypara

Masanın üstündə necə yeməklər,
Meyvələr, şirnilər, özün de nələr?
A Süsən, nəyimiz əskikdir, balam?
Kəsilib arada iltifat, salam.

Üzünün çöhrəsi tufandan betər,
Yenə başlamısan, sən Allah, yetər!
Bilmirəm kefini nə ilə alam?
Dözürəm hər cəngə, mən Rüstəm-zalam!
Axı tək deyilik bu el içində,
Qonşuların dili niyə, neçində?
Sənin Ərqayayla məhəbbətin car,
Həya yaxşı şeydir el, camaat var.
Qardaşın nə vaxtdı üzümə baxmır,
Məni də heç yerə daha buraxmır.
Nəzir-niyaz ilə bir qızımız var.
Firavan günümü eyləmisən tar.
Sevgi də, eşq də bir quru sözdür.
Axı qonum-qonşu bu evə gözdür.

Lamiyə

Mənim gözəl bibim bir nağıl söylə,
Nədən pərişanlıq bu qədər böylə?
Bu evdə tək sənsən qəlbimə yaxın,
Qüssəni, kədəri buraxma yaxın.

Süsən (Lamiyənin boynunu qucaqlayır)

Mənim kədərlərim qaynayan çeşmə,
Ürəkdir tab edir keşməkeşimə.
Mən gedən deyiləm, o Altunşaha,
Qoy naləm, fəryadım yetsin Allaha.
Onun dükanı var, adamdır demək?
Bəşərin başında pul-para, yemək.
Boğur bu cəh-cəlal, bu sərvət məni,
Bağlanan bəxtimin üzülüb dəni…

Lamiyə (məsum-məsum)

A bibi, nağılı qoy bir tərəfə,
Nə yazıq taleyin keçib kələfə.
Vallah, o Ərqaya çox sevir səni,

Qov gözəl çöhrəndən çiskini, çəni.
Hər gün pəncərənin önündə durur,
Məktəbdən dönəndə o məndən sorur...
«Salam söylə» dedi, dünəndə yazıq.

Aypara (əsəbi)

Allahım, nə qədər gör biz dayazıq?
Sus, ay qız, nə olub dil-dil ötürsən,
Kitabı əlinə bir dəm götür sən.
Altunşaha verdik onun hərisin,
Atan mən yazığa tökür hirisin.
Bilsə, hamımızı qırar, öldürər,
Bütün el-obanı bizə güldürər.
Sevgi kişilərin fitnə-fəsadı,
Dünyada yaşayar pak qadın adı.

Lamiyə (sadəlövhcəsinə)

Bibimin günahı nədir ki, ana?
Yazığ qızcağazı yığmısan cana.
Ərqaya yaxşıdır, Altunşah lovğa,
Niyə buraxmırsız onu yovuğa?
Əgər oxuyana qiymət yoxdursa,
Alver edənlərdə para çoxdursa,
Haram yeyənlərdə cəh-cəlal böyük,
Halallar dünyanın boyununa yük,
Bəs elm niyə lazım, deyirsən oxu?
Buraxıb məktəbi indi ki, çoxu.

Süsən (qəmli)

Qönçəm, qərənfilim, ey saf bulağım,
Yeganə təsəllim, könül dayağım.
Lamiyə, ürəyin bir şəlalədir,
Bəyaz səhərlərdə şehli lalədir.
Bibinin dərdinə çarə bulunmaz,
Zamanım, həyatım, qəlbim ovunmaz.

Zorla Altunşaha verirlər məni,
Böylə bəxt tapmasın dünyada səni.
Ümid əsirgəmə məndən, Allahım,
Yetsin hüzuruna bu qəmli ahım.

Aypara (əsəbi)

Yenə səhər-səhər başlama qəmə,
Acı fəryadınla çapma aləmə.
Nə var, nə görmüsən o ac gədədə?
Yaralar açılar bomboş mədədə.
Malsız, mülksüz sevgi – bir qədəh zəhər,
Üzəcək ömrünü ehtiyac, qəhər,
Parasız sevginin heç faydası yox.
Barı, Allahından, Tanrından bir qorx,
Şahlıq quşu qonub başına yazıq,
Niyə biz qadınlar belə dayazıq?
Sevgi ər evində, xoş gün-güzəran,
Çıxar Ərqayanı qəlbindən bu an!

pərdə örtülür

II PƏRDƏ 3-cü şəkil

Nazanın 3 gözdən ibarət mənzili. Nazanın anası işə gedən kimi o, başına qəsəbənin pullularını yığıb kef məclisi qurur. Düz 10 ildir ki, pulluların pulları ilə Nazan bu həyata qurşanıb. Yüngül həyata alışıb, rəfiqəsi İnci də ondan dala qalmır. Yenə də o kef məclislərindən biri Nazanın evində. Sultan, Altunşah, Nazan və İnci bir masada cəm olublar.

Nazan (kefli və papiros damağında)

Baxtım gətirməyib mənim heç zaman,
Bu qara taleyim edir ah-aman.
Anam ermənidir, atam azəri,
Düz kişi sayılar ailənin əri.

Gözümü açandan hiss elədim mən,
Evimiz içində gəzir duman, çən.
Onlar bir-birinə heç can demədi,
Bir acı sözü də heç kim yemədi.
Qırğın, dava-dalaş artdı günbəgün,
Qırıldı bağlılıq bu toy, bu düyün.
Sonra atam atdı bir gün anamı,
Uçdu ailənin xoşbaxtlıq damı.
Gəmidə keçirir anam vaxtını,
Dağıtdı tənhalıq könül taxtını.
Bilməm azəriyəm, yoxsa erməni,
Siz deyin kim necə çağırsın məni?
Mən lazım deyiləm ata, anama,
Neylim doğulmuşam dünyaya, amma…

Sultan (canyanalıqla)

Nazan bu söhbəti yığışdır daha,
Salma kef məclisin naləyə, aha.
Sən özün həm ata, həm də anasan,
Mənimçin nazlı bir ürkək sonasan.
Doldur, ey mələyim, eşqlə beyini,
Sən ki, doğmamısan valideyini.
Əymə qəm, kədərlə belə qəddini,
Qoy onlar çəksinlər sənin dərdini.

Nazan (qayğılı)

A Sultan, bu yerin kişisi sənsən,
Ağlına, puluna alüdəyəm mən.
Sənlə olduğum anlarım dadlı,
Zamanım, ömürüm, günüm qanadlı.
Atadan, anadan yaralı İnci,
Bugün süfrəmizə verər sevinci.
Fəqət sən mənimsən, rəfiqəm bilir,
Bu dəli eşqimə İnci də gülür…

Sultan (qəhqəhələrlə)

Kef məclislərimin yaraşığısan,
Görən gözlərimə sən ki, işığısan.
Sənsiz fələklərə sipərdi ahım,
Hər qara gecəmə bəyaz sabahım.
Səni uca tutdu həmişə könlüm,
Bir an ayrılmaram gəlməsə ölüm.
Altunşah, İncinin qulluğunda ol,
Bugün süfrəmizdə qədəhlərə yol.
Birinci sağlığı Nazan eşqinə,
Tanrıdan diləyim şükür bu günə.

Altunşah (nəş‘əli İncinin belini qucaqlayır)

Əlbəttə, bu xanım incidən inci,
Nəş’əli könlümün odur sevinci.
Şərablı dodağı dodağıma bal,
Gəl kef məclisində ürəyimi al.

İnci (nazla)

Ah, dostum, nə qədər alovlu sözlər,
Alışır eşq ilə sevgili gözlər.
Bu nahar nəş’ələr bəxş eylə mənə,
Mən də bu könlümü qoy verim sənə.

Nazan (kefli)

Şərab şüşələri boşalır bir-bir,
Vaxtımız daralır, tükənir səbir.
İndi dönəcəksən yenə evinə,
Sultan, bilsən necə çətindir mənə?
Nə qədər pul-para töksən başıma,
Bunlar əlac olmaz bu göz yaşıma!
Səni qısqanıram öz arvadına,
O mətbəx qarısı, yazıq qadına.

Sultan (qəzəbli)

Şərabın çox düşdü deyesən, Nazan,
Yenə kəllə-çarxa vurdu başda qan.
Eyvah, istəyinə hazır pul-para,
Çox da çərənləmə, bəsdir, avara!
Sənin dilin ki var, başa dərd açar,
İçki məclisindən sevgilər qaçar.
Səni arvadımdan artıq tutmuşam,
Ona istəyimi tam unutmuşam.
Atımmı, deyirsən, evimi daha?
Son qoy göz yaşına, son qoy bu aha!

Nazan (qəhqəhələrlə)

Səni çox sevirəm canımdan öncə,
Könül qapısında hər gündüz-gecə,
Xəyallar əl açır dilənçi kimi.
Kimi fəryadıma çağırım, kimi?
İndi gedəcəksən evim bir məzar,
Tənha həyatıma qəm quyu qazar.
Yatağım, otağım boş qalacaq, boş,
Taleyim mənimlə baş-başa sərxoş.

Altunşah (amiranə)

Yenə tüğyan etdi eşq nağılları,
Qopartdı başlardan saf ağılları.
Nazan qısqanclığa başladı yenə,
Gərək ki, İnci də qoşulsun sənə.
Süsənlə toyumuz tezliklə olar,
İnci də səninlə bir hava çalar.

İnci

Mənmi, ah, mənimçin kişilər birdir,
Sevgi təbiətdə açılmaz sirrdir.
Nə qədər könlümü salsa min hala,

Qəlbim sevgiləri buraxmaz qala.
Nazan, qurtar canım cəfəngiyyatı,
Sevgiyə qul etmə azad həyatı.
Bu kef masasında dadlı yeməklər,
İştahı ovlayan ləziz xörəklər.
Çeşmə tək qədəhə süzülən şərab,
Həm bir səadətdi, həm də iztirab.
Budur, əzizlərim, nəş'əli həyat.
Mən buna deyirəm ən şirin busat,
Ailə də, uşaq da iyrənc bir röya,
Ömrümü ram edər bu qorxunc xülya.

Sultan

Ha, ha, İnci, səndə bu sözlər hardan?
Ağıllı xəlq edib səni Yaradan!

Nazan (son dərəcə sərxoş)

Ah, Sultan ömürlük mənim olmalı,
Mənimlə bir evdə hər dəm qalmalı.
Ya sona yetirmək bu qeylü-qalı,
Tükənib canımın qüssədən halı.

(şərabla dolu qədəhi Sultanın ayaqları altına atır…)

Sultan (qəzəblə ayağa qalxır)

Sərvətim, dövlətim bəs etmir sənə,
Əvəzində budur yaxşılıq mənə?
Nə sevgi, məhəbbət ağılsız qadın?
Soyumda çatmayır o pozğun adın?
Qadınlar heç zaman bilməz yaxşılıq,
Bircə anlıq kefi, ya bir xoş qılıq…
Sevginin adına yazar o saat,
Budur, aman Allah, qadınlı həyat!..

pərdə örtülür

4-cü şəkil

Xeyli zamandır Süsən Altunşaha nişanlanıb. Bir azdan Altunşahla Süsənin restoranda toyu gözlənilir. Toydan qabaq Süsənə qardaşı Sultanın evində oğlan evindən gələn qadınlar gətirdikləri gəlinlik paltarını geyindirməklə və bəzək-düzəklə məşğuldurlar. Süsən qadınlardan icazə alıb kədərli halda ayrı otağa keçir.

Süsən (son dərəcə kədərli)

Allah, çəkdiklərim nədir dünyada?
Öz doğma qardaşım çevrilib yada.
Gözüm görə-görə könlə dağ çəkir,
Qəlbində hardandır bu hiylə, məkir?
Məni sevmədiyim adama verir,
Könlümü əzabla, ağrıyla gərir.
Bu dərdin çarəsi yalnız intihar,
Qardaşım Sultana qoy bu olsun ar.
Bilirəm özünə qəsd etmək günah,
Fəqət Altunşahla günüm olar ah.
Ahlarla çarpışan ömür vay keçər,
Bəbəyin yaşları qəlbdən su içər.
Bu çayda boğular bütün diləklər,
Bir-birin sevmirsə, əgər ürəklər.
Sinəmdə bir başqa məhəbbətim var,
Bir başqa biriylə can ülfətim var.
Ərqayanın eşqi könlümə yardır,
Onsuz dünyam mənə büsbütün dardır.

(Bu zaman Sultanın arvadı Aypara otağa daxil olur.)

Aypara (acıqlı)

Ay qız, niyə belə aha batmısan?
Özünü dərd, qəmə, vaya atmısan.
Səni bəzəndirir oğlan adamı,

Qoyma sinələrdə, sən Allah kamı.
Analar bəsləyir eşqlə balanı,
Bir düşün, ay balam, Narınc xalanı.
O da Altunşahı kamla saxlayıb,
Xalqdan, caamatdan ayıbdır, ayıb.
Söylə, nə edirsən bu tək otaqda,
Dərdə salıb canı qoyma yataqda.

Süsən (əsəbi)

Sən məni güdürsən, vallah, ay gəlin,
Mənimçin hər zaman zəhərdir dilin.
Az qalıb, arzuya yetərsiz daha,
Siz məni batırdız büsbütün aha.
İndisə, izləmə məni hər addım,
Mən sənə bu evdə həmişə yaddım.
Qardaşın arvadı baldızı sevməz,
Baldız da heç zaman yad qızı sevməz!
Bunu eşitməkçin gəldin sən bura,
Bəsdir, ürəyimi etdiyin yara.
Keçdim bu otağa bir az dincəlim,
Gəlmədim dilinlə solum, incəlim.

Aypara (məyus)

Nə dedim dilindən töküldü zəhər,
Zəhər danışana bəxt verməz bəhər.
Ağlını başına yığ, ay biçarə,
Bir azdan toyundur arama çarə.
Üzünün gülüşün qaçırtma belə,
Salma öz adını ağıza, dilə.
Mənim deycəyim sözlərim budu,
Evimizi yıxar bu dedi-qodu.
Qadınlar oturan otaqda otur,
Elin söz-söhbəti aləmi qatır.
Gedirəm, sən də gəl tez yanımıza,
Salma ağrı-acı bu canımıza.

(Aypara son dərəcə hirsli otağı tərk edir.)

Süsən (həyacanlı)

Allahım, bu dərdin əlacı dərman,
Doldursam mədəmə el eyləməz man.
Onsuz da bir azdan gedirik toya,
Mənim əzablarım qoy dönsün vaya.
Başağrı dərmanı çatar dadıma,
Yetişər əzablı can fəryadıma.

(Bir ovuc dərmanı qoynuna qoyub qadınların yanına keçir.)

Pərdə enir

III PƏRDƏ. 5-ci şəkil

Gəlini aparmağa gələn maşın həyətdə gözləyir. Qadınlar Süsənin üst-başına və üz gözünə axırıncı dəfə fikir verirlər.

Qadınlar (bir səslə)

Qızlar, gözünüz aydın,
Deyin Süsənin adın.
Bəxtiniz qoy açılsın,
Qüssə, qəmdən qaçılsın,
Qızın bəxti ər evi,
Qadın edər zər evi.
Gəlin evə din-iman,
Onsuz ev boş dəyirman.
Ay qızlar, xoşbaxt olun,
Baxın, səadət yolun
Açarı Süsəndədir,
O hamıdan öndədir.

Aypara (üzünə təbəssüm verərək)

Ay qadınlar, sağ olun,
Daima xoşçağ olun.
Toy hər qıza büsatdı,
Bu bir xoşbaxt saatdı.

Qadınlar (yenidən bir səslə)

Ay Aypara, mübarək,
Coşub-daşsın qoy dilək.
Sən qardaş arvadısan,
Süsənin imdadısan.
Sən ona ana oldun,
Çox məğrur sona oldun.
Hər subaya bu gündən,
Bu toydan, bu düyündən,
Qismət olsun inşallah,
Hər işdə böyük Allah,
Qoy bizlərə yar olsun,
Millətimiz var olsun.
Toy evlər yaraşığı,
Hər evin gur işığı,
O, hər qapını açar,
Heç kim olmasın naçar.

Lamiyə

(dolmuş halda bibisi Süsənə yaxınlaşır)

Bibi, gözüm işığı,
Evimiz yaraşığı.
Mən sənsiz nə edəcəm?
Vallah, gəlib-gedəcəm,
Unutmaram mən səni,
Ayrılıq, həsrət çəni

Gözlərinə dolmasın,
Gözəl üzün solmasın.
Sənin qardaşın qızı,
Salar könlünə yazı.
Bibi, qadanı alım,
Səni qəlbimə salım,
Orda könlümü bəzə,
Gəlməyəsən heç gözə.

(Süsəni qucaqlayır.)

Süsən (pıçıldayır)

Bu evdə tək sevincim,
Mənim dürdanəm, incim.
Sən əzizdən əzizsən,
Çeşmələrtək təmizsən.
Candan sevirəm səni,
Sən də unutma məni!
Mənə su gətirsənə…

(Lamiyə bibisinə su gətirir.)

Lamiyə (həyacanlı)

Al iç, bibi, bu suyu,
Fikir dərin bir quyu.
Kim düşsə heç çıxmayır,
De o kimi yıxmayır?
Sevin, şadlan, ay bibi,
Ahdır həyatın dibi.
Hamıya quyu qazır,
Kitablar belə yazır…

Süsən (qürurlu)

Kədərlərin yuxlasın,
Allah səni saxlasın.
Ata evinə işıq,
Bəxtimizə yaraşıq.

Lamiyəni öpüb su ilə dolu stəkanı ondan alır.Bu vaxt həyətdən gəlin üçün gələn maşınların səsi eşidilir.Baş qarışır, Süsən qarşıqlıqdan istifadə edib qoynunda gizlətdiyi başağrısında işlədilən analgin dərmanından bir xeyli qəbul edir. Lamiyənin gətirdiyi suyu içir. Süsəni gəlinlik paltarında otağdan çıxarıb maşina aparırlar. Hamı evi tərk edir, yaxınlıqda toy olacaq restorana tələsir.

Pərdə örtülür

6-cı şəkil

Toy keçiriləcək restoran. Bəylə gəlin başda əyləşib. İçdiyi dərmandan Süsənin əhvalı pisdir.Toy qələbəlikdi. Toya yalnız amerka pulu dollar salınır. Süsən son dərəcə ağır psixoloji durumda…

Altunşah (fərəhlə)

Ay ana, toy gərək Böyükadada,
Çatsın ən şərəfli, böyük bir ada.
Yeməklər, şərablar bir çeşmə olsun,
Durub, dayanmadan süfrəyə dolsun.

Narınc (sevincdən titrək halda)

Allah, bu gün necə mən bəxtiyaram,
Ürəyim, könlüm tapmayır aram.

(pıçıltıyla)

Süsəndən nigaran yalnız ürəyim,
Rəbbim, qoyma qalsın qəlbdə diləyim,
Toyu təmtaraqla bir başa vuraq,
Biz dostdan, tanışdan ucada duraq.
Heç bir arzu deyil daha gərəyim.

Süsən (halı son dərəcə qarışıq halda öz-özünə pıçıltılarla)

Aman, ya Rəbbim, imdad fələyim,
Qızıllar, altunlar barmaqlar bəzər,
Ürək Ərqayanın sevgisin gəzər.
Sevgilim yəqin ki, indi qüssəli,
Eyvah, əllərimə yetməyir əli.
Bu mənim toyumdur, bu şan, bu şöhrət,
Qara taleyimi alıb fəlakət.
Bu gecə özgəyə yar olmalıyam,
Saralıb çiçəktək mən solmalıyam.
Altunşah bilmir ki, içdiyim dərman,
Bu gün ölümümə verəcək fərman.
Artıq ürəyimdə bulanmalar var,
Başıma olubdu dünya tamam dar.

Altunşah

Ah, Süsən, sevgilim, bu təmtəraqlar,
Xoşbəxt səadəti sevgi varaqlar.
Mən səni qızıla tutacam, yarım,
Ömürlük sənindir sərvətim, varım.

Süsən (xəstəhal)

Ah, yenə var-dövlət, yenə pul-para,
Min il, milyon ildi bəşər avara!

(Bu zaman Altunşah Süsənin əlindən tutub ortaya çəkir. Süsən qol götürüb oynayanda Ərqayanın xəyalı gözləri önündə canlanır və bayılır. Ara qarışır, toyda cəh-cəlal pozulur…)

Narınıc xala (ağlar)

Məni eşitmədi Altunşah, Allah,
Qız ölsə nə deyər xalq mənə sabah?
Gəlin başqasının eşqiylə yanır,
Mənim harın oğlum sevgi nə qanır?!
Qızlar tükənibmi bu məmləkətdən?
Mən necə qurtulum bu fəlakətdən?

Süsən camaatın gözü qarşısında axır anlarını yaşayır. Acqarına içdiyi dərmanlar artıq qanına zəhərlənmə vermişdi.

Süsən (can üstə)

Aman, ulu Tanrım, axır ki ölüm,
Bitdi bu əzablar, bitdi bu zülüm.
Yetiş imdadıma, yetiş Ərqaya,
Allah, özü məni tuş etdi vaya,
Mənim səadətim məzarda başlar,
Boğmasın Lamiyə gözünü yaşlar…

Lamiyə (hönkürtüylə)

Bibi, yazıq bibi yumma gözünü,
Qoy bircə anlıq da görüm üzünü.

Aypara (çaşqın)

Yox, yox, ola bilməz bu bir yuxudur,
Qalx, Süsən, şaşqınlıq, bəlkə qorxudur.

Altunşah (diz çökür)

Aman, ay Allahım, səbr ver mənə,
Əzəlki həyata qayıdım yenə.
Bəlkə zəhərlədin sən öz-özünü,
Mən açа bilmədim o kor gözünü.
Süsən, ölmə, Süsən, gözlərini aç!
Ölümün əzazil pəncəsindən qaç.
Mən ki, heç vüsala yetişmədim ah,
Daha açılmasın bu gündən sabah...

Süsən (bənizi saralmış)

Altunşah eyləmə cəfanı cana,
Məni Allah özü salıb divana.
Dərdimə dərmanı eyləmək becə,
Bir azdan həyatım olacaq gecə...

Altunşah (çaşmış halda)

Bəlkə dərman içib hamıdan gizli,
İlahi, bu dünya, cahan min üzlü.
Elədim bir qızı zorla nişanlı,
Adım el ağzında qalacaq qanlı.
Əlimlə məhv etdim, Rəbbim, Süsəni,
Daha cəhənnəm də götürməz məni!
Aman-ah, İlahi, neyləyim indi?
Toyum vaya döndü, bu necə gündü?

Sultan (qəzəbli)

Axmaq qız, qalx, daha bu oyun yetər,
Bitər bu çaşqınlıq, çılğınlıq yetər.

Süsən (son nəfəsdə)

Son vida, son nəfəs bir quru səsdir,
Onsuz da bu dünya mənə qəfəsdir.

Ruhum Ərqayaya qovuşacaqdır,
Bu həsrət, bu hicran sovuşacaqdır.
Ah, əziz qardaşım, daha əlvida,
Gəl, öp alınımdan bu ki, son vida.

(ölür…)

Yeganə bacısının ölümündən dəhşətə gələn Sultan nalə çəkir. Toy yasa çevrilir.

Sultan (sarsılmış)

Ya Rəbb, bu nə sitəm, bu nə fəlakət?
Bugündən qoy gülsün mənə məmləkət.
Məhv etdim bacımı öz əllərimlə,
O rəzil, o çirkin əməllərimlə.
Qoy Tanrı, qoy Allah qəhr etsin məni,
Qaytarmaq çətindir, ey Süsən, səni.
Gəlinlik paltarı, qızıl, pul-para,
Çəkdi ürəyini min yerdən dara.
Bacımın bəxtinə yazıldı qara.

Başını əlləri ilə tutur və Süsənin meydinin üstünə yıxılır.Toyu gizli seyr edən Ərqaya Süsənin onun üçün naməlum olan ölümündən dəhşətə gəlir. O dəli qəhqəhələrlə sevgilisinin meydi üstündə fəryad edir…

Ərqaya (dəhşət içində hönkürür)

Dünya ağlar ölümlərdən, ey Allahım, imdad vaxtı,
Cana gəldim zülümlərdən, zəmanədən min dad vaxtı.
Çəkilibdi qəlb içinə dağ-düyünün hesabı yox,
Bu naqəfil sitəmlərdən ürəklərin heç tabı yox.
Sevgim, hissim, eşqim öldu zalımların sitəmindən,
Uçub könül sarayım da bəd dillərin pis təmindən.
Yandım, külə döndüm, Allah, can bədənin dustağıdır,
Bu cahillik, ilan təki zəhərləyən, qəm tağıdır.
Ey insanlar, gülmün eşqə, ürəklərin sultanı o,

Suçu məndə aramayın, bəxtimin ən xoş anı o.
Bir deyən yox, ey Ərqaya, niyə gəldin bu cahana?
Süsən düşüb torpaqlara, nə qəsd etdi şirin cana…?

(cibində gizlətdiyi bıçağı öz ürəyinə yeridir. Ərqaya alqana bürünür, o qan içində Süsənin meydini qucaqlayır və ölür... Bu mənzərədən dəhşətə gələn camaat kimi meyidlərin üstünə qaçır, kimi isə restoranı tərk etməyə başlayır.)

IV PƏRDƏ. 7-ci şəkil

Süsənlə Ərqaya neçə gündür məzarlıqda uyuyur. Sultan üzütüklü Nazanın evində. Altunşah da onunla bir yerdədir. Sultan son dərəcə kefli…

Sultan

Ah, Nazan, bilirsən, yaslı da olsam,
Tufan buludutək boşalıb dolsam,
Sənինlə təsəlli tapıram, ancaq,
Bu mənzil ömrümə son dayanacaq.

Nazan (siqarı siqara calayır)

Bilsəydin nə qədər sevirəm səni?
Heç kişi ovutmaz dünyada məni.
Səni qısqanıram günə, aya da,
Naləmdən fəqanə gəlir qaya da.

İnci

Yenə də başladı qızda dəlilik,
Min yol söyləmisən bunu bilirik.

Altunşah (kədərli)

Bəlkə doğrudan da sevir Sultanı,
Onun da cismindən çıxacaq canı.
Daha anlamayır sevgi ölümdür,
Ürəklər bu hissdən bölüm-bölümdü.
Ərqayayla Süsən görün ki, necə?
Ölümə tuş oldu özləri becə!

Sultan (həyacanlı)

Sus, dostum, Süsəni gətirmə dilə,
Məhv etdim bacımı mən bilə-bilə.
Demə, pak sevgilər varmış həyatda,
Təmiz ürəklərdə ən dərin qatda.
Onun taleyinə mən qara yaxdım…

Nazan (kefli)

Sultan, mən də sənə bu eşqlə baxdım,
Ya mən, ya arvadın birimizi seç,
Sevginin yolunda balandan da keç.

(bu zaman Sultan qəzəblə sillələrə Nazanın üzünü qərq edir …)

Sultan (nifrətlə bağırır)

Ah, pozğun, ifritə, küçə qadını,
Mənimlə bir yerdə çəkmə adını.
Hərzə danışma gəl eşqidən mənə,
Bunu milyon kərə söylədim sənə!

(Nazan ağlaya-ağlaya mətbəxə qaçır…)

Nazan (mətbəxdən)

Sən öz sözlərinçin cavabı ara,
Sənin ürəyinə vuracam yara.

Sultan (sakit görkəm alaraq)

Bəsdir, axıtma gəl göz yaşlarını,
Şərabda tapmısan sirdaşlarını.
Çoxdan itirmisən namusu, arı,
İçgidə axtarıb tapmısan yarı.
Min Sultan bəs etməz bir gündə sənə,
Fikrin kəf gəlməkdir indi də mənə.
Sevgidən, eşqidən oxudun, bəsdir,
Məni qamarlamaq hiylən əbəsdir.
Şərabtək qədəhə süzüb adını,
Kef üçün çox içdim səntək qadını...

Birdən Nazan əlində bıçaq mətbəxdən gəlir, bir əliylə Sultanı arxadan qucaqlayır, bir əliylə qoltuğu altda gizlətdiyi bıçağı onun boynuna çəkir. Arteryal qan damarına düşən bıçaq yerə düşür.Və qan çılçırağın və oturacaqların üstünə fışqırır. Altunşah Sultanın üstünə yüyürür. Nazan, dəli kimi, dişarıya atılır və qonşudan təcili yardıma zəng edir.

Sultan (qan içində)

Ah, Allah, ah, Tanrı, bu düşgün qadın,
Batırdı bir nəslin, bir soyun adın.
Bacım elə öldü mən isə belə,
Verdim həyatımı, İlahi, yelə.

(Təcili yardım gəlir. Sultanı xeyli qan itirmiş halda xəstəxanaya aparırlar.)

Pərdə örtülür.

8-cı şəkil

Gecədir. Xəstəxana. Çoxlu qan itirmiş Sultan ağır vəziyyətdə cərahi əməliyyat altında. Ərinin sağ qala cağına ümidini itirmiş Aypara dəhliz boyu hönkür-hönkür ağlayıür. Yuxusuzluqdan və dəhşətdən Lamiyənin ay üzü qaralıb.

Lamiyə (ağlar)

Ana, zülümlərdən üzüldü ürək,
Bizə xoş həyatı çox gördü fələk.

Aypara (ümidsiz)

Ay Allah, bircə yol rəhm eylə mənə,
Dərgahında əlim, dərvişəm sənə.
Sultana şəfa qıl qalxsın ayağa,
Qıyma şirin cana, qıyma növrağa.

Şəfqət bacısı (qapını açır və dəhşətlə)

Doktorlar saxlaya bilmədi qanın,
Yaralı xəstəniz tapşırdı canın…

Aypara (içəri yüyürür və ərinin meyidi üstünə sərilir.)

Sultanım, ömrünün taxtı çevrildi,
Yeganə qızımın baxtı çevrildi.
Dost-düşmən içində xəcil olduq, ah,
Mənə də rəhm eylə öldür, ay Allah.
Dağıtdı evimi şərəfsiz qadın,
Ləkəyə batırdı bir soyun adın.
Ay Allah, of, Tanrı, zülmünə bir bax!
Partladı bağırım, ax ürəyim, ax,
Yanır cismi-canım, odlarım sönməz,
Sultanım bir daha ocağa dönməz.

Nazan tutulubdu polisdə yatır,
Əxlaqsız qızının cinisi qatır.
Küçə qadınına verib parasın,
Atdı yetimliyə ciyərparasın.
Mənim fəğanımdan inləsin bəşər,
İnsan – şeytanlıqdı, iblis ürək, şər.
Bir-birinə qənim kəsildikcə biz,
Gecələr yarasa, gündüzlər iblis.
Bir üz görmədim ki, olmasın donsuz,
Tanrı hüzurunda gunahlar sonsuz.
Süsənin göz yaşı boğdu bizi də,
Uddu tənimizi ah dənizi də.
Öldür, qoy mənim də qurtarsın canım,
Sağ qalsam sabahdan başlar divanım.
İzin ver zülümlə ölmüş, Sultanım,
Axar qanlarına qarışsın qanım.
Bu adla yaşamaq, vallah, zülümdü,
Hər rusvayçılığı örtən ölümdü...

Qoynunda gizlətdiyi bıçağı bağrına soxur. Aypara canından artıq sevdiyi Sultanın meyidi üstündə can verir. Həkimlər tökülüşüb gəlir. Onu xilas etmək mümkün olmur.

Lamiyə (dəhşətlə)

Kimə tapşıraraq gedirsən məni?

Aypara (can üstə)

Mən ki, çox sevirdim dünyada səni...
Sultan belə öldü, yaşamaq çətin.
Allah amanatı, mətin ol, mətin.
Bağışla böyüklük etmədik sənə,
Aman, rəhmət dilə, qızım, ölənə...

Ölür. Həkimlər və şəfqət bacıları bu faciədən dəhşətə gəlirlər. Hamı donmuş halda bir-birinə baxır.

Lamiyə (ata və anasının meydi üstündə ağlar)

Altunlar, paralar dağ çəkdi bizə,
Fəlakət gətirdi, ailəmizə…
Rahatlıq tapmadı əlindən cahan,
Dünyanın köksündə dərya olub qan.
Savaş gün vermədi heç bir millətə,
Atdı ölkələri altun zillətə.
Baş kəsən də bizik, baş kəsdirən də,
Göyləri yerlərdən hey küsdürən də.
Halıma yanmasın bir qətrə Allah,
Günahdan doğulduq, ömrümüz günah.
Ehey, ulu Tanrım, çaxsın şimşəklər,
Ağlasın zəhmindən qorxunc ürəklər.
Çirkaba batıbdı insanlıq yenə,
Məhəl qoyulmayır Allaha, dinə.
Onun əzabıdır sinəmiz ağlar,
Odur ki, Rəbbimiz qapılar bağlar.

(Lamiyə meyidlərin üstünə yıxılır…)

Pərdə çökür

Son

23.02.1994

RƏVAYƏTLƏR

QİSMƏT ALLAHDANDI

Belə nəql edirlər kasıb bir kişi,
Kotanla yer sürüb əkməkmiş işi.
Çətin güzəranla keçirərdi gün,
Yoxsulluq köksünün başında düyün.
Bir səhər kotanla yer şumlayarkən,
Sürdüyü tarlanı hey tumlayarkən,
Şum altdan bir dəmir küpə göründü,
Kişi götürməyə onu ərindi.
Ayağıyla vurub atdı kənarə,
Yenə işin gördü hey qanı qarə.
Axşam oldu kasıb döndü evinə,
Danışdı işindən arvad sevinə.
Kişi bardaş qurub süfrə başında,
Dedi: «Ağrısı çox qoca yaşın da.
Torpqda işləmək güc tələb edir,
Mənim də günlərim ömürdən gedir,
Əkdiyim ödəmir üst-başımızı,
Yoxsulluq axıdır göz yaşımızı.
Səhər tezdən yeri şumlayarkən mən,
Az qaldı kotan da çıxsın əlimdən.
Bir dəmir küpəyə ilişdi qaldı,
Güc vurdum qolumdan gücümü aldı.
Ərindim qaldırım baxım bir ona,
Vurub ayağımla atdım o yana.
Qismət Allahdandı, Allah istəsə,
Qoymaz vücudumu aclıqdan əsə.
Bacadan başıma tökər sərvəti...
Var ilə sayılır kişi hörməti.»

Bu vaxt qonşu arvad qapı dalında,
Sanki heç deyildi o öz halında.
Eşidib o dəmir küpə söhbətin,
Qaçdı oğurlasın özgə qismətin.

Gecəylə tarlaya üz tutub getdi,
Elə təngənəfəs küpəyə yetdi.
Açdı ağızını dəmir küpənin,
Üç zəhərli ilan ürpətdi tənin.
Tez ağzın bağladı küpənin qadın,
Batırdı içində qorxu fəryadın.
Arvad hikkə ilə küpəni aldı,
O hiylə pərisin qoynuna saldı.
Dedi: «Qonşununki fitnəsidir bu,
Bacadan ataram lap bəsidi bu.
Arvad da, kişi də qoy ölsün getsin,
Gecəykən onların işləri bitsin.
Duyub yə`qin mənim ayaq səsimi,
O çoxdan bilirdi var həvəsimi.
Tələyə salmaqmış niyyəti onun,
Ölməkdir bu gecə qiyməti onun.»
Dırmaşır kasıbın damına səssiz,
Bacanın önündə arvad çökür diz.
Açaraq küpənin ağzını bir az,
Qorxudan üzünün rəngi bəmbəyaz.
Buraxır bacadan o dəmir qabı,
Gördüyü səhnədən kəsilir tabı.
Küpədə ilanlar qızıla dönür,
Şabaştək yoxsulun başına enir.
Kasıb arvadına tutaraq üzün,
Dedi: «İlahini gördümü gözün?!
Bacadan başıma tökdü sərvəti,
Ey arvad, bil, budur Rəbbin qüvvəti.»
Qonşu tez bacaya başını saldı,
Dedi: «Qızıl mənim nə qeylü-qaldı?»
Kasıb da bacaya tərəf boylandı,
Bayaqkı söhbəti o saat andı.
Dedi: «Sənin varın burda neyləyir?
Bacadan tökülən xətrinə dəyir?
Mənim qismətimə göz dikdiyinçin,
Sənin mətləbini Rəbb etmədi çin.
Başını dürtdüyün yad baca ki, var,
Səndən alar canı havaya sovar.

Şeytan fitvasıyla nəfsinə uyma,
Axırda özünü pis günə qoyma.
Get şükürlər ilə yad et Allahı,
Üzünə xeyirə açsın sabahı.
Qismətin quludur insanın özü,
Odur ki, qismətə dikilib gözü.»

03.03.2002

ÜÇ QİSİMDƏ OLAN İNSAN

Belə söyləyirlər peyğəmbər vaxtı,
Bir kişi dilədi qızına baxtı.
Yolunun üstünə çıxsın yaxşı ər,
Bağrını üzməsin kədər, dərdi-sər.
Gün gəldi qapını kəsdi elçilər,
Yarpaqtək qızıyçın əsdi elçilər.
Bir gündə üç elçi düşdü qızına,
Üçü də çevrildi bəxt ulduzuna.
Üzüyumşaq idi kişinin bir az,
Gələn elçilərə eyləmədi naz.
Üçünə söylədi hə kəlməsini,
Xaliqə qaldırdı yazıq səsini.
Dedi: «Ey Yaradan, göstər qüdrəti,
Puç etmə, İlahi, sən xoş niyyəti.
Mənim bir qızım var onlarsa üçdü,
Üçü də bəs niyə qızımı seçdi?
Sənin rəhmin böyük mənə kömək et,
Çətin məqamdayam imdadıma yet.»
Haqdan səda gəldi, «Eşşəyi, iti,
Qızına yaxın tut addım at qəti.»
Ata balasının tutub əlindən,
Övlad istəy ilə öpdü telindən.
Tez heyvanlar olan yerə gətirdi,
Eşşəyi, iti də ora ötürdü.
Birdən, zənnlə baxdı, qızı üç oldu,
Bayaqkı əndişə, sanki puç oldu.
Kişinin ahını Yaradan gərdi,

Eşşəyi, iti də qıza döndərdi.
Ata İlahiyə şükürlər etdi,
Qızlara toy qurdu mərama yetdi...

Bir gün fikirləşdi kişi kədərlə,
Barışa bilmərəm mən ki, qədərlə.
Öz doğma balama həsrət qalmışam,
Özümü yamanca oda salmışam.
Adam şəkilinə düşmüş heyvanlar,
Mənim qızım kimi növrəstə canlar.
Onları balamdan ayırmaq çətin,
İndi necə bulum Tanrı qismətin?
Öz doğma qızımı görməkçin gərək,
Tərpənim bir qədər hiyləgər, zirək.
Kişi yığışaraq lap qonaq kimi,
Əvvəl bir qızına eyləyir ərki.
Qapını döyərək verir salamı,
Qəlbdə qalmamaqçın heç bala kamı.
Salamın yerinə qız donquldanır,
Kişi o dəqiqə eşşəyi anır.
İkinci gün gedir başqa qız gilə,
Zənn edir, balası üzünə gülə.
Hörmət əvəzinə o itdik görür,
O qızdan dəhşətli bir sərtlik görür...
Kişi barmağını dişləyir fəndlə,
Hiyləsi yamanca işləyir fəndlə.
Üçüncü qız gilə yığışıb gedir,
Qızının əriylə hey xoş-beş edir.
Görür qız hamilə, ağır ayaqlı,
Çox başıaşağı, ərinə bağlı.
Bir xeyli qəlb oxşar kalamdan sonra,
İsti hal-əhvaldan, salamdan sonra.
Dedi: «Yeməmişəm bir neçə zaman,
Yaxşı qarpız düşüb könlümə yaman.
Qoy qızım gətirsin qarpızı mənə,
Ey oğul, əziyyət vermərəm sənə.
Atanın istəyin eşidən qızın,
Xoş duyğu inlətdi könlünün sazın.

Enib nərdivana, çardağa qalxdı,
Ordakı tək böyük qarpıza baxdı.
Alıb qollarına düşürtdü onu,
Yeri əlçimlədi o uzun donu.
Heç nə qorxutmadı hamilə qızı,
Onun gəlişinə könüldən razı.
Gəlib o kişinin önündə durdu,
Ata tez qarpıza əlini vurdu.
«Qızım, başqasını bir gətirsənə,
Zəhmət olmazdırsa, əgər ki, sənə.»
Gəlin baş endirib qalxdı yuxarı,
Üzündə bir dünya həyası, arı.
Həmənki qarpızı bir də götürdü,
Ata hüzuruna özün yetirdi.
Kişi zənnlə baxdı qızına sarı,
Duymadı üzündə böylə ah-zarı.
Duyuq düşdü, qarpız çardağda təkdi,
Qızı imtahana yamanca çəkdi.
Dedi: «Bir başqası olmazmı məgər?»
Nə qızcığaz dindi, nə də cavan ər.
Qız bir də qayıdıb qalxdı çardağa,
Utancaq görkəmdə baxdı sol, sağa.
Həmənki, qarpızı aldı əlinə,
Bir şirinlik qatdı tuti dilinə.
Atanın önünə yetirdi özün,
Örpəklə gizlətdi utancaq üzün.
Kişi riqqət ilə baxdı qızına,
Şükürsana etdi bəxt ulduzuna.
Hey, eyni qarpızı övlad üç kərə,
Hamilə, çardağdan endirdi yerə.
Dedi: «Bu qarpızı mənimçin kəsin,
Suzundan yanıram bir az tələsin.»
Ata iştahayla yedi qarpızı,
Allahdan, taledən, baladan razı.
Dedi: «Çox ucadır insanlıq adı,
Bu mənim öz balam insan övladı.
O qızlar eşşək və bir də it imiş,
Odur ki, dil acı, baş da küt imiş.

Qarışar adəmin nəsili, eyvah.
Bürüyər dünyanı bundan sonra ah.
Görünməz elənən hər səhvin ucu,
Düşər ayaqlara dünyanın tacı...»
Ata düşündü ki, səhvi düzəltsin,
Allaha yenidən dualar etsin.
Kişi əl götürdü o haqq dərgaha,
Dərgahdan bir səda gəlmədi daha...

08.03.2002

QAZİ VƏ ZİNA QADININ HEKAYƏTİ

Ey səhər, etməyək heç bircə günah,
Xeyirlə üzlərə açılsın sabah.
Səvabdan yapışsın bəşər övladı,
Olmasın cahanda körpə fəryadı,
Bütün insanların gözləri gülsün,
Dünyanın üzündən sevinc tökülsün.
İdraklar xeyirli işə can atsın,
Adəm övladını paklıq ucaltsın.
Səvaba çalışsın qoy bütün cahan,
Səvabın içində dövran etsin can.
Çünki heç bir şeydən yaranmadıq biz,
Bütün kainata Allah açıb iz...
Bu gün etdiyimiz hər bir işimiz,
Haqqın qanunuyla pis gərdişimiz,
Sorğuya, suala çəkiləcəkdir,
Əməllər ortaya töküləcəkdir.
Dünyaya gətirən bizi haqq-tələ,
Onun əlindədir həm bəxt, həm bəla.
Bütün kainatı yaradan Allah,
Bəşəri yox edər çəksə bircə ah!
Xeyirdən yapışan haqqa ucalar,
Hər işdə Tanrıdan, Rəbbdən bac alar.

Hər xeyir əməli sanaraq uca,
Rəvayət danışdı mənə bir qoca.
Dedi, Qazi vardı bir məmləkətdə,
Tapdı xeyir işi o, bərəkətdə.
hər cümə axşamı verdi xeyirat,
O günü aclara olsun xoş həyat.
Qazanlar asıldı, süfrə açıldı,
Üzlərdən, gözlərdən şəfəq saçıldı.
Hər cümə axşamı yeyildi ehsan,
Fəqir-füqarəyə verildi xoş an.
Doydu ac qarınlar isindi canlar,
Razılıq eylədi Qaziyə onlar.
Bir cümə axşamı şər qarışan vaxt,
Bir ac yolçu döydü qapını bivaxt.
Xeyirat verilib süfrə yığılıb,
Artıq camaat da təmam dağılıb.
Qazinin əmriylə gəldi qulluqçu,
Yolçuya «gecikdin» dedi, dilucu.
Qapıdan peşiman qayıdan acın,
Kimsə ödəmədi aclıq əlacın.
Yolçu kor-peşiman qayıdıb getdi,
Qazinin bu işi Tanrıya yetdi...

Həmin məmləkətdə bir zina qadın,
Çoxdan batırmışdı öz təmiz adın.
Nəlayiq yollarla pul qazanardı,
Camaat pis adla onu anardı.
O bir gün faytonla keçdiyi zaman,
Yolun kənarında gördü bircə an.
Bir ana üç uşaq dayanıb durub,
O yazıq səfillər boynunu burub.
Əl açıb durublar faytona sarı,
Artıq şər qarışıb günbatan yarı.
Həmin an faytonu qadın saxlatdı,
Özünü faytondan tez yerə atdı.
Oturdub acları yanında qadın,
Tanrı dərgahında ucaltdı adın.
Götürüb evinə gəldi, onları,

Bir az qoy isinsin o ac canları.
Yedirib doydurdu hey səfilləri,
O talesizləri, o tifilləri!
Evində yer verdi aclara gecə,
Sanki mələk oldu o qadın necə.
Ötüşdü zülmətlər, gəldi xoş sabah,
Yoxsul ürəyindən yox olmuşdu ah.
O təzə pal-paltar verdi aclara,
Səadət bəxş etdi naəlaclara.
Düyünçəyə yığdı pulu, zinəti,
Artdı ac qadının min qat heyrəti?!
Dedi ki, mən bəxşiş verirəm sənə,
Ehtiyacın olsa dönərsən yenə.
Yolçular duayla tərk etdi onu,
Hər bir yaxşılığın xeyirdir sonu!...

Elə zaman gəldi bir fateh kimi,
Əzrayıl onların oldu hakimi.
Qazi də, qadın da dünyadan köçdü,
Torpağın üstündə dünya da köçdü!...
Sorğu-sual günü gəlib yetişdi,
Qazi cəhənnəmin içinə düşdü.
O zinalıq edən yetdi cənnətə,
Tanrının əliylə çatdı hörmətə.
Qazi sual etdi: «Günahım nədir?
İlahi bu qədər mənə zülm edir!
Mən ki, ömrüm boyu acların şamı,
Süfrəm açıq olub cümə axşamı.
O ki, zinalıqda çıxardıb adın,
Cənnətə düşməli indi o qadın?»
Gəldi İlahidən bir şahanə səs:
«Yolçunu qovduğun günah deyil bəs?
Sən heçə endirdin etdiklərini,
Boş yerə sərf etdin alın tərini.
O zinalıq edən qadınsa o gün,
Açdı bədbəxtlərin bəxtindən düyün.
O ac yetimlərə verdi varından,
Qopardı onları aclıq darından.

Səvaba yetməyin quyusu dərin...
O özü qazandı cənnətdə yerin!»
Qoca rəvayəti yetirdi sona,
Mən də qulaq asdım heyrətlə ona.
Sonra hekayəti könlümə saldım,
Tanrının hökmüylə qələmə aldım.

20.02.2000

RUZİSİNƏ ASİ OLAN KİŞİNİN RƏVAYƏTİ

Deyirlər bir kənddə çox kasıb kişi,
Odun satmaq idi gündəlik işi,
Gedərdi meşəyə yığardı şələ,
Sonra güclə, zorla atardı belə,
Şəhər bazarına gedib çatardı,
O bir abbasiyə onu satardı.
Ruzinin azlığı kasıba kədər,
Dedi: «Keçirmərəm günümü hədər.
Qoy mən bir şələmi iki eyləyim,
Bəlkə kasıblığın qəddini əyim.»
Bir səhər yollandı yenə meşəyə,
Saldı o özünü lap əndişəyə.
Bu gün iki şələ odunla getdi,
Şəhər bazarına naharda yetdi,
Çalışdı bir az çox qazansın kişi,
Yaxşı gətirmədi onun heç işi.
Lakin iki şələ bir abbas oldu,
Kasıbın ürəyi, könlü oyuldu.
Qayıdıb peşiman o yola düşdü,
Kədərdən, qüssədən, sanki büzüşdü.
Yolda bir qocayla kasıb rastlaşdı,
Hikkədən, əsəbdən qaynadı, daşdı,
Dedi: «Bir şələni eylədim iki,
Boş yerə çulladım belimə yükü.
Qazancımsa oldu yalnız bir abbas.
Qoca, ayaq saxla mənə qulaq as,
Yoxmu heç Tanrının söylə insafı?

Salır əzablara təmizi, safı.
Halal qazancımı artırmır heç vaxt,
Haramı, oğrunu eyləyir xoşbaxt.»
Qoca gülümsünüb köksün ötürdü,
O müdrik sözünü belə bitirdi.
Dedi: «Yetirərəm Rəbb dərgahına,
Bəlkə bir son qoyar sənin ahına.»
Allah elçisiydi qocanın özü,
Keçirdi Tanrının yanında sözü.
Qoca bircə anda tez gözdən itdi,
Rəbbin hüzuruna bir anda yetdi.
Ağzını açmamış pak ilahi səs,
Dedi: «Kasıb bilmir o ruzidir bəs?»
Yolda qarşılaşdı qoca kişiylə,
Bir də maraqlandı onun işiylə.
«Yenə həmən hamam, həmən tas» – dedi
Qoca ona baxıb, qulaq as dedi:
«Sənin ruzin budur - Tanrı söylədi -
Alın yazısında qazanc öylədi.»
Kişi hirislənib dedi: - qocaya -
«Daha bu Allahı salmaram saya.
Ayrı məmləkətə köçüb gedərəm,
Ordakı Allaha dua edərəm.»
Kişi gəldi evə dedi niyyətin,
Sonra yığışdırdı köçün, külfətin.
Ayrı bir diyara üz qoydu getdi,
Yolda bir varlıya o gəlib-yetdi,
Varlı karvanıyla evə gedirdi,
Sözü-söhbətiylə valeh edirdi.
Kasıbın kimliyin soranda varlı,
Gördü ki, ürəyi dərddən qubarlı.
Kasıb öz halını söylədi ona,
Dedi ki, mən daha gəlmişəm cana,
İndi də köçürəm yad məmləkətə,
Bəlkə orda yetdim bir bərəkətə.
Hamilə zənənim, bir də bax özüm,
Qalmayıb səbirim, qalmayıb dözüm.
Varlı ona dedi: «Mənə qulluq et,

Evimdə işləyib məqsədinə yet.
Həm yuvan olacaq, həm də çörəyin,
Dərddən ağrımasın daha ürəyin.
Tacirəm, zənginəm dövlətim çoxdu,
Mənimtək bu yurdda bəxtiyar yoxdu.»
Varlının mülkünə gəldi o kişi,
Daha rəvan getdi onun hər işi.
Tacir mal dalınca gedir bir müddət.
Zənənin ağrısı eyləyir şiddət.
Kasıba bir oğul doğur həmən gün,
Onların bəxtinə olur toy-düyün.
Uşaq doğulanda sınır döşəmə,
Döşəmə altında qızıl sən demə.
Qızıldan bir sıxma gizləyir kasıb,
Sonra da o yeri izləyir kasıb.
Sınmış döşəməni düzəldir bir an,
Sanki uçmayıbmış ora heç zaman.
Ay ötür, il dönür varlı da dönür,
Ayrı həvəs ilə könlü döyünür.
Deyir başqa yerə köçüb gedirəm,
Oranı özümə məkan edirəm.
İstəsən evimi sataram sənə,
Ya pul, ya da qızıl verərsən mənə,
Kasıb fikirləşir onsuz varım yox,
Ev-eşik almağa iqtidarım yox,
Tapdığım qızılı verərəm ona,
Duyuq düşsə əgər, ziyan nə cana?
Qovar, köç-külfəti yığıb gedərəm,
Ayrı bir məkanı yuva edərəm.
Deyir: «Varlı ağa, pul yox qızıl var,
O mənim bəxtimə, taleyimə yar.
Qızıl sənin olsun, ev isə mənim,
Tale gəmisində həyat yelkənim,
Qoy üzsün zamanın dənizlərində,
Bəxt gülsün üzünə kənizlərin də.»
Varlı o kasıbdan qızılı alır,
Kasıb da varlıya bir nəzər salır.
Görür xəbərsizdi varlı yatardan,

Qurtarır könlünü kasıb da dardan.
Varlı evi satır qızılı alır,
Ayrı məmləkətdə yurd-yuva salır.
Qalır o var, sərvət kasıb kişiyə,
Oğlu, arvadıyla evə-eşiyə,
Kasıb sahib çıxır bax o zamandan,
Qurtulur ürəyi ahdan, amandan.
Deyir: «Ey bu yurdun Allahı, şükür,
Başıma fələyin cah-cəlal tökür.
O yurdda kasıblıq hey üzdü məni,
Könlümə yağdırdı çiskini, çəni.
Burdakı Allahın rəhmi böyükdür,
Ordakı Allahın zəhmi böyükdür.»
Düşünür qocanı mən tapım daha,
Çatdırsın sözümü orda Allaha.
Kasıb çox arayır qocanı tapır,
O söz köhlənini şimşəktək çapır.
Deyir: «Sözlərimi yetir sən ona,
Mən onun əlindən gəlmişdim cana.
Burda həm sərvətim, həm hörmətim var,
Pul hər çətinliyin burnunu ovar.»
Tanrı dərgahına tez yetir qoca.
Deyir: «Var yetişib dünənki aca.
Ordakı Allahdan ağzı duada,
Ötüşüb bəxtindən qüssə, dərd, qada.»
Tanrı deyir: «Yetir o kasıba sən,
Onun ruzisini mən yazmışam, mən.
Ruzisin bir abbas vermişəm onun,
Sanmasın o varı gündəlik donun.
Doğulan uşağın ruzi – pul, para,
Onunçun o kişi yetişib vara.
Ananın qarnında olarkən hələ,
Yazdım o uşağın alnına belə.
Yetir o kasıba İlahi birdir,
Talelə, qədərlə Tanrı əlbirdir.
Allahın hökmünü yadına salsın,
Uşağa yazdığım ruziylə qalsın.»
Yetişib kasıbın evinə Qoca,

Dedi: «Bəni-bəşər, Allahdı uca,
Oğluna yazılan ruzidir bu var,
Odur ki, bəxtinə sərvət olub yar.
O tək Yaradana şükürlər eylə,
Onun hüzuruna dualar söylə.
Onun əlindədir ruzinin özü,
Odur ki, doymayır bəşərin gözü.
Sənə kasıblığı o yazıb, kişi,
Sanma bu bir başqa Allahın işi.»
Kasıbın köksündən qopdu qəm ahı,
Sandı şükürlərlə min yol Allahı.
Dedi: «Rəbb, bağışla sən bu bəndəni,
Sənin hüzurunda o səhv edəni.
Oğlu da, varı da sən verdin mənə,
Odur ki, bir qulam, İlahi, sənə!»
Başına, gözünə hey döyə-döyə,
Hər gün əllərini o dikdi göyə.
Kasıb şükürlərlə çatdı məramа,
Kaş hamı yetişə arzuya, kama.
Bəşərin köksündə bitsin xoş niyyət,
Necə ki, xoş yetdi sona rəvayət.

04.05.2000

ANA LEYLƏYİN HEKAYƏSİ

(olmuş əhvalat)

Deyirlər ki, bir kənddə,
Tək çinarlı həyətdə,
Qoca və qarı vardı.
Onlar erkən durardı,
Qarı təndir qalardı,
İsti çörək salardı.
Bir yamyaşıl baharda,
Dopdolu bir naharda,
Qondu çinara leylək,
Könlündə varmış dilək,
Çinarın lap başında,
Budaqların qaşında,
Gözəl bir yuva tikdi,
Yuvaya saman tökdü.
Sonra üç yumurtanın,
Örtdü çör-çöplə yanın.
Qanadın gərib yatdı,
Arzuya, kama çatdı.
Az keçmədi üç bala,
Oldu leyləyə qala.
Ata leylək gələrdi,
Yeməyi tən bölərdi.
Balalarla oynaşar,
Sevincdən aşar, daşar,
Sonra uçub gedərdi,
Onları şad edərdi.
Ana leylək onları,
Bapbalaca canları,
Yedirib, içirərdi,
Qanadın keçirərdi,
Yuvanın dörd yanına,
Od dolardı canına.
Leylək qanad açanda,
Yem dalınca uçanda,

Günəş göydən baxırdı,
Sinəyə od yaxırdı.
Çinar təndirə yaxın,
Yarpaqlar axın-axın,
Təndirə meh səpirdi,
Üz-gözündən öpürdü.
Qarı inəyi sağdı,
Sonra çır-çıpı yığdı,
Təndiri alışdırdı,
Maşayla qarışdırdı.
Ana leylək uzaqdan,
Lap kəndə yaxın dağdan,
Gördü çinarın üstü,
Gah alov, gah da tüstü.
Qanad açdı yel təki,
Dağdan aşan sel təki,
Gəlib özün yetirdi,
Tamam ağlın itirdi,
Təndirə atdı özün,
Yandırdı üzün, gözün.
Qarı lap çaş-baş oldu,
Buludlar təki doldu.
Qışqırıb haray saldı,
Əlin təndirə saldı.
Yanan leyləyi tutdu,
Təndirdən çölə atdı.
Leylək isə nə vaxtdan,
Köçmüşdü bu həyatdan!
Partlamışdı ürəyi,
Puç olmuşdu diləyi.

Leylək elə zənn edib,
Balalar əldən gedib.
Körpələri yanıbdı,
Həyatı dayanıbdı.
Uşaqlar üçün ana,
Ürəyi yana-yana,
Ömrə dedi, əlvida!

Həyatı etdi fəda.
Balalarsa yatmışdı,
Yuxuya bal qatmışdı,
Bir azdan ata leylək,
Qorxu içində, ürkək,
Uçdu gəldi uzaqdan,
Qondu çinara bir an.
Hüzünlə baxdı, baxdı,
Gözlərindən yaş axdı...
Balaları nazladı,
Neçə gün pərvazladı.
Ata leylək onları,
Bu biçarə canları,
Böyüdərək uçurtdu,
Ata haqqını tutdu!
Bu həyətdən qaçırtdı,
Yuvanı sökdü leylək,
Uçdu, sanki bir mələk.
Ananın haqqı təki,
Yoxdur ən ağır çəki.
Ondan qurtulmaq çətin,
Ömrü - bəşəriyyətin!..

12.04.2000

YERLƏ GÖY ƏFSANƏSİ

Çox-çox, min illər qabaq,
Göy gözəl qız, ayqabaq,
Yer döyüşkən, hünərvər,
Ən məğrur, ən igid ər,
Sevdilər bir-birini,
O pak könül sirrini,
İnis-cinis bilməzdi,
Bir kimsə sevilməzdi.
O vaxt nə bir dam vardı,
Nə də bir adam vardı.
Yer göyə aşiq idi,
Göy yerə işıq idi.

Nə savaş, nə qan, qada,
Heç bilmirdi dünya da!
Məhəbbətin şövqünə,
O şahanə eşqinə,
Göy üzünü bəzədi,
Mələklərə bənzədi.
Könlü bir mələr quzu,
Şan-şan düzdü ulduzu.
Göy alışan bağrına,
Qoymadı eşqi sına.
Saçları zülmət gecə,
Yeri ram etdi necə?
İncə belə ay kəmər,
Nurmuş zülmətə qəmər.
Gündüz göyün ağ bəxti,
Göy ilahi xoşbəxti,
Ağ buludlar örpəyi,
Şehli səhər ipəyi.
Külək könül sevdası,
Bə`zən hicrana asi,
Elə güclü əsərdi,
Göy Yerə tələsərdi.
Sinədə elə atəş,
Onun da adı Günəş.
Göy Yeri qızdırardı,
Hicranı azdırardı.
Yer də öz növbəsində,
O ilıq nəfəsində,
Göy qızı ovudardı,
Ayrılığı udardı.
Yer Göyün pak eşqiylə,
O şahanə zövqüylə,
Dörd fəsillə bəzəndi,
Hey daranıb düzəndi.
Dağlar kürəyi oldu,
Sellər ürəyi oldu.
Soyuq, qarlı qış çağı,
Göyün ayrılıq dağı,
Bahar eşqi, vüs`əti,

Göy qızla səadəti,
Yay alışan bağrımış,
Payız acı-ağrımış.
Beləcə məşuq, aşiq,
Verdi dünyaya işıq,
Göyün həsrətli vaxtı,
Ağlardı qara baxtı.
Gözləri buludlardı,
Yanan könlü udlardı,
Bəbəkdəki göz yaşı,
Olardı Göy yağışı.
Sürünüb dizin-dizin,
İsladardı Yer üzün.
Yer ağlayan Göy qızı,
Ürəyi aza-aza...
Dumandan don biçərdi,
Bağırı qan içərdi.
Bə`zən elə olardı,
Göy həsrətli qalardı.
Bu həsrətin atəşi,
Batırardı günəşi,
Gözündən od çıxardı,
Yandırardı, yaxardı.
Bu od qəzəbli şimşək,
Sinəsi təbli şimşək,
Yerə işıq saçardı,
Başı üstə uçardı.
Yer də Göyün sevdasın,
O qəmzəli ədasın,
Duyaraq anlayardı,
Özünü danlayardı.
Sonra Göyün üzündə,
O atəşli gözündə,
Buludlar toqquşardı,
Gurşad aşıb-daşardı.
Yer də Göy kəmalının,
O mələk cəmalının,
Həsrətiylə yanardı,
Ürəyi dayanardı.

Titrərdi Yerin bağrı,
Qopardı acı, ağrı
Göyə büləndolardı,
Saralardı, solardı.
Bu titrəyiş, zəlzələ,
Alardı Göyü ələ,
Göylə Yeri Yaradan,
Verdi onlara pak can.
Aşiq, məşuq ucaltdı,
Göy bağrına nur qatdı,
Yerdə həyat yaratdı.
Rəbb hökmüylə sevənlər,
Qəlbdə dumanlar, çənlər,
Min illərdi beləcə,
Həm gündüz, həm də gecə
Bir-birini haraylar,
Ötdükcə illər, aylar.
Dolub, boşalan dünya,
Yer, Göyə qalan dünya,
Göylə Yerə əsirdi,
Bu eşq uca qəsirdi.
Onların məhəbbəti,
Həm aşikar, xəlbəti,
Dünyamıza bir sirdi,
Eşqilərində birdi.
Sevgi aşıb daşarsa,
Göy Yerə qovuşarsa,
Bəşərin odu sönər,
Dünyanın çərxi dönər.

Ona görə İlahi,
Düşünərək sabahi,
Göylə Yerə səd qoyub,
Arada sərhəd qoyub.
Salıb qəlbləri heydən,
Ayırıb Yeri Göydən.
Bəşər üçün əbədi
Bu eşq həyat mə`bədi!

13-14.04.2001

Müəllifin çapdan çıxmış kitabları:

1. «Ürək niyə ağrıyırsan?», (Şeirlər), Bakı-1991, «Azərnəşr», 56 səhifə, sayı 3000.

2. «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya», (Şeirlər,

poemalar, pyeslər), Bakı-2000, AEK «Marfa press» nəşr., 400 səhifə, sayı 1000.

3. «Kiminə acı dünya, kiminin tacı dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2002, «Nurlan», nəşr., 566 səhifə, sayı 500.

4. «Ağıla bəhər dünya, ürəyə qəhər dünya» (Şeirlər, poema), Bakı -2007, «Nurlan» nəşr., 742 səhifə, sayı 500.

5. «Seçmələr» (1 cild), Bakı-2008, «Nurlan» nəşr., 292 səhifə, sayı 1200.

6. «Məni illərdən soruşun» (Publisist düşüncə), Bakı-2008, «MBM» 95 səhifə, sayı 300.

7. «Dünya mənə tanış gəlir» adı ilə «Ürək niyə ağrıyırsan?» və «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya» kitablarının birlikdə təkrar nəşri, Bakı-2009, «Nurlan» nəşr., 522 səhifə, sayı1000.

8. «Tağayım», poema, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 56, sayı 500.

9. «Ay adamlar, mən burdayam», «Adiloğlu» nəş. Bakı-2012 səhifə 454, sayı 500.

10. «Seçmələr», 2-ci cild, Bakı-2012, «Adiloğlu» nəş., səhifə 326, sayı 1200.

11. «Ötənlərdən gələn səslər», « Qanun» nəş. Bakı 2013, səhifə 632, sayı 500.

12. «Ötənlərdən gələn səslər», 2-ciild, «Qanun nəşrşr.», Baki 2014, səhifə 480, sayı 500.

13. . «Seçmələr», 3-ci cild, Bakı-2015, « Qanun» nəşriyatı. səhifə 438, sayı 1000

Müəllif və əsərləri haqqında çap olunmuş kitablar:

1. «Adı Şadiman olanın», Əli Rza Xələfli, Bakı-2009, «Təknur» nəş., səhifə 256, sayı 1000.
2. «Axtala əfsanəsi», Əli Rza Xələfli, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 144, sayı 500.
3. «Üç rəngli bayrağa bürünmüş şairə» Nəzirməmməd Zöhrablı, Bakı-2010, «Adiloğlu» nəşr., 148 səhifə, sayı 500.
4. «Qırmızı həqiqətlər», Əli Rza Xələfli, Bakı-2011, «Adiloğlu» nəşr., səhifə 130, sayı 500.

MÜNDƏRİCAT

Müəllif haqqında 3
Niyə şairləri yaratdın Allah?..... 5
Qadın duası 6
Xudaya, alışıb yandı ürəyim 8
Əbədi deyilsən..... 9
Qoru, Allahım 12
İllahi, dünyanı qoru..... 13
Qalib ola bilməz..... 14
İki qapı 15
Zirvələrdə olan tanrı 16
Ey xuda 17
Əncam et 18
Şükür sənə, Allahım..... 20
Mən İlahi təşnəsiyəm 21
Məshəb acısından qop, ay müsəlman 22
Hanı dünya 24
Dərdindən ölən kim..... 24
Tamaşa dünya..... 26
Şad etdin kimi dünya? 28
Min bir növdə imiş insanlar demə..... 29
Bu dünya nə sənə, nə mənə qalmaz..... 30
Dağıtmayın, amandır..... 32
Batabatda 33
Atomsuz, nüvəsiz dünya olaydı..... 34
Ölməkdən də ağır yaşamaq imiş..... 34
Nə oldu? 36
Adamın sözünü göyərdərlər 38
Bu dünya mənimdi 39
Olimpiya 40
Mən də varam 42*
Toxunma torpağıma..... 43
Vətəndi..... 46
Bu yurdun eli hanı 47
Ana dilim 48
Neft daşlarında gecə..... 50
Polad körpülər 52

Gözəl vətən 55
Quba mazarlığı 56
Qalıb çadırlarda 58
Urmu gölü ağısı 60
Türkün bayrağı 62
Əsli-soyu tamam danan 64
Heç olmadı bir xoş günümüz 65
Ağrısın tarixə salan Albanya 66
Pulum ey, pulum 68
Balıq baha, daha əti yemirəm 70
Erməni gülləsi batmadı sənə 72
Bənzər 74*
Səni ucalıqdan düşürməyəydilər 75
Kimə nə? 76
Yıxdı könül mülkünü hicran dolu əndişə 77
Mən belə yaşaya bilmirəm, Allah 78
Zəhər var altında yağlı dillərin 80
Məni bu talelə tək buraxmayın 82
Pislik günahdan gəlir 83
Qopdu ürəyimdə payız küləyi 83
Yaxşı adamları gəlin qoruyaq 84
Düzlüyü axtarıram 85
Ey səadət quşu harda qalmısan? 86
Ey mənim ruhuma can olan, fələk 87
Ürəyim ağlayır günümə mənim 88
Kim deyir heç nəyi aparmır insan 89
Dərdimi çəkirəm dərmanə sarı 89
Qapıma düşmürsən möhlət açarı 90
Dərdimi çəkirəm dərmanə sarı 91
Təkliyim mənim 91
Səadətim 92
Bəxtim səni çox gözlədim 94
Qadınlar 95
Kim yetişər sorağıma 96
Möhtacam 97
Həsrətim 98
Dünyaya gəlmek yaman 99
Niyə vaxtsız ağarırsan saçlarım? 100

Səndən ötrü 101
Alov 102
Darıxıram 103
Mənəm mən 104
Payızlarım belə başlar 105
Həyat haqqında nəğmə 106
Həzn laylaların 108
Əlim çatmır 109
Yarpaq kimi illərim 110
Həsrət yağışı 111
Bir ananın hekayəti 112
Niyə gəldim mən? 115
Mən harda gizləyim iztirabımı? 116
Kişilər 116
Dünyanın vəfası paradan keçir 118
Acılar 118
Edilən yaxşılıq qayıtmır geri 119
Keçmişdə qalan günlərim 119
Bu görüş bir vida görüşü idi 120
Bildik bu əbədi gedişdi, ana 120
Ey ruhumun canı anam 122
Ana, haqqını həlal et 122
Atalı-analı günlər əlvida 124
Olar 126*
Kimsə ürəyimə toxunmayaydı 127
Tapmaz aram 128
Nədən sızlayırsan divanə bülbül? 130
Yenə könlüm quşu cövlan eləyir 131
Bəs etməz 132
Könül ahdan çəkər haray 133
Od- atəş sığmayır 134
Yenə ruhum qanadlanır uçmağa 134
Payız axşamı 135
Bu gecə yuxum qaçıb 136
İlhamla addımlar qoşa ürəyim 137
Mən səndən ötrü 138
Ananın ruhundan gəlibdi heca 138
Mən necə yaşayım 140

Gecələrin sükutunu çox sevirəm 141
Heca..... 142
Mənə bir imkan verin 143
Gecənin yarısı..... 144
Dilə gəlir 145
Naləsilə göz açıb 146
Ocağıyla yandıran 147
Sevgi duyğuları 148*
Gözbəbəyim 149
Kaş olmayaydı..... 150
Bu bəlalı başıma 151
Sən oldun..... 153
Hicran ağrısı..... 154
Olmasın 155
Qırma ümidimi 156
O baxışlar..... 157
Sənlə..... 158
Səni..... 158
Məni bağışla 159
Demə..... 160
Gəl 160
Keçilməz 161
Bəs eylər..... 162
Nə deyərsən 162
Sönər 163
Tək sənə qovuşmağa 164
Nə var 164
Gəlmisən mənə 165
Sənsizlədim..... 166
Dəniz yarım..... 166
Uzaq düşəndə..... 167
Qurban özüm..... 168
Vəfası yoxdur 169
Şah olub sazaq..... 170
Gizlicə 170
Gözü bulamasın kədər yaşları..... 171
Hicran nəğməsi..... 171
Mənə əmanət ver..... 172

Könlümün dilin bilib 173
Sənə nə deyim 174
Nalan olan ürəyi 175
Həsrət mənimdi 176
Həyatım var 176
Sən oldun 177
Gəlmə bu yerə 178
Gəl əzizim 179
Gizlətmişəm gözümdə 180
Gözlər 180
Səni unutmaq çətin 181
Tələsirəm 182
Gözlərim də itirdi 182
Könül verdim 183
Sən olmayanda 184
Nə sızlayırsan kəman kimi 185
Sən çıxaydın qarşıma 186
Gəl, qəlbimdəki buzları əritmək üçün 186
Sənin çırağının piltəsiyəm mən 187
Bu dünyaya eşqin dəyər 188
Gəlmədin, gəlmə daha 188
Gözlərimin yuxuları çəkilər 189
Bağda çiçək əkmişəm 190
Qaya dibində yer var 191
Qonşuda bir oğlan var 192
Daha sözüm yoxdur 193
Yaşayıram mən 194
Mənim rahatlıqım 194
Qapı üzə açıqdı 195
Bir vüsalın eşqiylə 196
Həyatımız qaynayırdı 196
Gözləmə məni 197
Toxundum könlümə 198
Gümanım yox, neyliyim? 198
Sevgi atəşi 199
Sən elə bilirdin öləcəm sənsiz 200
Bağçamızda iki lalə bitibdi 201
Sənə diləkçə yazıram 202

Səni sevməmək olarmı? 203
Bir nağıl danış 204
Mən canımdan keçərəm əhd ilə ilqarım üçün 205*
Səni çox sevdiyimi dildə bəyan eyləmişəm 205
Bülbülü satdı gül, eyvah, təzədən xarə yenə 206
Yanıram hər gecə o zülfü pərişan üçün 206
Yarı candan sevən aşiq üzülüb candan olar 207
Bağlayıb eşqə könül əhdə vəfa eyləmişəm 207
Ya İlahi, ürəyim qüssədən al qan oldu 208
Yenə könlüm quşu qan ağladı bülbül sayağı 208
Yenə qan ağlayacaq möhnəti-hicranda könül 209
Yenə könlüm quşu cövlan eləyir yarə tərəf 209
Can edir cana bəla, canuva nə can yaraşır 210
Hər kəsin sevdiyinə eşqidə hicran olsun 210
Ey könül, şövqə gəlib canıma peyman istədün 211
Fələyin mehrinə bax, hər anda min qan eləyir 211
Hər kəsin qismətinə dəhrdə bir can yaraşır 212
Bas qədəmin könlümə ey ruhsari canım mənim 212
Gedərəm hər gecəni yuxuda Allaha tərəf 213
Gülür üzdə vüqarım sevgili dildar eşqinə 214
Nə sən çıxdın qəlb evindən, nə mən
ruhu abad oldum 214
Ağladıb güldürərəm mən səni yar canım üçün 215
Dərdim şığıyıb ah ilə aləmləri gəzdi 216
Gözümü yolda qoyan yari-vəfadar gələsən 216
Məni Leyli eləyən yarıma deyin gəlsin 217
Alıb candan ürəyi aparır ərşə bu dilək 218
Xiffətin yandıracaqdır ürəyi, sən bilirsən 218
Könlüm dildən incik düşüb, ürək bilir, can bilməyir 219
Əsəb düşdüm gəlb içinə ordan
getmək nə müşkülmüş 219
Bir dəm zamanım getməyir hicranına qarşı 220
Duyğularım öcəşir həvəslə dildən ağıza 220
Vəfa qılma bir kimsədən vəfa candan doğmayırsa ... 221
Əgər yoxdur gəlbində sənin Allaha məhəbbət 221
Nə gərək ki, bu gədər çəkəsən əzabı, bəşər 222
Gələ bir başa ağıl, biz də bir hörmətə çataq 222
Gərək insan özünü yaxşılığa sövq eləsin 223

Sözü düzgün, özü mərd ol bu cəsarətdə, oğul 224
Gəlmişəm öz canı verəm eşqlə qurban vətənə 224
Şair olanın ruhuna qanad gərək olsun 225
Xəzərdə fırtınadı 226*
Göyçəkdi bahar 226
Gəl mübarək bahar 228
Bu payız 230
Al günəş aləmi bəzədi yenə 231
Ağaclar sarı-sarı yarpaqların ələyir 231
Quşbaşı qar yağır 232
Bu yerdə 234
Ay payız gecəsi 234
Yaman günə salıbdı 235
Sarı-qırmızı güllər 236
Əcəb bənövşələr açıb telləri 237

POEMALAR
RUHLARIN FƏĞANI 238
BALACA ŞƏHİD FARİZİN HEKAYƏTİ 250

PYESLAR
DAĞILAN YUVALAR 258
KAHADA ÖLÜM HÖKMÜ 289
SEVGİ VARA SATILMAZ 305

RƏVAYƏTLƏR
QİSMET ALLAHDANDI 331
ÜÇ QİSİMDƏ OLAN İNSAN 333
QAZİ VƏ ZİNA QADININ HEKAYƏTİ 336
RUZİSİNƏ ASİ OLAN KİŞİNİN RƏVAYƏTİ 339
ANA LEYLƏYİN HEKAYƏSİ 344
YERLƏ GÖY ƏFSANƏSİ 346

MÜƏLLİFİN ÇAPDAN ÇIXMIŞ KİTABLARI 350
Müəllif və əsərləri haqqında
çap olunmuş kitablar 351
MÜNDƏRİCAT 352

Şirin xanım
Kərimbəyli Şadiman

SEÇMƏLƏR
(şeirlər, poemalar, dramlar)
IV CİLD

Çapa imzalanmışdır: 13.03.2015
Kağız formatı: 70x100 1/32
Həcmi: 11,25 ç.v; Tiraj: 750

Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing